# Nə qədər ki Azərbaycan var, Mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 271 (9438) 12 DEKABR 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Azərbaycan Avrasiyanın enerji xəritəsini yenidən tərtib edir

◆ **Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya işgüzar səfəri**



→ 2-4

### İlham Əliyev:

"Əminəm ki, bugünkü tədbir və açılışdan sonra interkonnektorun fəaliyyəti Serbiyanın sənaye inkişafına böyük töhfə verəcəkdir. Mən bilirəm ki, Prezident Vuçiçin ölkəsinin sənaye potensialının inkişafı ilə bağlı çox genişmiqyaslı planları var. O planların böyük hissəsi həyata keçirilib. Gələcək planların həyata keçirilməsi üçün əlbəttə, enerji resursları lazımdır və şaxələndirilmiş təchizat şəbəkəsi də təbii ki, qurulmalıdır.

Eyni sözləri dostum, Prezident Radev haqqında da deyə bilərəm. Bolqarıstanla da bizi strateji tərəfdaşlıq Sazişi bağlayır. Bu il mən Bolqarıstana və Prezident Radev Azərbaycana səfərlər etmişik. Bu da onu göstərir ki, münasibətlərimiz çox dinamikdir, dostluq və strateji tərəfdaşlıq üzərində qurulub".

### Aleksandar Vuçiç:

"Serbiya-Bolqarıstan Qaz İnterkonnektoru bizim üçün çox vacibdir. Prezident Radevin də qeyd etdiyi kimi, təchizatın şaxələndirilməsi Serbiya və Bolqarıstana daha çox alternativ imkanı verir".

AZƏRTAC xəbər verir ki, bu sözləri Serbiyanın Niş şəhərində Azərbaycanın media nümayəndələrinə müsahibəsində Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç söyləyib.

O, həmçinin qeyd edib: "Bu, həm də Serbiyanın Niş, Dimitrovqrad, Bela Palanka və Pirot kimi mühüm şəhərlərinin enerji təhlükəsizliyini möhkəmləndirəcək. Bizim gələcəkdə 6 və ya 7 LNG terminalından qaz almaq imkanımız da olacaq ki, bu da Serbiyanın ümumi enerji təhlükəsizliyində mühüm rol oynayır".

### Rumen Radev:

"Azərbaycan Mərkəzi və Şərqi Avropada təbii qaz təchizatının şaxələndirilməsində həlledici rol oynayır. Biz bunu yüksək qiymətləndiririk".

AZƏRTAC xəbər verir ki, bu sözləri Serbiyanın Niş şəhərində Azərbaycanın media nümayəndələrinə müsahibəsində Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev söyləyib.

Azərbaycanın COP-29-a evsahibliyinə namizədliyinin Bolqarıstan tərəfindən dəstəklənməsi ilə bağlı sualı da cavablandıran R.Radev qeyd edib: "Bildiyiniz kimi, Rusiya Avropa ölkələrindən hər hansı birinin namizədliyinə qadağa qoyub. Yeganə həll yolu Azərbaycan və ya Ermənistanın ev sahibi olmasıdır. Biz sizin ölkənizin namizədliyinə sevinirik və onu dəstəkləyirik".




## Qüdrətli Azərbaycan və Böyük Zəfər Heydər Əliyev ideyalarının təntənəsidir



**Bu gün müasir müstəqil Azərbaycan dövlətinin qurucusu və banisi Heydər Əliyevin vəfatından 20 il ötür. Bu dahi şəxsiyyətin ölməz ideyaları, xalqımıza miras qoyduğu zəngin irs Azərbaycanın dünənində, bu günündə və gələcəyində əbədiyaşarlıq hüququ qazanmışdır.**

Heydər Əliyev xalqımız və dövlətçiliyimiz qarşısında misilsiz xidmətləri ilə adını Azərbaycan tarixinə parlaq hərflərlə yazdırmış, tariximizin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Heydər Əliyevin adı bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Ümummilli Liderin özünün də dediyi kimi, nə qədər ki Azərbaycan var, Heydər Əliyev də daim var olacaqdır.

Böyük şəxsiyyətlər, liderlər onları fərqləndirən bir çox məziyyətlərə sahib olurlar. Təmsil etdiyi toplumu, cəmiyyəti, xalqı öz ətrafında və kollektiv mənafe uğrunda birləşdirmək, səfərbər etmək liderlərə xas olan ən əhəmiyyətli bacarıqlardan biridir. Ulu Öndər Heydər Əliyev də hər zaman xalqına inanan, xalqın dəstəyindən güc alan, xalqı milli məqsədlər naminə yumruq kimi birləşdirməyi, xalqın, Vətənin taleyini öz taleyinə çevirməyi bacaran böyük lider idi. Dövrün gerçəklikləri, zamanın tələbləri və şərtləri dəyişsə də, Heydər Əliyev üçün məqsəd hər zaman bir olmuşdur: öz xalqının firavan gələcəyini təmin etmək. "Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub" deyən Heydər Əliyev bütün mənalı ömrüboyu qüdrətli Azərbaycan yaratmaq uğrunda çalışmışdır. Harada olmasından, hansı vəzifədə çalışmasından asılı olmayaraq, onun nəbzi Vətənin nəbzi ilə bir vurmuş, istedadını, bilik və bacarığını milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, Azərbaycan xalqının inkişafına sərf etmişdir. Möhtərəm Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

### Ötən əsrin 70-ci illərində yaradılmış potensial və icra edilmiş layihələr bu gün də müstəqil Azərbaycana xidmət göstərir

Sirr deyil ki, 1969-cu ilin iyul plenumu ərəfəsində Azərbaycan keçmiş ittifaq miqyasında ən geridə qalmış aqrar respublikalardan biri idi. Respublika həyatının bütün sahələrində ciddi geriləmə baş vermiş, iqtisadiyyat və sosial sahədə dərin böhran meyilləri yaşanmışdı. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsindən sonra isə vəziyyət köklü surətdə dəyişmiş, artıq 80-ci illərin əvvəllərində Azərbaycan Heydər Əliyevin yüksək idarəçilik bacarığı, yenilməz iradəsi, düşünülmüş və uzaqgörən qərarları sayəsində keçmiş ittifaqda ən qabaqcıl respublikalardan birinə çevrilmişdir.

→ 6

## Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya işgüzar səfəri

# Azərbaycan Avrasiyanın enerji xəritəsini yenidən tərtib edir

## Niş şəhərinin "Konstantin Veliki" hava limanında qarşılanma




**Dekabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçin dəvəti ilə Serbiyaya işgüzar səfərə gedib.**

AZƏRTAC xəbər verir ki, Niş şəhərinin "Konstantin Veliki" Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident İlham Əliyevi Serbiya Baş nazirinin müavini, maliyyə naziri Sinişa Mali və digər rəsmi şəxslər qarşıladılar.

## Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstan Prezidenti Rumen Radev ilə təkbətək görüşü olub



**Dekabrın 10-da Serbiyanın Niş şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə təkbətək görüşü olub.**



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Bolqarıstan arasında dostluq və strateji tərəfdaşlıq əlaqələrinin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə edildi.

Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılışının əhəmiyyətini vurğulayan dövlət başçıları bu münasibətlə bir-birinə təbriklərini çatdırdılar. Söhbət zamanı Solidarity Ring təşəbbüsünün əhəmiyyətinə toxunularaq, bu layihənin Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın genişlənməsi və ölkəmizin Avropanın qaz təchizatının təmin olunması işinə verdiyi töhfə baxımından önəmi bir daha qeyd edildi.

Dövlətimizin başçısı Bolqarıstan Prezidentini Azərbaycana səfərə dəvət etdi. Dəvət minnətdarlıqla qəbul olundu.

## Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimi keçirilib

### Prezident İlham Əliyev mərasimdə iştirak edib









**Dekabrın 10-da Serbiyanın Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev mərasimdə iştirak ediblər.

Əvvəlcə Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun texniki göstəricilərindən və layihənin əhəmiyyətindən bəhs edən videoçarx nümayiş etdirildi.

Mərasim iştirakçılarını salamlayan **Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç dedi:**

- Əziz Prezident Əliyev, hörmətli Prezident Radev, mən bu gün çıxış edə bilməyəcəyəm. Bizim ölkədə qəribə qanunlar qəbul olunub ki, sən öz ölkəndə nə isə etmisənsə, seçkilərdən bir ay öncə artıq bu layihələri təriflәyə və ölkəni daha da inkişaf etdirmək üçün danışa bilməzsən.

Sizə "Xoş gəlmisiniz" deyirəm və Serbiyada olduğunuz üçün sonsuz təşəkkürümü bildirirəm. Mən bizim enerji nazirimizdən xahiş edəcəyəm ki, o çıxış etsin. O, bizim partiyanın üzvü deyil və seçkilərdə, siyahılarda adı yoxdur. Bizim avropalı qonaqlar bugünlük bağışlasınlar. Mən bütün həmin qanunlara hörmət edəcəyəm. Narahat olmayın, həmin qanunlara baxmayaraq, biz qələbə qazanacağıq. Bu, böyük qələbə olacaq və bizim hamımızın birgə qələbəsi olacaq. Buna görə çox sağ olun.

❖ ❖ ❖

Sonra layihə barədə məlumat verən **Serbiyanın mədən və energetika naziri xanım Dubravka Djedoviç Handanoviç dedi:**

- Bu layihə uzun illər bundan əvvəl planlaşdırılırdı. Onun həyata keçirilməsi çox uzun çəkdi və biz cəmi bir ildə işi tamamlamağa müvəffəq olduq. Biz qaz nəqli ilə bağlı Azərbaycandan olan dostlarımızla qısa zamanda razılığa gəldik. Əməkdaşlığa görə Azərbaycana, ilk növbədə, minnətdarlığımı bildirmək istəyirəm.

Mən, eyni zamanda Prezident Əliyevə, Azərbaycandan olan həmkarlarımıza və bizimlə birgə gərgin çalışmış hər kəsə minnətdarlığımı bildirmək istərdim.

Mən qonşularımızla, eləcə də Azərbaycanla daha yaxşı əlaqələrin qurulması istiqamətində göstərdiyi səylərə görə Serbiya Prezidentinə minnətdarlığımı bildirirəm. Azərbaycan sərhəd baxımından bizim qonşumuz olmasa da, sözsüz ki, o, bizim qəlbimizdə xüsusi yeri olan dostumuzdur.

❖ ❖ ❖

Dövlətimizin başçısı mərasimdə çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli cənab Prezident Vuçiç, hörmətli cənab Prezident Radev, hörmətli xanım nazir, xanımlar və cənablar!

İlk növbədə, dəvətə və qonaqpərvərliyə görə dostum Aleksandara təşəkkürümü bildirmək istəyirəm. Yenidən gözəl ölkənizdə olmağımdan çox məmnunam. Bildirməliyəm ki, mən keçən il Serbiyaya rəsmi səfər etmişdim. Ondan bir ay sonra Prezident Vuçiç Azərbaycana səfər etmişdir. Bu gün yenə də sizin gözəl ölkənizdəyəm. Bu, bir daha onu göstərir ki, Serbiya-Azərbaycan əlaqələri sürətlə və dinamik şəkildə inkişaf edir. Biz strateji tərəfdaşıq, çünki strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalanmışdır və sözdə, sənəddə və əməldə bu yüksək statusa sadiqliyimizi göstəririk.

Əfsuslar olsun ki, Prezident Vuçiçə bu gün rəsmi tədbirdə çıxış etmək üçün müəyyən məhdudiyyətlər tətbiq edilib, onun qeyd etdiyi kimi, qəbul edilmiş qanuna görə. Ancaq buna baxmayaraq, bizim söhbət etmək üçün imkanımız olacaq. Sadəcə olaraq, onu bildirmək istəyirəm ki, bizim Aleksandarla şəxsi dostluq münasibətlərimiz böyük dərəcədə Serbiya-Azərbaycan əlaqələrinin inkişafına xidmət etmişdir. O, ölkəsi üçün çox böyük işlər görür. Onun liderliyi ilə Serbiya uğurla inkişaf edir, müstəqil siyasət aparır. O siyasət ki, Serbiya xalqının və dövlətinin maraqlarına cavab verir. Biz də dostları kimi onun uğurlarına həmişə sevinirik və əməli addımlarla, konkret işlərlə ikitərəfli gündəliyimizi genişləndiririk.

Əminəm ki, bugünkü tədbir və açılışdan sonra interkonnektorun fəaliyyəti Serbiyanın sənaye inkişafına böyük töhfə verəcəkdir. Mən bilirəm ki, Prezident Vuçiçin ölkəsinin sənaye potensialının inkişafı ilə bağlı çox genişmiqyaslı planları var. O planların böyük hissəsi həyata keçirilib. Gələcək planların həyata keçirilməsi üçün əlbəttə, enerji resursları lazımdır və şaxələndirilmiş təchizat şəbəkəsi də təbii ki, qurulmalıdır.

Eyni sözləri dostum, Prezident Radev haqqında da deyə bilərəm. Bolqarıstanla da bizi strateji tərəfdaşlıq Sazişi bağlayır. Bu il mən Bolqarıstana və Prezident Radev Azərbaycana səfərlər etmişik. Bu da onu göstərir ki, münasibətlərimiz çox dinamikdir, dostluq və strateji tərəfdaşlıq üzərində qurulub.

Yəni deyə bilərəm ki, bugünkü mərasim dostluq mərasimidir, strateji tərəfdaşlıq mərasimidir. Əlbəttə ki, hər iki prezidenti bugünkü açılış münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu, Serbiya və Bolqarıstanın enerji təhlükəsizliyinə böyük töhfə verə biləcək layihədir. Eyni zamanda Azərbaycan xalqını təbrik etmək istəyirəm. Çünki Azərbaycanın qaz ixracı coğrafiyası daha da genişlənir. Hazırda biz təbii qazımızı səkkiz ölkəyə ixrac edirik, Serbiya doqquzuncu ölkədir. Bu doqquz ölkənin yeddisi Avropa ölkəsidir və təbii ki, bugünkü mərasim - interkonnektorun fəaliyyətə başlaması Avropanın enerji təhlükəsizliyinə də önəmli töhfə verəcəkdir.

Bildirməliyəm ki, keçən il Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq üzrə anlaşma memorandumu imzalanmışdır və bu memorandum icra edilir. Bu memoranduma görə, Azərbaycan 2027-ci ilə qədər Avropaya göndərilən qazın həcmini iki dəfə artırmalıdır. Artıq rəqəmlər onu göstərir ki, biz inamla bu hədəfə doğru gedirik. 2021-ci ildə bizim Avropa məkanına qaz ixracımız 8 milyard kubmetrdən bir qədər çox olmuşdursa, bu il bu, təxminən 12 milyard kubmetrə çatacaq. Bu da Azərbaycanın ümumi qaz ixracının 50 faizini təşkil edir.

Bizim çox genişmiqyaslı başqa planlarımız var. Azərbaycanın bütövlükdə enerji strategiyası uğurla icra edilir. Bizim tərəfimizdən irəli sürülmüş və icra edilmiş layihələr Avropanın və Asiyanın - Avrasiyanın enerji xəritəsini böyük dərəcədə yenidən tərtib etmişdir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa neft kəmərləri bu gün Azərbaycan neftini Aralıq dənizinin və Qara dənizin bazarlarına çatdırır.

*Ardı 3-cü səh.*

## Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya işgüzar səfəri

# Azərbaycan Avrasiyanın enerji xəritəsini yenidən tərtib edir

## Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimi keçirilib

### Prezident İlham Əliyev mərasimdə iştirak edib

*Əvvəli 2-ci səh.*









"Cənub qaz dəhlizi" - uzunluğu 3500 kilometr olan nəhəng infrastruktur layihəsi Avropanın enerji təhlükəsizliyinə çox böyük töhfə verir. Təsadüfi deyil ki, Avropa Komissiyası, onun yüksəkvəzifəli şəxsləri Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa qaz təchizatçısı kimi dəyərləndirirlər. Onu da bildirməliyəm ki, - bu sözləri əminəm ki, dostum Rumen də təsdiq edə bilər, - bizim Bolqarıstana qaz təchizatımız iki il bundan əvvəl başlamışdır. 2021-ci ildə 270 milyon kubmetr qaz təchiz edilmişdir. Keçən il 500 milyon kubmetrdən bir qədər çox. Bu il isə bu rəqəm 1 milyard kubmetrə yaxın olacaqdır.

Azərbaycan, sözün əsl mənasında, etibarlı tərəfdaşdır, dostluq ənənələrinə həmişə sadiqdir və dostluğu yüksək qiymətləndirir. Məhz dostluq, qarşılıqlı anlaşma, strateji tərəfdaşlıq üzərində qurulmuş əlaqələr bir çox ölkələrin maraqlarını təmin edir və qaz sahəsində əməkdaşlıq, eyni zamanda genişmiqyaslı regional əməkdaşlığa da güclü zəmin yaradır. Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi, Avropa məkanı və Azərbaycan, Avropa İttifaqı əlaqələri - bütün bu istiqamətlər müsbət məcrada inkişaf edir və bizim gələcək planlarımız da bu istiqamətlərə xidmət göstərəcəkdir.

Gələcək planlarımız, təbii ki, qaz təchizatının coğrafiyasını daha da genişləndirməkdir və gələcəkdə Avropa məkanında yeni yaradılacaq interkonnektorlar vasitəsilə yeni ölkələrin bazarlarına çıxmaqdır. Bizim əsas hədəfimiz bərpaolunan enerji növləri ilə bağlıdır və 10 qiqavat bərpaolunan enerji növlərinin yaradılması üzrə Azərbaycan tərəfindən investorlarla sazişlər və anlaşma memorandumları imzalanmışdır.

Bir neçə gün bundan əvvəl yenə də biz növbəti dostluq təzahürünün şahidi olmuşuq. Həm Serbiya, həm Bolqarıstan, həm Şərqi Avropa qrupuna daxil olan digər ölkələr Azərbaycanın namizədliyini dəstəkləyərək COP-29 konfransının Azərbaycanda, Bakıda keçirilməsinə izn verdilər, öz dəstəyini göstərdilər. Bu, bir daha həm dostluğumuzun nümunəsidir, eyni zamanda onu göstərir ki, baxmayaraq, Azərbaycanın zəngin neft və qaz resursları var, biz gələcəyimizi təmiz "yaşıl enerji"nin istehsalında və ixracında görürük. Əminəm ki, gün gələcək və buna oxşar mərasim "yaşıl enerji" layihələri ilə bağlı keçiriləcəkdir.

Bir daha əziz dostum Aleksandara dəvətə görə təşəkkürümü bildirmək istəyirəm və hamımıza uğurlar arzulayıram. Sağ olun.

❖ ❖ ❖

Daha sonra Bolqarıstan Prezidenti çıxış etdi.

### Prezident Rumen Radevin çıxışı

- Hörmətli Prezident Vuçiç, möhtərəm Prezident Əliyev, xanımlar və cənablar, nazirlər, zati-aliləri, əziz qonaqlar!

Serbiya, Azərbaycan və Bolqarıstan olaraq ölkələrimizin cari ili yola salarkən daha təhlükəsiz və daha yaxşı gələcək naminə öz davamlı işi və bu işə göstərdiyi diqqət ilə nümunəvi olduğunu bildirmək istəyirəm. Fevralın əvvəlində Prezident Vuçiçin Bolqarıstana səfəri zamanı Bolqarıstan-Serbiya interkonnektorunun yaradılmasına start verilib. Yalnız bir neçə ay sonra biz artıq Bolqarıstan və Serbiya arasında interkonnektorun açılış mərasimini keçiririk.

Aprel ayında Prezident Əliyev Sofiyaya səfərə gəlmiş və Solidarity Ring təşəbbüsünü irəli sürmüşdür.

Mən bu dəvətə görə Prezident Vuçiçə səmimi təşəkkürümü bildirirəm və fevral ayında Bolqarıstandakı açılışdan daha xoş əhvali-ruhiyyə ilə bizi qarşıladığına görə minnətdarlığımızı bildiririk.

Biz bu gün yalnız təbii qaz şəbəkələrini birləşdirmirik. Çünki Bolqarıstan-Serbiya interkonnektoru yalnız infrastruktur layihəsi deyil. O, bizim ölkələrimizin artan texnoloji imkanlarının, həmçinin Serbiya-Bolqarıstan, Bolqarıstan-Serbiya-Azərbaycan arasındakı uğurlu və faydalı əməkdaşlığın rəmzidir. Əməkdaşlıq bizim regionda davamlı, dayanıqlı iqtisadi inkişafa və tərəqqiyə gətirir. O, bizim Avropanın gələcəyi üçün quruculuq işləri görmək istəyimizin bir ifadəsidir. O, Avropa İttifaqının təhlükəsiz və etibarlı enerji mənbələri üçün iddialı baxışdır. Mən qəti əminəm ki, interkonnektor sərhəd regionlarda, həmin boruların keçdiyi yerlərdə investisiya maraqlarının artmasına töhfə verəcək.

Mən Prezident Vuçiçi təbrik etmək istəyirəm. Çünki təvazökar olduğu üçün o, özünü tərifləmir. Lakin həm mən, həm də Prezident Əliyev Serbiyaya hər səfərimiz zamanı burada infrastrukturun mühüm inkişafının şahidi oluruq. Mən burada çəkilən zəhməti, Serbiyanın Avropanın modern inkişafına nümunə olduğunu görürəm və bu, məni çox sevindirir. Bolqarıstanın Prezidenti kimi mən sərhəd regionlarda, bolqar milli azlığının yerləşdiyi ərazilərdə infrastrukturun və yol şəbəkələrinin inkişaf etdirilməsinə olan diqqəti görürəm. Mən, həmçinin daha öncə presedenti olmayan bir hadisədən bəhs etmək istəyirəm. Prezident Vuçiç və mən iki dəfə Mitroqradda milli azlıqlarımızla görüşmüş və problemləri birgə müzakirə etmişik. Biz birgə həyat şəraitini yaxşılaşdırmaq üçün layihələr müəyyənləşdirib imkanları müzakirə etmişik. Serbiyada bütün infrastrukturun yaxşılaşdırılması və modernləşdirilməsi Bolqarıstana da birbaşa təsir edir. Çünki biz Avropaya Serbiya vasitəsilə çıxa bilirik.

Bu gün biz Avropanın enerji xəritəsini dəyişirik. Çünki interkonnektor yalnız bizim ölkələr üçün deyil, bütün region üçün şaxələndirməyə və təhlükəsizliyə zəmanət verir. Təsadüfi deyil ki, bu layihə Avropa Komissiyası tərəfindən qarşılıqlı maraq doğuran layihə kimi dəyərləndirilib.

Ukraynadakı müharibə bizim yaxşı qonşuluq və qarşılıqlı kömək, həmrəylik anlayışlarımızı yenidən gözdən keçirməyə səbəb oldu. Biz logistika və enerji sahələrində yalnız yeni resurslar, yeni yollar, yeni səmərəli həll vasitələri tapmalı deyil, həmçinin daha intensiv, daha güclü beynəlxalq xəritə yaratmalıyıq. Həmin coğrafi mövqeyin əhəmiyyətinin dərk edilməsi, fəal enerji siyasəti təkcə həmin ölkələrə deyil, həm də bütün qonşulara, regiondan da daha uzaq məsafədə yerləşən ölkələrə fayda verəcək.

İcazə verin, prezidentlər Vuçiç və Əliyevə bir daha təşəkkürümü bildirim. Onlar oktyabrın 1-də Yunanıstan və Bolqarıstan arasındakı interkonnektorun açılış mərasimində iştirak etmək üçün Sofiyaya gəlmişdilər. Həmin interkonnektor sayəsində Bolqarıstan nəhayət ki, Azərbaycan qazını qəbul edə bildi. Bizim on il öncə anlaşmamız var idi. O vaxt biz nə Avropadan, nə də ki, Azərbaycandan fiziki qaz qəbul edə bilmirdik. Mən Prezident Əliyevə təşəkkürümü bildirmək istəyirəm. O sübut etdi ki, Bakı bütün anlaşma və razılıqlara ciddi yanaşır. Baxmayaraq ki, on il öncə mühüm dəyişikliklər olmuşdu. Mən avropalı həmkarlarla görüşlərimdə hər dəfə bildirirəm ki, Azərbaycan etibarlı tərəfdaşdır. Mən inanıram ki, biz elə bu cür də çalışmağa davam edəcəyik.

Bu il Bolqarıstan anlaşmanı yekunlaşdırdı və həm LNG terminallarına, həm Yunanıstana, həm də Türkiyəyə çıxış əldə etdi. Bizim, həmçinin onların şəbəkələri vasitəsilə tranzit əməliyyatları keçirmək üçün anlaşmalarımız var. Mart ayında biz Aleksandropolisdəki enerji terminalının açılışını etdik. Bolqarıstan həmin layihədə 20 faiz səhmə sahibdir. Biz aprel ayında strateji əhəmiyyətli, Avropa üçün önəmli olan Solidarity Ring layihəsinin açılışını etdik. Bununla da biz Azərbaycandan Mərkəzi və Şərqi Avropaya qazın ən sürətli və ucuz nəqlinə nail olmaq üçün şəbəkələrimizi birləşdirmə imkanı qazanırıq. Bizim sahibi olduğumuz bu fəal siyasət sayəsində bu gün Serbiyada interkonnektorun açılış mərasimini edirik. Yalnız Serbiya deyil, həmçinin regionun digər ölkələri də Azərbaycandan gələn qaza, həmçinin yeddi terminala, Aralıq dənizindəki LNG terminalına və təbii ki, Solidarity Ring təşəbbüsünə, Bolqarıstandakı Çiren adlı saxlama yerinə çıxış əldə edib. Biz hazırda Bolqarıstandakı infrastrukturu genişləndiririk və bunun sayəsində Qərbi Avropa qaz ehtiyatlarına da çıxış əldə edəcəyik.

Biz bu gün sübut edirik ki, yalnız birgə səylər nəticəsində, ortaq istəyə əsasən iqtisadi inkişaf əldə edə, daha yaxşı, daha təhlükəsiz gələcəyə nail ola bilərik. Digər önəmli məsələ isə odur ki, biz infrastrukturun inkişafı nəticəsində daha böyük nailiyyətlər əldə edəcəyik. Əvvəlcə bildirdiyim kimi, bu səhər Vuçiçlə keçirilən görüşümüzdə birgə anlaşmalar nəticəsində öz ehtiyacımızı ödəmək üçün qaz təminatını yaxşılaşdıracağıq. Biz bununla da ən yaxşı şərait əldə etmiş olacağıq, həmçinin öz vətəndaşlarımıza ən yaxşı qiymətlər təqdim edib, üçüncü dövlətlərə birgə qaz satacağıq. Burada geniş fürsətlər var və biz yaxşı siyasət, yaxşı səylər nəticəsində mühüm nəticələr əldə edəcəyik.

Mən Avropa Komissiyasına maliyyə dəstəyi göstərdiyinə və həmçinin bütün Avropa üçün mühüm olan bu layihəni təşviq etdiyinə görə minnətdaram. Təbii ki, biz bu uğura görə bütün institutlara və tikinti işçilərinə minnətdarıq. Onlar sübut etdilər ki, bu iki ölkə texnoloji bacarığa malikdir və ən yüksək texnologiyalı yeni nəsil boru xəttini inşa edə bilir. Bundan sonra çalışacaq bütün komandalara təşəkkür edirəm, onlara uğurlar arzulayır, hər kəsə faydalı iş diləyirəm. Çox sağ olun.

❖ ❖ ❖

Layihənin əhəmiyyətindən danışan Avropa İttifaqının Serbiyadakı daimi nümayəndəliyinin rəhbəri Emmanuel Jofre enerji təhlükəsizliyinin və enerji dayanıqlılığının gücləndirilməsində mühüm bir mərhələnin qeyd olunduğunu vurğulayaraq dedi:

- Avropa İttifaqı bu layihəyə demək olar ki, 50 milyon avroluq qrant, Avropa İnvestisiya Bankı isə 25 milyon avro məbləğində imtiyazlı kredit ayırıb. Bundan əlavə, biz Bolqarıstan ərazisində interkonnektorun tikintisinə 20 milyon avro ayırmışıq. Bu mühüm mərhələ Serbiya vətəndaşlarının həyat şəraitini yaxşılaşdırmaq məqsədilə Avropa İttifaqının enerji sektorunda bu ölkəyə verdiyi ümumi dəstəyin bir hissəsidir.

Biz Bolqarıstanı Serbiya ilə, Serbiyanı Avropa İttifaqı ilə birləşdiririk. Bu baxımdan bu infrastruktur Serbiya və Avropa İttifaqı üçün strateji əhəmiyyət kəsb edir. Biz həm də ümumi enerji balansında qazın payının artırılmasının mümkünlüyünü qeyd edirik ki, bu da Avropa İttifaqının "yaşıl sazişi"nə uyğun olaraq iqtisadiyyatımızın karbonsuzlaşdırılması istiqamətində bir addım olaraq, kömür kimi daha çox çirkləndirən enerji mənbələrindən təbii qaz kimi daha az çirkləndirən enerji mənbələrinə keçidə şərait yaradır.

❖ ❖ ❖

Sonda prezidentlər İlham Əliyev, Aleksandar Vuçiç, Rumen Radev və Aİ-nin daimi nümayəndəliyinin rəhbəri Emmanuel Jofre Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunu işə saldılar.

**Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya işgüzar səfəri**

# Azərbaycan Avrasiyanın enerji xəritəsini yenidən tərtib edir

## Azərbaycan Prezidenti İlham Əliyevin Serbiya Prezidenti Aleksandar Vuçiçlə təkbətək və geniş tərkibdə görüşləri olub





**Dekabrın 10-da Serbiyanın Niş şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə təkbətək görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Serbiya arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyi bildirildi, əməkdaşlığımızın bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılışının əhəmiyyəti qeyd edilərək, Azərbaycanın Avropanın qaz təchizatına verdiyi töhfə xüsusi vurğulandı.

Dövlətimizin başçısı Serbiya Prezidentini Azərbaycana səfərə dəvət etdi. Dəvət minnətdarlıqla qəbul olundu.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

❖ ❖ ❖

Sonra Prezident İlham Əliyevin və Prezident Aleksandar Vuçiçin birgə nahar əsnasında geniş tərkibdə görüşü keçirilib.



## Prezidentlər İlham Əliyev və Aleksandar Vuçiç hərbi texnika və avadanlıqlara baxıblar

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç dekabrın 10-da hərbi texnika və avadanlıqlara baxıblar.







## Səfər başa çatıb

**Dekabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasına işgüzar səfəri başa çatıb.**

AZƏRTAC xəbər verir ki, Niş şəhərinin "Konstantin Veliki" Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Serbiya Prezidenti Aleksandar Vuçiç yola saldı.



## Bakı şəhərinin Qaradağ rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərinin Qaradağ rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 400,0 (dörd yüz) min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLIYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 dekabr 2023-cü il*

## Yardımlı rayonunun Masallı-Yardımlı (44 km)-Sırıq-Əfçədulan-Horavar-Əngövül-Zəngələ-Vərov-Keçələkəran avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Beş min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Masallı-Yardımlı (44 km)-Sırıq-Əfçədulan-Horavar-Əngövül-Zəngələ-Vərov-Keçələkəran avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,7 milyon (bir milyon yeddi yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 dekabr 2023-cü il*

# Ölkələrimizin həyata keçirdiyi birgə layihələr Avrasiya məkanında önəmli amildir

## Prezident İlham Əliyev Gürcüstan parlamenti sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Gürcüstan parlamentinin sədri Şalva Papuaşvilinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı.

Dövlətimizin başçısı Gürcüstanın Baş naziri ilə mütəmadi görüşlərinin, o cümlədən Azərbaycan Prezidentinin dəvəti ilə İrakli Qaribaşvilinin fəxri qonaq qismində SPECA-nın Bakıda keçirilmiş Zirvə görüşündə iştirakı zamanı onunla görüşünün əlaqələrimizin möhkəmlənməsi işində rolunu qeyd etdi.

Prezident İlham Əliyev ölkələrimizin həyata keçirdiyi birgə layihələrin önəminə toxunaraq, bunu geniş regionda - Avrasiya məkanında önəmli amil kimi dəyərləndirdi və birgə təşəbbüslərimizin bundan sonra da uğurla həyata keçiriləcəyinə əminliyini bildirdi. Dövlət başçısı parlamentlərarası əməkdaşlığın da münasibətlərimizin inkişafına mühüm töhfə verdiyini vurğuladı, bunun əməkdaşlığımızın daha da möhkəmlənməsi üçün zəruri hüquqi baza yaratdığını dedi.

Prezident İlham Əliyev Şalva Papuaşvilinin Azərbaycana səfərinin əlaqələrimizin uğurlu inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Gürcüstan parlamentinin sədri bu ilin mayında Azərbaycan Respublikası Milli Məclisinin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş xüsusi iclasında iştirakı ilə bağlı ölkəmizə səfərini məmnunluqla xatırladı. Şalva Papuaşvili Ulu Öndərin çox çətin bir dövrdə Azərbaycana müdrik rəhbərliyini qeyd edərək, Ümummilli Lider Heydər Əliyevin və Gürcüstanın sabiq Prezidenti Eduard Şevardnadzenin münasibətlərimizin əsasının qoyulmasında müstəsna rol oynadıqlarını dedi.

Qonaq ölkələrimizin həyata keçirdiyi layihələrin önəmini qeyd etdi, bu layihələrin xalqlarımızın rifahına və bölgədə sülhə xidmət etdiyini vurğuladı. O, ikitərəfli dostluq münasibətlərimizin uğurla inkişaf etdiyini deyərək, bu işdə müxtəlif səviyyələrdə həyata keçirilən qarşılıqlı səfərlərin roluna toxundu.

Görüşdə energetika, nəqliyyat, mədəniyyət sahələrində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Baş nazir Əli Əsədov Gürcüstan parlamentinin sədri ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 11-də ölkəmizdə rəsmi səfərdə olan Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Ş.Papuaşvilinin səfərinin Azərbaycan-Gürcüstan mehriban qonşuluq və strateji tərəfdaşlıq münasibətlərinin inkişafına töhfə verəcəyinə əminlik ifadə olunub.

Prezident İlham Əliyevin və Baş nazir İrakli Qaribaşvilinin səyləri nəticəsində bu gün qarşılıqlı etimad və dəstəyə əsaslanan münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb.

Azərbaycan ilə Gürcüstan arasında siyasi dialoqun yüksək səviyyəsindən məmnunluq ifadə edilib, hakim partiyalar arasında çox yaxşı münasibətlərin olduğu bildirilib.

Hər iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində, xüsusən də ərazi bütövlüyü və suverenlik məsələlərində hər zaman bir-birini dəstəklədiyi qeyd edilib.

Parlamentlərarası əməkdaşlığın dövlətlərarası münasibətlərin inkişafında xüsusi rolu təqdir olunub. Hazırda parlamentlərarası əlaqələrin çox yüksək səviyyədə olduğu vurğulanıb. Qeyd edilib ki, hər iki ölkənin parlament nümayəndələri beynəlxalq parlament təşkilatlarında da sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərirlər.

Ticari-iqtisadi əməkdaşlığın ənənəvi olaraq yaxşı dinamika nümayiş etdirdiyi bildirilərək, Gürcüstanın Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olduğu diqqətə çatdırılıb.

Qeyd edilib ki, Azərbaycan Gürcüstanın ən böyük xarici investorlarından biridir. Bu baxımdan SOCAR-ın Gürcüstanda uğurlu fəaliyyətinə toxunulub.

Tərəflər mövcud geniş potensialdan tam şəkildə istifadə edilərək Azərbaycan-Gürcüstan ticari-iqtisadi əlaqələrinin daha da genişləndirilməsinin vacibliyini vurğulayıblar. Bu baxımdan Hökumətlərarası Komissiyanın səmərəli platforma kimi rolu yüksək qiymətləndirilib.

Azərbaycanın və Gürcüstanın birgə həyata keçirdikləri enerji və nəqliyyat layihələrinin Cənubi Qafqazın transformasiyasına töhfə verdiyi, regionun siyasi, iqtisadi, nəqliyyat və enerji xəritəsini dəyişdiyi məmnunluqla qeyd olunub.

Bildirilib ki, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri bu gün həm Azərbaycanın, həm də Gürcüstanın iqtisadi inkişafına əhəmiyyətli töhfə verir. Cənub Qaz Dəhlizi Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində strateji əhəmiyyətə malikdir.

Vurğulanıb ki, eyni zamanda gündəlikdə hər iki ölkənin iştirakı ilə yeni layihələr və təşəbbüslər də var. Onlardan biri Gürcüstan və Qara dəniz vasitəsilə Azərbaycanın "yaşıl enerji"sinin Rumıniyaya tədarükünü nəzərdə tutan sualtı kabelin çəkilməsi layihəsidir.

Qeyd edilib ki, nəqliyyat-tranzit sahəsində əməkdaşlığın çox gözəl nəticələri var.

Bakı-Tbilisi-Qars dəmir yolunun önəmi xüsusi vurğulanıb, həmçinin Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun - Orta dəhlizin getdikcə daha da aktuallaşdığı bildirilib.

Hazırda Orta dəhlizin funksionallığının, onun rəqabət qabiliyyətinin artırılması istiqamətində aparılan işlərdən bəhs edilib.

İki ölkə arasında humanitar, xüsusilə mədəni sahədə əməkdaşlığın yüksək inkişaf dinamikası təqdir olunub.

Oktyabrda Gürcüstan paytaxtında təməli qoyulan Heydər Əliyev adına Tbilisi Dövlət Azərbaycan Dram Teatrının Azərbaycan-Gürcüstan mehriban qonşuluq və qardaşlıq münasibətlərinin möhkəmlənməsinə, xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına töhfə verəcəyinə əminlik ifadə edilib.

Eyni zamanda Azərbaycanda yaşayan gürcülərin və Gürcüstanda yaşayan azərbaycanlıların ikitərəfli əlaqələrin inkişafındakı rolu xüsusi vurğulanıb.

Görüşdə, həmçinin iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanları və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

# Azərbaycanla Gürcüstan dost və tərəfdaş ölkələrdir



Milli Məclisin Sədri Sahibə Qafarova dekabrın 11-də ölkəmizdə səfərdə olan Gürcüstan parlamentinin sədri Şalva Papuaşvilinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Gürcüstan parlamentinin sədrini və nümayəndə heyətinin üzvlərini salamlayan Sahibə Qafarova ötən ilin aprel ayında Gürcüstana rəsmi səfərini, cari ilin may ayında isə qonağın ölkəmizə səfəri çərçivəsində Milli Məclisin Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirakını məmnunluqla xatırlayıb. Milli Məclisin Sədri qonşu, dost və tərəfdaş ölkələr olan Azərbaycan və Gürcüstan arasında münasibətlərin əsrlərboyu dostluq və mehriban qonşuluq münasibətində yaşamış xalqlarımızın iradəsindən qaynaqlandığını diqqətə çatdırıb.

Spiker bildirib ki, ötən illər ərzində bu əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Münasibətlərimizin inkişafında ali və yüksəksəviyyəli səfərlər mühüm rol oynayır. Ölkə liderlərinin qarşılıqlı səfərlərinin dinamikası onların bu əlaqələrə necə böyük əhəmiyyət verdiklərini göstərir.

Söhbət zamanı Azərbaycan və Gürcüstanın beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyəti, o cümlədən ərazi bütövlüyü və suverenlik məsələlərində daim bir-birini dəstəkləməsi, həmrəylik nümayiş etdirməsi məmnunluqla qeyd olunub.

İki ölkənin parlamentlərarası münasibətlərindən danışan spiker Sahibə Qafarova qeyd edib ki, qanunvericilik orqanlarımız arasında çox səmərəli əməkdaşlıq mövcuddur. Hər iki ölkənin parlamentində dostluq qrupları uğurla fəaliyyət göstərir və nümayəndə heyətlərimiz beynəlxalq parlament təşkilatlarında bir-birinə dəstək verirlər.

Görüşdə ali qanunvericilik orqanlarının komitələri arasında münasibətlərin inkişafı və parlamentlərimizin Mədəniyyət komitələri arasında imzalanmış əməkdaşlıq haqqında memorandumun əhəmiyyəti qeyd olunub. Digər tərəfdən, komitələr arasında əməkdaşlığın gələcəkdə başqa sahələr üzrə də genişləndirilməsi ilə bağlı razılıq nümayiş etdirilib.

Söhbət zamanı parlamentlər arasında ikitərəfli əməkdaşlıqla yanaşı, Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin Xarici əlaqələr komitələrinin uğurlu üçtərəfli əməkdaşlıq formatı da qeyd edilib.

Görüşdə Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi qələbə ilə öz ərazi bütövlüyünü bərpa etməsindən sonra regionda yaranmış vəziyyət barədə danışan spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, bu gün artıq Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına heç bir maneə yoxdur. Azərbaycan sülhə hazırdır və inanırıq ki, tezliklə sülh müqaviləsi imzalanacaq.

2024-cü il fevralın 7-də Azərbaycanda keçiriləcək prezident seçkilərindən danışan spiker Sahibə Qafarova bildirib ki, bu seçkiləri əvvəlkilərdən fərqləndirən əsas cəhət ondan ibarətdir ki, bu dəfə seçkilər Azərbaycanın bütün suveren ərazisində keçiriləcək.

Azərbaycana səfərə dəvətə görə təşəkkürünü bildirən Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili səfər çərçivəsində Prezident İlham Əliyevlə keçirdiyi görüş barədə təəssüratlarını bölüşüb. O, Gürcüstanla Azərbaycan arasında tarixi köklərə əsaslanan və bu gün strateji tərəfdaşlıq səviyyəsində olan əlaqələrin əhəmiyyətini vurğulayıb.

Qonaq bildirib ki, ölkələrimiz arasında münasibətlərin inkişafı onların təhlükəsizliyini, regionda sabitliyi təmin etməklə yanaşı, həm də xalqlarımızın rifahına müsbət təsir edir. İki ölkə arasında Heydər Əliyevin əsasını qoyduğu və bu gün uğurla həyata keçirilən layihələr öz bəhrəsini verməkdədir və onların sırasına yeni layihələr əlavə olunur.

Gürcüstan parlamentinin sədri 2024-cü ilin fevralında Azərbaycanda keçiriləcək prezident seçkilərini tarixi seçkilər adlandırıb, bu seçkilərin onun ölkəsi üçün də böyük əhəmiyyət daşıdığını qeyd edib və Azərbaycana uğurlar arzulayıb. O bildirib ki, Gürcüstan tezliklə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının tərəfdarıdır.

Şalva Papuaşvili parlamentlərimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi, komitələr arasındakı işbirliyinin artırılması, dostluq qruplarının fəaliyyətinin gücləndirilməsinin zəruriliyi barədə danışıb, əməkdaşlığın perspektivləri haqqında fikirlərini bölüşüb.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Qüdrətli Azərbaycan və Böyük Zəfər Heydər Əliyev ideyalarının təntənəsidir

*Əvvəli 1-ci səh.*

Respublikada həyatın bütün sahələrində müsbət dəyişikliklər, iqtisadiyyatda əsaslı artım dinamikası baş vermiş, insanların maddi rifah halı yaxşılaşmışdır. Respublikanın ictimai-siyasi və mədəni həyatına mənfi təsir göstərən meyillər aradan qaldırılmış, ənənəvi təsərrüfat sahələrinin səmərəli fəaliyyətinin bərpası ilə yanaşı, yeni istehsal sahələri yaradılmışdır. Məhz o illərdə formalaşmış çox möhkəm sənaye potensialı və icra edilmiş infrastruktur layihələri bu gün də müstəqil Azərbaycana xidmət göstərir.

Milli mənafenin, xalqın maraqlarının zaman və məkan fərq etmədən və nəyin bahasına olursa-olsun, dönmədən müdafiəsi Heydər Əliyevin xarakterində təcəssüm tapan üstün xüsusiyyətlərdən olmuşdur. Biz bunu Ulu Öndərin ötən əsrin 70-ci illərində milli ruhun oyanması istiqamətində atdığı qətiyyətli addımlarda çox aydın görürük. Həmin dövrdə respublikanın sosial-iqtisadi həyatında sürətli tərəqqinin baş verməsi ilə yanaşı, elm, təhsil və mədəniyyətin inkişafı, zamanın mürəkkəb konyukturasına və şərtlərinə baxmayaraq, xalqın tarixi yaddaşının özünə qaytarılması istiqamətində görülən tədbirlər azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başlamasına, milli birliyimizin ideya əsasını təşkil edən azərbaycançılıq məfkurəsinin zənginləşməsinə şərait yaratmışdır. Həmin dövrdə Heydər Əliyevin təşəbbüsü ilə Bakıda və Moskvada Azərbaycanın tanınmış ədəbiyyat, incəsənət və elm xadimlərinin yubileyləri keçirilmiş, onların fəaliyyəti yüksək dövlət mükafatları və fəxri adlarla qiymətləndirilmiş, abidələri ucaldılmış, minlərlə azərbaycanlı gənc SSRİ-nin qabaqcıl ali təhsil müəssisələrinə göndərilmiş, azərbaycanlı hərbçi kadrların yetişdirilməsinə, respublikada hərbi təhsilin inkişafına xüsusi diqqət yetirilmişdir. Ulu Öndərin qətiyyəti nəticəsində Azərbaycan dilinin respublikanın dövlət dili olması ilə bağlı müddəa 1978-ci il Konstitusiyasına daxil edilmişdir. Həmin dövrdə yaradılmış milli ideoloji əsas sonrakı illərdə xalqımızın müstəqillik mübarizəsinin zəfər çalmasında baza rolunu oynamışdır. Ona görə də, biz həmin dövrdən bəhs edərkən, onu respublikanın inkişaf tarixində dönüş mərhələlərindən biri kimi xarakterizə edirik.

## Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik, bütün varlığı ilə xalqını sevən qətiyyətli lider

Əlbəttə, Heydər Əliyevin yüksək şəxsi keyfiyyətləri və Azərbaycanda onun rəhbərliyi ilə əldə edilmiş uğurlu nəticələr onun keçmiş ittifaq miqyasında da nüfuzunun getdikcə artmasını və ittifaq rəhbərliyinə qədər yüksəlməsini şərtləndirmişdir. Heydər Əliyev 1976-cı ilin mart ayında Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş, eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə təyin edilmişdir. Bu vəzifədə çalışarkən keçmiş ittifaq miqyasında ən böyük layihələrə, strateji əhəmiyyətli tədbirlərə məhz Heydər Əliyev rəhbərlik etmiş, üzərinə götürdüyü vəzifələri layiqincə yerinə yetirmişdir. Bu vəzifədə də onun Azərbaycanın inkişafı ilə bağlı verdiyi tapşırıqlar, qəbul etdiyi qərarlar ölkəmizin inkişafına xidmət etmişdir. Heydər Əliyev respublikamızdakı prosesləri daim diqqət mərkəzində saxlamışdır.

1987-ci ilin oktyabrında Heydər Əliyev Sov. İKP MK-nın Siyasi Bürosunun və şəxsən baş katib M.S.Qorbaçovun yürütdüyü yanlış xəttə, onun anti-Azərbaycan siyasətinə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa vermişdir. Bu istefadan sonra xalqımız üçün bir çox problemlər, çətinliklər başlamış, respublikamıza qarşı o vaxta qədər Heydər Əliyev amilinin qarşısına sədd çəkdiyi təxribat planları, məkrli iddialar baş qaldırmışdır. Azərbaycanın ərazi bütövlüyünə qarşı təhdidlər, separatçı meyillər geniş vüsət almış, 1990-cı ilin 20 yanvar tarixində isə Azərbaycan xalqına qarşı qanlı qırğınlar törədilmişdir.

20 Yanvar hadisələrinə ilk etiraz səsini ucaldan, informasiya blokadasını yararaq, baş verən hadisələri beynəlxalq ictimaiyyətə çatdıran məhz Heydər Əliyev olmuşdur. Həmin vaxt özünün və ailə üzvlərinin həyatlarına təhdidlərə, təzyiqlərə baxmayaraq, Ulu Öndər hadisənin ertəsi günü - yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək, xalqımıza qarşı törədilən cinayəti pisləmiş, onun törədilməsi səbəblərini, təşkilatçılarının, günahkarlarının adlarını açıq mətnlə bəyan etmiş və Azərbaycan xalqı ilə həmrəyliyini ifadə etmişdir. Bununla da Ümummilli Lider tərəfindən bütün dünya ictimaiyyəti bu böyük faciə haqqında tam detalları ilə məlumatlandırılmışdır. Heydər Əliyev qanlı cinayətə etiraz olaraq, daha bir cəsarətli addım ataraq, kommunist partiyasının sıralarını tərk etmişdir. Dövrün şərtlərini nəzərə alanda əmin olursan ki, bu qərarı yalnız Heydər Əliyev kimi böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan, bütün varlığı ilə xalqını sevən qətiyyətli bir lider qəbul edə bilərdi.



## Heydər Əliyevin muxtar respublikaya rəhbərliyi Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış qərarların qəbulu ilə yadda qaldı

Bu hadisələrin ardından Ulu Öndər 1990-cı il iyulun 20-də Bakıya döndü. Lakin respublikanın o vaxtkı rəhbərliyi onun Bakıda yaşamasına imkan verməmiş və iyulun 22-də Heydər Əliyev doğulduğu Naxçıvan Muxtar Respublikasına getmişdir. Möhtərəm Prezident İlham Əliyev bu barədə danışarkən, Ümummilli Liderin muxtar respublikaya üz tutmasını tarixin hökmü adlandırmışdır. Çünki sirr deyil ki, Naxçıvan o vaxt çox ağır vəziyyətlə üzləşmişdi. Muxtar respublikanın işğal edilməsi erməni separatçılarının və onların havadarlarının Azərbaycana qarşı məkrli planlarına daxil idi. Ulu Öndər Heydər Əliyev isə Naxçıvana qarşı təxribat planlarını alt-üst edərək, muxtar respublikanı qorumağa nail olmuş və növbəti dəfə xilaskarlıq missiyasını yerinə yetirmişdir.

Ulu Öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərliyi Azərbaycan tarixində müstəsna əhəmiyyətə malik, Azərbaycanın tarixində qızıl hərflərlə yazılmış bir sıra qərarların qəbul olunması ilə yadda qalmışdır. Məhz bu dövrdə Heydər Əliyevin təşəbbüsü və sədrliyi ilə Naxçıvan Ali Məclisinin - ovaxtkı Ali Sovetin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Dövlət bayrağı elan edilmiş, eyni qərarın Azərbaycan Ali Soveti tərəfindən də qəbul olunması üçün vəsatət qaldırılmışdır. Heydər Əliyevin təşəbbüsü ilə muxtar respublikanın Ali Məclisinin adından "sovet" və "sosialist" sözlərinin çıxarılması haqqında qərar qəbul edilmişdir. 31 dekabr tarixinin Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi təsis olunması haqqında da qərar qəbul olunmuşdur. Həmin dövrdə SSRİ-nin saxlanması məqsədilə respublikada keçirilən referendum Ulu Öndərin rəhbərliyi ilə Naxçıvanda boykot edilmiş, 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verilmişdir. Azərbaycan Ali Sovetinin 1991-ci il sentyabrın 8-nə təyin etdiyi prezident seçkilərinin muxtar respublikanın ərazisində keçirilməsi dayandırılmışdır.

Bu dövrdə muxtar respublikada dövlət quruculuğu, hakimiyyət və idarəetmənin təkmilləşdirilməsi sahəsində mühüm işlər görülmüş, siyasi böhran aradan qaldırılmış, iqtisadi islahatlar həyata keçirilmişdir. Hərbi quruculuq məsələlərinə xüsusi diqqət yetirilmiş, keçmiş sovet ordusunun bu ərazidəki bütün silahları və texnikası alınıb Milli Ordu hissələrinə verilmişdir. 1992-ci il noyabrın 21-də isə Azərbaycanın müasir siyasi sisteminin formalaşması üçün tarixi hadisə baş vermişdir. Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılması ölkəmizin siyasi həyatında çox mühüm bir hadisəyə çevrilmiş, YAP yeni demokratik ənənələrin formalaşmasında öncüllük etmişdir.

## Onun taleyinə xilaskarlıq missiyası yazılmışdır

Tarix öz xalqına, dövlətinə uğurla rəhbərlik etmiş bir çox böyük şəxsiyyətlərin fəaliyyətinə şahidlik etmişdir. Amma xalqının xilaskarı olmuş çox az sayda şəxsiyyətlər, liderlər vardır ki, Heydər Əliyev bu sırada öndə dayanır. Xalqımız zamanın sınaqları ilə üz-üzə dayananda, Azərbaycan dövlətçiliyi təhlükə qarşısında qalanda onu xilas etmək missiyasını həyata keçirmək məhz Ulu Öndər Heydər Əliyevin taleyinə yazılmışdır.

Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən sonra ilkin dövrlərdə baş verən hadisələr bu gün çoxlarımızın yadındadır. Ölkədə cərəyan edən gərgin ictimai-siyasi hadisələr həyatın bütün sahələrində dərin böhran yaratmış, respublikada siyasi və hərbi vəziyyət daha da gərginləşmişdir. Hərbi hissələrdə nizam - intizamın zəifləməsi, orduda vahid komandanlığın və təşkilatçılığın olmaması Ermənistanın işğalçılıq siyasətinin və ərazilərimizin işğalının daha da genişlənməsinə gətirib çıxarmışdı. Respublikanın bir çox rayonlarında qanun pozuntuları, hakimiyyətə yaxın qrupların özbaşınalığı, hərc-mərclik və zorakılıq halları artmışdı. O dövrdə hakimiyyəti qəsb etmiş qüvvələr Azərbaycanın üzləşdiyi problemləri aradan qaldırmaq iqtidarında deyildilər. Beləliklə, baş verənlər fonunda 1993-cü ilin may-iyun aylarında ölkədə siyasi böhran son həddə çatmış, respublika vətəndaş müharibəsi, dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə üz-üzə qalmışdı.

Belə bir şəraitdə Azərbaycan xalqının yeganə ümid yeri Heydər Əliyev idi. Heydər Əliyev deyirdi ki, rəhbərlik etmək, yəni adamları öyrətmək və tərbiyələndirmək üçün gərək mənəvi haqqın olsun. Azərbaycan xalqının 1991-1993-cü illərdə yaşadığı məşəqqətlərə nəzər yetirəndə, bu fikrin nə qədər dəyərli və əsaslı olduğunu bir daha dərk edirsən. Və ona da qəti əmin olursan ki, Heydər Əliyev özünün kərpic-kərpic, ilmək-ilmək hördüyü, qurub yaratdığı Azərbaycanın müstəqilliyinin bərpasından sonra xalqımıza liderlik, ölkəmizə rəhbərlik etməyə mənəvi haqqı olan yeganə şəxsiyyət idi. Çox təəssüf ki, müstəqilliyin bərpasının ilk illərində Heydər Əliyev Azərbaycanda hakimiyyətdə deyildi. Tam əminliklə deyə bilərik ki, əgər o zaman hakimiyyətdə olan səriştəsiz liderlərin yerinə, sükanın arxasında məhz Ulu Öndər olsaydı, Azərbaycan o dövrdə üzləşdiyi problemləri, çətinlikləri yaşamazdı.

Azərbaycan xalqı Heydər Əliyevi sevirdi, ona inanırdı. Çünki Ulu Öndər bütün həyatını xalqına həsr etmiş, xalqımızın parlaq gələcəyi naminə misilsiz fədakarlıqlar göstərmiş böyük vətənpərvər idi. O, parlaq siyasi fəaliyyətinin hər bir mərhələsində, fərqli ictimai-siyasi, iqtisadi, mədəni və ideoloji şəraitdə xalqımıza və Azərbaycana ləyaqətlə xidmət etmişdir. Heydər Əliyev böyük siyasət ustası, yüksək təşkilatçılıq bacarığına malik rəhbər, ən mürəkkəb zamanlarda belə doğru qərarları qəbul etmək gücündə olan böyük lider idi. Və təbii ki, Azərbaycan xalqı bunları bilirdi, yüksək qiymətləndirirdi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Xalq ona böyük dəstək verirdi, o da gücü xalqın inamından, məhəbbətindən alırdı". Və Azərbaycan xalqı tarixi sınaq, seçim qarşısında qalanda özünün inandığı, güvəndiyi liderə - xalqı düşdüyü bu bəlalardan xilas etmək üçün Ulu Öndər Heydər Əliyevə müraciət etdi.

## Azərbaycan parlamentarizm tarixinin Heydər Əliyev zirvəsi

1993-cü il iyunun 15-də Ulu Öndər Heydər Əliyevin Azərbaycan Ali Sovetinin sədri seçilməsi Azərbaycan tarixinə "Milli Qurtuluş Günü" kimi daxil olmuşdur. Bu, kifayət qədər obyektiv və əsaslı bir dəyərləndirmədir. Çünki Heydər Əliyevin ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə xalqımızın xilası, qurtuluşu baş tutmuş, onun yüksək idarəçilik məharəti və qətiyyətli siyasi mövqeyi sayəsində Azərbaycan dövlətçiliyinin məhv edilməsi, vətəndaş müharibəsi və ölkənin parçalanması təhlükəsi aradan qalxmışdır.

Azərbaycan parlamentarizminin ən parlaq tarixinin də müəllifi məhz Heydər Əliyev olmuş, bu dövrdə qanunvericilik orqanının fəaliyyətində dönüş yaranmışdır. Ulu Öndər Heydər Əliyevin parlamentə rəhbərliyi sözsüz ki, bütün diqqətləri qanunvericilik orqanının üzərinə cəmləmiş, xalqın nəzərləri bura yönəlmişdi. Çünki Heydər Əliyevin respublikanı xilas etmək üçün keçirdiyi bütün görüşlərə, qəbul edilən bütün qərarlara məhz Milli Məclis evsahibliyi etmişdir. 15 iyun tarixinə qədər parlamentdə siyasi intriqalara, hakimiyyəti zəbt etmiş qrupların çəkişməsinə, məzmunsuz müzakirələrə vərdiş etmiş ictimai rəy üçün Heydər Əliyevin formalaşdırdığı nizam-intizam, demokratik mühit, siyasi mədəniyyət tamamilə yeni bir mənzərə idi. Artıq Ulu Öndərin rəhbərliyi ilə parlament özünün qanuni funksiyalarını və vəzifələrini yerinə yetirməyə, milli maraqları müdafiə edən demokratik bir təsisat kimi özünü göstərməyə başlamışdır.

Bu dövrdə qanunvericilik sahəsində bir çox mühüm addımlar atılmış, ordu quruculuğu sahəsində vacib qərarlar qəbul edilmişdir. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailəsinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Konstitusiyada və müxtəlif hüquqi sənədlərdə dəyişikliklər edilmiş, baş verən hadisələrə hüquqi, siyasi qiymət verilməsi istiqamətində müvafiq qərarlar qəbul olunmuşdur.

Heydər Əliyev Azərbaycan parlamentinin rəhbəri kimi, ictimai-siyasi həyatdakı gərginliyin aradan qaldırılması üçün lazımi tədbirlər görməyə, vətəndaş həmrəylinin, ictimai - siyasi sabitliyin əsaslarını yaratmağa başlamışdı. Parlamentdə aparılan müzakirələrin xalqa olduğu kimi təqdim olunması, cəmiyyətin baş verənlər haqqında müfəssəl məlumatlar əldə etməsi üçün iclasların, parlament tədbirlərinin kütləvi informasiya vasitələri tərəfindən işıqlandırılması, televiziya efirindən canlı yayımlanmasına şərait yaradılmışdı. Ulu Öndər Azərbaycanın strateji maraqları əsasında ölkənin yeni xarici siyasət konsepsiyasını müəyyənləşdirir, keçirdiyi görüşlərdə ölkəmizin mənafeyini qətiyyətlə müdafiə edirdi. O, mədəniyyətin, elmin və təhsilin inkişafına da böyük diqqət yetirir, alimlərlə, gənclərlə görüşlər keçirir, onlarla ölkənin gələcəyi barədə fikirlərini bölüşürdü.

Beləliklə, Azərbaycan parlamentarizm tarixinin Heydər Əliyev zirvəsi kimi dəyərləndirdiyimiz bu dövrdə ölkəmizin demokratik, hüquqi, dünyəvi dövlət kimi gələcək inkişafının təməli qoyulmuşdur. 1993-cü il oktyabrın 3-də isə ümumxalq səsverməsi nəticəsində Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmiş, bununla da Azərbaycanın dövlətçilik tarixində yeni və möhtəşəm bir mərhələ başlamışdır.

## Azərbaycanın sabitlik və inkişaf dövrü, öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələ

"Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir". Ulu Öndər Heydər Əliyev 1993-2003-cü illərdə Azərbaycan dövlətçiliyi qarşısında duran və uğurla icra olunan vəzifələri bu fikirlərlə ifadə etmişdir. Möhtərəm Prezident İlham Əliyev isə bu dövrü Azərbaycanın sabitlik və inkişaf dövrü kimi xarakterizə etmiş, bu illərin xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələ kimi dəyərləndirmişdir.

Heydər Əliyev Azərbaycanın strateji hədəflərini dəqiqliklə müəyyənləşdirmiş, yeni, beynəlxalq norma və prinsiplərə uyğun olaraq müstəqil dövlət quruculuğu prosesinə başlayarkən ölkəmizin gələcək inkişafı baxımından ən doğru qərarı qəbul edərək, ölkəmizin demokratik inkişaf və bazar iqtisadiyyatı yolu ilə irəliləyəcəyini bəyan etmişdir. Bu dövrdə ölkəmizin müstəqilliyinə qarşı törədilmiş təxribat cəhdlərinin və separatçı meyillərin qarşısı alınmış, Azərbaycanda ictimai-siyasi sabitlik təmin edilmiş, çoxşaxəli islahatlara start verilmişdir. Yeni iqtisadiyyat quruculuğu, sosial müdafiənin gücləndirilməsi, əhalinin rifahının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, "Əsrin müqaviləsi"nin imzalanması ilə ölkənin yeni enerji strategiyasının icrasına başlanılmışdır. Azərbaycanın uğurlu xarici siyasət strategiyası müəyyənləşdirilmiş və icra olunmuş, ölkəmizin beynəlxalq münasibətlər sistemində yeri və rolu möhkəmlənməyə başlamışdır. Demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu sahəsində ardıcıl tədbirlər reallaşdırılmış, ölkədə insan hüquq və azadlıqlarının, qanunun aliliyinin başlıca prinsiplərinin bərqərar olması üçün möhkəm əsaslar yaradılmış, 1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə Azərbaycan Respublikası Konstitusiyası qəbul edilmişdir. Azərbaycanda çoxpartiyalı sistem, siyasi plüralizm, fikir və ifadə azadlığı təmin edilmiş, demokratik institutların formalaşdırılması və inkişafına etibarlı zəmin yaranmışdır.

O, milli kimliyimizi milli qürur mənbəyinə çevirən böyük azərbaycanlı idi. Onun "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" nidası dünyada yaşayan 50 milyondan artıq azərbaycanlının devizinə çevrilmişdir.

Bəli, Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətləri, ölkəmizin əldə etdiyi tarixi nailiyyətlərdə imzası, zəhməti vardır. Onun ən böyük xidmətlərindən biri isə şübhəsiz ki, yeni əsrdə və yeni minillikdə başlatdığı islahatların, əldə olunan nailiyyətlərin davamlılığının, uğurlu dövlət idarəçiliyinin, siyasi varisliyin hüquqi, demokratik yolla təmin olunmasının həyata keçirilməsi idi. Bununla da ölkəmizin gələcək uğurlarına möhkəm təminat yaranmışdır. 2003-cü ildən Heydər Əliyev ideyalarının, siyasi xəttinin ən layiqli davamçısı möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan qarşısında duran bütün vəzifələri uğurla yerinə yetirmiş, özünün çoxəsrlik dövlətçilik tarixində ən böyük nailiyyətləri qazanmışdır.

2003-cü ildə "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir", - deyən, möhtərəm Prezident İlham Əliyev Heydər Əliyevin yaratdığı möhkəm təməllərə istinad edərək, onun yolunu, siyasətini davam etdirmiş, yeni əsrdə, yeni tarixi şəraitdə Azərbaycan dövlətçiliyi qarşısında duran bütün taleyüklü məsələlərin həllinə nail olmuşdur. Bu gün Azərbaycan möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə həyatın bütün sahələrində möhtəşəm uğurlar qazanmış, dünyada layiqli yerini tutmuş, etibarlı bir dövlətə çevrilmişdir. Azərbaycanın təşəbbüsləri çox geniş bir coğrafiyada əks-səda doğurur, dəstək və minnətdarlıqla qarşılanır. Azərbaycan Avropanın enerji xəritəsini dəyişdirir, ölkəmiz nəqliyyat habına çevrilir. Azərbaycanın təşəbbüsü və iştirakı ilə yaradılan dialoq və əməkdaşlıq platformaları bir sıra dövlətləri qlobal dünyanı narahat edən problemlərin həlli ətrafında bir araya gətirir.

## Heydər Əliyev ideyalarının həyata keçirilməsinə və onun irsinin geniş təbliğ olunmasına misilsiz töhfələr

Ümummilli Lider Heydər Əliyevin ideyalarının həyata keçirilməsində, xalqımızın milli sərvəti olan Heydər Əliyev irsinin geniş təbliğ olunmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi və Ulu Öndərin adını daşıyan Fondun misilsiz xidmətləri vardır. Ümummilli Liderin qurub-yaratdığı müstəqil Azərbaycanın daha da çiçəklənməsində yaxından iştirak etmək, insanlara daim kömək əli uzatmaq, xeyirxah işlər görmək Mehriban xanım Əliyevanın və onun rəhbərlik etdiyi Fondun fəaliyyətinin əsas qayəsini təşkil edir və bu çoxşaxəli fəaliyyət Azərbaycanın inkişafına müstəsna töhfələr verir. Hörmətli Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən çoxşaxəli tədbirlər elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekologiya da daxil olmaqla, həyatın bir çox sahələrini əhatə edir.

Fond tərəfindən reallaşdırılan layihələr nəticəsində yeni və müasir məktəblərin, xəstəxanaların tikintisi Azərbaycanda təhsil, səhiyyə infrastrukturunun əsaslı şəkildə yenilənməsinə töfhə verir. Bu günə qədər istifadəyə verilən yüzlərlə belə müəssisə vətəndaşlara daha yaxşı təhsil və səhiyyə xidməti göstərilməsində əvəzsiz rol oynayır. O cümlədən, ölkəmizdə bir sıra sosial problemlərin həlli, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərmək Heydər Əliyev Fondunun aliməramlı fəaliyyətinin əsas istiqamətlərindəndir. Heydər Əliyev Fondu ona üz tutan insanlara ümid olur, onların gümanlarını boşa çıxarmır. Mədəniyyət və incəsənət xadimlərinə, yaradıcı potensiala malik insanlara dəstək göstərilməsi, Azərbaycan mədəniyyətinin dünyada geniş təbliğ olunması, qədim mədəniyyət ənənələrimizin tanıdılması istiqamətində həyata keçirilən tədbirlər Fondun ölkəmizdə mədəniyyət sahəsində həyata keçirilən dövlət siyasətinə əhəmiyyətli töhfələridir. Bundan başqa, ölkəmizin beynəlxalq nüfuzunun artırılması ilə bağlı görülən işlər, bu məqsədlə çoxsaylı kitabların çap olunması, təbliğat materiallarının hazırlanması və yayılması, sərgilərin, elmi-praktik konfransların, simpoziumların təşkili Azərbaycan reallıqlarının dünyaya çatdırılmasında vacib rol oynayır.

## Heydər Əliyevin ömür yolu xalqa, dövlətə xidmət etməyin rəmzinə çevrilmişdir

Bəli, bu gün Azərbaycan möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə müzəffər, qalib ölkədir. Azərbaycan öz suverenliyini, müstəqilliyini qorumağa qadir bir dövlət olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir. "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur" deyən Ulu Öndər Heydər Əliyevin də arzuları çin olmuşdur. Heydər Əliyev həmişə inanırdı və qətiyyətlə bəyan edirdi ki, işğal altında olan torpaqlarımız azad olunacaq. O, işğalın müvəqqəti olduğunu və Azərbaycan xalqının öz dədə-baba yurdlarına qayıdacağını əminliklə bildirirdi. İndi Ulu Öndərin ruhu şaddır! Çünki bu gün Azərbaycanın üçrəngli bayrağı Xankəndidə, Şuşada, Xocalıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Füzulidə və digər rayonlarda qürurla dalğalanır.

Ulu Öndər Heydər Əliyev xalqımızın milli qürur və iftixar mənbəyidir. Müstəqil Azərbaycan dövləti Ulu Öndərin indiki və gələcək nəsillərə ərməğanı, onun zəngin və əvəzsiz irsi xalqımızın milli sərvətidir. Əgər bu gün müstəqil Azərbaycan dövləti yaşayırsa, inkişaf edirsə, Azərbaycanın qazandığı uğurlar, ölkənin təqviminə yazılan sonsuz nailiyyətlər ilk növbədə Heydər Əliyevin ölməz ideyaları ilə bağlıdır.

*Möhtərəm Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu gün inkişaf edən, güclənən Azərbaycan Heydər Əliyevin xatirəsinə olan hörmətimizin ən gözəl nümunəsidir. İndi hər birimizin qarşısında bu böyük liderin əsasını qoyduğu siyasətin, ideyaların uğurla davam etdirilməsinə töhfə vermək kimi məsuliyyətli bir vəzifə dayanır. Heydər Əliyevin ömür yolu, onun Azərbaycan xalqına fədakarlıqla, ləyaqətlə xidməti Vətəni sevən hər kəs üçün xalqa, dövlətə xidmət etməyin rəmzinə çevrilmişdir.*

**Sahibə QAFAROVA,**
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***



Azərbaycan xalqının bugünkü uğurları məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Müasir Azərbaycanın qurucusu olan Ümummilli Lider müasir dövlətçiliyimizin banisi və memarıdır. Ömrünü Azərbaycan xalqına həsr etmiş Ulu Öndər fenomeni ölkəmizə rəhbərlik etdiyi dövrlər ölkəmizin uğurları və güclənməsi ilə tarixin yaddaşlarında qalıb.

# Xalqımız öz xilaskarının əziz xatirəsini daim uca tutacaq

Məhz ilk dəfə 1969-1982-ci illər ərzində ölkəmizə rəhbərlik etdiyi dövr həyata keçirilən islahatlar və görülən strateji tədbirlər nəticəsində Azərbaycan SSRİ respublikaları arasında ən çox inkişaf edənlərdən birinə çevrilmişdir. Məhz həmin dövrlər Azərbaycanın SSRİ tərkibindəki ən parlaq dövrləri hesab olunub və ölkəmizdə bütün sahələrin inkişafı ilə yadda qalıb. Artan inkişaf tempi, sənaye sahələrinin genişlənməsi, sürətli tikintilərin aparılması fonunda milli-mənəvi dəyərlərə sahib çıxmaq, onları qorumaq Ulu Öndərin siyasi xəttində mühüm yer tuturdu. Məhz SSRİ-də yaranmış imkanlardan öz xalqının mənafelərinə uyğun olaraq məharətlə istifadə edən Ulu Öndər bütün imkanları ölkəmizin abadlaşmasına, genişmiqyaslı quruculuq işlərinə sərf edərək bu sahələrin inkişafına xüsusi əhəmiyyət verirdi. Mədəniyyətimizə verdiyi yüksək qiymət, incəsənət xadimlərinə göstərilən ehtiram həm də ümumilikdə milli-mənəvi dəyərlərimizin xalqımıza aşılanması ilə xarakterik idi.

Ulu Öndər hər zaman insan hüquqlarının və qanunun aliliyinin təmin olunması məsələsinə xüsusi həssaslıqla yanaşmışdır. Təsadüfi deyildir ki, Sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə dünya və xüsusən də Qərb ölkələrinin mətbuatının nəzər-diqqətini özünə çəkmişdir. 1969-cu ildən əvvəl də Heydər Əliyev əhalinin vəziyyətini öyrənər və xalqın rifahı ilə yaxından maraqlanırdı. 1969-cu ildə hakimiyyətə gələrkən Heydər Əliyev proqram xarakterli məruzəsində ölkəmizdəki korrupsiyadan ilk dəfə bəhs edərək, buna qarşı mübarizə aparılacağını bildirmişdir. Bununla da Azərbaycanda korrupsiyaya qarşı mübarizə başlanmışdır, qeyd etməliyəm ki, bu, 15 sovet respublikası arasında ilk belə hal idi.

Ulu Öndərin rəhbərliyi ilə ölkəmizdə genişmiqyaslı abadlıq-quruculuq işlərinə başlandı, Kremlin qərarı dəyişdirilərək kondisioner zavodu Bakı şəhərində salındı. 1971-ci ildə C.Naxçıvanski adına Hərbi Lisey yaradıldı və bu qəbildən olan yüzlərlə irimiqyaslı layihələr icra edildi. Naxçıvanski adına liseyi yaratmaqla Ulu Öndər həm də Azərbaycan Ordusu üçün milli kadr potensialının əsasını qoydu. Məhz həmin ordu bizə Müzəffər Ali Baş Komandanın rəhbərliyində qələbə bəxş etdi.

1980-ci illərdə Böyük Britaniyanın məşhur Tayms nəşri Heydər Əliyevi yüksək bacarıq və keyfiyyətlərinə görə "SSRİ-nin parlayan ulduzu" adlandıraraq onu Sovet İttifaqının növbəti rəhbəri olmağa əsas namizəd kimi qiymətləndirirdi.

Beləliklə, Heydər Əliyev sovet dönəmindən azərbaycanlıların ümumi fəxr, qürur mənbəyi olmaqla, milləti öz ətrafında birləşdirən liderə çevrilmişdir.

Heydər Əliyev həm də Azərbaycanın ərazi bütövlüyünün qarantı idi. Ermənilər hər zaman bildirirdilər ki, nə qədər Heydər Əliyev hakimiyyətdədir, Azərbaycana qarşı torpaq iddiasını həyata keçirə bilməyəcəklər.

1978-ci ildə Ulu Öndər Heydər Əliyevin cəhdləri və təşəbbüsü sayəsində Azərbaycan SSR-in Konstitusiyasına "Azərbaycan dili Azərbaycan SSR-in rəsmi dövlət dilidir" maddəsinin daxil edilməsi soykökümüzə bağlı qalmağımızı təmin etdi.

Təbii ki, öz xalqını hər şeydən çox sevən və peşəkar idarəçinin göstərdiyi yüksək bacarıqlar SSRİ rəhbərliyinin də diqqətini çəkirdi. 1982-ci ildə Ulu Öndər Moskvaya yüksək vəzifəyə getsə də, qəlbində dövlətinə sevgini hər zaman qorudu və hər zaman xalqının yanında oldu. Üzləşdiyi müxtəlif təqiblərə baxmayaraq, hər zaman Azərbaycanın maraqlarını hər şeydən üstün tutan Ulu Öndər 1990-ci ilin 20 Yanvar tarixində xalqımıza qarşı baş vermiş 20 Yanvar faciəsini dünya ictimaiyyətinin diqqətinə çatdırması isə çox böyük hadisə idi.

Daha sonra xalqın ağır günündə Azərbaycana qayıdan, Naxçıvan Muxtar Respublikasında üçrəngli bayrağımızın qaldırılması və digər əhəmiyyətli məsələlər ilə bağlı qərarlar verən Ulu Öndərin atdığı addımlar xalqımızı həm də vahid dövlətçilik ideologiyası ətrafında birləşdirilməsi istiqamətində mühüm işlər idi.

1990-cı illərin əvvəlləri ağır dövr idi, hakimiyyət ölkədə xaos yaratmış, ərazilər işğal olunmuşdu. Belə bir vəziyyətdə xalqın və ictimaiyyətin tanınmış nümayəndələrinin Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etmələri ölkəni xilas etmənin yeganə yolu idi. Məhv olmaq təhlükəsi qarşısında qalan Azərbaycan dövlətçiliyi dəhşətli, təhlükəli vəziyyətdən Ümummilli Lider Heydər Əliyevin hadisələrə qətiyyətli və fəal müdaxiləsi nəticəsində çıxdı. Belə vəziyyətdə Azərbaycanın əsl xilaskara böyük ehtiyacı vardı. Xalqın sağlam qüvvələrinə arxalanan qurtuluş hərəkatı meydana gəlir, sürətlə genişlənir, sadə xalq öz xilaskarı, böyük siyasətçisi Heydər Əliyevin ətrafına toplaşırdı.

1993-cü il iyunun 4-də Azərbaycan vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalanda AXC-Müsavat cütlüyü xalqın əsaslı tələbini, özlərinin yaratdıqları xaosu nəzərə alaraq Heydər Əliyevi Bakıya dəvət etmək məcburiyyətində qaldı. Azərbaycanın görkəmli oğlu, böyük vətənpərvər Heydər Əliyev xalqın bu ağır günündə, şübhəsiz, kənardan baxa bilməzdi. O, xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib xilaskarlıq missiyasını öz üzərinə götürdü. Heydər Əliyevin hakimiyyətə qayıdışı təkcə siyasi tələb deyildi, bu dövrün ictimai tələbatına çevrilmişdi.

1993-cü il iyunun 15-də parlamentin iclasında Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi, nəticədə müstəqil Azərbaycan tarixində ən önəmli hadisə olan Qurtuluş Günü elan olundu.

Heydər Əliyev Azərbaycan qarşısında böyük bir addım atdı, xalqının səsini eşitdi, yenidən hakimiyyətə qayıtmaqla müstəqil dövlətimizi dünya xəritəsində silinmək təhlükəsindən birdəfəlik xilas etdi. Ulu Öndər Heydər Əliyev 15 iyun tarixi barədə danışarkən vurğulamışdı ki, bu hadisə zərurətdən doğan bir faktor idi. 28 May Respublika Günü münasibəti ilə 2001-ci il mayın 26-da keçirilmiş tədbirdə bu barədə belə demişdir: "1991-ci ildə müstəqilliyi elan etmək çətin bir məsələ deyildi. Çünki bu, tarixi zərurətdən irəli gəlmiş bir hadisə idi. SSRİ dağılırdı, istəsən də, istəməsən də sən öz respublikanın aqibətini müəyyən etməli idin. Burada da müstəqillikdən savayı başqa yol yox idi. Amma bu müstəqilliyi qoruyub-saxlamaq o müstəqilliyi əldə etməkdən qat-qat çətin bir vəzifə idi".

1993-cü ilin böhranlı yayında xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər həmin il oktyabrın 3-də seçicilərin böyük əksəriyyətinin səsi, ümumxalq etimadı ilə dövlət başçısı seçildi.

Azərbaycan xalqının ağır günlərində hakimiyyətə qayıtmış Ulu Öndərin xalq qarşısında icra etməli olduğu tarixi missiyaya başladı. Bununla onun adı ən yeni tariximizə müstəqil Azərbaycanın memarı və xilaskarı kimi daxil oldu. Heydər Əliyev Azərbaycan dövlətçiliyinin gələcək inkişaf yollarını müəyyənləşdirdi. Dünyaya inteqrasiya, demokratik inkişaf və hüquqi dövlət quruculuğu, azad bazar münasibətlərinə keçid, sosial-iqtisadi islahatlar, hüquqi islahatlar kursu, düşmənin təcavüzünə son qoyulması və s. kimi genişmiqyaslı islahatlara başlandı.

Ümummilli Liderin səyləri nəticəsində respublika ərazisinə səpələnmiş silahlı cinayətkar dəstələr zərərsizləşdirildi, vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı, respublikamızın cənub və şimal-şərqində separatçı meyillərə son qoyuldu. Bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, Azərbaycanda sabitliyin, iqtisadi tərəqqinin geniş vüsət almasında Ulu Öndər Heydər Əliyevin gərgin səylərinin nəticəsi olaraq 12 may 1994-cü ildə atəşkəs sazişinin imzalanmasının xüsusi yeri vardır. Sabitliyi bütün inkişafın əsası kimi dəyərləndirən Ümummilli Liderin bu mühüm addımı müharibə şəraitində yaşayan ölkəmizin qarşısında yeni imkanlar açdı.

Bazar münasibətlərinə əsaslanan iqtisadi islahatların həyata keçirilməsi ölkə iqtisadiyyatına xarici sərmayələrin axınını reallaşdırdı. Heydər Əliyev yeni neft strategiyasının nəticəsi kimi təzahür edən "Əsrin müqaviləsi"ni 1994-cü ilin sentyabrın 20-də imzalamaqla, Azərbaycanın dünya iqtisadi sistemindəki yerini müəyyənləşdirdi.

1993-cü il iyunun 15-də Heydər Əliyev ölkənin ali qanunvericilik orqanına sədr seçildi. Həmin iclasda Ulu Öndər çıxış edərək, tarixi nitqini söylədi: "Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm". Bu tarixi qayıdış, sözün həqiqi mənasında, Azərbaycan dövlətçiliyinin və millətimizin qurtuluşu idi.

Heydər Əliyev hakimiyyətdə olduğu illərdə müxtəlif təhdidlərlə üz-üzə qaldı, xarici və daxili qüvvələrin iştirakıyla çevriliş cəhdləri oldu, ancaq heç biri nəticə vermədi. Çünki Heydər Əliyev mahir siyasətçi kimi onlardan bir addım irəlidə olmağı bacarır və ölkəmiz əleyhinə qurulan planları puç edirdi. Heydər Əliyev siyasətində xalqın dəstəyinə arxalanırdı. "Heydər Əliyev xalq birliyi" ifadəsi məhz buna görə yaranmışdı. Həqiqi lider xalqın dəstəyinə arxalanaraq uğur qazana bilər. Heydər Əliyev məhz belə liderlərdən idi.

Müdrik rəhbərin göstərişi əsasında hələ ötən əsrin 70-80-ci illərində yüzlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə, müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərilmişdi. Təkcə 1970-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə 1500-dən artıq azərbaycanlı gənc aparıcı ali təhsil ocaqlarına göndərilmişdi. Onların əksəriyyəti geri qayıdaraq Azərbaycanda müxtəlif sahələrdə çalışdılar, təcrübəli mütəxəssislərə çevrildilər. Gənclərimiz o dövrdə Moskvadan başqa Kiyevdə, Xarkovda, Minskdə və Sankt-Peterburqda təhsil alırdılar.

Ulu Öndər 26 iyul 1994-cü ildə tarixi bir fərman imzaladı. Bu fərmanla ölkəmizdə Gənclər və İdman Nazirliyi yaradıldı. Nazirliyin yaradılmasında əsas məqsəd qısa vaxtda gənclər siyasətinin əsas konturlarını müəyyənləşdirməkdən ibarət idi.

1995-ci ildə Gənclər Təşkilatlarının Milli Şurası yaradıldı. Bunun davamı kimi cəmiyyətin inkişafında və müxtəlif problemlərin həllində gənclərin rolunu artırmaq, onların ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək məqsədilə Ümummilli Lider Heydər Əliyev tərəfindən 1995-ci ildə Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsü irəli sürüldü. 2 fevral 1996-ci ildə gənclərin I Forumu keçirildi. İlk Forum Azərbaycanda gənclər siyasətinin müəyyən olunmasında mühüm rol oynadı.

Ulu Öndər 1997-ci ilin 2 fevral tarixində Azərbaycanda Gənclər Gününü təsis etdi. Bununla Heydər Əliyev Azərbaycanda gənclər siyasətinin bünövrəsini möhkəmlətdi. Bu illər ərzində Azərbaycanda gənclər sahəsində dövlət siyasəti ilə bağlı müxtəlif proqramlar qəbul olundu və həyata keçirildi.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsinin əsas hərəkət qüvvəsi gənclər oldu. Vətən müharibəsindəki qələbəmiz həm də gənclərlə bağlı aparılan uğurlu siyasətin nəticəsi idi. Fərəhləndirici haldır ki, 44 günlük döyüşlərdə bir fərarilik faktı qeydə alınmadı. Halbuki Ermənistan ordusunda minlərlə fərarilik halı baş verdi və həmin fərarilik halları ilə bağlı Ermənistanda bu gün də məhkəmə işləri davam edir. Vətən müharibəsində gənclərimizin yüksək fiziki və mənəvi hazırlığı və vətənpərvərlik hissi əməldə sübut olundu.

Azərbaycanda demokratik prinsiplərin bərqərar olması, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla həyata keçirilməsi də Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanaraq 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi - referendum yolu ilə qəbul olunmuş ilk Konstitusiyamız hüquqi, demokratik dövlət quruculuğunun, hüquq sisteminin bünövrəsini təşkil etmişdir. Qəbul edilmiş Konstitusiyanın 3-cü fəsli bütövlükdə, yəni 158 maddənin 48-i insan və vətəndaş hüquqlarına və azadlıqlarına həsr edilib. Eləcə də, qeyd edilən hüquq və azadlıqların qorunması, müdafiə olunması vəzifəsi qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının üzərinə qoyulub. Azərbaycanda müasir məhkəmə hakimiyyətinin əsası qoyuldu, yeni məcəllələr, qanunların qəbul edilməsinə nail oldu.

Konstitusiyanın hazırlanması və qəbulu ilə yanaşı, ölkədə ciddi hüquqi islahatlar həyata keçirildi. Konstitusiya Məhkəməsi və Ombudsman institutu yaradıldı. Ölüm hökmünün və mətbuatda senzuranın ləğvi Ulu Öndərin demokratik islahatları sırasında mühüm yer tutdu. "İnsan hüquqlarının və azadlıqlarının müdafiəsi haqqında konvensiya"ya məhz Ulu Öndər Heydər Əliyevin dövründə - 2001-ci ildə ratifikasiya edildi. Həmin konvensiyaya 2002-ci ildə ölüm cəzasının ləğvi ilə bağlı 13 saylı protokol əlavə olunmuşdur. Ümummilli Lider isə ölüm cəzasının ləğvi ilə bağlı sərəncamı həmin protokoldan 4 il qabaq, 1998-ci ildə imzalamışdır. Azərbaycan Şərqdə ilk dəfə olaraq ölüm cəzasını ləğv edən ölkə kimi tarixə düşdü.

Heydər Əliyevin xarici siyasət strategiyası Azərbaycana beynəlxalq aləmdə nüfuz və hörmət qazandırdı ki, bunun da nəticəsi olaraq respublikamız dünyanın əksər aparıcı ölkələrinin maraq mərkəzinə çevrilərək beynəlxalq və regional əməkdaşlıq sahəsində mühüm rol oynamağa başladı. 2001-ci ilin yanvarın 25-də Azərbaycan Respublikası Avropa ailəsinin tamhüquqlu üzvü kimi Avropa Şurasına qəbul olundu, "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi" haqqında Avropa Konvensiyasına qoşuldu. Hazırda Azərbaycan BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı kimi mötəbər qurumların tamhüquqlü üzvüdür. Azərbaycan Avropa İttifaqı və Şimali Atlantika Alyansı ilə münasibətlərini daha da genişləndirmişdir. 2003-cü ildə "Avropa Qonşuluq Siyasəti" ilə Avropa Birliyi Azərbaycanla qurduğu əlaqələrində yeni bir səhifə açdı.

Öz həyatını Azərbaycan xalqına fəda etmiş Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, özü qədər inandığı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Ümummilli Liderin yolunu layiqincə davam etdirir. Məhz bu siyasi kurs tarixi Qələbəmiz, 30 ilə yaxın işğal altında qalmış torpaqlarımızın düşmən işğalından birdəfəlik azad edilməsi ilə nəticələndi. Ermənistan kapitulyasiya aktını imzaladı. Şuşa şəhərinin işğaldan azad olunması zamanı Müzəffər Ali Baş Komandanın ata vəsiyyətinə əməl etdim deməsi bir daha göstərdi ki, Ulu Öndər ömrünün son anlarında belə, Azərbaycanı, Qarabağı düşünürmüş və düşmən işğalına son qoyulmasını arzulamışdır. Bu il həyata keçirilən və 23 saat davam edən lokal xarakterli antiterror tədbirləri isə Azərbaycanın suverenliyini tam bərqərar etdi.

*Məhz Ulu Öndər Heydər Əliyevin parçalanmasının qarşısını aldığı Azərbaycan, siyasi kursunun layiqli davamçısı İlham Əliyev tərəfindən dinamik inkişaf yoluna çıxardı. İqtisadiyyatı dəfələrlə böyüdü, regionun söz sahibi olmasından çıxıb, dünyada söz sahibi olan ölkələrdən birinə çevrildi.*

*Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaqdır və qədirbilən Azərbaycan xalqı öndərini hər zaman hörmət və ehtiramla yad edəcəkdir.*

**Adil ƏLİYEV,**
***Milli Məclisin Sədr müavini, Gənclər və idman komitəsinin sədri***

# Almaniyada kikboksinq üzrə "Heydər Əliyev Kuboku" keçirilib

**Milli Məclisin sədr müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev Almaniyanın Berlin şəhərində "Heydər Əliyev İli" çərçivəsində təşkil olunmuş kikboksinq üzrə "Heydər Əliyev Kuboku" uğrunda yarışın açılış mərasiminə qatılıb.**





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin vitse-spikeri, Azərbaycan Kikboksinq Federasiyasının fəxri prezidenti Adil Əliyev Milli Məclisin Gənclər və idman komitəsi, Gənclər və İdman Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Dünya Kikboksinq Təşkilatları Assosiasiyası (WAKO) və Azərbaycan Kikboksinq Federasiyasının (AKF) birgə təşkilatçılığı ilə baş tutan yarışın açılış mərasimində çıxış edib.

O, qonaqları salamlayaraq bugünkü qüdrətli Azərbaycanın məhz Ulu Öndər Heydər Əliyevin gərgin əməyinin bəhrəsi olduğunu diqqətə çatdırıb. Vitse-spiker Adil Əliyev Ulu Öndər Heydər Əliyevin bütün sahələrə, xüsusilə də gənclər və idman sahəsinə göstərdiyi yüksək qayğıdan söz açıb, onun gənclərimizin milli-mənəvi dəyərlərə bağlı yetişməsi, idmanda kütləviliyin təmin olunması üçün gördüyü işlərdən danışıb.

Adil Əliyev Ümummilli Liderin siyasətinin Prezident İlham Əliyev tərəfindən bütün sahələrdə uğurla inkişaf etdirilməsindən bəhs edərək, məhz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunduğunu, suverenliyinin bərqərar edildiyini vurğulayıb. O, gənclərə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, dövlətimizin qüdrətlənməsi ilə bağlı tövsiyələrini verib.

Sonra Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirələri birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev Ulu Öndər Heydər Əliyevin dövlətçiliyimizin möhkəmləndirilməsində göstərdiyi böyük xidmətlərdən bəhs edib, Ümummilli Liderin diaspora işinə böyük önəm verməsindən danışıb.

Dünya Kikboksinq Təşkilatları Assosiasiyasının ("WAKO") prezidenti Roy Baker Azərbaycanın beynəlxalq yarışları yüksək səviyyədə təşkil etməsi və keçirməsi barədə danışıb, Azərbaycan kikboksinqçilərinin mütəmadi olaraq göstərdiyi yüksək nəticələrə diqqət çəkib.

Daha sonra çıxış edən Azərbaycan Kikboksinq Federasiyasının Prezidenti Orxan Əliyev ölkəmizdə idmana göstərilən qayğıdan söz açıb, "Heydər Əliyev Kuboku" barədə məlumat verib və yarış iştirakçılarına uğurlar diləyib.

Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş kubokda ölkəmizdən və dünyadan, Almaniyanın müxtəlif şəhər və bölgələrindən olan 1200-dən çox kikboksinqçi öz güclərini sınayıblar.

Qeyd edək ki, "Heydər Əliyev Kuboku"nda 7 peşəkar döyüş keçirilib. Azərbaycan milli yığma komandasının üzvləri Amin Quliyev (63.5 kq), Ruslan Musayev (69 kq), Qəşəm Məmmədov (75 kq), Anar Məmmədov (60 kq), Rauf Gərayzadə (81 kq) və Elxan Əliyev (75kq) xarici ölkələrin kikboksinqçiləri üzərində parlaq qələbə əldə ediblər. İdmançılarımız "Wako Pro" kəmərləri qazanıblar.

Tədbirdə qurulmuş stendlərdə Azərbaycan mətbəxi və mədəniyyəti barədə qonaqlara məlumat verilib.

***"Azərbaycan"***

# Onun arzularındakı Azərbaycan

**Tarixin tam obyektiv qiymətləndirilməsi ona görə mühümdür ki, bu, bəşəriyyətin daim can atdığı ideal həqiqətin təmin olunmasına kömək göstərir. Tarixi isə şəxsiyyətlərsiz təsəvvür etmək mümkün deyil. Məhz onlar vaxtın axarını müəyyənləşdirir, öz fəaliyyətləri ilə zamanın ayrı-ayrı epizodlarını vahid tarixi salnamənin ardıcıl səhifələri kimi bir araya gətirirlər.**



Şəxsiyyətin xalqın, dövlətin tarixindəki yerinin və rolunun düzgün qiymətləndirilməsi isə strateji məqsədlərin əldə olunması baxımından çox mühümdür. Çünki yeni nailiyyətlər onların zamanında formalaşdırdıqları dəyər və prinsiplərə, inkişaf üçün yaratdıqları möhkəm bünövrəyə əsaslanır və şəxsiyyətlərin gələcəyə baxışı hədəflərə doğru yolda aydın istiqamət verir.

Xalqımızın ötən əsrdə yetirdiyi ən böyük şəxsiyyətlərdən olan Ümummilli Lider Heydər Əliyev tarixi irsi hər zaman xatırlanmalı, öyrənilməli olan böyük strateqdir. Azərbaycanda müstəqil dövlətçilik anlayışının həqiqi ideoloji prinsiplərinin və konseptual əsaslarının müəyyənləşməsi məhz Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlıdır. Ümummilli Lider Azərbaycanda milli dövlətçiliyi bir ideoloji konsepsiya olaraq formalaşdırmış, bununla ölkəmizin müstəqilliyinin, davamlı inkişafının sarsılmaz əsaslarını təmin etmişdir.

Buna görə müasir tariximizin böyük siması, dövlətinin və xalqının yüksəliş yolunda böyük izlər qoymuş Heydər Əliyev qəlbində vətən sevgisi olan hər bir azərbaycanlı üçün dahi və unudulmaz şəxsiyyətdir. Vəfatının 20-ci ildönümündə bir daha Ulu Öndər Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısındakı xidmətlərinə nəzər yetirməklə, xatirəsini böyük ehtiram hissi ilə yad edirik.

## Ulu Öndərin təlqin etdiyi prinsiplər cəmiyyətimizdə yeni dəyərlər yaratdı

Hər bir xalqın öz istiqlalını bütün dünyaya bəyan etməsi və müstəqillik yollarında inamla irəliləməyi bacarması bir tərəfdən mövcud ənənə və təcrübələrə, digər tərəfdən isə bu yolun davam etdirilməsindən ötrü imkan və potensiala əsaslanır. Ulu Öndər Heydər Əliyevin böyüklüyü isə bundadır ki, o, həm Azərbaycanın milli dövlətçilik ənənəsi və təcrübəsini ötən əsrin ortalarında vahid bir ideya mənbəyi kimi aktuallaşdırmış, həm də bu böyük dövlət adamının sovet Azərbaycanına rəhbərliyi dövründə cəmiyyətimizdə baş verən irəliləyişlərin, milli şüurun oyanışının, ən əsası sosial-iqtisadi, mədəni inkişafın məntiqi nəticəsi kimi 1990-cı illərin əvvəllərində müstəqilliyini bərpa edən ölkəmizin gələcəyi üçün müvafiq imkan və potensialı yarada bilmişdir.

Xalqın istiqlal haqlarına qovuşması və dünya xalqları sırasında öz layiqli yerini tutmağı bacarması təsadüfi proseslər kimi kortəbii şəkildə baş vermir. Bu, tarixin hansısa məqamlarında görülmüş işlərin, atılmış addımların, verilmiş qərarların məntiqi nəticəsidir. Eyni zamanda hər hansı bir xalqın öz müstəqilliyini elan etməsi də hər nə qədər əlamətdar hadisə olursa-olsun, keçilməsi lazım gələn böyük bir yolun olsa-olsa ilk addımıdır. Bu yolun ilk addımında qarşıya qoyulmuş böyük hədəflərə çatmaqdan ötrü daha böyük əzm, iradə, qətiyyət, yorulmadan irəliləmək lazım gəlir. Ümummilli Lider Heydər Əliyev öz varlığı, Azərbaycan sevgisi, gələcəyə baxışı ilə xalqımız üçün daim bu əzmin, iradənin, qətiyyətin mənbəyi olmuşdur.

Hələ 1969-cu ildə sovet Azərbaycanının rəhbəri seçilərkən bu vətənpərvər dövlət xadiminin qarşısında çox mühüm vəzifələr dururdu. Respublika həyatının əksər sahələrində tənəzzül hökm sürməkdə idi. Azərbaycan malik olduğu zəngin resurslara rəğmən bir çox göstəricilərinə görə keçmiş ittifaq respublikaları arasında ən sonunculardan sayılırdı. Ölkənin sosial-iqtisadi inkişafı üçün böyük layihələr yerinə yetirmək lazım gəlirdi. Amma bundan da çətini get-gedə cəmiyyəti sarımaqda olan mənəvi böhranı, gələcəyə inamsızlığı aradan qaldırmaq idi. Ümummilli Lider Heydər Əliyev qəlbindəki Vətən sevgisi ilə bütün bu çətinliklərin öhdəsindən gəldi. Azərbaycanda yeni və son dərəcə əhəmiyyətli bir strateji dövrün əsas müəllifi oldu. Ardıcıl səyləri nəticəsində qəbul və icra olunan inkişaf proqramları sayəsində Azərbaycan qısa müddətdə öncül respublikalardan birinə çevrildi. Heydər Əliyev Azərbaycanın inkişaf axarını da dəyişdi, ölkələrin, cəmiyyətlərin inkişafında müstəsna rol oynayan sənayeləşmə proseslərini gücləndirdi. Əgər ötən əsrin 60-cı illərinin sonlarına qədər Azərbaycan, daha çox aqrar respublika kimi tanınırdısa, cəmi bir neçə ildən sonra ölkəmiz sənaye respublikası statusu qazandı.

Ümummilli Lider o zaman da, sonralar da gördüyü, anidən müşahidə etdiyi hər bir kiçik imkana belə Azərbaycanın irəliləməsi üçün bir fürsət kimi yanaşırdı və özünəməxsus həssaslıqla, səbirlə, iradə ilə və bir o qədər də ardıcıllıqla bu fürsətləri reallaşdıraraq ölkənin addım-addım irəli getməsi üçün çalışırdı. Heydər Əliyevin ötən əsrin 70-ci illərində bütün ölkə boyu formalaşdırdığı geniş infrastruktur, yaratdığı zəngin potensial Azərbaycanın gələcək inkişafında çox böyük rol oynadı. Ulu Öndərin təlqin etdiyi prinsiplər cəmiyyətimizdə yeni dəyərlər yaratdı.

Bu müdrik dövlət xadimi cəmiyyət həyatına haqqı-ədaləti gətirdi, insanlarda vətəndaşlıq məsuliyyəti aşıladı, imkanların onlara can atan hər kəs üçün bərabərliyini təmin etdi. Heydər Əliyev təhsilin, maarifin bir xalqın həyatında nə qədər mühüm rol oynadığını aydın görür və düzgün dəyərləndirirdi. Burada qısa bir haşiyə çıxaraq qeyd edək ki, əslində, xalqımızın XX əsrin əvvəllərində müsəlman Şərqinin ilk Demokratik Cümhuriyyətini qurması da bir neçə on il əvvəl Azərbaycanda başlanmış maarifçiliyin, insanlar arasında təhsilin kütləviləşməsinin məntiqi nəticəsi, zamanında düşüncələrdə əkilmiş maarifçilik toxumlarının barı idi. Xalqımızın əsrin sonunda dövlət müstəqilliyini bərpa edə bilməsində də bu amil çox böyük rol oynadı. Heydər Əliyevin sayəsində yaradılmış təhsil müəssisələri, təhsilin hər kəs üçün əlçatanlığı məqsədilə atılan qətiyyətli addımlar, ali məktəblərin ən nüfuzlu ixtisaslarının savaddan başqa güvənc yeri olmayan zəhmətkeş övladlarının üzünə açılması, Azərbaycan gənclərinin keçmiş ittifaqın ən nüfuzlu ali məktəblərində təhsil almalarına yaradılmış şərait ölkəmizin gələcəyi üçün güclü bir nəsil yetişdirdi. Ulu Öndər cəmiyyətdə milli şüurun oyanışına təkan verən prosesləri aktuallaşdırdı, bu proseslərə o dövrün imkanları çərçivəsində istiqamət verdi. Xalqın milli inkişafının əsas simaları rolunda çıxış edən ziyalıları qorudu, onlara sahib çıxdı. Xalqımızın zəngin tarixinin, mədəniyyətinin, mənəvi qüdrətinin simvollarına çevrilmiş şəxsiyyətlərimizi dünyada tanıtdı, eyni zamanda təkcə tarixlə də məhdudlaşmadı, Azərbaycanın səsini, sözünü dünyaya yetirən, bizi xalq olaraq mənəvi zənginliyimizlə tanıdan yeni şəxsiyyətlər yetişdirdi. Bu mənada, Ümummilli Liderin sovet Azərbaycanına rəhbərliyi dövrü ölkəmizin həyatında hər cəhətdən - həm iqtisadi tərəqqi, həm siyasi yüksəliş, həm də mədəni intibah dövrü oldu.

Bütün bunların müəllifi olan, bu uğurlara imza atan Ulu Öndər Heydər Əliyev gördüyü işlərlə, milli təəssübkeşliyi ilə həm də Azərbaycanın gələcək dövlət müstəqilliyinin əsaslarının formalaşmasına yol açdı. Bu mənada respublikamızda sovet hakimiyyəti dövründə böyük strateq Heydər Əliyevin gərgin fəaliyyəti ilə yaradılmış güclü iqtisadi potensialın mövcudluğu, o cümlədən xalqımızın milli oyanışından irəli gələn müstəqil dövlətçilik ideyalarının güclənməsi ötən əsrin 80-ci illərinin sonlarında və 90-cı illərinin əvvəllərində Azərbaycanda müstəqillik uğrunda mübarizəni şərtləndirən və gücləndirən tarixi-siyasi faktorlar kimi özünü göstərməyə başladı.

## Bütün çətin zamanlarda xalqının yanında olan Lider

Heydər Əliyev zəmanəsinin ən böyük azərbaycanlısı, keçmiş SSRİ-nin qlobal prosesləri yönəltdiyi güclü vaxtlarında ittifaqın əsas rəhbərlərindən biri kimi xalqımızın və ümumilikdə türk dünyasının adını ucalara yüksəldən şəxsiyyət idi. Sadə bir ailədən çıxaraq öz zəhməti, əzmkarlığı hesabına dünyanın ən qüdrətli iki dövlətindən birinin ali rəhbərləri sırasına qədər yüksəlmiş bu şəxsiyyət milyonlarla insanın, xüsusilə gənclərin idealına çevrilmişdi.

Ümummilli Lider Kremldə çalışdığı illərdə də Azərbaycanın inkişafı üçün bütün imkanlardan istifadə etməyə çalışır, eyni zamanda ölkəmizə qarşı məkrli niyyətlərin qarşısını alırdı. O, Azərbaycana və ümumən türk dünyasına qarşı əsrlər boyu məkrli planlar hazırlayıb hərəkətə keçmək üçün hər an fürsət gözləyənlərin önündə sarsılmaz maneə idi. 1987-ci ildə bədxahları tərəfindən qərəzli şəkildə istefaya göndərildikdən cəmi iki həftə sonra ermənilərin Azərbaycana qarşı məkrli planlarını işə salmaları və bu zəmində xalqımızın başına gətirilən fəlakətlər, 20 Yanvar faciəsi, torpaqlarımızın işğalı, on minlərlə vətəndaşımızın həyatını itirməsi, bir milyona yaxın soydaşımızın doğma-yurd yuvasından didərgin düşməsi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan xalqı üçün əslində kim olduğunu, xalq olaraq bizi illərlə hansı böyük təhdidlərdən qoruduğunu bir daha göstərir.

O ağır günlərdə də Heydər Əliyev yenə Azərbaycan xalqının ən böyük ümid yeri idi. Hər hansı vəzifə səlahiyyətlərinə malik olmasa belə, bu böyük şəxsiyyət öz nüfuzu, varlığı, milli problemlərə həssas münasibəti, ona qarşı bütün təzyiqlərə baxmayaraq göstədiyi həmrəyliklə, haqq səsini ucaltması ilə xalqımıza mənəvi güc verir, insanların istiqlal ümidlərini öləziməyə qoymurdu.

Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri Azərbaycan dövlətçiliyinin xilası və bunun sayəsində ölkənin siyasi tarixində yeni bir mərhələnin açılmasıdır. Müstəqilliyimizin ilk illərində ölkənin çətin sınaqlarla üzləşdiyi, vətəndaş müharibəsinin, parçalanma təhlükəsinin bir addımına qədər gəlib çıxdığı, ağır sosial-iqtisadi təlatümlər içində yönünü itirdiyi zamanlarda da Azərbaycan xalqı yenə də ən böyük xilaskar kimi məhz ona üz tutdu. Heydər Əliyevin zəngin təcrübəsinə, qətiyyətinə, dəmir iradəsinə, ən əsası isə dövlətimizə və xalqımıza olan sevgisinə bel bağladı. Ümummilli Lider çox çətin və mürəkkəb şəraitdə xalqın çağırışına biganə qalmayaraq Azərbaycanın taleyinə görə məsuliyyəti üzərinə götürdü. Hətta proseslərin ayrı-ayrı məqamlarında həyatını risk qarşısında qoysa belə, Azərbaycanı üzləşdiyi bəlalardan xilas etmək üçün bu yoldan çəkinmədi. "Ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" kəlmələrinin onun üçün sadəcə söz olmadığını, Azərbaycan üçün böyük bir tarixi mərhələnin başlanğıcında müqəddəs dövlətçilik andı kimi dilə gətirildiyini əməlləri ilə sübuta yetirdi.

Fenomenal dövlətçilik zəkası, sarsılmaz iradəsi, böyük hədəflərə hesablanmış strateji qərarları ilə addım-addım qazanılmış irəliləyişlər hesabına müstəqil Azərbaycan dövləti tədricən böhrandan, ağır sınaqlar mühitindən, obrazlı desək, uçurumun kənarından uzaqlaşaraq rəvan inkişaf yoluna çıxa bildi. Heydər Əliyev Azərbaycanın demokratik-hüquqi dövlət kimi inkişafını təmin etdi. 1993-cü ildə "Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir" deyərək hüququn aliliyinin təmin edilməsini, dünyəvilik prinsiplərinin qorunmasını, demokratiyanın bərqərar olması və inkişafını əsas vəzifələr kimi irəli sürən Ulu Öndər bu vəzifələrin hər birini uğurla həyata keçirdi. Azərbaycanın sosial-iqtisadi tərəqqisi ilə demokratik islahatlar arasında paralelliyi təmin etdi, cəmiyyətimizdə ictimai sabitliyə və dayanıqlı inkişafa nail oldu.

Cəbhə bölgəsində atəşkəsin əldə edilməsi ilə Azərbaycan iqtisadiyyatının dirçəlişi, ordu quruculuğu, ölkəmizin beynəlxalq əlaqələrinin gücləndirilməsi, ermənilərin və havadarlarının ölkəmiz ətrafında yaratdıqları informasiya blokadasının aradan qaldırılması üçün zaman qazandı. Bu zamanın heç bir günü səmərəsiz keçmədi və hər anı ilə qarşıya qoyulmuş böyük məqsədlərə xidmət etdi.

Heydər Əliyev müstəqillik yollarında ilk tərəddüdlü addımlarını atan Azərbaycanı tənəzzüldən inkişafa yetirdi. Respublikamızın beynəlxalq nüfuzunu yüksəldən, region və dünya üçün önəmini son dərəcə artıran neçə-neçə layihənin, o cümlədən enerji strategiyasının təməlini qoydu. Onun düşünülmüş xarici siyasət kursu ölkəmiz üçün təkcə siyasi dəstəyi təmin etmədi, eyni zamanda iqtisadi əməkdaşlıq və investisiya imkanları formalaşdırdı. Ordu quruculuğu müvəffəqiyyətlə həyata keçirildi. Azərbaycanın müdafiə və təhlükəsizlik potensialı gücləndi.

Ölkədə hüquqi dövlətin qurulması üçün zəruri şərtlər kimi çıxış edən demokratik konstitusion rejim, müasir dövrün çağırışlarına uyğun hüquq sistemi, effektiv məhkəmə hakimiyyəti, hakimiyyət bölgüsü kimi prinsiplər təmin edildi. İnsan hüquq və azadlıqlarına təminat yaradıldı, ölüm hökmü ləğv edildi, əfv və amnistiya institutları işlək hala gətirildi, vətəndaş cəmiyyəti formalaşdı, çoxpartiyalı sistemin mövcud olduğu ölkəmizdə siyasi baxışlar arasındakı ziddiyyətlərin diskussiya məcrasına yönəldiyi yeni bir siyasi mədəniyyət bərqərar oldu.

## Prezident İlham Əliyev Ulu Öndərin arzularını reallığa çevirdi

Ümummilli Lider Heydər Əliyevin strateq kimi böyüklüyü həm də bundadır ki, bu böyük dövlət adamı müəyyənləşdirdiyi strateji inkişaf kursunun ondan sonra da davam etdirilməsini, qarşıya qoyulmuş milli məqsədlərin əldə olunmasını təmin etməyi bacardı. Heydər Əliyevin dövlətimizin gələcəyi ilə bağlı bütün arzularını reallığa çevirəcək, onun formalaşdırdığı möhkəm təməl üzərində tarixin ən qüdrətli Azərbaycanının müəllifinə çevriləcək Lideri - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi yetişdirərək cəmiyyətə təqdim etdi.

Cənab İlham Əliyev 2003-cü ilin 15 oktyabrında xalqın yekdil rəyi ilə Azərbaycan Respublikasının Prezidenti seçilərkən dövlətimiz müstəqillik tarixinin kifayət qədər nailiyyətlərlə zəngin əhəmiyyətli bir mərhələsinə gəlib çatmışdı. Ümummilli Liderin Azərbaycan xalqına 1 oktyabr 2003-cü il tarixli müraciətində də təsvir edildiyi kimi, ilk növbədə dövlətçiliyimizin əsasını təşkil edən ictimai-siyasi sabitlik əldə olunmuş, milli birlik və qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin təməli qoyulmuşdu. Eyni zamanda hər bir dövlətin, onun yaşamasının qayəsini təşkil edən ölkə iqtisadiyyatı yenidən qurularaq inkişaf yoluna çıxarılmışdı. Digər tərəfdən isə Azərbaycan xalqının istək və arzularının ifadəsi olan, özünün bütün müvafiq təsisatlarına malik güclü, demokratik dövlətimizin müstəqilliyinin dönməzliyi təmin edilmişdi.

Yalnız milli birliyə, ictimai-siyasi sabitliyə malik, iqtisadiyyatı dinamik inkişaf edən, güclü dövlət təsisatları olan, demokratik və vətəndaş cəmiyyətinə əsaslanan müstəqil dövlətlə hər şeyi, o cümlədən ərazi bütövlüyü və digər məsələləri həll etməyin mümkünlüyünü vurğulayaraq, bunun məhz belə də olacağına əminliyini ifadə edən Ulu Öndər 2003-cü ildə xalqımıza müraciətində də elə bu böyük əminliklə də qeyd edirdi ki, onun axıra çatdıra bilmədiyi taleyüklü məsələləri, planları, işləri Azərbaycan xalqının köməyi və dəstəyi ilə cənab İlham Əliyev başa çatdıra biləcək. "Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - deyə Heydər Əliyev bildirmişdir.

Ulu Öndərin bu müraciəti bütün məzmunu ilə son dərəcə mükəmməl bir sənəd olaraq müstəqil dövlətimizin bu tarixə qədər keçib gəldiyi yola strateji baxış, əldə edilən nailiyyətlərlə gəlib çatdığı mərhələnin dəyərləndirilməsi və gələcəyə bələdçidir. Və bu gün dönüb ötən 20 illik tariximizə qısaca nəzər yetirəndə bir daha Heydər Əliyevin nə qədər müdrik, nə qədər böyük və uzaqgörən şəxsiyyət olduğunu görürük.

2003-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti kimi ölkənin, xalqın gələcəyinə görə məsuliyyəti üzərinə götürərkən bu yeni strateji dövrdə cənab İlham Əliyev qarşısında duran tarixi missiyanı dəqiq təsəvvür etməyə də bu sənəd böyük kömək göstərir. Cənab İlham Əliyev Ümummilli Liderin bütün ümidlərini doğrultdu, müdrik strateqin qeyd etdiyi istiqamətlərin hər biri üzrə tarixi nailiyyətlərə imza atdı. Heydər Əliyevin çox böyük əziyyətlər bahasına, hətta bəzən həyatını təhlükəyə ataraq yaratdığı ictimai-siyasi sabitlik mühitini qoruyub daha da möhkəmləndirdi. Ölkəmizin, cəmiyyətimizin davamlı inkişafına yol açan, təminat yaradan bu mühiti bütün təhdidlər qarşısında sarsılmaz etdi. Azərbaycan Prezidenti milli birliyə və qanunların aliliyinə əsaslanan vətəndaş cəmiyyətini inkişaf etdirdi, həyata keçirilən ardıcıl islahatlarla, zamanın çağırışlarına uyğun davamlı tədbirlərlə müasir inkişaf meyillərini cəmiyyətimizə gətirdi, ictimai həyatımızdakı neqativ təzahürləri aradan qaldırdı.

Cənab İlham Əliyev Azərbaycanın sosial-iqtisadi həyatında yeni bir səhifə açdı, qazanılan nailiyyətlərlə, təşəbbüskarı və iştirakçısı olduğumuz qlobal layihələrlə ölkəmiz regionun lider dövlətinə çevrildi. Azərbaycanın uğurla reallaşdırdığı enerji-kommunikasiya layihələri, qlobal kommunikasiyalar qovşağında çox mühüm mərkəzə çevrilməsi, bir tərəfdən mühüm sosial-iqtisadi faydalar gətirdi, digər tərəfdən isə ölkəmizin beynəlxalq nüfuzunu son dərəcə gücləndirdi, qlobal proseslərə təsir imkanlarımız artdı, beynəlxalq aləmdə dostlarımızın sırası genişləndi. Respublikamızın sosial-iqtisadi uğurları Azərbaycan vətəndaşlarının həyat standartlarını yüksəltdi, bir çox sosial problemlər uğurla həllini tapdı, şəhərlərimizin, kəndlərimizin siması yeniləndi, müasirləşdi.

## Tarixin ən güclü Azərbaycanı

Cənab İlham Əliyev tarixin ən güclü Azərbaycanını qurdu, müstəqilliyimizin dayaqlarını daha da möhkəmləndirdi. Dövlətimizin sosial-iqtisadi potensialı sayəsində Azərbaycan Ordusunu dünyanın ən qüdrətli orduları sırasında qərarlaşdırdı və ordumuzun gücü ilə torpaqlarımızı düşməndən təmizləyərək müstəqil Azərbaycanın ərazi bütövlüyünü təmin etdi.

Bu gün dövlət bayrağımızın Xankəndidə dalğalanması Ümummilli Lider Heydər Əliyevin gerçəkləşən arzularının təcəssümüdür. Azərbaycan dövlətinin azad Qarabağda, Şərqi Zəngəzurda həyata keçirdiyi irimiqyaslı bərpa-quruculuq tədbirləri, işğal dövründə dağıdılıb talan edilmiş, erməni vandalizminə meydan olmuş bu torpaqları yenidən inkişaf axarına qovuşdurması Ulu Öndərin quruculuq missiyasının davamıdır. Heydər Əliyevin müəyyən etdiyi inkişaf kursuna sadiqliklə Azərbaycanı böyük milli hədəflərinə yetirən cənab İlham Əliyevin əsrlərdən bəri bu regionun bəlasına çevrilmiş erməni layihəsini iflasa uğratmasının tarixi təsdiqidir.

Azərbaycan Prezidenti böyük güclərin bu torpaqlarda öz oyunlarını oynamaqdan ötrü reallaşdırdıqları məkrli layihəni birdəfəlik aradan qaldırdı, tarixin qanlı bir səhifəsini qapatdı. Vətən müharibəsindəki qələbəmizlə regionda yeni reallıqlar yaratmış Azərbaycan bu gün bölgənin sülh və inkişaf məkanına çevrilməsi üçün üzərinə böyük bir tarixi missiya götürüb və bu missiya üzrə ardıcıl iş aparır. Geosiyasi maraqlarla regionumuzun düzənini pozmaqdan ötrü törədilən təxribatlar, Cənubi Qafqazda yeni qırğınlar, insan faciələri üçün cəhdlər müvəffəqiyyətlə dəf edilir, Azərbaycan dövləti cənab İlham Əliyevin qətiyyəti sayəsində bütün bu oyunları pozur. Müxtəlif cildlərə girən şər mərkəzlərinin iç üzünü açır, əsl xislətlərini ifşa edir. Belə mərkəzlərin, dünyanın böyük güclərinin bundan sonra planetimizin müxtəlif məkanlarında yeni insan faciələrinə bais olmalarına, qurulu ölkələri xaraba qoymalarına, xalqların müsibətlərindən sərvət qazanmalarına imkan verməmək üçün qlobal təşəbbüslərə rəhbərlik edir. Qoşulmama Hərəkatı, Türk Şurası kimi qurumlar çərçivəsində dünya miqyasında yeni bir düzən yaratmağa, insanın xoşbəxtliyinə xidmət edən yeni dəyərlər formalaşdırmağa çalışır. Ölkəmizdə mövcud olan multikulturalizm mühiti, fərqli mədəniyyətlərə hörmət ruhu, tolerantlıq ənənələri ilə bütün dünya üçün örnək yaradır, Şərq və Qərb sivilizasiyaları arasında təmas qurur.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə görülən işlər, yerli və qlobal məkanda həyata keçirilən layihələr bu istiqamətdə həyata keçirilən siyasətə mühüm töhfələrdir. Dövlətimizin sosial-iqtisadi inkişaf proqramlarının uğurla icra edilərək öz məqsədinə çatmasında, cəmiyyətimizdə milli vəhdətin qorunmasında da Mehriban xanım Əliyevanın mühüm xidmətləri var.

Azərbaycanın qürur doğuran bütün nailiyyətlərinin, xalqımızın bütün uğurlarının təməlində Prezident İlham Əliyevin qətiyyətli, müdrik və uzaqgörən siyasəti dayanır. Bunlar həm də belə bir reallığı təsdiq edir ki, Heydər Əliyev ideyaları real həyatımızda özünün bariz təcəssümünü tapır.

*Bu gün dövlətimiz ən qabaqcıl təcrübələrdən, dünyanın mütərəqqi dəyərlərindən bəhrələnərək öz gələcəyinə doğru irəliləyir. Dünyanın, regionun və bizi əhatə edən xarici aləmin əsas strateji və qlobal məsələlərinin həllində Azərbaycanın rəyi, mənafeləri, mövqeyi nəzərə alınır. Azərbaycanı qlobal miqyasda tanıyır, qəbul edir, əsas məsələlərdə ölkəmizlə hesablaşırlar. Bu, Ümummilli Lider Heydər Əliyevin qurub-yaratdığı və onun ideyalarına sadiqliyin daha da qüdrətləndirdiyi dövlətdir. Bu, Ulu Öndərin arzularındakı Azərbaycandır.*

**Ziyafət ƏSGƏROV,**
***Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri***



# Azərbaycanı gələcəyə aparan işıqlı yol

**Müasir Azərbaycanın dövlətçilik tarixi xalqımızın böyük oğlu, bütün həyatını dövlətinin inkişafına həsr etmiş Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir, onun ictimai-siyasi həyatdakı bənzərsiz siyasi manevrləri, müdrikliyi, filosofluğu və təşkilatçılığı sistemli bir məktəb yaratmışdır.**

## Ulu Öndəri sonsuz minnətdarlıq hissi ilə xatırlayırıq

Zaman ötdükcə, xalqımız Ulu Öndər Heydər Əliyevi sonsuz minnətdarlıq hissi ilə xatırlamağı özünə mənəvi borc hesab edir. Çünki danılmaz həqiqət budur ki, dövlətçiliyimizin ən ağır günlərində qətiyyət və iradə göstərərək əsl vətəndaş, tarixi şəxsiyyət və ümummilli lider kimi o, millətini, torpağını labüd fəlakətlərdən qurtarıb, çevriliş, qiyam cəhdlərindən qoruyaraq cəmiyyətdə özünəinam hissini bərpa edib, ölkəmizdə sabitlik və firavanlığa təminat yaradıb. Heydər Əliyevin fəlsəfəsində siyasətə kompleks yanaşma, milli dövlətçilik və milli ideologiya konsepsiyasının həyata keçirilməsi əsas yer tutur. Siyasət və iqtisadiyyatın vəhdəti, mədəni irs və milli-mənəvi dəyərlər, demokratik dəyərlər, bir sözlə, Azərbaycanın dirçəlişinin nəzəriyyə və praktikasına bu dahi şəxsiyyətin verdiyi töhfələrin öyrənilməsi olduqca zəruri, vacib siyasi-fəlsəfi və mənəvi əhəmiyyət kəsb edir.

Heydər Əliyev tarixi hadisələrə elmi-nəzəri konsepsiya kimi baxmaqla onu siyasi reallıqlar kontekstində ümumiləşdirməyə və tətbiq etməyə üstünlük verirdi. Məhz bunun nəticəsi idi ki, milli dövlətçilik düşüncəsini ötən əsrin 70-ci illərinin əvvəllərindən başlamaqla əsrin sonlarına doğru müstəqil Azərbaycan dövləti kimi əzəmətli bir reallığa qovuşdurmağı bacardı. Heydər Əliyevin dövlətçilik düşüncəsinin mayasını müstəqillik ideyası təşkil edir. Ulu Öndər müstəqilliyin ali məqsədi kimi milli-mədəni və mənəvi dəyərlərin bərpa olunmasına, xalqımızın özünü dərk etməsinə, öz mənliyinin sahibi olmasına fədakarlıqla, vətəndaş hünərilə çalışırdı. O, yalnız siyasi və iqtisadi deyil, həm də mədəni-mənəvi istiqlal uğrunda da əzmkar mübarizə aparırdı.

## Heydər Əliyev Azərbaycanı təhlükələrdən xilas etdi

Dahi rəhbərin hakimiyyətdə olmadığı qısa bir zamana nəzər salsaq görərik ki, xalqımız bu müddətdə nə qədər ziyan çəkib, inkişafdan qalıb. Azərbaycanın müstəqillik tarixinin ilk illərinə diqqət yetirsək, müstəqil dövlətin qarşısında duran vəzifələrin heç də ardıcıllıqla və qətiyyətlə həyata keçirilmədiyinin şahidi olarıq. 1991-ci ildə və 1992-ci ilin birinci yarısında respublikaya rəhbərlik edən şəxslər dünyada və SSRİ-də gedən siyasi proseslərə, dünya hadisələrinin inkişaf meyillərinə tam zidd siyasət yeridərək, xalqın müstəqillik iradəsinin əksinə gedərək, bütün mümkün vasitələrlə SSRİ-ni qoruyub saxlamağa çalışanlarla bir mövqedə dayanır və nəyin bahasına olursa-olsun, Azərbaycanın bu dövlətin tərkibindən çıxmasına yol verməməyə cəhdlər göstərirdilər.

Müstəqillik yoluna qədəm qoymuş hər bir ölkə kimi, Azərbaycan üçün də öz daxili və xarici siyasət konsepsiyasını təxirə salmadan hazırlayıb onun həyata keçirilməsinə başlamaq aktual və taleyüklü vəzifə idi. Təəssüf ki, 1991-1992-ci illərdə bu istiqamətdə heç bir iş aparılmadı. Ermənistanın təcavüzü ilə yanaşı, Azərbaycanda daxili ictimai sabitlik də pozulmuş, müxtəlif qanunsuz silahlı dəstələr yaradılmışdı. Respublikamızın daxilində qızğın hakimiyyət çəkişməsi gedirdi. Təbiidir ki, müxtəlif qüvvələrin özlərinə məxsus silahlı dəstələrdən istifadə edərək apardığı hakimiyyət mübarizəsi Azərbaycana böyük zərbələr vurdu.

Siyasi proseslərin bu cür qorxulu və ziddiyyətli gedişi respublika rəhbərliyinin Azərbaycanın müstəqilliyi haqqında 18 oktyabr 1991-ci il Konstitusiya aktı qəbul ediləndən sonra da müstəqil xətt yeritmədiyindən, ikiüzlü, qeyri-ardıcıl siyasət apardığından xəbər verirdi. Məhz o zamankı rəhbərliyin respublikanın real müstəqilliyi üçün əməli addımlar atmaması ağır problemlər yaratmışdı.

Ülu Öndər Heydər Əliyev vaxtilə bu barədə demişdi: "...1992-ci ilin martından may ayına qədərki dövrdə də Azərbaycanın müstəqil dövlətçilik maraqlarından irəli gələn ardıcıl, düşünülmüş siyasət həyata keçirilmədi. Bu dövrdə Azərbaycanda başlanan hakimiyyət uğrunda silahlı mübarizə, hakimiyyətlərin bir-birini əvəz etməsi və çoxhakimiyyətliliyin hökm sürməsi müstəqil dövlətçiliyə və onun sonrakı taleyinə çox ağır zərbələr vurdu. Azərbaycanın bu gün də həllinə nail ola bilmədiyi qlobal problemlər məhz həmin çoxhakimiyyətlilik və ondan sonrakı hakimiyyət çəkişmələri dövründə yaradılmışdır. Həmin dövrü bütövlükdə Azərbaycanın müstəqillik tarixinin ən ziddiyyətli, ziyanlı və təhlükəli dövrü hesab etmək olar. Cəmi bir neçə ayda müstəqil Azərbaycan dövlətinə elə zərbələr vuruldu ki, bunun təsirini həm indiki nəsil hiss edir, həm də gələcək nəsillər onlardan uzun müddət xilas ola bilməyəcəklər. 1991-1992-ci illər ərzində Dağlıq Qarabağda vəziyyət günügündən gərginləşirdi. Xocalı faciəsi baş verdi. 1992-ci il martın 6-da Mütəllibov istefaya getməyə məcbur oldu. Əsl hərcmərclik dövrü başlandı. Həmin vaxt xəyanət nəticəsində Şuşanın təslim edilməsi, 1992-ci il may ayının 15-də o zamankı müdafiə naziri Rəhim Qazıyevin Silahlı Qüvvələrin kvotası ilə bağlı Daşkənddə imzaladığı xəyanətkar saziş bütün Azərbaycan xalqının və onun silahlı qüvvələrinin bu gününə və gələcəyinə ömürlük zərbə vurmuşdur. O dövrdə yüzlərlə belə hallar baş vermişdir."

Sonradan hakimiyyəti qəsb etmiş "AXC-Müsavat" cütlüyünün xəyanətkar əməlləri Azərbaycanın bir dövlət kimi varlığına təhdidlər yaratmışdı. Bu cütlüyün antimilli mövqeyi və səriştəsiz fəaliyyəti ölkəmizi uçurumun bir addımlığına gətirmişdi. Məhz Heydər Əliyevin qüdrəti, gücü Azərbaycan dövlətini bu təhlükəli vəziyyətlərdən xilas etdi. Onun yorulmaz fəaliyyəti xalqımızın öz müstəqil dövlətçiliyinə inamını, müstəqillik uğrunda mübarizə əzmini və qətiyyətini möhkəmləndirdi. Eyni zamanda Azərbaycan dövləti özünün möhkəmliyini, etibarlılığını, qanunçuluğu və vətəndaşların təhlükəsizliyini hər şeydən yüksək tutduğunu bütün dünyaya nümayiş etdirdi. Milli dövlətçiliyə əsaslanan, onun siyasi fəlsəfəsinin mayasını təşkil edən müstəqillik konsepsiyası hazırladı.

Heydər Əliyevin müstəqil dövlət konsepsiyasının əsasını dövlət müstəqilliyi, demokratiya, siyasi plüralizm, şəffaflıq, hüququn aliliyi və sosial ədalət təşkil edirdi. Bütün bunlara nail olmaq üçün ən vacib amil olan xalqın birliyi idi ki, o da pozulmuşdu. Dahi şəxsiyyət bütün xalqı həmrəyliyə çağıraraq deyirdi: "Bunun üçün respublikada ümumxalq birliyinə nail olmaq lazımdır. Təəssüf ki, belə bir ağır dövrdə bəzi dairələr xalqı birləşdirmək əvəzinə, onu parçalamağa, ayrı-ayrı regionları, rayonları, kəndləri, hətta ayrı-ayrı şəxsləri belə bir-birinə qarşı qoymağa cəhd edirlər... Azərbaycan xalqının birliyi yeni, demokratik, heç kəsdən asılı olmayan dövlət qurulması yolu ilə təmin oluna bilər. Doğrudur, bu yolda çətinliklər də az olmayacaqdır. Fəqət, nəyin bahasına olursa-olsun, biz buna nail olmalıyıq. Biz bu yola düşməsək, bunu gələcək nəsillər edəcək. Və onlar, tarix bizi bağışlamayacaq. İndi hər bir namuslu, qeyrətli azərbaycanlı gərək öz şəxsi mənafelərini, imtiyazlarını unutsun, xalqın aqibəti, bu günü və azad gələcəyi haqqında düşünsün. Xalqın müqəddəratı hər şeydən üstün olmalıdır. Azərbaycan xalqı birləşməli, öz müqəddəs doğma torpağını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır."

Bu fikirlərin həyata keçməsi üçün ardıcıl və məqsədyönlü siyasət aparılaraq Azərbaycanda əsl vətəndaş cəmiyyəti quruldu, çoxsaylı ictimai təşkilatlar, partiyalar, müxtəlif fondlar və cəmiyyətlər yarandı, demokratiyanın inkişafı sözün həqiqi mənasında təmin edildi.

## Prezident İlham Əliyev Ulu Öndərin yolunu layiqincə davam etdirir

Azərbaycan inamla irəliləyərək demokratik inkişaf üçün zəruri olan təsisatlar və hüquqi baza yarada bildi. Respublikada müxtəlifyönlü siyasi partiyaların, ictimai təşkilatların azad fəaliyyət göstərməsi, yüzlərlə mətbuat orqanının senzurasız, sərbəst nəşr edilməsi, özəl televiziya və radio kanallarının öz verilişlərini maneəsiz efirə çıxarması və sairə kimi hallar Azərbaycanda siyasi plüralizm, fikir azadlığı, demokratik mühit gələcək inkişafın təməli oldu.

Ulu Öndər Heydər Əliyevin Yeni Əsr və Üçüncü Minillik münasibətilə Azərbaycan xalqına müraciəti zamanı dediyi sözləri xalq sevgi və məhəbbət hissi ilə gələcək inkişafının tezisləri kimi qəbul etdi. Ulu Öndər deyirdi: "Biz fəxr edirik ki, itirilmiş dövlətçilik ənənələrini XX əsrin sonlarında bərpa etmək fürsəti bizim nəslə nəsib olmuşdur. Azərbaycan Respublikasında dövlətçilik ənənələrinin zənginləşdirilməsi, müstəqilliyimizin daha da möhkəmləndirilməsi, onun əbədi edilməsi hər birimizdən var-qüvvəsini sərf etməyi tələb edir. İnanıram ki, tarixin bir çox sınaqlarından ləyaqətlə çıxmış xalqım bu ali məqsəd uğrunda bütün imkanlarından lazımınca istifadə edəcək, müstəqil Azərbaycan dövlətinin bu günü və sabahının tam təminatçısı olacaqdır. İftixarla demək olar ki, Azərbaycanın XX əsrdə yaratdığı qüdrətli iqtisadi potensial, böyük mütəxəssislər ordusu xalqımızın ən ümdə amallarının həyata keçirilməsi üçün möhkəm baza, əlverişli zəmin rolunu oynayır."

Bəli xalqımız böyük sərkərdə, Prezident İlham Əliyevin rəhbərliyi ilə var-qüvvəsini sərf edərək 200 ildən artıq çəkdiyimiz əziyyətlərə, məhrumiyyətlərə, mənəvi işgəncələrə son qoymağı bacardı. Təsadüfi deyil ki, bütün xalq cənab İlham Əliyevin rəhbərliyi, yüksək səviyyədə yerinə yetirdiyi tarixi sərkərdə missiyası nəticəsində tariximizin ən şərəfli anlarını yaşamaqdan qürur duyur. Tarix isə öz şərəf səhifəsinə Ali Baş Komandanımızın adını qızıl hərflərlə əbədi həkk etmişdir. Prezident İlham Əliyevin genişmiqyaslı və uğurlu fəaliyyəti göstərir ki, dövlət başçısı Ulu Öndərin bütünlüklə Azərbaycana, onun sabahına həsr edilən hakimiyyət yolunu, zəfər və şərəf yolunu ləyaqətlə davam etdirir.

Azərbaycan xalqının dahi öndəri Heydər Əliyev 2003-cü il prezident seçkiləri dövründə cənab İlham Əliyevi şəxsiyyət və dövlət xadimi kimi xarakterizə edərkən deyirdi: "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir siyasətçidir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirəcək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

"Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" ifadəsi İlham Əliyevin bütövlükdə xarakter cizgilərini, onun imkan və potensialını, böyük qabiliyyət və bacarığını ifadə edirdi. Yeni dövrün görkəmli siyasətçisi və dövlət xadimi kimi möhtərəm Prezident İlham Əliyev üçün böyük siyasətdə, beynəlxalq münasibətlərdə, ölkədaxili məsələlərin həllində, dövlət idarəçiliyində Heydər Əliyevin siyasi təlimi möhkəm təməl, ən etibarlı bünövrədir. Bu gün İlham Əliyev hakimiyyəti həmin qranit dövlətçilik pyedestalı üzərində ucalır. Hadisələrə və proseslərə tarixi baxışla bir sırada dünyanın hazırkı reallıqlarının və yeni dövlətçilik təfəkkürünün işığında yanaşmaq, qiymət vermək və bütün bunlara uyğun olaraq əsaslı qərarlar qəbul etmək İlham Əliyevin dövləti idarə etməsinin əsasını təşkil edir.

Azərbaycanın düzgün və tarazlaşdırılmış xarici siyasət aparması respublikamızla həm qonşu dövlətlər, həm də dünyanın bütün ölkələri arasında mehriban dostluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri yaratmışdır. Bunun nəticəsində ölkəmizdə transmilli iqtisadi layihələr uğurla həyata keçirilir, milli mənafelərimiz beynəlxalq aləmdə uğurla qorunur və ölkəmiz ən nüfuzlu beynəlxalq təşkilatlarda ləyaqətlə təmsil olunur. Bir sözlə, məqsədyönlü xarici siyasət nəticəsində Azərbaycan dünya birliyinin layiqli üzvünə və regionun liderinə çevrilmişdir. Təbii ki, bütün bu uğurlarda Prezident İlham Əliyev şəxsiyyətinin, liderlik qabiliyyətinin, qətiyyət və prinsipiallığının təkzibedilməz rolu var. Apardığı ədalətli və beynəlxalq hüquqa söykənən siyasətlə onu həm Avropada, həm də Şərqdə təcrübəli siyasət adamı kimi qəbul edir, hörmətini saxlayırlar.

## Tarixi Zəfərimiz

Azərbaycan məhz özünün güclü ordusu və dövlət-xalq birliyi ilə beynəlxalq təşkilatların uzun illər ərzində həll edə bilmədiyi problemi özü həll etdi, düşməni cəzalandırdı və torpaqlarını işğaldan azad etdi. Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 15-də Xankəndidə dövlət bayrağını ucaltmaqla Zəfər tariximizdə daha bir şanlı səhifə yazdı. Xankəndidə xalqa etdiyi müraciətində üçrəngli bayrağımızın ucaldılmasını tarixi hadisə adlandıran ölkə başçısı "Xalqımızın onilliklər ərzində olan arzularını çin etdik. Azərbaycan xalqının ləyaqətini bərpa etdik. Biz torpaqlarımızı geri qaytarmışıq, ərazi bütövlüyümüzü bərpa etmişik" bəyanatını verdi.

Azərbaycan otuz illik erməni separatizminə son qoymaqla yanaşı, bu bəladan əziyyət çəkən xalqları və dövlətləri qəflət yuxusundan oyatdı. Bəli, Ali Baş Komandan İlham Əliyev 2003-cü il oktyabrın 15-də prezident seçildikdən sonra xalqımız qarşısında verdiyi vədlərin hamısına 20 il ərzində əməl etdi. Sentyabrın 19-da lokal xarakterli antiterror tədbirlərini həyata keçirməklə Azərbaycan xalqı nəhayət bütün ölkə ərazisində hüquqi hakimiyyətini bərpa etdi. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə yanaşı, 30 il ərzində Qarabağ bölgəsində kök atan separatçı qondarma qurumu da əbədiyyən tarixin arxivinə göndərdi.

Bu proseslərdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rolunu da xüsusi qeyd etmək lazımdır. Müharibə başlayandan bitənədək Ali Baş Komandan ilə birlikdə mübarizə aparan Mehriban xanım Əliyevanın Vətən müharibəsinin ilk günlərində xalqa müraciətində ifadə etdiyi və hər birimizin ürəyini riqqətə gətirən sözlərini yada salmaq istəyirəm: "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!"

Qəlbdən səsləndirilmiş bu müqəddəs dua və arzu 44 gün ərzində səngərdə döyüşən əsgərlərimizi daha da ruhlandıraraq onların döyüş ruhunu artırdı. Doğma Qarabağımız Ali Baş Komandan İlham Əliyevin sarsılmaz iradəsi, müzəffər ordumuzun qəhrəmanlığı, xalqımızın birliyi və həmrəyliyi sayəsində azadlığına qovuşdu. Güclü iradəyə, qətiyyətə sahib olan, "Sözümüz imzamızdır" deyərək daim verdiyi vədlərə sadiq qalan Prezident İlham Əliyev 28 il işğal altında qalan torpaqlarımızın azad olunmasını təmin edib, regionda yeni reallıqlar yaratdı. Hətta Azərbaycanı sevməyən dünya ölkələri belə bu reallıqları qəbul etməyə məcbur oldular.

İlham Əliyev bu gün təkcə müstəqil Azərbaycanın deyil, dünyada yaşayan 50 milyon azərbaycanlının Prezidenti, Lideri kimi qəbul edilir.

## Zəfər seçkisi

Ölkəmiz təkcə islahatların deyil, böyük inkişafın, əzəmətli dəyişikliklərin yeni mərhələsinə hazırlaşır. Heç bir şübhə yoxdur ki, Azərbaycan dünyanı yeni inkişaf möcüzəsi ilə təəccübləndirə biləcək.

Məlum olduğu kimi, Azərbaycanda növbədənkənar Prezident seçkiləri elan edilib. Prezident İlham Əliyev dekabrın 7-də bununla bağlı sərəncam imzalayıb. Sərəncamda Mərkəzi Seçki Komissiyasına növbədənkənar Prezident seçkilərinin 2024-cü il fevralın 7-nə təyin olunmasını və Azərbaycan Respublikasının Seçki Məcəlləsində müəyyən edilmiş qaydada keçirilməsini təmin etmək tapşırılıb.

Gələn il fevralın 7-nə təyin olunan növbədənkənar Prezident seçkilərini Zəfər seçkisi də adlandırmaq mümkündür. Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycan ərazi bütövlüyünü və bütün ərazisində suverenliyini tam bərpa etmiş halda seçki marafonuna başlayacaq. Müstəqillik tariximizdə bu, ilk dəfə olacaq. Prezident seçkiləri ölkəmizin bütün ərazisində, o cümlədən azad olunmuş ərazilərmizdə keçiriləcək. Biz bu uğura Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində nail olmuşuq. 44 günlük Vətən müharibəsində düşməni tam kapitulyasiyaya uğradaraq ərazi bütövlüyümüzü bərpa etdik. Bu ilin sentyabr ayında bir sutkadan da az müddət ərzində keçirilən antiterror tədbirləri nəticəsində bütün ərazilərmizdə suverenliyimiz tam bərqərar oldu. Separatizm kitabı birdəfəlik bağlandı. Bununla da Azərbaycan həm ölkəmizdə, həm də regionda yeni reallıqlar yaradıb. Bu reallıq fonunda növbədənkənar Prezident seçkilərinin təyin olunması tarixi Zəfər qazanan ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin təsbitidir.

Növbədənkənar seçkilərin keçirilməsində qeyri-adi heç nə yoxdur və dünyanın siyasi praktikasında qəbul olunmuş siyasi təcrübədir. Bununla bağlı saysız-hesabsız faktlar sadalamaq mümkündür. Seçkilərin müəyyən səbəblərdən təxirə salınması və ya növbədənkənar keçirilməsi normal siyasi praktikadır. Məsələn, bu gün müharibənin davam etdiyi Ukraynada hərbi vəziyyətlə bağlı seçkilər təxirə salınıb. Bəzi hallarda isə seçki vaxtından əvvəl keçirilir və bu fakt vətəndaşların demokratik qaydada siyasi iradəsini göstərməsinə heç bir problem yaratmır. Azərbaycanda da seçkilər növbədənkənar keçiriləcək və vətəndaşlarımız siyasi iradələrini sadəcə olaraq vaxtından əvvəl ifadə edəcəklər.

Növbədənkənar Prezident seçkilərinin təyin edilməsi Prezident İlham Əliyevin özünə inamının göstəricisidir. Qalib xalqın Qalib Prezidenti xalqın ona olan dəstəyindən əmindir. Xalqımıza tarixi Zəfər qazandıran, Şuşada, Xankəndidə, Ağdərədə, Xocalıda, Kəlbəcərdə, Ağdamda, Füzulidə, Zəngilanda, Cəbrayılda üçrəngli bayrağımızı ucaltmaqla 30 illik torpaq həsrətinə son qoyan Müzəffər Ali Baş Komandana xalqımızın sevgisi, dəstəyi hədsizdir. Bu gün öz doğma yurd-yuvalarına qayıdan insanların gözlərindəki sevinc Ali Baş Komandana xalq məhəbbətinin ən təbii göstəricisidir. Ölkəmizin digər bölgələrində olduğu kimi, azad olunmuş ərazilərdə də həyata keçirilən abadlıq-quruculuq işləri, artıq start verilən Böyük Qayıdış proqramı Prezident İlham Əliyevin strateji hədəflərə doğru inamla addımladığının təsdiqidir. Xalqımız ona tarixi Zəfər qazandıran Prezidentini bu seçkidə də təbii ki, fəal şəkildə dəstəkləyəcək, Ali Baş Komandanın gücünə güc qatacaq.

Hər seçkidə olduğu kimi bu dəfə də bütün siyasi qüvvələrə bərabər imkanlar yaradılacaq. Seçki Məcəlləsinə uyğun olaraq bütün namizədlər bərabər hüquqa malikdirlər və bərabər öhdəliklər daşıyırlar, namizədlərin hamısına seçkiqabağı fəaliyyət üçün bərabər şərait təmin edilir, o cümlədən təşviqat aparılması üçün mediadan bərabər istifadə şərtləri müəyyənləşdirilir. Ədalətli seçki şəraiti tam olaraq təmin edilir.

Bir məqamı da vurğulayım ki, ölkəmizdə siyasi partiyaların üzvlərinin reyestrləri, dövlət qeydiyyatına alınması prosesi yekunlaşıb. Növbədənkənar seçkilər bu prosesin yekunlaşmasından sonra reallaşdırılır. Bu fakt da təsdiq edir ki, bütün tərəflərə bərabər şərait yaradılır və ədalətli mübarizə aparmaq imkanı təmin edilir. Bu isə siyasi qüvvələr üçün çox unikal fürsətdir. Potensialı olan istənilən siyasi qüvvə ədalətli seçki mühitinin təmin edildiyi prosesdə iştirak etməkdə maraqlı olmalıdır. Bunun əksinə mövqe ortaya qoyanlar birmənalı şəkildə qərəzlidir və bununla minimum sayda elektorat potensialına malik olduqlarını təsdiqləyirlər. Əgər özlərinin iddia etdiyi kimi böyük potensialları və xalqdan dəstəkləri varsa, seçki prosesində iştirak etməkdə maraqlı olmalıdırlar. Bu, onlara iddialarını isbat etmək üçün əla imkandır. Normal siyasi mübarizədən çəkinib qərəzçilik edənlər əslində bununla məğlub olacaqlarını etiraf etmiş olurlar. Cəmiyyətimiz həmin radikalların heç bir dəstəyinin olmadığını, xalqla onların arasında dərin uçurum olduğunu yaxşı bilir. Elə həmin qüvvələrin özləri də xalqın nəzərində etibarlarını çoxdan itirdiklərini və məğlubiyyətə məhkum olduqlarını yaxşı bilirlər.

Xalqımız ona tarixi Zəfər qazandıran Prezidentini bu seçkidə də fəal şəkildə dəstəkləyəcək! Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı üçün müəyyən etdiyi yol uğur yoludur, Zəfər yoludur! Təsadüfi deyil ki, Prezident İlham Əliyev ölkəmizin bugünkü uğurlarını da dahi liderin siyasətinin ardıcıl surətdə həyata keçirilməsi ilə əlaqələndirir. Müzəffər Sərkərdənin yanaşmasında Heydər Əliyev ideyalarının universal xarakter daşıması onlara yaradıcı münasibəti mümkün və zəruri edir. Yeniləşən tarixi şəraitdə Azərbaycanın dinamik inkişafı, o cümlədən beynəlxalq aləmdə cərəyan edən proseslər və aktual çağırışlar ölkənin inkişaf konsepsiyasına yeni yanaşmaları qaçılmaz etmişdir. Dünyanın gedişatını dərindən təhlil edən Prezident İlham Əliyev hadisələrə və onların gələcək inkişaf perspektivlərinə münasibətdə yeni, orijinal yanaşmaların zəruriliyini ortaya qoymağı bacarır. Məmnunluq hissi ilə qeyd etmək lazımdır ki, fəlsəfi dərinliyi və siyasi praqmatizmi ilə seçilən Heydər Əliyev ideyalarını yeni tarixi şəraitin tələblərinə uyğun şəkildə müasirləşdirmək və zənginləşdirmək vəzifəsini İlham Əliyev böyük bacarıqla həyata keçirməyə müyəssər olmuşdur.

*Ümummilli Lider Heydər Əliyevin başlatdığı və hal-hazırda cənab Prezident İlham Əliyev tərəfindən çox uğurla davam etdirilən siyasi kurs, sosial və iqtisadi inkişaf yolu Azərbaycan xalqının seçimidir. Bu inkişaf yolu xalqımızın mənafeyinə, onun inamlı sabahına, işıqlı gələcəyinə xidmət edir. Bu inkişaf modeli Azərbaycanı demokratik, hüquqi, dünyəvi dövlət kimi möhkəmləndirən, xalqını xoş gələcəyə aparan nurlu yoldur.*

**Sadiq QURBANOV,**
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

# Yaratmaq və qurmaq məharəti

**Tarixin müəyyən məqamlarında zamanın diktəsindən irəli gələn əzəmətli işləri yalnız böyük insanlar və qeyri-adi şəxsiyyətlər görə bilərlər.**

**Bu, bəlkə də həyatın yazılmamış qanunlarındandır. Çünki dünya və cəmiyyət daim yaşamaq və inkişaf etmək üçün onu bəlalardan qurtararaq irəliyə aparacaq şəxsiyyətlərin yetirilməsi qayğısına da qalır.**

**Məqam çatanda həmin şəxsiyyətlər meydana çıxaraq tarixi missiyalarını yerinə yetirirlər.**

**Ümummilli Liderimiz Heydər Əliyev də adı dünya tarixinə qızıl hərflərlə yazılan görkəmli simalardandır.**



Sanki dünyaya yaratmaq və qurmaq üçün gələn bu böyük insan ömrü boyu yorulmaq bilmədən çalışmış, tikib ucaltmaqdan zövq almış, ən nəhayət, müasir və müstəqil Azərbaycanı nəsillərə yadigar qoymuşdur.

Ulu Öndər Heydər Əliyev hər şeydən qabaq bütöv xarakterli insan və görkəmli şəxsiyyət idi.

Hər bir xalq neçə əsrdən bir belə siyasi və dövlət xadimi yetirə bilir.

Sadə azərbaycanlı ailəsində dünyaya göz açan Ulu Öndər Heydər Əliyev fitri istedadı, dərin zəkası və tükənməz enerjisi ilə fərqlənmiş, şəxsi keyfiyyətləri və zəhmətsevərliyi sayəsində həyatda mövqe qazanmağa, vəzifə pillələri ilə sürətlə yüksəlməyə nail olmuşdur.

Və bütün ömrü boyu yalnız özünə, fövqəladə bacarıq və qabiliyyətinə arxalanmışdır.

Heydər Əliyev yarımçıq, ötəri iş görməyi sevməzdi. Hansı məsələ ilə məşğul olmağa başlasaydı, onu dərindən və ətraflı öyrənər, müxtəlif variantlar içərisindən ən optimalını seçərək yerinə yetirməyi bacarardı.

Sutkanın on altı saatını dövlət işinə həsr edən Ulu Öndər Heydər Əliyev özü üçün də qurduğu ciddi rejim və intizam şəraitində çalışmışdır.

SSRİ adlı superdövlətdə, sosializm prinsiplərinə əsaslanan "qırmızı imperiya"da Dövlət Təhlükəsizliyi Komitəsi dövlət daxilində dövlət sayılırdı. Cəmiyyətdə "xalqlar dostluğu və proletar beynəlmiləlçiliyi" şüara çevrilsə də, bu qurumun özünəməxsus daxili qanun və prinsipləri vardı.

Milli azlıqlara çox da rəğbət bəslənilmədiyi bir vaxtda Ulu Öndər Heydər Əliyev şəxsi keyfiyyətləri sayəsində irəliyə gedərək bu mürəkkəb və çətin sahənin generalı oldu.

Ən önəmlisi budur ki, xalqını sonsuz məhəbbətlə sevən bu böyük insan dövlət təhlükəsizliyi orqanında işləyərkən də xalqına faydalı olmağı, bir sıra işlər görməyi və bəzi ziyalıları "dissident" damğasından, cəzadan qurtarmağı bacardı.

Heydər Əliyevin siyasi bioqrafiyasını xatırlayarkən daha çox "ən" sözünü işlətməli oluruq:

- siyasi olimpin zirvəsində ən çox qərar tutan rəhbər;
- ən çox tikib quran və yeni obyektlərin qırmızı lentini kəsən dövlət başçısı;
- ən çox görüş keçirən;
- ən çox qərar qəbul edib sənəd imzalayan;
- ən çox və ekstremal vəziyyətlərə düşüb çıxış yolu tapan;
- jurnalistlərlə ən çox görüş keçirərək müsahibələr verən lider və s.

Ulu Öndər Heydər Əliyev qeyri-adi hafizəyə malik idi və xalq arasında onu məhəbbətlə "kompüter yaddaş sahibi" adlandırırdılar. Bu vergi ona ömrü boyu kömək olmuşdur.

Zəngin və müxtəlif hadisələrin sıxlığı şəraitində keçən həyatının hər anını dəqiqliyi ilə xatırlayırdı. Hətta müsahiblərinin unutduqları məqamları onların yadına salır, söylədikləri xatirələrinə təshihlər verirdi.

İti hafizə və qeyri-adi zəka ona dövlət başçısına zəruri keyfiyyətləri qısa müddətdə mənimsəməsinə imkan yaradırdı. Məsələn, Heydər Əliyev əmək fəaliyyətinə milli təhlükəsizlik orqanlarında başlamışdı və keçmiş SSRİ-də bu sahənin ən mahir bilicilərindən sayılırdı.

Azərbaycan rəhbərliyinə gələnə qədər general mundiri daşıyırdı. Həmin dövrdə isə Azərbaycan geridə qalmış, sənayesi zəif inkişaf etmiş, neft sahəsində böyük problemləri olan aqrar respublika idi. Onu dirçəltmək, ittifaq büdcəsindən vəsait almaq, mərkəzdə faydalı qərar qəbul etdirmək asan məsələ deyildi. Lakin Ulu Öndər Heydər Əliyev üçün həlli mümkün olmayan məsələ yox idi!

O, çox qısa bir vaxtda aqrar sahəni öyrəndi, pambıqçılığın incəliklərinə bələd oldu, bütövlükdə kənd təsərrüfatının yüksəlişində düzgün istiqaməti müəyyənləşdirdi.

Ən əsası, adamlarda öz gücünə inam hissi, ruh yüksəkliyi yaratdı.

Kənd təsərrüfatı yüksəldikcə kəndin siması, kəndlinin yaşayışı da əsaslı şəkildə dəyişərək yaxşılaşdı.

Ulu Öndər Heydər Əliyevin birinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə kəndlərin görkəmi büsbütün dəyişdi, palçıqdan, çiy kərpicdən tikilmiş komaları ikimərtəbəli daş evlər əvəzlədi. Müasir mebel, məişət elektrik cihazları, minik avtomobilləri kəndli məişətinə daxil oldu. Kəndin mədəni səviyyəsi xeyli yüksəldi, kolxozçu övladlarının ali məktəblərə daxil olmaları, təhsil almaları xeyli asanlaşdırıldı.

Respublikada üzümçülüyün və şərabçılığın inkişafı ilə bağlı SSRİ hökuməti tərəfindən xüsusi qərarın qəbulu isə ölkəmizə mərkəzi büdcədən xeyli vəsait ayrılmasına, yeni qəsəbələr və emal müəssisələri yaradılmasına, aqrar-sənaye kompleksinin sürətli inkişafına təkan verdi.

Ulu Öndər Heydər Əliyev doğma Azərbaycanı yüksəltməklə bərabər, özü də zəngin idarəetmə və dövlətçilik təcrübəsi toplayır, keçmiş ittifaqın və dünyanın görkəmli siyasi və dövlət xadimlərindən birinə çevrilirdi.

Çox keçmədən onu SSRİ rəhbərlərindən biri kimi Moskvada işləməyə dəvət etdilər.

Ulu Öndər Heydər Əliyev elə parlaq şəxsiyyət idi ki, onun yanında kölgədə qalmaqdan qorxan digər siyasi xadimlər daim qısqanclıq göstərmiş, ayağından çəkməyə çalışmış, daim kölgəsini qılınclamışlar.

Lakin Heydər Əliyevin fəaliyyəti pak və qüsursuz, şəffaf və məqsədyönlü olduğundan bədxahların heç biri onu ləkələyə bilməmişdir. Həm də onu sevənlərin sayı qat-qat çox və üstün olmuşdur.

Vətəndən uzaqda işlədiyi dövrdə Ümummilli Liderimizin qəlbi daim Azərbaycanla birlikdə vurmuş, respublikamızın mənafeyini və tərəqqisini bir an belə unutmamışdır.

Moskva dövrü Heydər Əliyev dühasının parlamasının yeni mərhələsinə çevrildi.

Onun idarəçilik və dövlətçilik məharəti burada daha da cilalandı, yeni xüsusiyyətlərini büruzə verdi.

Keçmiş SSRİ-nin bir sıra ictimai-siyasi və dövlət xadimləri Ulu Öndər Heydər Əliyevin həmin dövrdəki fəaliyyətindən böyük məmnunluq və heyranlıqla danışırlar.

Nəhəng imperiyada müxtəlif sahələri əhatə edən nazirlik və komitələrin işinə istiqamət verən Heydər Əliyev çox qısa bir vaxtda onların hər birinin spesifik cəhətlərini, işinin incəliklərini və problemlərini dərindən öyrənməyə, ciddi təsislər verməyə, bütövlükdə dönüş və irəliləyiş yaratmağa nail oldu.

Bu, Heydər Əliyevin xarizmatik şəxsiyyəti ilə yanaşı, digər bir fərdi keyfiyyətlə də bağlı idi. Ümummilli Liderimiz nədən başlamağı, çoxsaylı və mürəkkəb hadisələr silsiləsində aparıcı vəsiləni səhvsiz müəyyənləşdirərək ondan yapışmağı, bütövlükdə sahəni qısa müddətdə irəli aparmağı bacarırdı.

Azərbaycan müstəqillik əldə etdikdən, Ulu Öndər Heydər Əliyev xalqın arzu və tələbi ilə respublika rəhbərliyinə qayıtdıqdan sonra möhkəm və dönməz sabitlik yaradılmasında, iqtisadiyyatın və bütövlükdə ölkəni bürümüş ümummilli böhranın aradan qaldırılmasında dahi rəhbərin bu unikal keyfiyyəti dövlətin karına gəldi.

Ümummilli Liderimiz Heydər Əliyev təkcə nədən başlayanda harada qurtaracağını deyil, eyni zamanda ən kritik vəziyyətlərdə, hamının özünü itirərək nə edəcəyini kəsdirmədiyi bir vaxtda ən düzgün və yeganə doğru qərar çıxarmağın da ustası sayılırdı.

Ötən əsrin doxsanıncı illərinin Azərbaycanı ən mürəkkəb və gərgin vəziyyətlərlə zəngin idi. Qəflətən yaranan situasiyadan çıxmaq həmişə ölkə üçün taleyüklü məqam hesab olunurdu.

Hər bir dövlət başçısı və siyasi xadim fəaliyyəti boyu müxtəlif məsələlərlə bağlı ən müxtəlif qərarlar qəbul etməli olur. Qərarlar içərisində cari xarakter daşıyanı, habelə mübahisəli, prinsipial əhəmiyyətlisi də olur.

"Məhdud dairəli" qərarların doğruluğunun, yaxud yanlışlığının böyük fərqi olmur. Çünki kiçik səhvləri düzəltmək asandır. Böyük əhəmiyyətli, xüsusən də xalqın və dövlətin taleyi ilə bağlı qərarlar vermək məsuliyyəti isə hər siyasi və dövlət xadiminə nəsib olmur. Çünki belə qərarlar tarixin keşməkeşli, ağrı-acılı, yaxud keçidli məqamlarında baş verir.

Ömrünü Azərbaycan xalqının xoşbəxtliyinə və gələcəyinə həsr etmiş Ümummilli Lider Heydər Əliyevin qismətinə bir çox belə taleyüklü qərarlar qəbul etmək düşmüşdür. Bu, həm də xalqımızın xoşbəxtliyi olmuşdur. Ona görə ki, yalnız Heydər Əliyev kimi nadir düha sahibi kritik vəziyyətdə tez və səhvsiz qərar verməyi bacarardı. Bununla da fəlakət sovuşdurular, inkişaf və irəliləyiş düz istiqamətdə gedərdi. Üstəlik, belə şəxsiyyətlərin qərarları xalq tərəfindən dəstəkləndiyindən daha güclü və təsirli olur.

Dövlət çevrilişi, hakimiyyət uğrunda mübarizə və bu halda mövcud qüvvələrin qarşı-qarşıya dayanması müasir dünyada tez-tez baş verən hallardır.

Ötən əsrin doxsanıncı illərinin Azərbaycanında da hakimiyyət məsələsinin meydanlarda həll edilməsi adi hal idi. Bu isə zorakılıq və antidemokratiklik olmaqla bərabər, dövləti gücdən salır, iqtisadiyyatı pozur, müharibə şəraitində yaşadığımız bir zamanda ölkə üçün böyük təhlükələr törədirdi.

Azərbaycanda bu sayaq "dağıdıcı metod"un müəllifi AXC-Müsavat cütlüyü sayılırdı.

"Meydan qəhrəmanları" cəbbəxanalarındakı bu "silah"dan istifadə edərək dəfələrlə müvəffəqiyyət qazanmışdılar: müxtəlif nazirlər vəzifələrindən kənarlaşdırılmış, Ə.Vəzirov və A.Mütəllibov iqtidarı onların qarşısından geri çəkilərək müəyyən məsələlərdə güzəştə getmişdilər.

Ən böyük uğurları isə kütləvi aksiyalar dalğasında silah və zor işlədərək A.Mütəllibovu devirmələri olmuşdu. Bununla da, necə deyərlər, dişlərində şirə qalmışdı.

Ulu Öndər Heydər Əliyev Siyasi Bürodan istefa verdikdən sonra ölüm təhlükəsindən və təqiblərdən qurtararaq vətənə qayıtmışdı. Lakin respublikanın ozamankı nankor rəhbərliyi bu böyük insana öz əli ilə tikib qurduğu Bakıda yaşamağa belə imkan verməmişdi. Məcburiyyət qarşısında qalan Ulu Öndər Heydər Əliyev doğulduğu Naxçıvana üz tutmuşdu.

Xalq onu böyük sevgi və məhəbbətlə qarşılamış, muxtar respublikaya rəhbər seçmişdi.

Heydər Əliyev isə özünün hörmət və əlaqələrindən istifadə edərək ağır blokada şəraitində işıqsız, çörəksiz və işsiz qalan əhalinin vəziyyətdən çıxarılması, soyuqdan donmaması üçün əlindən gələni əsirgəmirdi.

Eyni zamanda müstəqilliyin qorunması və inkişafı ilə bağlı uzaqgörən siyasi gedişlər edirdi.

Dövlət idarəçiliyində heç bir səriştə və təcrübəsi olmayan, xalqın varidatını satıb-sovmaqla məşğul olan AXC-Müsavat cütlüyünün əməllərindən zinhara gələn xalq müstəqilliyin və ölkənin xilasının Heydər Əliyevdən asılı olduğunu dərk etdiyindən üzünü ona çevirirdi. Bu isə zorakılıqla hakimiyyətə yiyələnən qüvvələri narahat edirdi. Odur ki, 1992-ci ilin oktyabrında Bakıdan göndərilən qüvvələr silaha arxalanaraq Ulu Öndər Heydər Əliyevi zorakılıqla muxtar respublika rəhbərliyindən kənarlaşdırmağa cəhd etdilər.

Çox ağır və mürəkkəb vəziyyət idi. Qardaş qanı axıdıla bilərdi. Üstəlik, sabitliyin pozulması Naxçıvanı düşmən qarşısında zəiflədər, arzuolunmaz nəticələrə səbəb olardı.

Vəziyyəti qan-qadasız, silah işlətmədən nizama salmaq vacib idi.

Bəs nə etməli?

Heydər Əliyev uzaqgörənliyi və müdrikliyi sayəsində böhran "dinc yolla" aradan qaldırıldı. Rəhbərin çağırışı ilə ayağa qalxan sadə camaat köməyə gəldi, silahlı dəstələr geri oturdularaq çevrilişin qarşısı alındı.

Bu, tarixdə analoqu olmayan hadisə idi.

Hər şey qansız-qadasız ötüşdü, xalq öz sözünü dedi.

1994-cü ilin oktyabrında da belə oldu.

Artıq Azərbaycana rəhbərlik edən Heydər Əliyev AXC-Müsavat cütlüyünü hakimiyyətdən uzaqlaşdıran Surət Hüseynovun dövlət çevrilişi cəhdi ilə üzləşdi.

Lakin yenə də xalqının məhəbbət və dəstəyinə arxalandı.

Gecəyarısı televiziya ilə rəhbərinin müraciətini eşidən minlərlə insan Prezident sarayı qarşısındakı meydana axışaraq rəhbəri ilə birgə olduğunu, onu hər cür təhdid və hədədən qoruyacağını nümayiş etdirdi.

Bu çevriliş cəhdinin də qarşısı silahsız insanlar tərəfindən alındı.

Qanlı-qadalı bir vaxtda - 1993-cü ilin iyun günlərində ölkə rəhbərliyinə gələn Ulu Öndər Heydər Əliyev Azərbaycanımızı və müstəqilliyimizi qorumaq üçün çox böyük işlər gördü və bu mənada, müstəqilliyimizin həqiqi banisi sayılır:

- Onun qətiyyət və uzaqgörənliyi, müdrik siyasəti sayəsində tarixən qısa müddətdə qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirildi, cəbhə bölgəsində atəşkəsə nail olundu, əhalidə toplanmış qanunsuz silah-sursat yığıldı.
- 1994-cü ilin oktyabr, 1995-ci ilin mart dövlət çevrilişi cəhdlərinin qarşısı alındı.
- Ölkənin xaos, qanunsuzluq, anarxiya burulğanından qurtularaq demokratik inkişaf və sərbəst bazar iqtisadiyyatı prinsiplərinin bərqərarı mövqeyinə çıxarılması, əslində, müstəqilliyimizin və dövlətimizin xilası ilə yanaşı, gələcəyimizin də təminatı demək idi.
- Yaradılan möhkəm və dönməz sabitlik dağılmış iqtisadiyyatın bərpasına, islahatların aparılmasına şərait yaratdı və bundan istifadə edilərək müstəqil dövlət quruculuğuna başlandı.

Ən mühüm hadisələrdən biri 12 noyabr 1995-ci ildə baş verdi. Azərbaycan xalqı baş müəllifi Ümummilli Lider Heydər Əliyev olan yeni Konstitusiyanı referendum yolu ilə qəbul etdi. Bununla da hüquqi-demokratik islahatların qanunvericilik bazasının əsas təməl daşı qoyuldu.

Bəşəri inkişafın sivil yoluna qədəm qoyan müstəqil Azərbaycan demokratik islahatlar keçirmək, dünya birliyinin bərabərhüquqlu üzvləri sırasına çıxmaq arzusunda idi. Bu arzu isə Ulu Öndər Heydər Əliyevin yorulmaz və məqsədyönlü fəaliyyəti sayəsində reallığa çevrilirdi.

Qısa müddətdə hüquqi-demokratik dövlət quruculuğuna imkan verən qanunlar hazırlanaraq qəbul edildi. Azərbaycan beynəlxalq konvensiyalara qoşuldu. Qazanılan uğurların zirvəsi kimi ölkəmiz Avropa Şurasına üzv oldu.

İqtisadi sahədə də ciddi dönüş və yüksəliş yarandı.

Kolxoz və sovxozlar dağıdılmış, sənaye müəssisələrinin anbarlarındakı hazır məhsullar və xammallar belə, satılıb sovrulmuş, keçmiş ittifaqın müxtəlif müəssisələri ilə istehsalat əlaqələri qırılmışdı.

Acgöz və səriştəsiz AXC-Müsavat iqtidarı öz təqsiri ucbatından yaranan çörək qıtlığından çıxmaq üçün əhaliyə jmıx yedizdirirdi.

İstehsalı dirçəltmək, ölkəyə investiya qoyulmasına nail olmaq üçün qətiyyətli addımlar atılmalı idi.

Qısa müddətdə ölkədə möhkəm və dönməz sabitlik yaradan Ulu Öndər Heydər Əliyev Azərbaycanda daim əmin-amanlıq və qayda-qanun olacağına xarici dövlətləri və şirkətləri də inandıra bildi.

Çox ağır və gərgin keçən, müxtəlif təxribat və terror əməlləri ilə üzləşən neft danışıqları, nəhayət ki, uğurla nəticələndi!

Əvvəlki iqtidarların heç birinin bacarmadığı bir iş müvəffəqiyyətlə sonuclandı, 20 sentyabr 1994-cu ildə "Əsrin müqaviləsi" adını almış ilk neft sazişi imzalandı.

Bütün dünyaya səs salan bu bağlaşma təkcə Heydər Əliyevin yox, müstəqil Azərbaycanın qələbəsi idi.

Çox böyük müdriklik və uzaqgörənliklə hazırlanan yeni neft strategiyası ölkə iqtisadiyyatı üçün lokomotiv funksiyasını daşımaqla digər sahələri də öz arxasınca aparıb iqtisadi böhrana son qoymalı idi.

Məhz bundan sonra Dövlət Neft Şirkəti ilə daha 21 müqavilə imzalandı və beləliklə, Azərbaycana 60 milyard ABŞ dolları həcmində sərmayə qoyulmasına şərait yaradıldı.

Xəzər neftinin bir neçə istiqamətdə dünya bazarına çıxardılması barədə Heydər Əliyev ideyasına rəğmən daha bir yeni kəmər - Bakı-Supsa neft boru kəməri çəkildi. 12 noyabr 1997-ci ildə ilkin neft hasil edilərək dünya bazarına çıxarıldı.

Uzun sürən danışıq və mübarizədən sonra Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin çəkilişi də reallaşdı, inşaat işlərinə başlandı və uğurla sona çatdırılaraq işə salındı.

Yeni neft strategiyasının gerçəkləşməsi ölkəmizə xarici sərmayə cəlbi və yeni iş yerlərinin açılması funksiyasını yerinə yetirməklə bərabər, başqa bir mühüm missiyaya - Azərbaycanın dünyaya inteqrasiyasına da yardım göstərmiş oldu.

Ulu Öndər Heydər Əliyevin balanslaşdırılmış və uğurlu xarici siyasəti sayəsində ölkəmizdə sabitlik və əlverişli investisiya mühiti yarandığına əmin olan şirkətlər həvəslə respublikamıza gələrək müxtəlif sahələrə yatırım qoyurlar. Sahibkarlığın inkişafına yaradılan əlverişli şərait və mövcud qanunçuluq bazası iqtisadi yüksəlişi şərtləndirən başlıca amillərdəndir.

Ümummilli Lider Heydər Əliyev tərəfindən məharətlə qurulan iqtisadi mexanizm təkmilləşdirilərək bu gün də dəqiqliklə və dayanmadan işləyir, müstəqil dövlətimizin tərəqqisinə xidmət edir.

İqtisadiyyatla bərabər xalqın mənəvi tərəqqisinə də böyük diqqət və qayğı göstərilmişdir. Ən əvvəl demokratik dəyərlərin bərqərar edilməsinə nail olunmuşdur.

Hüquqi-demokratik dövlət quruculuğu yolu ilə gedən Azərbaycanda ən böyük nailiyyətlərdən biri mətbuat və söz azadlığının təmin edilməsidir. Yetmiş il sovet imperiyasının tərkibində qaldıqdan sonra müstəqillik əldə edən dövlətin ən mühüm problemlərindən biri fikir plüralizminin təminatı idi. Bununla bağlı Ulu Öndər Heydər Əliyev ardıcıl tədbirlər gördü və nəticədə kütləvi informasiya vasitələrinin sərbəstliyinə nail olundu:

- Ən əvvəl mətbuata senzura nəzarəti ləğv edildi;
- Kütləvi informasiya vasitələrinin qanunçuluq bazası təkmilləşdirildi;
- Mətbuatın iqtisadi durumunun yaxşılaşdırılması üçün bir neçə addım atıldı, qəzetlər mənfəət və əlavə dəyər vergisindən azad edildi, onlara kreditlər verildi.
- Artıq Azərbaycanda söz və mətbuat azadlığı ilə bağlı heç bir problem yoxdur. Hər kəs istədiyi vaxt qəzet təsis edir, sayt açır, internet televiziyası yaradır, istədiyi mövzuda yazı yazır və öz fikrini açıq ifadə edir.

Xalqın ürəyindən xəbər verən ən mühüm məsələlərdən biri milli-mənəvi dəyərlərin qorunması ilə bağlı verilən məşhur bəyanat oldu. Bazar iqtisadiyyatına keçidlə əlaqədar bəzi sahələrdə mənəvi deformasiya, xalqımızın adət-ənənəsinə və mentalitetinə zidd hallar müşahidə edilirdi. Bu zaman Ulu Öndər Heydər Əliyev etiraz səsini ucaltdı, hamını bu cür yaramaz meyillərlə mübarizəyə çağırdı.

Xalq öz sevimli rəhbərini dəstəklədi, həyata keçirilən təsirli tədbirlər öz müsbət nəticəsini verdi.

Azərbaycan dilinin qorunması sahəsində Heydər Əliyevin qətiyyətli mövqeyi hələ sovet dönəmindən bəlli idi. Məhz onun cəsarətli təkidi hesabına SSRİ dövründə qəbul edilən ölkə Konstitusiyasında Azərbaycan dili dövlət dili tək təsbit olunmuşdu. Bu dəfə isə Ulu Öndər Heydər Əliyev ana dilimizin dövlət dili statusunun reallaşmasına nail oldu.

Onun gördüyü işlər, təşəbbüsü ilə bu sahədə qəbul edilmiş qanunvericilik aktları Azərbaycan dilinin saflığının qorunmasını, dövlət dili səviyyəsində daim işləməsini əsrlər boyu təmin edəcəkdir.

Ulu Öndər Heydər Əliyevin böyüklüyü və əzəməti onda idi ki, o, insanları anlamağı, onlara arxa durub kömək göstərməyi də bacarırdı. Onun Azərbaycana rəhbərliyi dövründə minlərlə gənc ən yaxşı ali təhsil ocaqlarında oxuyaraq diplom yiyəsi olmuş, namizədlik və doktorluq dissertasiyası müdafiə etmiş, yüzlərlə insan vəzifə pilləsi ilə irəli çəkilərək cəmiyyətin sayılıb-seçilən üzvünə çevrilmişdir. Onlarla şəxs müalicə və əməliyyat olunaraq ölümün pəncəsindən qoparılmışdı. Orden-medal, mənzil, fəxri adlar, dövlət mükafatı alanların isə sayı-hesabı olmamışdır.

Müdrik rəhbər cavanlıqlarında hörmət-izzət sahibi etdiklərinin bir qisminin qocalığına da çataraq onlara əl uzatmış, prezident təqaüdü verərək sıxıntı çəkməyə qoymamışdır.

Budur onun qəlbinin böyüklüyü, ürəyinin genişliyi!

Heydər Əliyevin müəllifi və memarı olduğu müstəqil Azərbaycan dövləti bu gün də sürətli inkişaf yolundadır.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm qələbə, düşmən ordusunu məhv edərək məğlub Ermənistana kapitulyasiya aktını imzalatması Ulu Öndərin daha bir müqəddəs vəsiyyətinin həyata keçməsi idi.

27 illik işğala son qoyan Azərbaycan ərazi bütövlüyünü bərpa etdi.

Heydər Əliyev siyasi kursu ilə dönmədən və sürətlə irəliləyən müstəqil Azərbaycan bundan sonra da tarixinə yazılacaq yeni qələbələrə imza atacaqdır.

Bu gün qarşıda duran ən vacib məsələlərdən biri Qarabağın dirçəldilməsi və bərpası, məcburi köçkünlərin tezliklə doğma yurd-yuvalarına qaytarılmasıdır.

Şübhə yoxdur ki, Prezident İlham Əliyev bu vədinə də layiqincə əməl edəcək - Ulu Öndərimizin bir vaxtlar qurub-yaratdığı Azərbaycanı yeni zirvələrə yüksəldəcəkdir!

**Bəxtiyar SADIQOV**

# Şanlı tarix yaradan qüdrətli şəxsiyyət

***O, dahi idi...***
***Fenomen şəxsiyyət, əvəzedilməz siyasətçi idi...***
***Yaşadığı əsrin zəkalı, iradəli, cəsarətli, bacarıqlı liderlərindən biri idi...***
***Liderlik keyfiyyətləri ilə diqqətləri cəlb edən dünya şöhrətli diplomat, dünyanın ən böyük azərbaycanlısı kimi tanınan, Azərbaycan xalqının xilaskar Lideri statusuna sahib olan Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini hər zaman dərin ehtiramla anırıq.***
***Anmağa da borcluyuq. Çünki Heydər Əliyev olmasaydı, nəinki bu gün tarixin ən qüdrətli Azərbaycanı var idi, heç bəlkə də, onun müstəqilliyindən, suverenliyindən əsər-əlamət yox idi. Parçalanmış, torpaqları tamamilə işğal edilmiş və Ermənistan kimi vassal bir dövlət olaraq kimlərinsə əmrlərini, buyruqlarını icra edən ölkə idik.***



Deyirlər, bir xalqın çətin, ağır günlərində tanrı ona xilaskar göndərir. Xalq həmin xilaskara inanaraq arxasınca getdiyi halda nicat yolunu taparaq işıqlı sabaha çıxır. Azərbaycan xalqı da Tanrının böyük lütfü ilə üzləşib ki, ən ağır sınaqlarla üz-üzə olduğu anlarda ona qurtuluş üçün dahi şəxsiyyəti - Heydər Əliyevi xilaskar kimi yetirib. Məhz Ulu Öndərin xilaskarlıq missiyası sayəsində bu gün Azərbaycan dünyada sayılıb-seçilən, nüfuz sahibi olan, iqtisadi müstəqilliyini təmin edən, tam müstəqil siyasət yürüdən ölkə kimi tanınır. Bütün bu uğurlar Heydər Əliyevin vaxtı ilə müəyyənləşdirdiyi inkişaf konsepsiyasının bəhrəsidir.

## Heydər Əliyev dahiliyi - tariximizin qürurlu dünəni, istinad olunacaq işıqlı sabahı

Ümummilli Liderin özü, siyasi fəaliyyəti Azərbaycan tarixinin əlamətdar hadisəsidir. Bizlər Ulu Öndərimizin şəxsində həm də Azərbaycanın dünənini, bu gününü, ən əsası isə sabahını bir daha təhlil edirik. Heydər Əliyevin yaratdıqları barədə minnətdarlıqla danışırıq, onun yolu əsasında bu gün əldə edilən nailiyyətlərdən fəxrlə söhbət açırıq və yenə də məhz onun sayəsində gələcəkdə qazanacağımız qələbələrin real hədəflərini müəyyənləşdiririk.

Ulu Öndər Heydər Əliyev tariximizin qürurlu dünəni, öyrənilən bu günü və daim istinad olunacaq işıqlı sabahıdır. Bu konstekstdə tam əminliklə deyə bilərik ki, Heydər Əliyevin unikallığının, bənzərsizliyinin elə ən vacib simvolu da budur.

Ulu Öndər Heydər Əliyevin bioqrafiyası bütünlüklə Azərbaycanın tərcümeyi-halı, şərəf salnaməsidir. Ölkəmizdə hansı uğura, zəfərə, tərəqqiyə nəzər salsan, orada hökmən Heydər Əliyev imzası, müəllifliyi görünəcək. Azərbaycan və Heydər Əliyev - bütövdür, ayrılmaz vəhdətdir. Yaddaşlara xilaskar lider, qurucu rəhbər, böyük ideoloq, tarix yaradan şəxsiyyət kimi həkk edilən Ulu Öndərin ömür yolu şanlı irsimizdir və daim öyrənəcəyimiz məktəbdir.

Azərbaycan xalqının, dövlətçiliyinin tarixində Ümummilli Lider Heydər Əliyevin müstəsna və əhəmiyyətli rolu var. Dövlətçiliyimizin təməlinin qoyulması və möhkəmlənməsi, ölkəmizin inkişafı bilavasitə Ulu Öndərin adı ilə bağlıdır. Dünya azərbaycanlılarının Ümummilli Lideri sayılan dahi şəxsiyyət bütün zamanlarda Vətəninə, millətinə, dövlətinə ən ali hisslərlə bağlı olub, ömrünü bu xalqın, ölkənin inkişafı, rifahı, tərəqqisi yolunda şam kimi əridib.

Ümummilli Lider Azərbaycana iki dəfə rəhbərlik edib. Hər iki dövrdə də onun hakimiyyətə gəlişi ölkənin və vətəndaşların acınacaqlı durumda, səfalət içində, çətin vəziyyətdə yaşadığı dönəmlərdən keçib. Hər iki dövrün reallığı isə inkişaf, quruculuq, yüksək rifah, xilaskarlıq, qurtuluş olub.

Dahi liderin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci və 1993-2003-cü illəri əhatə edən hər iki zaman kəsiyi dövlətçiliyimizin təməllərini elə möhkəmlətmiş, elə mükəmməl formalaşdırmışdır ki, bu, uzun onilliklər, hətta yüzilliklər boyu Azərbaycanın uğurlu inkişafını təmin edəcək, xarici təhdidlərdən etibarlı şəkildə qoruyacaq.

Ulu Öndər Heydər Əliyev kimi şəxsiyyətin təkcə varlığı belə, ölkəmizin nüfuzunu xeyli qaldırır, xalqımızın necə böyük bir potensiala malik olduğu barədə təsəvvür yaradır.

Əgər dünyanın tanınmış ictimai-siyasi, elm və mədəniyyət xadimlərinin Heydər Əliyev haqqında söylədikləri fikirlərə nəzər yetirsək, həqiqətən də Azərbaycan xalqının nə qədər xoşbəxt xalq olduğuna şahidlik edərik. Həmin fikirlərdən bir neçəsinə diqqət edək: "Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınan və sevilən liderdir" (Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan); "Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və natiqlik istedadına valehəm!" (ABŞ-nin sabiq prezidenti Corc Buş); "Bu qeyri-adi şəxsiyyət Azərbaycanı çiçəklənmə yoluna gətirib çıxarmışdır" (Fransanın sabiq prezidenti Jak Şirak); "Qafqazın müstəqilliyi və azadlığı işində Heydər Əliyev fenomeninin indinin özündə nə qədər böyük rol oynadığını xalq hələ sonra biləcək" (Gürcüstanın sabiq prezidenti Eduard Şevardnadze); "Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət - bir sözlə, şəksiz liderdir" (Zbiqnev Bjezinski); "Heydər Əliyev həqiqətən də tarixi, hətta əfsanəvi bir şəxsiyyətdir" (Çingiz Aytmatov).

Bu deyilən fikirlərə nəzər salarkən qəlbimizdə bir daha qürur və iftixar hissləri baş qaldırır, Heydər Əliyev şəxsiyyətinin nəhəngliyi yenidən göz önündə canlanır. Azərbaycan xalqının Ulu Öndərinə verilən bu yüksək qiymətin əsasında təkcə Vətəni və xalqı üçün gördüyü işlər deyil, zəmanəsinin çağırışlarına çevik reaksiyası, bəşəri idealları, dünyada dostluğa, sülh və tərəqqiyə verdiyi töhfələr dayanır. Göründüyü kimi, Ulu Öndər Heydər Əliyev doğrudan da dünya miqyasında böyüklüyü etiraf edilən və qəbul olunan dahi şəxsiyyətdir. Heydər Əliyev qüdrətli şəxsiyyət kimi yalnız Azərbaycanın və regionun tarixində iz qoymayıb. O, dünya miqyaslı tarixi şəxsiyyətdir. Heydər Əliyev kiçik Azərbaycanda həyata keçirdiyi böyük işlərlə əslində qlobal dünyada mükəmməl bir nümunə yaradıb.

## Xalqa və dövlətçiliyə həsr edilən ömür, daim öyrənəcəyimiz məktəb

Ümummilli Lider Heydər Əliyevin şəxsində həm Azərbaycanın dünənini, bu gününü, həm də işıqlı sabahını bir daha təhlil edirik. Heydər Əliyevin yaratdıqları barədə minnətdarlıqla danışırıq, onun yolu əsasında bu gün əldə edilən nailiyyətlərdən fəxrlə söhbət açırıq və yenə də məhz onun sayəsində gələcəkdə qazanacağımız qələbələrin real hədəflərini müəyyənləşdiririk.

Ulu Öndərin Azərbaycan xalqı və dövləti qarşısındakı əvəzedilməz xidmətləri onun fəaliyyətinin bütün mərhələlərini əhatə edir. Ümummilli Liderin həm SSRİ dövründə, həm də müstəqillik illərində ölkəmizə rəhbərlik etdiyi dönəmdə görülən işlər respublikamızın qüdrətinin artmasına, Azərbaycanın tarixi nailiyyətlər qazanmasına xidmət edib. Müdrik dövlət xadiminin müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi mərhələ sabitlik, tərəqqi dövrü kimi tarixə həkk olunub. Azərbaycanda uğurlu dövlət quruculuğu həyata keçirilib, bütün sahələrdə köklü islahatlar aparılıb. Azərbaycanın beynəlxalq əlaqələri inkişaf etdirilib, dövlətimizin dünyada mövqeyi möhkəmlənib. Ona görə də dövlətçilik tariximizin Heydər Əliyev dönəmi Azərbaycan xalqının və tarixin yaddaşına sabitlik, yüksək rifah, intibah anlayışları ilə həkk olunub.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olub.

Ümumiyyətlə, Ulu Öndərin siyasi fəaliyyətini 3 dövrə bölmək olar - 1969-1982-ci illər, 1982-1993-cü illər və 1993-2003-cü illər.

Əlbəttə ki, göstərilən bu tarixlərin bütün dövrlərində Ulu Öndərin qəlbi Azərbaycanla döyünüb, ölkəmizi hər yerdə yüksək səviyyədə təbliğ edib və hər zaman xalqına, ölkəsinə sevgisini əməllərində göstərib. Ötən əsrin 70-80-ci illərində sovet Azərbaycanına rəhbərliyi dövründə Ulu Öndərin əsas məqsədi ölkəni qarşıdakı müstəqillik dövrünə hazırlamaq idi. Elə bu müqəddəs hədəfə çatmaq üçün böyük fədakarlıqlar göstərib. Azərbaycan tarixinin 1969-cu ildən bəri yaşanan dövrü Heydər Əliyevin adı ilə sıx bağlıdır və tariximizə Heydər Əliyev dövrü kimi həkk olunub. Bu dövrün isə Azərbaycanın gələcək tarixi taleyi baxımından başlıca məzmunu azərbaycançılıqdır.

Heydər Əliyevin ölkədə yaşayan bütün xalqların və fərqli dinlərin təmsilçilərini vahid məqsəd - Azərbaycançılıq ideologiyası ətrafında birləşdirərək yaratdığı tolerantlıq və multikulturalizm modeli dünyanın bu sahədəki ən yaxşı nümunələrindəndir.

Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan yolu, əslində, 1969-cu ildən - məhz onun hakimiyyətə gəlişindən sonra başlayıb. Bu mənada azərbaycançılığın ən parlaq səhifələri də elə həmin illərdən etibarən yazılıb. Ulu Öndər birinci dəfə hakimiyyətə gələndə - 1960-cı illərin axırlarında Azərbaycan iqtisadi və mədəni tənəzzül dövrünü yaşayırdı. O zaman məhz Heydər Əliyevin gəlişi ilə cəmiyyət həyatının bütün sahələrində sürətli yüksəliş, milli ruhun inkişafı və intibahı dövrü başladı. 1970-ci illərin sonunda isə Azərbaycan sosial-iqtisadi inkişaf səviyyəsinə görə ittifaqın ən qabaqcıl respublikaları sırasına çıxdı. 13 il ərzində Heydər Əliyev Azərbaycanı inkişaf səviyyəsinə görə, 15 ölkə arasında 14-cü yerdən 4-cü yerə yüksəltdi.

1982-ci ildə Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçildi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi. SSRİ kimi nəhəng dövlətin hakimiyyət iyerarxiyasında Azərbaycan oğlunun yüksək mövqe tutması çox qürurverici hadisə idi. Bu illərdəki coşqun fəaliyyəti, yüksək işgüzarlığı, fitri təşkilatçılıq bacarığı onun şöhrətini getdikcə artırdı, sorağı SSRİ-nin hüdudlarını aşdı. Heydər Əliyevin mərkəzi hakimiyyətdə yüksək vəzifə tutması ermənilərin Azərbaycanla bağlı məkrli planlarının həyata keçməsinə mane olurdu. Belə ki, 1985-ci ilin əvvəlində Ermənistan KP MK-nın birinci katibi Karen Dəmirçiyan Sov.İKP MK-nın Siyasi Bürosuna müraciət edərək, qondarma "erməni soyqırımı"nın tanınmasını, yəni, 24 aprelin "anım günü" elan olunmasını təklif etmişdi. Siyasi Büronun iclasını aparan Qorbaçov bu təkliflə razılaşsa da, Heydər Əliyevin sərt və prinsipial mövqeyi ilə qarşılaşmışdı.

Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini postunu tutması Qorbaçov-erməni qruplaşmasına əsla sərf etmirdi və onların hədəfi Azərbaycanın böyük oğlunu bu vəzifədən uzaqlaşdırmaq idi. Sov.İKP MK-nın Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yürütdüyü siyasi xəttə etiraz olaraq Heydər Əliyev 1987-ci il oktyabrın 21-də tutduğu vəzifədən istefa verdi. Başda M.S.Qorbaçov olmaqla sovet rəhbərliyi keçmiş Dağlıq Qarabağı Ermənistanın tərkibində görmək istəyirdi. Buna qarşı ən böyük maneə isə məhz Heydər Əliyev idi. Onun istefasından sonra Azərbaycana qarşı həyata keçrilən bütün məkrli planların açıq-aşkar icrasına start verildi.

## Milli Qurtuluş və xilaskarlıq missiyası

Heydər Əliyev siyasi rəhbərliyin bütün maneələrinə, hətta sui-qəsd təhlükələrinə baxmayaraq, 1990-cı ilin iyulunda əvvəl Bakıya, sonra anadan olduğu qədim Naxçıvan torpağına döndü. Bununla da Azərbaycanın qurtuluş missiyası Naxçıvandan başladı.

Qısa müddətdən sonra Ulu Öndərin Naxçıvan Ali Məclisinin sədri seçilməsi, əslində tək Naxçıvan sakinlərinin deyil, bütün Azərbaycan vətəndaşlarının seçimi, istəyi idi. Bu vəzifədə çalışdığı iki ilə yaxın dövrdə Heydər Əliyev elə möhtəşəm işlər gördü ki, onlar əhəmiyyət və miqyasına görə neçə-neçə onilliyə örnək ola bilər. Ümummilli Liderimiz bu qədim diyarı bədnam ermənilərin işğal etməsinə imkan vermədi, onun müdafiə qüdrətini möhkəmləndirdi, hərtərəfli inkişafı üçün ardıcıl tədbirlər həyata keçirdi. Blokada şəraitində yaşayan, Bakıdakı rəhbərliyin davamlı təzyiqlərinə və maneələrinə məruz qalan Naxçıvanda əsl müstəqillik və dövlətçilik modeli yarandı. Təsadüfi deyil ki, müstəqillik və dövlətçiliklə bağlı bütün rəsmi qərarlar Azərbaycan Ali Soveti tərəfindən yox, Naxçıvan Ali Məclisi tərəfindən qəbul olunmuşdu. Müstəqillik və dövlətçiliklə bağlı təşəbbüslərin müəllifi də Azərbaycana o zaman rəhbərlik edən prezidentlər deyil, məhz Heydər Əliyev idi.

Ulu Öndərin Naxçıvan Ali Məclisinin sədri kimi qəbul etdiyi müdrik qərarlar, həyata keçirdiyi məqsədyönlü tədbirlər yeni müstəqillik qazanmış dövlətin aparmalı olduğu islahatların mahiyyətini təşkil edirdi və 1993-cü ildən sonra bütün Azərbaycana şamil olunacaq yeni inkişaf kursunun da əsası idi.

SSRİ rəhbərliyinin imperiya siyasətinə və ermənipərəst mövqeyinə etiraz əlaməti olaraq Azərbaycan xalqı azadlıq hərəkatına qalxdı. Xalqımızın müstəqillik əzmini qırmaq üçün 1990-cı ilin yanvarında Bakıya qoşun yeridildi və qanlı qırğın törədildi. Azərbaycan xalqının taleyinə biganə qala bilməyən Heydər Əliyev özünün və ailə üzvlərinin həyatının təhlükədə olmasına baxmayaraq, yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək sovet qoşunlarının Bakıda törətdiyi qırğınlar ilə əlaqədar bəyanat verdi.

1990-cı illərin əvvəllərində insanlar Heydər Əliyevin fəal siyasətə dönüşünə Azərbaycanın milli qurtuluşunun başlanğıcı kimi baxırdılar. Azərbaycanda yaranmış hakimiyyət böhranı, artan erməni işğalları Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişini qətiləşdirirdi. Xalqın iradəsi ilə baş tutan və tariximizə Qurtuluş Günü kimi düşən bu hadisə həm də Azərbaycanın xilası oldu.

21 noyabr 1992-ci ildə Naxçıvanda xalqın marağı ilə yaşayan 550 nəfər ziyalıdan ibarət təşəbbüs qrupunun iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Konfransda Ulu Öndər Heydər Əliyevin yekdilliklə partiyanın sədri seçilməsinin məntiqi nəticəsi olaraq YAP qısa müddət ərzində cəmiyyətin aparıcı qüvvəsinə, xalqın ən etibarlı tribunasına çevrildi. YAP-ın yaradılması hər şeydən öncə tarixi zərurət idi. Təkpartiyalı avtoritar sistemdən yenicə qopmuş müstəqil Azərbaycanda yeni siyasi mühitdə alternativ, demokratik təsisata ciddi ehtiyac var idi. Buna qədər yaranmış siyasi qurumların xalqın həyatında heç bir müsbət rol oynamaması, özünü təsdiq edə bilməməsi yeni siyasi təşkilatın yaranmasını labüd etmişdi. Bu gün sıralarında təmsil olunmağın qürurunu yaşadığımız, xalqın etimad və inam ünvanı olan Yeni Azərbaycan Partiyası məhz zamanın tələbi ilə yarandı. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin yeni tipli siyasi təsisatda sədr olması, dövlətçilik, azərbaycançılıq məfkurəsi, vətəndaş həmrəyliyi və sosial ədalət prinsiplərinin partiyanın ana xəttini təşkil etməsi YAP-a ilk günlərdən ümumxalq sevgisi qazandırdı.

Dövlət müstəqilliyinin bərpa edildiyi ilk illərdə bütün sahələrdə dərin tənəzzül yaşayan Azərbaycan böyük təhlükələrlə, hətta müstəqilliyini itirmək və parçalanmaq təhlükəsi ilə üz-üzə qaldı. Belə ağır bir dövrdə xalqın təkidi ilə hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirdi, ölkəmizi xaos və anarxiyadan qurtardı. Bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısı alındı, dövlətçiliyimiz hər cür sui-qəsddən, dövlət çevrilişi cəhdlərindən qorundu və ölkəmiz dayanıqlı inkişaf yoluna çıxdı. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi illər xalqımızın yaranmış tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir. Heydər Əliyevin hakimiyyətə qayıtdığı 1993-cü ilin 15 iyun günü Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi yazıldı.

Bir tərəfdən ölkədə yaranmış xaotik vəziyyəti nizamlayan Ulu Öndər, digər tərəfdən erməni işğalına qarşı qlobal miqyasda savaşa başladı. Məhz Heydər Əliyevin çox gərgin və genişmiqyaslı fəal diplomatik səyləri nəticəsində dünyanın böyük dövlətlərinin və aparıcı beynəlxalq təşkilatlarının Azərbaycana, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibəti əsaslı surətdə dəyişdi, Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə çatdırıldı. Ulu Öndərin inkişaf konsepsiyasına uyğun atılan bütün addımlar hər sahədə yüksəlişi şərtləndirdi. Əgər Ulu Öndərin bənzərsiz siyasətinə, yəni Azərbaycanın tənəzzüldən inkişafa, uçurumdan yüksəlişə aparan müxtəlif dövrlərdəki titanik fəaliyyətinə nəzər yetirsək, bir daha şahidi olarıq ki, dahi şəxsiyyət həqiqətən də qısa vaxtda möcüzələr yaradıb. Heydər Əliyev öz parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratmış və gələcəyə aparan yolları müəyyən etmişdir.

## Suverenliyin təmini - Heydər Əliyev ideyalarının təntənəsi

Ulu Öndər Heydər Əliyevin dövlət və ordu quruculuğu ənənələri, iqtisadi islahatları, sabitlikyaratma üsulları yeni müstəqillik qazanmış ölkələr üçün sınaqdan uğurla çıxmış ən dəyərli "yol xəritəsi" idi.

Bu "yol xəritəsi"ni, Heydər Əliyevin müəllifi olduğu yüksəliş konsepsiyasını, onun yarımçıq qalan işlərini isə layiqli varisi möhtərəm Prezident İlham Əliyev çox məharətlə gerçəyə çevirdi.

Bütün dünya şahiddir ki, Heydər Əliyev məktəbinin ən layiqli məzunu kimi cənab İlham Əliyev məhz dahi şəxsiyyətdən öyrəndiyi siyasi kursu, daxili və xarici diplomatiyanı necə reallaşdırdısa, cəmi 20 ildə adını dünyada ən islahatçı Prezident, etibarlı tərəfdaş, sözünə və vədinə sadiq barışdırıcı lider, ən arzuolunan dövlət başçısı, qlobalmiqyaslı layihələrin müəllifi və Müzəffər Ali Baş Komandan kimi tanıtmağa müvəffəq oldu. Ötən illər həm də onu göstərdi ki, Prezident İlham Əliyev qurucu, birləşdirici, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi görən liderdir.

Vətən müharibəsində əldə olunan Böyük Zəfər, bu il həyata keçirilən anti-terror tədbirləri ilə suverenliyimizin tam təmin olunması, qondarma "respublikanın" və 200 illik erməni xülyasının məhv edilməsi məhz Ulu Öndər Heydər Əliyev ideyalarının təntənəsi idi. Onun müəyyənləşdirdiyi modern ordu quruculuğu konsepsiyası Müzəffər Ali Baş Komandan İlham Əliyevin dahi intellekti, yüksək hərbi strateqliyi ilə Zəfəri reallaşdırdı. İki əsrlik münaqişəyə, 30 illik savaşa, 1 milyon məcburi köçkünün yurd həsrətinə son qoyuldu.

İkinci Qarabağ müharibəsində qazanılmış parlaq Qələbə güclü dövlət-güclü ordu konsepsiyasının təntənəsidir. Otuz il işğal altında qalan torpaqlarımız məhz bu konsepsiya nəticəsində hərbi-siyasi yolla azad olundu, ərazi bütövlüyümüz təmin edildi. Ulu Öndər Heydər Əliyevin ilk dəfə Naxçıvanda qaldırdığı üçrəngli bayrağımızı cənab İlham Əliyev Şuşada, Xankəndidə dalğalandırdı.

Regionun gündəliyini bu gün Azərbaycan diktə edir. Dünya gücləri Azərbaycanın yaratdığı yeni reallıqlarla hesablaşırlar. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasına uyğun olaraq, nəhəng transmilli nəqliyyat və enerji layihələri həyata keçirən Azərbaycanın bu təşəbbüsləri dünyanın aparıcı dövlətləri tərəfindən dəstəklənir, ölkəmizə iqtisadi-siyasi dividendlər qazandırır.

Azad olunmuş torpaqlarımızda genişmiqyaslı bərpa-quruculuq işləri heç kəsdən yardım alınmadan Azərbaycanın öz imkanları hesabına sürətlə davam etdirilir, Böyük Qayıdış Proqramı çərçivəsində ilk uğurlu addımlar atılır.

Ulu Öndərin siyasi kursunun layiqli davamçısı olan Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanı bu böyük uğurlara çatdırmaqla ata vəsiyyətini layiqincə yerinə yetirdi.

## Ulu Öndərin irsini yaşadan müqəddəs ünvan, sevgidən qurulan abidə

Ümumiyyətlə, Azərbaycanda bu gün əldə olunan böyük nailiyyətlər, qazanılan zəfərlər Ulu Öndərin əsasını qoyduğu təməllərin nəticəsidir. Deməkm, Heydər Əliyev həm də bütün uğurlarımızda, inkişafımızda yaşayır. Çox əlamətdar haldır ki, Ulu Öndəri xalqın nəzərində yaşadan bir müqəddəs ünvan da var - Heydər Əliyev Fondu.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi fond dahi şəxsiyyətin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılıb. 2004-cü ildən fəaliyyətə başlayan fond ötən 19 ildə ölkəmizdə təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına mühüm töhfəsini verir. Fondun məqsədləri - görkəmli siyasi xadim Heydər Əliyevin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi, işləyib hazırladığı siyasətin öyrənilməsinə, təbliğinə və bu ideyaların həyata keçirilməsinə dəstək verməkdir. Fond tərəfindən Azərbaycanın bütün bölgələrində, hətta xarici ölkələrdə çoxsaylı sosial, mədəni, tibbi, təhsil infrastrukturları tikilir, köməyə ehtiyac duyanlara yardımlar göstərilir.

Sevindiricidir ki, Qarabağın və Şərqi Zəngəzurun quruculuğunda yenə də daim bu torpaqların böyük himayədarı olmuş Ulu Öndər Heydər Əliyevin şərəfli adı, müqəddəs imzası var. Ümummilli Liderin adını daşıyan fond bu prosesdə yenə də ön sıradadır. Hörmətli Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu işğaldan azad edilmiş ərazilərdə tarixi-mədəni irsin bərpasında, sosial-humanitar infrastrukturun yaradılmasında, quruculuq və abadlıq işlərində böyük fədakarlıq göstərir.

Mehriban xanım Əliyevanın göstərişi ilə başlanılan xüsusi layihələrin icrasına yerli mütəxəssislərlə yanaşı, xarici ekspertlər də dəvət olunublar. Bərpa prosesində Avstriya, Böyük Britaniya, Bolqarıstan, İtaliya, Latviya, Rusiya, Türkiyə, Gürcüstan və digər ölkələrdən gələn mütəxəssislər də iştirak edirlər. Bildiyimiz kimi, Şuşa şəhərində Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işləri yekunlaşdı və istifadəyə verildi. Həmçinin böyük Azərbaycan şairi Molla Pənah Vaqifin büstü, görkəmli bəstəkar Üzeyir bəy Hacıbəylinin heykəli fondun dəstəyi ilə Şuşa şəhərində yenidən ucaldılıb.

Minlərlə qədim, tarixi tikiliyə, dini, milli abidəyə yeni həyat verən Heydər Əliyev Fondu işğaldan azad olunan ərazilərdə dini abidələrin bərpası üçün işləri davam etdirir. Fondun layihələri çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçirilir. Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçəlir.

Hörmətli Mehriban xanım Əliyevanın bu dəyərli fəaliyyəti Ulu Öndərin ruhuna böyük ehtiram olmaqla bərabər, həm də onun ideyalarının, amallarının əbədi yaşayacağını nümayiş etdirir.

Bütün bunlar Heydər Əliyevin nə qədər dahi, əvəzedilməz şəxsiyyət olduğunu təsdiqləyən reallıqlardır. Buna görə də 100 illik yubileyini qeyd etdiyimiz xilaskar liderimizi hər bir azərbaycanlı qürurla anır və öz ehtiramını ifadə edir. Bu da bir daha sübut edir ki, Heydər Əliyev təkcə Azərbaycan dövləti və dövlətçiliyi üçün deyil, bütün Azərbaycan xalqı üçün əhəmiyyətli rola malikdir və çox dəyərlidir. Hər kəsin qəlbində Ulu Öndərin sevgidən və hörmətdən qurulan abidəsi var.

*Ümummilli Liderdən bəhs edərkən həm keçmiş, həm bu gün, həm də gələcək haqqında danışmış oluruq, çünki o, bugünkü güclü Azərbaycanın təməlini qoyub. Heydər Əliyevin ən böyük arzusu Azərbaycan torpaqlarının Ermənistanın işğalından azad olunması idi. Şükürlər olsun ki, Ali Baş Komandan, Prezident İlham Əliyev Ulu Öndərin layiqli davamçısı kimi ata vəsiyyətini yerinə yetirdi. Heydər Əliyevin ruhu bu gün şaddır. Azərbaycan xalqı var olduğu müddətdə Heydər Əliyev daim xatırlanacaq və qəlbimizdə yaşayacaq.*

**Səttar MÖHBALIYEV,**
***Milli Məclisin deputatı,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

# Heydər Əliyev dühasının işıqları

**Dünyanın böyük siyasətçiləri və görkəmli dövlət xadimləri tərəfindən Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev zəngin dövlətçilik məktəbi yaratmış dahi şəxsiyyət kimi qəbul olunur. Əhalisinin sayına və ərazisinin miqyasına görə çox da böyük olmayan bir ölkəni təmsil edən Heydər Əliyevin adı dünyada ən tanınmış qüdrətli şəxsiyyətlərin adları ilə birlikdə çəkilir. Böyük siyasətin və dövlətçilik işinin dərinliklərinə daha çox bələd olan, dövlətçilik işinin məsuliyyətli vəzifələrini öz çiyinlərində real hiss edən dövlət xadimlərinin təqdimatlarında Heydər Əliyevin yüksək dövlətçilik və idarəetmə bacarıqları, qeyri-adi istedadı, möhkəm siyasi iradəsi, müdriklik və uzaqgörənliyi ilə həmişə diqqət mərkəzinə çəkilmiş, bir çox hallarda dünyaya nümunə kimi göstərilmişdir.**

Məsələn, Amerikanın keçmiş prezidenti Corc Buş (ata) öz ölkəsində müstəqil Azərbaycan dövlətinin rəhbərini özünün şəxsi qayığında ailəsinə qonaq aparması digər dövlətlərin başçılarının tarixində təkrar edilməyən hadisədir. Bu, sadəcə Amerikasayağı qonaqpərvərlik nümunəsi olmayıb, Heydər Əliyevin Amerika dövləti tərəfindən hansı səviyyədə qəbul edilməsindən başqa, həm də rəmzi mənada dünya sükanının idarəçiliyinə nə qədər yaxın olduğunu diqqətə çatdırır. Təsadüfi deyildir ki, elə həmin vaxtlarda Amerikanın prezidenti kimi Corc Buş etiraf etməli olmuşdu ki, Azərbaycan Respublikasının Prezidenti "Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və natiqlik istedadına valehəm!" Amerika Birləşmiş Ştatlarının digər bir prezidenti Bill Klinton isə görkəmli dövlət xadimi Heydər Əliyevin nadir dövlətçilik istedadı qarşısında öz heyrətini gizlətməyərək bəyan etmişdi ki, "Heydər Əliyev təkcə Azərbaycanı, Amerikanı deyil, bütün dünyanı idarə etməyi bacaran bir siyasi xadimdir". Fikrimcə, Amerikanın dövlət başçıları Heydər Əliyevdən başqa digər heç bir lider haqqında bu qədər açıq və yüksək münasibətlərini büruzə verməmişlər.

Dünya dövlət başçılarının həyatında nadir hallarda rast gəlinən belə tarixi məqamlar görkəmli dövlət xadimi Heydər Əliyevin tərcümeyi-halında bir neçə dəfə baş vermişdir. Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl öz təyyarəsi ilə etibarlı dostu, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin görüşünə gəlməsi də prezidentlərin həyatındakı nadir hadisələrdəndir. Məlum olduğu kimi, Türkiyə Cümhuriyyətinin siyasi həyatında uzun bir tarixi dövr ərzində xüsusi mövqe tutmuş Süleyman Dəmirəllə Azərbaycan xalqının lideri Heydər Əliyevin tanışlıq və dostluq əlaqələri hələ sovet hakimiyyəti illərindən etibarən başlamış və ən müxtəlif siyasi vəziyyətlərdə davam etdirilmişdi. Ona görə də Heydər Əliyevin SSRİ rəhbərliyi tərəfindən istefaya göndərilməsindən sonra, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyərkən Avropanın ən güclü dövlətlərindən biri olan Türkiyə Cümhuriyyətinin Baş nazirinin Naxçıvana səfər etməsi ən çətin şəraitdə qorunub saxlanan möhkəm və etibarlı dostluğun ibrətamiz nümunəsi idi. Lakin iki siyasət nəhənginin - Süleyman Dəmirəllə Heydər Əliyevin tarixi Naxçıvan görüşü sınaqlardan çıxmış əsl dostluğun ibrətamiz nümunəsi olmaqla bərabər, həm də Azərbaycan-Türkiyə münasibətlərinin yeni tarixi epoxadakı unudulmaz və əhəmiyyətli hadisələrindən biri idi. Türkiyə Cümhuriyyətinin rəhbər şəxsiyyətinin Naxçıvana səfəri bu ölkənin dünyamiqyaslı siyasi xadim kimi məhz Heydər Əliyevin simasında Azərbaycana bəslədiyi xüsusi hörmət və ehtiramın əyani ifadəsi idi. Eyni zamanda Süleyman Dəmirəlin Naxçıvan Muxtar Respublikasına səfəri o zaman Ermənistan tərəfindən çətin blokada şəraitinə salınmış Naxçıvan diyarının Azərbaycanın tərkibində qorunub saxlanmasına, erməni işğalından xilas edilməsinə Türkiyə Cümhuriyyətinin göstərdiyi siyasi-hərbi dəstəyin beynəlxalq aləmin diqqətinə çatdırılması mənasında da əhəmiyyətli hadisə olmuşdur. Beləliklə, Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işlədiyi qısa müddətdə Süleyman Dəmirəlin Azərbaycanın bu regionunun müdafiəsinə və inkişafına göstərdiyi xüsusi diqqət və qayğı geniş mənada yenicə müstəqillik qazanmış ölkəmizin Türkiyə Cümhuriyyəti ilə əlaqələrinin formalaşdırılmasında mühüm addımlara çevrilmişdir. Xüsusən 28 may 1992-ci il tarixdə Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin İqdır-Aralıq bölgəsi arasında Araz çayı üzərində salınmış Ümid körpüsünün açılışı mərasimində Süleyman Dəmirəlin iştirakı və çıxışı buradan cəmi bir neçə kilometr aralıda yerləşən Ermənistana və onun havadarlarına ünvanlanmış sərt bəyanat kimi xüsusi əhəmiyyətə malik tarixi hadisə idi. Bundan əvvəl Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin Süleyman Dəmirəlin dəvəti ilə Türkiyədə Özalla görüşünün təşkili, Naxçıvana iqtisadi yardım göstərilməsi haqqında qardaş ölkənin qərar qəbul etməsi və həyata keçirməsi, Naxçıvandan yüz nəfər gəncin Türkiyəyə ali təhsil almağa göndərilməsi və sair kimi hadisələr Heydər Əliyev - Süleyman Dəmirəl münasibətlərinin Azərbaycan-Türkiyə əlaqələrinin inkişafına nə qədər mühüm töhfə verdiyini nümayiş etdirir. Bu əlaqələr görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyət göstərdiyi 1993-2003-cü illərdə daha da genişlənmiş, Türkiyə Cümhuriyyəti ilə strateji əhəmiyyətə malik olan çoxcəhətli münasibətlərin formalaşmasında və daha da möhkəmləndirilməsində xüsusi əhəmiyyət kəsb etmişdir.

Türkiyə Cümhuriyyətinin Prezidenti vəzifəsində işlədiyi dövrdə Süleyman Dəmirəlin görkəmli dövlət xadimi Heydər Əliyev haqqında söylədiyi sözlər Azərbaycan xalqının Ümummilli liderinin dövlətçilik istedadına verilmiş yüksək qiymətin ifadəsidir: "Heydər Əliyev təkcə Azərbaycanın deyil, bütün türk dünyasının yetişdirmiş olduğu ən məşhur dövlət xadimlərindən biridir". Bütün bunlara görə fikrimizcə, Heydər Əliyev - Süleyman Dəmirəl münasibətləri bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın siyasi iradələri ilə özünün ən yüksək inkişaf səviyyəsinə çatdırılmış Azərbaycan-Türkiyə əlaqələrinin etibarlı təməllərini təşkil edir. Vaxtilə görkəmli dövlət xadimi Heydər Əliyevin Türkiyə Böyük Millət Məclisində çıxışı zamanı bəyan etdiyi "Bir millət - iki dövlət" formulu hazırda Azərbaycan-Türkiyə əlaqələrinin strategiyasını müəyyən edən dövlətçilik təliminə çevrilmişdir. Qardaş ölkə ilə qurulmuş hərtərəfli əlaqələr və böyük siyasi etimad bütün cəbhələrdə - həm ikitərəfli münasibətlərdə və həm də beynəlxalq miqyasda qarşılıqlı dəstəyin və həmrəyliyin inkişaf etdirilməsinə böyük töhfələr verməkdə davam edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Cümhuriyyəti ilə əlaqələri müasir dövrün çağırışlarına uyğun olaraq daha da inkişaf etdirərək ən yüksək səviyyəyə çatdırmışdır.

Görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi dühası və dövlətçilik məharəti haqqında dövrün ən böyük dövlət xadimləri ən müxtəlif səviyyədə yüksək fikirlər söyləmişlər. Birləşmiş Millətlər Təşkilatının Baş Katibi Butros Qali, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Fransanın Prezidenti Jak Şirak, Qazaxıstanın Prezidenti Nursultan Nazarbayev, Gürcüstan Respublikasının Prezidenti Eduard Şevarnadze, Böyük Britaniyanın Baş Naziri Toni Bleyr, Pakistanın Baş Naziri Benəzir Bhutto, böyük qırğız yazıçısı Çingiz Aytmatov, dünyaşöhrətli musiqiçi Mstislav Rostropoviç, dünyanın ilk qadın kosmonavtı Valentina Tereşkova və onlarla başqaları kimi beynəlxalq aləmdə qəbul edilmiş şəxsiyyətlərin Heydər Əliyev dühası haqqındakı fikirləri Azərbaycan xalqının Ümummilli Liderinin xidmətlərinin ümumdünya miqyasında etiraf olunmasının ifadəsidir. Ən başlıcası isə Heydər Əliyev doğma xalqı tərəfindən birmənalı şəkildə sözün böyük mənasında qüdrətli lider, əsl xilaskar, müstəqil dövlətimizin banisi və qurucusu kimi daim əziz tutulur, sevilir, sonsuz ehtiramla yad olunur. Heydər Əliyevin Ümummilli Lider kimi şöhrət qazanması bu dahi şəxsiyyətin əbədiyyət zirvəsini fəth etməsinin real göstəricisidir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin böyük siyasi dühasının əsasında onun Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətləri dayanır. Ulu Öndər həm sovet hakimiyyəti illərində, həm də müstəqillik dövründə Azərbaycan xalqının tarixi taleyində və milli-mənəvi təkamülündə mühüm rol oynamışdır. Heç şübhəsiz, Azərbaycana rəhbərliyinin birinci mərhələsində ölkəmizi sovetlər ittifaqının geridə qalmış regionundan ən inkişaf etmiş respublikalarından birinə çevirməsi Heydər Əliyevin tarixi xidmətidir. Sovet dövrünün yaratdığı bütün məhdudiyyətlərə baxmayaraq, 1978-ci ildə Azərbaycan dilinin respublikamızın Konstitusiyasında dövlət dili kimi təsbit edilməsi Heydər Əliyevin adı ilə bağlı olan nadir siyasi hadisədir. Özünü dünyanın ən inkişaf etmiş "derjava"sı elan etmiş SSRİ-nin siyasi-ideoloji doktrinalarının hakim olduğu dövrdə keçmiş ittifaq miqyasında ən nüfuzlu mətbuat orqanlarından biri kimi tanınan "Literaturnaya qazeta"ya verdiyi müsahibəsində sovetlər ittifaqında neqativ halların mövcud olduğunu nəzərə çatdırması və tənqid etməsi, barışmazlıq nümunəsi göstərməsi Heydər Əliyev cəsarətinin təkrarsız nümunəsidir. Sovetlər ittifaqında sovet rəhbərlərindən heç biri SSRİ dövlətini hər hansı bir şəkildə tənqid etməyə cəsarət edə bilməmişdir. Bundan başqa, görkəmli dövlət xadimi Heydər Əliyevin Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilməsi və SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini vəzifəsinə təyinat alması da bu dahi şəxsiyyətin siyasi dühasının qeyri-adi böyüklüyünün mühüm göstəricilərindən biridir. Nəhayət, mənsub olduğu xalqı hələ sovet hakimiyyəti dövründə dövlət müstəqilliyinə hazırlaması Heydər Əliyev uzaqgörənliyinin əməli ifadəsidir.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi dövrünün taleyüklü ən böyük hadisələri də dünyamiqyaslı qüdrətli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev müstəqilliyin başlanğıc illərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışarkən Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bu diyarı erməni işğalından xilas etmiş, bu regionda ölkəmizin ərazi bütövlüyünü qorumuşdur. Siyasi-hərbi şəraitin ən çətin dövründə, 3 oktyabr 1993-cü ildə Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə ölkəmizin tarixində tam yeni era başlanmışdır. Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, möhkəm siyasi iradəsi, beynəlxalq aləmdəki böyük nüfuzu, mahir idarəçilik bacarığı Azərbaycanın dövlət müstəqilliyinin itirilmək təhlükəsinin aradan qaldırılmasında həlledici rol oynamışdır. Real vətəndaş müharibəsi təhlükəsindən xilas edilmiş gənc Azərbaycan Respublikasında dərin siyasi-iqtisadi və hərbi böhranın aradan qaldırılması məhz Heydər Əliyev dühası əsasında mümkün ola bilmişdir. O, sözün əsl mənasında Azərbaycanın dövlət müstəqilliyinin qüdrətli xilaskarı və böyük qurucusudur.

Dövlət müstəqilliyimizin ən böyük hadisələrindən biri olan milli ordu quruculuğunun əsası Heydər Əliyev tərəfindən qoyulmuşdur. Qarabağ savaşında ilk dönüş də Heydər Əliyevin Ali Baş Komandanlığı ilə Horadiz əməliyyatları zamanı tarixi ərazilərimizin düşməndən geri qaytarılmasının mümkünlüyünün nümayiş etdirilməsi ilə baş tutmuşdur. Lissabon Sammitində əldə edilmiş siyasi üstünlük beynəlxalq miqyasda Qarabağ istiqamətində qazanılmış mühüm uğurlardan biri olmuş, dünya ictimaiyyətində Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınmasında və ədalətli mübarizə aparmasının qəbul edilməsində əhəmiyyətli rol oynamışdır. Beynəlxalq aləmdəki çətin ictimai-siyasi şəraitdə Azərbaycan Respublikasının Avropa Şurasının üzvlüyünə qəbul edilməsi də Heydər Əliyevin dövlət rəhbəri kimi tarixi xidmətidir.

Müstəqilliyin başlanğıc illərində dərin iqtisadi böhran vəziyyətinə düşmüş Azərbaycan Respublikasında iqtisadiyyatın tam yenidən qurulması Heydər Əliyev dövrünün böyük reallığıdır. Mürəkkəb geosiyasi şəraitdə Heydər Əliyevin siyasi iradəsi və beynəlxalq aləmdəki nüfuzu hesabına 20 sentyabr 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" müstəqilliyimizin gələcək taleyinin həll edilməsinin qarantı olmuşdur. Sözün əsl mənasında "Əsrin müqaviləsi" Heydər Əliyev epoxasının əfsanəsidir. Haqlı olaraq "Əsrin müqaviləsi" Azərbaycan tarixinə Heydər Əliyev müqaviləsi kimi daxil olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Əsrin müqaviləsi"nin həyata keçirilməsini təmin etməklə Azərbaycan tarixində yeni bir era açmışdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə istismara verilmiş Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars, TANAP, TAP neft-qaz kəmərləri Azərbaycan Respublikasının iqtisadi inkişafında müstəsna rol oynamaqla bərabər, həm də ölkəmizə etibarlı tərəfdaşlar və müttəfiqlər qazandırmışdır. Digər tərəfdən, Azərbaycan Respublikasında bazar iqtisadiyyatına keçid istiqamətində atılmış addımlar, torpaq islahatlarının uğurla başa çatdırılması, özəl sektorun inkişaf etdirilməsinə dair qərarların qəbulu müstəqil dövlətimizin iqtisadi əsaslarının təmin edilməsi ilə nəticələnmişdir.

Azərbaycanda elm, təhsil və mədəniyyət siyasəti də müstəqillik dövründə Heydər Əliyevin rəhbərliyi ilə yenidən qurulmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi Heydər Əliyevin 16 dekabr 1991-ci ildə "Dünya Azərbaycanlılarının Həmrəylik Günü"nün təsisi haqqında qəbul etdiyi tarixi qərar sonrakı illərdə Azərbaycan Respublikası Prezidentinin həmin istiqamətdə atdığı yeni addımlarla daha da genişləndirilərək Azərbaycançılıq hərəkatı səviyyəsinə qaldırılmışdır. Heydər Əliyevin rəhbərliyi ilə Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi müstəqil dövlətimizin ictimai-siyasi həyatında böyük hadisə olmaqla bərabər, "dünya azərbaycanlıları" anlayışının daha da möhkəmləndirilməsinə xidmət etmişdir. Dövlət Diaspor Komitəsinin yaradılması da azərbaycançılıq hərəkatının genişləndirilməsində əhəmiyyətli addım olmuşdur. Bütün bunlar son nəticədə azərbaycançılığın dövlət ideologiyası kimi qəbul edilməsinə gətirib çıxarmışdır. Bu mənada görkəmli dövlət xadimi Heydər Əliyev müstəqil Azərbaycanın dövlət ideologiyasının - Azərbaycançılıq ideologiyasının banisidir.

Azərbaycanda elm siyasətinin həyata keçirilməsində də Heydər Əliyevin xüsusi xidmətləri olmuşdur. Hələ sovet hakimiyyəti illərində Heydər Əliyev Azərbaycan elminin xalqımızın milli maraqlarına, ölkəmizin dövlətçilik mənafelərinə xidmətinin təmini istiqamətində tarixi qərarlar qəbul etmişdir. Müstəqillik epoxasında da Heydər Əliyev dühası Azərbaycan elminin inkişafı yollarına işıq saçmışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 4 yanvar 2003-cü il tarixli Fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına Milli Elmlər Akademiyası statusu verilməsi dövlətimizin elm siyasətinin milli maraqlara və bəşəri dəyərlərə doğru istiqamətləndirilməsini müəyyən etmişdir. Ulu Öndər Heydər Əliyevin Milli Elmlər Akademiyasının yeni tarixi epoxadakı inkişafını tənzimləyən və istiqamətləndirən nizamnaməsini təsdiq etməsi, akademiyanın yubileylərində iştirak etməsi və nitq söyləməsi, müasir dövrün çağırışlarını diqqət mərkəzinə çatdırması elm sahəsində yeni islahatların həyata keçirilməsinə meydan açmışdır.

Bir sözlə, Heydər Əliyev dühasının işığı Azərbaycan xalqının və dövlətimizin inkişafının bütün sahələrini əhatə etmiş, hər bir istiqamətdə köklü, əsaslı dəyişikliklərin, böyük uğurların, mühüm nailiyyətlərin qazanılması ilə nəticələnmişdir. Bu mənada, görkəmli dövlət xadimi Azərbaycan xalqının taleyini dəyişdirmiş, dövlətimizin inkişafında yeni epoxa yaratmış tarixi şəxsiyyətdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizə rəhbərlik etdiyi 20 il ərzində müstəqil dövlətimizi yeni inkişaf və böyük intibah mərhələsinə çatdırmışdır. Azərbaycan tarixinə 44 günlük ədalətli müharibə kimi daxil olmuş Vətən müharibəsində qazanılmış tarixi Zəfər və 20 sentyabr 2023-cü ildə uğurla keçirilmiş hərbi əməliyyat nəticəsində ölkəmizin ərazi bütövlüyünün və suverenliyimizin tam təmin edilməsi Heydər Əliyev ideallarının böyük təntənəsidir. Azərbaycan Respublikası xalqımızın çoxəsrlik tarixində ilk dəfə olaraq ölkəmizin ərazi bütövlüyü şəraitində prezident seçkilərinə getməklə inkişafımızın yeni tarixi mərhələsinə qədəm qoyur. Heydər Əliyev dühasının işıqları İlham Əliyev epoxasının geniş üfüqləri Azərbaycan xalqının daha parlaq sabahlara və böyük inamlı hədəflərə doğru inkişafına gur işıq salır.

**İsa HƏBİBBƏYLİ,**
***AMEA-nın prezidenti, akademik, Milli Məclisin deputatı***



# Xilaskarlıq missiyası

Allahın bəxş etdiyi taleyi, qisməti insan özü yaşatmağa, ucaltmağa, dəyərləndirməyə borcludur. Xoşbəxt, uzunömürlü, yaddaqalan olması insanın özündən, amalından, əməlindən asılıdır.

Bəzi insanlar "Taleyimi yazan belə yazib" deyə Yaradanı günahlandırırlar. Zəhmət çəkməyib, bir peşə, sənət qazanmayıb çətinliklə yaşayanlar, ev-eşik, iş sahibi olmayanlar, bəd əməllərinin əzab-əziyyətini çəkənlər çox vaxt talelərinə qarğımaqla təskinlik tapırlar. İnsan verilən ömrü özü mənalandırır, həyatını özü qurur, əməlləri ilə tanınır, münasibəti ilə seçilir, xidmətləri ilə hörmət qazanır, şücaəti, qəhrəmanlığı ilə cəmiyyətin sevimlisinə çevrilir. Öz zehni, düşüncəsi, qabiliyyəti, təşkilatçılığı, xeyirxahlığı, humanistliyi, bəşəri ideyaları ilə tanınan, mənalı ömür quran insanlar ilk növbədə zəhmətlərinə borcludurlar.

Ulu Öndər Heydər Əliyevin valideynləri məhz halal zəhmətin sayəsində unudulmaz bir ömür qazanmışlar. Tale bu ailəyə çətinliklə qazanılan bir tikə çörək qismət etməsinə baxmayaraq, zəhmət, fədakarlıq, elm ailə üzvlərinin hər birinə mənalı həyat, bəxtiyarlıq, ucalıq bəxş etmişdir.

Əliyevlər ailəsi öz elmləri, əməlləri, fəaliyyətləri ilə nəinki bir ailənin, bir nəslin Azərbaycanın başını ucaltmışlar. Azərbaycan elminə, iqtisadiyyatına, mədəniyyətinə böyük töhfələr verən bu insanlar Yaradanın bəxş etdiyinə güvənməklə yaratmaqdan, qurmaqdan, tikməkdən, insanlara əl uzatmaqdan, kömək etməkdən, qayğı göstərməkdən doymamışlar. Həyatlarının mənasını vətənə, xalqa xidmətdə görən, milli-mənəvi dəyərlərinə, tarixinə, dilinə, dininə arxalanan, haqq-ədaləti, insanlığı uca tutan, azərbaycanlı olmaları və Azərbaycanı ucaltmaqla fəxr edən bu ictimai-siyasi xadimləri, alimləri, sənətkarları, müəllimləri birləşdirən, yüksəldən isə bir amal olub - vətəndaşlıq borcu və zəhmət. Bu insanların hər birinin xatirəsi bizim üçün əzizdir. Biz onları hər an anır, xidmətlərini yüksək qiymətləndiririk. Onlar bizim üçün canlıdırlar, çünki əməlləri, amalları yaşayır və bizə qüvvət, güc verir.

Dünyasını 20 il bundan əvvəl dəyişsə də, Ulu Öndər Heydər Əliyev dünən də yanımızda idi, bu gün də bizimlədir və gələcəkdə də hər an bizimlə olacaq. Çünki o bir günəşdir, heç vaxt sönmür, hərarəti, nuru tükənməzdir. Onun ideyaları bəşəridir, qalibdir, uğurludur, dönməzdir. Azərbaycan bu ideyaların işığında dünyaya nur saçır, inkişaf edir, qələbələr qazanır, düşmənlərimizi sarsıdır, haqq-ədaləti sahmana salır, yerinə qoyur.

Heydər Əliyevi yaşadan, ucaldan, dünya şöhrəti qazandıran, xalqına, torpağına bağlılığı, tarixinə, dilinə, dininə sədaqəti idi. O, xalqa kimliyini təbliğ edərkən, azərbaycançılığa yiyələnməyi vacib bilərkən, xalqa öz hüquqları, birliyi uğrunda mübariz olmağı anladarkən məhz bu günümüzü nəzərdə tuturdu. Ulu Öndərimizin uzun illər bundan əvvəl söylədiyi: "Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar" kəlamları Azərbaycanın timsalında reallığını tapıb. Heydər Əliyev Azərbaycan xalqının tarixində xilaskar rəhbər, uzaqgörən siyasətçi kimi daim xatırlanacaq və bu, inkarolunmazdır. Çünki Ümummilli Lider 1969-1982-ci illərdə respublikamıza rəhbərlik etdiyi dövrdə Azərbaycanı iqtisadi böhrandan və gerilikdən xilas edib geridə qalan bir respublikadan qabaqcıllar sırasına çıxarıb millətə kimliyini bəxş etmişdisə, 1993-cü ildə ikinci dəfə hakimiyyətə gəlməklə Azərbaycanın müstəqilliyini qoruyub möhkəmləndirmişdi. O, ölkəni parçalanmaqdan, vətəndaş müharibəsindən xilas etmişdi. Bu iki xilaskarlıq missiyası Heydər Əliyev həyatının mənası, fəaliyyətinin, unudulmaz xidmətinin zirvəsidir. Azərbaycanda milli təfəkkür, şüur oyanmasaydı, millət, xalq kimliyini dərk edib nə üçün mübarizə apardığını dərk etməsəydi, böhranlı vəziyyət aradan qaldırıla bilməz və bugünkü uğurların bünövrəsi qoyulmazdı.

Heydər Əliyev 1970-ci illərin pəncərəsindən bu günümüzü gördüyü üçün Naxçıvanski hərbi məktəbini yaradırdı, Dərin özüllər zavodunu qururdu, saysız-hesabsız müəssisələr, zavodlar tikirdi, məktəblər, xəstəxanalar açırdı. O bilirdi ki, qurduqları, yaratdıqları gələcəkdə xalqına lazım olacaq, insanların köməyinə çatacaq. Heydər Əliyev hesablayırdı ki, strateji əhəmiyyətli müəssisələr yaratmadan, iqtisadiyyatı inkişaf etdirmək mümkün deyil. Məharətli, bacarıqlı hərbi kadrlar hazırlamadan, döyüşdə qalib gəlmək, ordu quruculuğunu möhkəmləndirmək çətindir. O, bunları 50 il bundan əvvəl düşünmüşdü və günümüz üçün yaratmışdı, qurmuşdu.

Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəlməklə dünyaya siyasi liderliyin, demokratiyanın, xalq məhəbbətinin qalib üzünü, mahiyyətini göstərdi. Müstəqilliyin hansı üsullarla qorunmasının, möhkəmləndirilməsinin yollarını dərk etdirdi. Yeni yaradılmış YAP rəhbərinin tez bir zamanda hakimiyyətə gəlməsi ilk növbədə Heydər Əliyevə xalqın sonsuz etimadının, ümidinin ifadəsi idi. Heydər Əliyev Qarabağ torpaqlarının düşməndən azad edilməsi uğrunda bütün qüvvəsini sərf etdi, beynəlxalq tədbirlərdə işğal altında olan torpaqlarımızın dərdlərini dilə gətirdi, qəbul olunmuş qətnamələrdən, qərarlardan söz açdı, haqq səsini dünyaya çatdırdı. O, qətiyyətlə və uzaqgörənliklə bildirirdi ki, sülh danışıqlarını cəsarətlə apara bilmək üçün güclü orduya malik olmaq lazımdır. Məhz bunun üçün də lazım olan tədbirləri gördü, ordunu gücləndirdi, bu günümüz üçün əsaslı zəmin hazırladı. Xalq o dövrdə yaxşı bilirdi və anlayırdı ki, ölkəni çətin vəziyyətdən, xaosdan, vətəndaş müharibəsindən yalnız və yalnız Heydər Əliyev kimi böyük siyasətçi xilas edə bilər və belə də oldu.

"Heydər Əliyev İli" çərçivəsində - 2023-cü ildə Azərbaycan xalqı öz rəhbərini hər gün, hər an anmaqla bu ölməz insana öz sonsuz hörmət və məhəbbətini ifadə edir. Əlbəttə ki, Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı xidmətləri, bəşəriyyətə verdiyi töhfələr nəinki bir ilə, heç bir əsrə də sığan deyil. Ulu Öndərimiz elə bir tarix yaradıb, elə bir irs qoyub gedib ki, onu nəsillər əsrlərlə öyrənəcək və təbliğ edəcəklər. Necə ki, bu gün xalqımız, xarici ölkə vətəndaşları, dünyanın tanınmış siyasətçiləri Heydər Əliyev haqqında iftixarla söz açır, gələcək nəsillər də bu yolu tutacaqlar. Ona görə ki, Heydər Əliyevin ideyaları işıqlıdır, uğurludur, dönməzdir.

Prezident İlham Əliyev məhz bu ideyalara sədaqətlə xidmət edərək ölkəni inkişaf etdirir, düşmən üzərində qələbələrə nail olur və Ümummilli Liderimizin əməllərini, amallarını, arzularını həqiqətə çevirməklə xalqımızı daha xoşbəxt gələcəyə aparır.

**Tahir RZAYEV,**
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

# Heydər Əliyevin istiqlal yolu

**XX əsrin böyük dövlət və siyasi xadimi Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycan dövlətinin qurucusu kimi müstəsna rolunu və fəaliyyətini anadan olmasının 100-cü ildönümündəki anım günündə təhlil etmək, toplanmış tarixi təcrübəni öyrənərək elmi-nəzəri ümumiləşdirmələr aparmaq vacibdir. Yaşadığı illərdən zaman etibarı ilə uzaqlaşdıqca ucalığı daha çox görünən, Azərbaycanın güclü və müstəqil bir dövlət kimi yaşaması, inkişaf etdirilməsi, xalqımızın qüdrətli olması üçün çalışan Heydər Əliyevin müstəqil dövlətçiliyə dair fəaliyyətinin və strateji düşüncələrinin bütün tərəflərini bir məqalədə təhlil etmək təbii ki, mümkün deyildir. Bundan ötrü dərin elmi-tədqiqat işlərinin aparılmasına və əsərlərin yazılmasına ehtiyac vardır.**

Məlumdur ki, dövlət və siyasi xadimlərə bir sıra meyarlar əsasında qiymət verilir. Tarixi şəxsiyyət konkret məkan və zaman daxilində yaşadığından fəaliyyətinə də məhz həmin çərçivədə yanaşılır, təhlil edilir və qiymətləndirilir. Çünki dövlət və siyasi xadimlər mücərrəd deyil, konkret ictimai-siyasi şəraitə uyğun olaraq millətinin və dövlətinin xeyrinə olan ən faydalı qərarları qəbul etməyə çalışırlar. İkincisi, dövlət və siyasi xadimlərin fəaliyyətinə özündən sonra gələnlərlə deyil, özündən əvvəlkilərlə müqayisədə qiymət verilir. Çünki onlar bir neçə on illər sonra nəyin və necə baş verəcəyini əvvəlcədən görə bilməzlər. Yalnız zamandan uca olanlar, onun fövqündə dayananlar, millətinin strateji inkişaf yolunu müəyyənləşdirənlər, tərəqqisindən ötrü başlıca şərt olan dövlətinin güclənməsinə ömrünü həsr edən dövlət və siyasi xadimlər dahilər, dühalar olurlar. Onlardan sonra hakimiyyətə gələnlər xalqını və dövlətini daha da güclü etmək üçün məhz həmin siyasi, dövlətçilik irsinə və təcrübəyə müraciət edirlər. Heç şübhəsiz, zəif dövlət rəhbərlərini tarixin səhifəsindən silib çıxarmaq mümkün olmasa da, dövlət və siyasi xadimlər onların irsinə müraciət etmirlər. Deməli, Heydər Əliyevin dövlətçilik baxışlarına və təcrübəsinə bundan sonrakı bütün tarixi dövrlərdə ehtiyac duyulacaqdır. Elə ona görə də zaman-zaman Heydər Əliyevin zəngin dövlətçilik irsinə diqqət yetirmək, çoxlu suallara dərin elmi əsaslandırılmış cavablar vermək, keçilən yolu doğru qiymətləndirmək və düzgün nəticələr çıxarmaq zəruridir. Soruşulur: görkəmli dövlət və siyasi xadim kimi Heydər Əliyevin fəaliyyəti 100 ilin zirvəsindən hansı ibrət dərslərini verir?

***

Bilindiyi kimi, Azərbaycan xalqı 1918-ci ilin may ayında bir ilkə imza ataraq müsəlman Şərqinə respublika məfkurəsini gətirdi, Xalq Cümhuriyyətini, respublika idarə üsulunu qurdu, müsəlman xalqlara müstəmləkəçilikdən xilas olmağın yolunu göstərdi. Amma cümhuriyyətin ömrü uzun olmadı, 1920-ci ilin aprelində bolşevik Rusiyasının işğalına məruz qaldıqdan sonra milli dövlət süquta uğradı, Azərbaycan SSR yaradıldı. Əsrin 20, 30 və 40-cı illəri müstəqil dövlətçiliyin ən kiçik təzahürlərinin ləğv edilməsi, təbii sərvətlərin amansızlıqla talan edilərək daşınıb aparılması, Azərbaycanın mərkəzə daha çox bağlanması, milli ədəbiyyatın, milli ruhlu ziyalıların amansız təqib edilmələri və repressiyalarla yadda qaldı. Azərbaycan rəhbərliyində təmsil olunan şəxslər arasında davam edən çəkişmələr, mərkəzə şikayət dolu məktubların göndərilməsi respublikaya olan mənfi münasibəti daha da artırırdı. Sovet lideri Stalinin ölümündən sonra ölkədə nisbi yumuşalma baş versə də, Azərbaycan rəhbərliyində milli məsələlərə hissiyyatlı yanaşmalar üstünlük təşkil etdiyindən mərkəzi hakimiyyət Azərbaycanı cəzalandırdı. Milli ruhlu insanlar sıxışdırıldı və bir sıra rəhbər şəxslər vəzifələrindən uzaqlaşdırıldılar.

Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəldikdən sonra respublikada şərait tədricən dəyişdi. Bakıda fabrik və zavodların tikilməsi nəticəsində rayonlardan gənclərin paytaxta işləməyə gəlməsi ilə çarizm dövründə və sovet hakimiyyəti illərində digər xalqların gətirilməsi nəticəsində simasını itirmiş Bakı şəhərinə milli ruh qayıtdı. Ana dili hakim olmağa başladı. Heydər Əliyevin Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd seçilməsi millətin tarixində qürurverici hadisə olmaqla Azərbaycanda özünə inam hisslərini artırdı. Xarici ölkə tarixçilərinin yazdığı kimi, Azərbaycanın şimal torpaqları çar Rusiyası tərəfindən işğal edildikdən sonra özlərini sındırılmış hesab edən azərbaycanlılar XX əsrdə yalnız iki dəfə Bakıda başlarını dik tutaraq gəzmişdilər: birinci dəfə Nuru Paşa komandanlığında Azərbaycan və Osmanlı hərbçilərindən təşkil edilmiş Qafqaz İslam Ordusu tərəfindən 1918-ci ilin sentyabr ayında Bakı şəhəri azad edildikdən sonra, ikinci dəfə isə Heydər Əliyevin hakimiyyəti illərində.

Kökləri tarixə dayanan Azərbaycanın gələcək dövlət müstəqilliyi üçün zəruri olan obyektiv amillər, maddi təməllər hansı ideologiyanın hakimliyindən asılı olmayaraq sovet sistemi daxilində formalaşdı. Respublika ərazisinin qorunmasına, hakimiyyətin güclü olmasına, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirildi. Bu isə demoqrafik inkişafa gətirdi. Azərbaycanın siması dəyişdi.

Heydər Əliyev inkişafa mane olan amilləri aradan qaldırdı. Məlum olduğu kimi, sovet sistemi şəraitində həm də mərkəzin işarəsi ilə Azərbaycanı daxildən zəiflədən, didib-parçalayan çəkişmələr, dedi-qodular, "Bakı işi" adı altında Moskvada Mərkəzi Komitə bürosunun və katibliyinin iclaslarında müzakirə olunan məsələlər respublika, xalq haqqında mənfi rəy formalaşdırırdı. Bu hallara qətiyyətlə son qoyan Heydər Əliyev hakimiyyətin qanadları arasında yekdillik, əməkdaşlıq yaratdı, xalq və hakimiyyət arasında birlik qurdu, milli kadrların yetişdirilməsini və yerləşdirilməsini strateji xətt olaraq seçdi. O zaman bütün ölkədə rusların və digər slavyan xalqlarının nümayəndələri respublikalarda vəzifələrə gətirildiyi halda, Heydər Əliyev milli kadrları hazırlamağa və ətrafına toplamağa başladı. Xarici tədqiqatçıların yazdıqlarına görə, Heydər Əliyevin bütün uğurlarının kökündə yerli milli kadrlara arxalanması dayanırdı.

Müstəqillik üçün zəruri olan milli, mənəvi amillərin formalaşdırılmasından ötrü tədbirlər görüldü. Məlum olduğu kimi, XIX əsrin sonları - XX əsrin əvvəllərində maarifçilərin, şair, yazıçı və alimlərin əsərlərində intişar tapmış istiqlal fikri Azərbaycan Cümhuriyyətinin qurulmasında başlıca rol oynamışdı. Lakin sovet hakimiyyəti qurulduqdan sonra istiqlal məfkurəsini əsərlərində qoruyan alim, şair, yazıçı və jurnalistlər amansız repressiyalara məruz qalmışdılar. Respublikada dissidentlərin yaranmasına imkan verməyən Heydər Əliyev milli ruhlu ziyalıları məharətlə Bütöv Azərbaycan, Cənubi Azərbaycan məsələsindən yazmağa təşviq edir, mərkəzin cənginə vermir, bəzən özü onları yüngülcə tənqid etsə də, az sonra yüksək fəxri adlar, orden və medallar verib vəzifələrə təyin edərək qoruyurdu. Xarici ölkə tarixçilərinin yazdığı kimi, 70-ci illərdə azərbaycanlı şair və yazıçıların əsərlərindəki bölünmüş Azərbaycanın hər iki tayının birləşdirilməsi fikri Mərkəzi Komitənin birinci katibinin kabinetinin açıq pəncərələrindən axaraq onların düşüncələrinə, əsərlərinə və ictimai rəyə hakim olurdu.

Heydər Əliyev millətin varlığının əsas amili olan Azərbaycan dili sahəsində tədqiqatların aparılmasına dair göstərişlər verirdi. Görkəmli dilçi alimlərin dövlət mükafatına layiq görülməsi Azərbaycan tarixində bir ilk idi. Heydər Əliyev Azərbaycan dilinin saflığının qorunmasını daim tövsiyə edirdi.

Azərbaycan ədəbiyyatının görkəmli xadimlərinin xatirəsini əziz tutaraq əbədiləşdirən Heydər Əliyevin türkçü, pantürkçü, turançı kimi həbs olunmuş, Stalin repressiyalarının qurbanı olmuş, uzaq Sibir sürgünündə vəfat etmiş Hüseyn Cavidin məzarını bir vaxtlar işlədiyi Bakıya deyil, doğulduğu Naxçıvana köçürməsi Azərbaycanın bir parçasını sovet dövründə ümumi vətən hesab edilən SSRİ məfhumundan üstün tutduğunu göstərirdi. Bununla Heydər Əliyev Azərbaycanın maraqlarını və qədim diyar olan Naxçıvanın yerini xüsusi qiymətləndirir, önə çəkirdi.

70-ci illərdə İraqda Kərbəla şəhərində böyük Məhəmməd Füzulinin məzarının dağılması təhlükəsi yarandıqda Heydər Əliyev toplantıların birində üzünü şair Süleyman Rüstəmə tutaraq söyləyir ki, get, İraqın Bakıdakı konsulunun xirtdəyindən tut və de, Füzuli mənim mənliyimdir, varlığımdır, qorxma, mən nə qədər varam sizə heç kim bir söz deyə bilməz. Buna bənzər sözləri yazıçı Mirzə İbrahimova da deyir. Belə mövqe təkcə ədəbi-tarixi irsin mühafizəsinə qayğı deyil, eyni zamanda şair, yazıçı, jurnalist və alimlərə qorxmadan yazıb-yaratmağa bir işarə idi.

Heydər Əliyevin Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilməsi və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edilməsi ilə həyat və fəaliyyətinin Moskva mərhələsi başlayır. Azərbaycanlı, müsəlman olan Heydər Əliyevin Moskvada rəhbər vəzifələrə gətirilməsi, dünyanı lərzəyə salan sovet imperiyasını idarə edən şəxslərdən biri olması, dövlət idarəçilik bacarığı, yüksək intellektual səviyyəsi, Kreml rəhbərliyinin Əfqanıstana hərbi müdaxilədən sonra ölkənin müsəlman dünyasında itirilmiş nüfuzunu bərpa etmək niyyətləri ilə bağlı idi. Mərkəzdə belə hesab edirdilər ki, Sov.İKP MK Siyasi Bürosunda Qazaxıstandan Dinmühəmməd Kunayev və Özbəkistandan Şərəf Rəşidov bəlli səbəblərdən bu vəzifələri yerinə yetirə bilmirlər. Həmin işlərin öhdəsindən müsəlman Şərqini dərindən bilən, xalqları və ölkələrinin rəhbərləri tərəfindən qəbul olunan, yüksək hörmət sahibi yalnız Heydər Əliyev gələ bilərdi. Xarici ölkə tarixçilərinin yazdığı kimi, mərkəz üçün Heydər Əliyev sovet dövlət, partiya xadimi, müsəlman Şərqi xalqları və liderləri üçün Heydər, Əli, Əlizadə idi. Heydər Əliyevin Moskvaya işləməyə aparılmasının digər bir səbəbi də var idi. Xarici tədqiqatçılar qeyd edirlər ki, Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycanın müstəqilliyə tam hazırlandığı, yalnız onun formal olaraq elan edilməsinin qaldığı qənaətinə gələn mərkəz prosesin qarşısını acı nəticələri ola biləcəyindən vəzifədən çıxarmaqla deyil, Moskvada daha sərt nəzarət altında saxlamaqda görürdü. Həmin səbəblərə görə, Heydər Əliyev Moskvada yüksək vəzifələrə gətirildi. Heydər Əliyev Azərbaycan xalqının müstəqilliyi düşüncəsi ilə yaşayır və fəaliyyət göstərirdi. Sonralar çıxışlarının birində Heydər Əliyev deyirdi: "Doğrudur, 22 il bundan öncə biz bilmirdik ki, Azərbaycan müstəqil dövlət olacaqdır. Lakin mən o vaxt Azərbaycanın müstəqilliyi fikri ilə yaşayırdım". Heydər Əliyevdən sonra hakimiyyətə gələn Azərbaycan rəhbərləri respublikanın gücləndirilməsi xəttini davam etdirə bilmədilər. Hər şey geriyə getdi.

Mərkəzdə işləyən Heydər Əliyevin fikrincə, müsəlman Şərqində sovet dövlətinin nüfuzunu artırmaq və xalqları üçün cəlbedici etməkdən ötrü SSRİ-nin müsəlman respublikalarının sosial-iqtisadi, mədəni inkişafına xüsusi diqqət yetirilməli idi. Bununla da o, SSRİ-nin türk, müsəlman xalqlarının maraqlarını qoruyan lider səviyyəsinə yüksəlirdi. Lakin hakimiyyətə gələn Mixail Qorbaçov fərqli düşünürdü. Onun fikrincə, türk, müsəlman respublikaları Leonid Brejnevin hakimiyyəti illərində xeyli irəli getmişdilər və dövlət müstəqilliklərini elan etməyə hazır idilər. Bundan çıxış yolu kimi onların ölkə rəhbərliyindəki xadimlərinə etinasızlıq göstərərək vəzifələrindən uzaqlaşdırdı, xalqlarını isə cəzalandırmaq yolunu tutdu. Sov.İKP MK-nın 1987-ci ilin oktyabr plenumunda Heydər Əliyev vəzifələrindən çıxarıldıqdan az sonra Ermənistan Azərbaycana qarşı əsassız iddialar irəli sürərək daxili işlərinə kobud şəkildə qarışmağa başladı. Ermənistanda əzəli, dədə-baba torpaqlarında yaşayan azərbaycanlılar vəhşicəsinə qovularaq qaçqına çevrildilər, tarix və mədəniyyət abidələri dağıdıldı. Bunların qarşısını almaq iqtidarında olmayan hakimiyyət Azərbaycanı böhrana düşürdü. Bir-birini əvəz edən rəhbərlər vəziyyəti düzəldə bilmədilər. Respublikada qarışıqlıq yarandı, dövlət və hökumət strukturları iflic hala düşdülər.

Azərbaycanı haqsız yerə cəzalandıran sovet rəhbərliyi, tərkibinə ehtiyatda olan ermənilərin də cəlb edildiyi qoşun hissələri ilə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda dinc əhaliyə qarşı kütləvi qırğın törətdi. Moskvada təhlükəsizliklərinin təmin edilməməsinə baxmayaraq, bu qanlı hadisədən sonra Heydər Əliyev ailə üzvlərilə birlikdə Azərbaycanın daimi nümayəndəliyinə gəlib bəyanat verərək 20 yanvar qətliamını törədənləri ittiham etdi, ən ağır zamanda xalqının yanında oldu. Bu qətiyyətli davranışı Heydər Əliyevi gələcək siyasi və milli dövlətçilik fəaliyyətində zirvəyə aparan yolun başlanğıcı, yeni şəraitdə Ümummilli liderlik üçün ilk addım idi. Həyatında dönüş anı olan 20 yanvar hadisəsindən sonra mərkəz ilə yolunun bir olmadığı qənaətinə gələn Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etmək xəttini götürdü. Bu xəttin önündə Heydər Əliyev gedirdi.

Moskvada sərt nəzarət və təqiblər altında yaşamağın mümkün olmadığını görən Heydər Əliyev Azərbaycana gəlsə də, uzun illər boyu respublikaya başçılıq etməsinə baxmayaraq, yaşamağa mənzili olmadığından və yerli rəhbərlər də onun Bakıda qardaşının evində qalmasına razılıq vermədiklərindən, doğulduğu Naxçıvana getdi. Bir müddət sonra Heydər Əliyevin bəyanat verərək Kommunist Partiyasının sıralarından istefa etməsi bu ideologiyanın iflasında təsirli rol oynayan amillərdən biri oldu. Minlərlə insan ondan nümunə götürərək partiya biletindən imtina etdi. SSRİ-nin ideoloji əsası olan Kommunist Partiyası dağıldı.

Heydər Əliyevin 1990-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və bir müddət sonra isə Sədri seçilməsi ilə həyat və fəaliyyətinin yeni bir mərhələsi başlandı. Hələ sovet sisteminin və SSRİ-nin mövcud olmasına baxmayaraq, ağsaqqal deputat kimi sədrliyi altında Naxçıvanda Ali Sovetin ilk sessiya iclasında sovet artibutlarından imtina olundu, muxtar respublikanın adından sovet sosialist ifadələri çıxarıldı, Ali Sovet Ali Məclis adlandırıldı. Sovet dövlətinin düşmən sayaraq inkar etdiyi cümhuriyyətin üçrəngli bayrağı ilk dəfə olaraq Naxçıvanda rəsmi olaraq dövlət bayrağı kimi qəbul edildi və Azərbaycan rəhbərliyinə yeni atributları qəbul etmək tövsiyə olundu. Naxçıvan müasir müstəqil Azərbaycan milli dövlətçiliyinin bərpasının onurğa sütunu oldu. Bu qərar müasir Azərbaycan tarixinin ən vacib hadisələrindən və Heydər Əliyevin millət qarşısında böyük xidmətlərindən biri olmaqla onun zamanın fövqündə dayandığını, zamandan uca olduğunu göstərdi.

Naxçıvanda fəaliyyət göstərən Heydər Əliyev dünya azərbaycanlılarının birliyindən ötrü qəbul edilən qərarların təşəbbüskarı oldu. Məlum olduğu kimi, Azadlıq meydanında keçirilən mitinqlərin xarakterini dəyişdirərək ona islam fundamentalizmi damğası vurmaq məqsədilə sovet rəhbərliyinin tapşırıqlarına əsasən, DTK İran İslam Respublikasının bayraqlarını göndərirdi. Bir müddət sonra SSRİ-İran sərhədinin Naxçıvan hissəsində tikanlı məftillərin sökülməsi də həmin niyyətlərə yönəlmişdi və millətimizin üstünə atılan ləkə idi. Lakin Heydər Əliyev bu çirkabı millətin üstündən sildi. 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edilməsinə nail olmaqla, bütün azərbaycanlıları tək bayraq, tək dövlət, tək vətəndə birləşdirdi.

Heydər Əliyev Azərbaycan parlamentinin deputatı kimi bütün çıxışlarında dövlət müstəqilliyinin bərpası uğrunda ardıcıl mövqe ortaya qoydu. Azərbaycan xalqının gələcəyini dövlət müstəqilliyində gördü. Dövlət müstəqilliyinin bərpası haqqında konstitusiya aktına səs verdi.

SSRİ dağıldıqdan sonra Azərbaycan xalqı və dövlətinin qarşısında dayanan vəzifələri - dövlət müstəqilliyini tanıtmaq və qorumaq; ölkənin inkişafının açarını tapmaq; Ermənistanın təcavüzünə son qoymaq; diktaturadan demokratiyaya, planlı təsərrüfatdan azad bazar iqtisadiyyatına keçmək və s. - bir-birini əvəz edən ölkə rəhbərləri yerinə yetirə bilmədilər. Hakimiyyət ilə xalq arasında uçurum, hakimiyyətin qanadları arasında ziddiyyətlər dərinləşdi. Ölkənin daxili və xarici siyasəti ağır vəziyyətə düşərək dalana dirəndi, ümumi böhran yarandı. Ermənistanın təcavüzü genişlənərkən Gəncədə hərbi hissədə baş verən qiyam yatırılmadığından hakimiyyət ölkədəki proseslər üzərində nəzarəti tamamilə itirdi. Azərbaycanın şimalı və cənubunda xarici düşmən qüvvələr tərəfindən dəstəklənən separatçılıq artdı, ölkə parçalanmaq, xalq vətəndaş müharibəsi, dövlət müstəqilliyi itirilmək təhlükəsi qarşısında qaldı. Yaranmış ağır şəraitdə vəzifədə olanlar bir-birinin ardınca istefa verərək məsuliyyətdən yaxa qurtarmaq yolunu tutdular, bəziləri vəzifələrini "dondurdular", bəziləri isə qaçıb gizləndilər. Bu, Azərbaycan dövlətçiliyi tarixində pis bir an, utancverici səhifə idi. Sabaha ümidinin olmadığı xalq nicat yolu axtarır və sual edirdi: nə etməli? Ölkəni ağır şəraitdən kim çıxara bilər?

Xalqın qəti inamına görə yalnız Heydər Əliyev Azərbaycan dövlətini dağılmaqdan, ümumi böhrandan, mənəvi-psixoloji böhrandan çıxara, Ermənistanın hərbi təcavüzünü dayandıra, ölkəni fəlakətə salmış bərbad xarici siyasət fəaliyyətini yeni əsaslar üzərində qura bilərdi. Heydər Əliyevə olan bu inam 70-ci illərdə respublika rəhbəri, SSRİ-ni idarə edən şəxslərdən biri və Naxçıvan Muxtar Respublikasının başçısı kimi gördüyü işlərdən qaynaqlanırdı. Ona görə də Naxçıvana - Heydər Əliyevə müraciət etdi.

Çarəsiz qalan ölkə rəhbərliyi xalqın tələbləri əsasında və konstitusiyaya uyğun olaraq Heydər Əliyevi Bakıya dəvət etməyə məcbur oldu. Qiyamın baş verdiyi Gəncəyə gedib-qayıtdıqdan sonra parlament sədri seçilən, bir müddət sonra ölkə prezidentinin səlahiyyətlərini həyata keçirən Heydər Əliyevin qarşısında daxili siyasət sahəsində bir sıra ağır vəzifələrin həll edilməsi dayanırdı: müstəqilliyi qorumaq, ölkəni dağılmaqdan, xaricdən dəstəklənən separatçılıqdan xilas etmək; milli birliyi qurmaq; hakimiyyətin qanadları arasında yekdillik yaratmaq; xalq ilə hakimiyyət arasında uçurumu, inamsızlığı aradan qaldırmaq; iflic olmuş dövlət orqanlarını işlək hala gətirmək; dövlətin əlində olması gərəkərkən silahları ələ keçirərək ölkədə kriminogen şərait yaradan ayrı-ayrı cinayətkar dəstələri tərksilah, insanların sakit və təhlükəsiz yaşayışını təmin etmək; xalqı ağır sosial-iqtisadi vəziyyətdən çıxarmaqdan, ölkəni irəli aparmaqdan, güclü dövlət qurmaqdan ötrü etibarlı açarı tapmaq; köhnə sosializm sisteminin qalıqlarından imtina edərək uğurlu islahatlar aparmaq və s.

Azərbaycanın xarici siyasətinin qarşısında dayanan başlıca vəzifələr isə dövləti dağılmaqdan qurtarmaq; Ermənistanın davam edən hərbi təcavüzünü dayandırmaq; ölkəni fəlakət həddinə gətirən, Azərbaycan xalqı və dövlətinə düşmənlər qazandıran təkqütblü xarici siyasət xəttindən imtina etmək; ölkə daxilində dövlət quruculuğu üçün əlverişli beynəlxalq şərait yaratmaq və s. idi. Bütün bunları bir dövlət xadiminin həll etməsi xeyli mürəkkəb və çətin bir iş olsa da, Heydər Əliyev Bakıya gələn kimi yeni liderlik keyfiyyətini ortaya qoydu, ölkənin problemlərinin həllində yalnız xalqa arxalandı. Separatçılıq xalqın iradəsi ilə topsuz-tüfəngsiz dəfn edildi.

Təcavüzkar Ermənistanın Azərbaycan ərazilərini bir-birinin ardınca işğal etməsi ölkənin inkişafına maneə olan başlıca amil idi. Heydər Əliyev ya sonu görünməyən və nəticəsi bilinməyən müharibəni davam etdirməli, ya da atəşkəsə nail olub fasilə qazanmalı, dövləti qurmalı, möhkəmləndirməli, torpaqları işğaldan azad etməkdən ötrü möhkəm zəmin hazırlamalı idi. İlk növbədə düşmənə zərbə vurmaq qərara alındı. Uğurlu Horadiz əməliyyatı ilə düşmənə ağır zərbə vuruldu, ərazilərin bir qismi azad edildi. Bundan sonra atəşkəs yolunu seçən Heydər Əliyev dövlət idarəetməsini iflic halına, xalqı mənəvi-psixoloji böhrana salan, maliyyə və iqtisadi ehtiyatlarını udan hərbi əməliyyatları dayandırdı. Bununla Heydər Əliyev göstərdi ki, ərazilərin işğal altında qalması ilə heç cür barışmayacaq, onu bütün vasitələrlə azad edəcəkdir.

Atəşkəsə gedilməsi Azərbaycana üstünlüklər qazandırdı, bir sıra məsələləri həll etməyə imkan verdi, ən başlıcası, xarici sərmayənin gəlməsinə şərait yaratdı. Atəşkəsə gedən Ermənistan işğalı "oldu-bitdi" kimi qələmə vermək, danışıqlar prosesini uzatmaq məqsədi güdürdü. 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qazanılan qələbə Heydər Əliyevin zamandan uca olduğunu, strategiyasının Ermənistan, dünya erməniliyi, onların havadarları üzərində qələbə qazandığını və üstünlüyünü göstərdi.

Heydər Əliyevin qəti iradəsi nəticəsində 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanaraq həyata keçirilməyə başlanması ilə bir-birilə didişən, geosiyasi və geoiqtisadi maraqları uğrunda amansız mübarizə aparan dövlətlər ilk dəfə olaraq Azərbaycanda konsorsium yaratdılar. Azərbaycan özündən ərazicə böyük, əhalisinin sayı çox olan iri dövlətləri bir araya gətirdi, ayırıcı deyil, birləşdirici rol oynadı. Bu, Heydər Əliyevin təkcə Azərbaycan milləti və dövləti deyil, dünya siyasəti qarşısında müstəsna tarixi xidmətlərindən biri idi.

"Əsrin müqaviləsi" imzalandıqdan sonra baş verən dövlət çevrilişi və qiyam cəhdlərinin qarşısının alınmasında Heydər Əliyev qətiyyəti özünü aydın şəkildə göstərdi. 1994-cü ilin oktyabrında dövlət çevrilişi, 1995-ci ilin martında isə dövlət əleyhinə qiyam cəhdləri məhz onun yenilməz iradəsi, qətiyyəti və siyasi bacarığı sayəsində iflasa uğradıldı. Millət qanuni hakimiyyəti müdafiə etdi. Qanunsuz hərəkətlərin qarşısının alınmasının ibrətamiz tarixi dərsləri oldu. Heydər Əliyev qəti şəkildə göstərdi ki, Azərbaycan çevrilişlər üçün sınaq meydanı deyildir, güclü dövlət vardır, silahlı yolla hakimiyyətə gəlmək yolverilməzdir. Bu, digər bir mühüm məsələnin həllinə kömək etdi. O zamana qədər sabitlik və sabaha ümidlər olmadığından Azərbaycana borc verməyən xarici ölkələr və donor təşkilatlarının mövqeyində dəyişiklik baş verdi. Neft strategiyası ölkənin inkişafının, güclü dövlət qurmağın və millətin daha yaxşı yaşayışını təmin etməyin açarı oldu. Azad bazar iqtisadiyyatına keçmək, demokratik inkişaf üçün islahatlar aparıldı, çoxpartiyalı sistemin əsasları möhkəmləndirildi. Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu sahəsində tədbirlər həyata keçirildi. Ən başlıcası, Azərbaycanda təməlləri möhkəm olan, güclü dövlətçilik ənənəsinin və dərin dövlətin əsası qoyuldu.

Milli-dövlət maraqlarına cavab verməyən uğursuz xarici siyasət xəttindən imtina edən Heydər Əliyev çevikliyə və manevrlərə imkan verən tarazlaşdırılmış, çoxqütblü xarici siyasət xəttini dövlətin beynəlxalq fəaliyyətinə gətirdi. Uğurlu xarici siyasət fəaliyyəti bir sıra daxili problemlərin həllinə kömək etdi.

Prezident vəzifəsində Heydər Əliyev ilk rəsmi xarici səfərini Azərbaycan Xalq Cümhuriyyətinin 1920-ci ildə de-fakto tanındığı və erməni lobbisinin güclü olduğu Fransaya edərək göstərdi ki, Azərbaycan demokratiya yolu tutub, Avropa ailəsinin üzvüdür, dövlət müstəqilliyi daimi, əbədi və sarsılmazdır, bu yoldan dönməyəcəkdir, Azərbaycan dövləti heç bir ölkənin və ölkələr qrupunun deyil, yalnız öz maraqlarının yanındadır, erməni lobbisinin, havadarlarının fitnələrinə qarşı tutarlı cavab veriləcəkdir. Bu, Heydər Əliyevin məharətli diplomatiyasının bir nümunəsi idi.

Azərbaycanın qonşu dövlətlərlə münasibətlərini nizama salmaq üçün addımlar atan Heydər Əliyev İran və Rusiya ilə mehriban qonşuluğu tədricən bərqərar etdi. Türkiyə və Gürcüstan ilə strateji münasibətlər xətti seçildi. Azərbaycanın mehriban qonşuları, ticarət ortaqları, strateji tərəfdaşları və strateji müttəfiqləri müəyyənləşdirildi. Azərbaycanın milli dövlət maraqları hər şeydən üstün tutuldu.



Neft strategiyasını uğurla reallaşdıran Heydər Əliyev ölkənin təbii sərvətlərini milli sərvətə çevirdi. Təkcə iqtisadi deyil, böyük strateji əhəmiyyət daşıyan çoxşaxəli neft və qaz kəmərləri inşa edilməyə başlandı. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri Azərbaycanın müstəqillik kəməri oldu. Neftin ixracında hər hansı bir dövlətdən asılılığa son qoyuldu. Azərbaycanın neft strategiyası Orta Asiyanın yeni müstəqil dövlətlərinin də dünyaya çıxışında müstəsna rol oynadı. Heydər Əliyev həmin dövlətlərin müstəqilliklərinin möhkəmlənməsinə kömək etdi. Əsas ixrac neft boru kəmərinin Türkiyə ərazisindən keçirilməsində israr edən, 1997-ci ilin iyul-avqust aylarında ABŞ-a səfəri zamanı Prezident Bill Klintona "mən tacir deyiləm, siyasətçiyəm, boru kəməri Türkiyə ərazisindən keçməlidir" deyən Heydər Əliyev istəyinə nail olaraq neftin tranzitinin açarını qardaş Türkiyəyə verməklə dünya siyasətində rolunu artırdı, mövqelərini möhkəmləndirdi. Bu gün Türkiyənin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında vacib yer tutması, G-20-nin cərgəsində olması həmin siyasətin nəticəsidir. Davam edən Rusiya-Ukrayna müharibəsinin yaratdığı şərait baxımından da yanaşılarsa, təkcə şimal boru kəməri fəaliyyət göstərərdisə, Avropa ölkələrinin və Azərbaycanın indi hansı ağır vəziyyətə düşəcəyini təsəvvür etmək çətin deyildir. Bu fakt da Heydər Əliyevin zamanın fövqündə dayanan strateq olduğunu təsdiq edir. Tarixi İpək yolu bərpa edildi. Azərbaycan tranzit ölkəyə çevrildi. Heydər Əliyev Cənubi Qafqazın və Mərkəzi Asiyanın geosiyasətinin dəyişməsində türk dünyası qarşısında müstəsna rol oynayan dövlət və siyasi xadim oldu.

Heydər Əliyevin fəaliyyətindən alınacaq ibrət dərsləri çoxdur. Keçilən yolun və fəaliyyətin tarixi təcrübəsi göstərir ki, hansı sistem və ideologiya şəraitində fəaliyyət göstərməsindən asılı olmayaraq, Heydər Əliyevin başlıca hədəfi xalqın müstəqil yaşaması olub.

*Ötən illər sübut edir ki, Azərbaycan millətinin inkişafının təməlində sabitlik, güclü dövlət və qüdrətli dövlət rəhbəri amilləri dayanır. Hədəflərinə çatmaq istəyən millət daim dövlətinin yanında olmalı, onu qorumalı və milli-dövlət maraqlarını hər şeydən uca tutmalıdır. Heydər Əliyevin əsasını qoyduğu siyasətin alternativi yoxdur.*

**Musa QASIMLI,**
***Milli Məclisin deputatı,***
***AMEA-nın müxbir üzvü, professor***

# Xatirəsi hər zaman uca tutulacaq

**Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Ulu Öndər Heydər Əliyev unikal biliyə, qeyri-adi yaddaşa malik fenomenal şəxsiyyət idi.**

Dünya liderləri Heydər Əliyevin ən güclü siyasətçilərdən biri olduğunu etiraf edirdilər. Ulu Öndər eyni zamanda idarəetmənin ustadı, dünya siyasətinin kamil bilicisi, uzaqgörən və mahir diplomat idi. Dahi şəxsiyyət Heydər Əliyev Azərbaycanda milli ideologiyanın, azərbaycançılıq məfkurəsinin yaradılmasının banisi olmuşdur. Uca Tanrı Azərbaycan xalqını ən çətin və ağır günlərdən qurtarmaq üçün Heydər Əliyevi xilaskar kimi seçmişdir.

1969-cu ilə qədər Azərbaycan sovet respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerlərdə idi. Ulu Öndər sovet Azərbaycanına rəhbərliyə başladıqdan sonra respublikada sənaye, kənd təsərrüfatı sürətlə inkişaf etməyə başladı, çətin sosial vəziyyətdə yaşayan azərbaycanlıların həyat səviyyəsi və rifah halı yaxşılaşdı. SSRİ-nin müttəfiq respublikaları arasında Azərbaycan sosial-iqtisadi cəhətdən ön sıralara yüksəldi.

Heydər Əliyev qətiyyətli lider, eyni zamanda Azərbaycan xalqına qarşı törədilmiş haqsızlığa, zülmə qarşı mübarizə aparmış böyük şəxsiyyət idi. 1990-cı ilin yanvarın 20-də sovet qoşunları Bakı şəhəri və bir sıra rayonlarımızda azərbaycanlılara qarşı qətliam törətdilər. Səhərisi gün, yanvarın 21-də həyatını təhlükə altına ataraq Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələn Ulu Öndər hadisənin təşkilatçılarını ittiham edərək cəsarətli bəyanat verdi. Sovet rəhbərliyinin ikiüzlü və riyakar siyasətinə etiraz əlaməti kimi Heydər Əliyev 1991-ci ilin iyul ayında Kommunist Partiyasının sıralarını tərk etdi.

Müstəqilliyimizin ilk illərində Azərbaycanda ictimai-siyasi vəziyyət çox ağır durumda idi, ölkə parçalanmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Qərbdə Azərbaycanla bağlı məkrli planlar hazırlanırdı. O zamanlar hakimiyyətdə olanların səriştəsizliyi ölkəmizi ağır duruma sürükləmiş, AXC-Müsavat cütlüyü xalqımızı çıxılmaz vəziyyətə salmışdı. Ermənistan torpaqlarımızı işğal edir, hakimiyyətdə olanlar isə ölkəni talamaqla məşğul olurdular.

Azərbaycan xalqı başa düşürdü ki, ölkəni bu ağır durumdan yalnız Heydər Əliyev xilas edə bilər. Ona görə də xalqın haqlı tələbi ilə Heydər Əliyev Bakıya gəldi. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikasının Ali Sovetinin sədri seçildi və iyunun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. Ulu Öndər Gəncədə baş vermiş silahlı üsyanın və ölkədə vətəndaş müharibəsinin qarşısını aldı. 1993-cü il oktyabrın 3-də Prezident seçildikdən sonra güclü Azərbaycan dövlətinin və xalqımızı rifaha aparan yolun təməli qoyuldu. Ölkəmiz bütün sahələrdə böyük inkişaf mərhələsinə qədəm qoydu. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan öz müstəqilliyini qorudu, güclü dövlətçiliyin əsası qoyuldu, böyük iqtisadi islahatlara başlanıldı. Məhz Ümummilli Liderin zəkası, müdrikliyi dövləti, xalqı xoşbəxt gələcəyə apardı. Ulu Öndər milli dövlətçilik ənənələrini bərpa etdi.

Heydər Əliyev Prezident seçildikdən sonra bütün qüvvələri bir komandanlıq altında birləşdirdi və Azərbaycan Ordusu Füzuli istiqamətində uğurlu əməliyyatlar keçirərək rayonun bir sıra kəndlərini işğaldan azad etdi. Bundan sonra Ermənistan rəhbərliyi Azərbaycanla atəşkəs haqqında razılığa gəlməyə məcbur oldu.

1994-cü ilin oktyabrında Ulu Öndərin müdrik və qətiyyətli siyasəti nəticəsində Azərbaycanla 6 dövlətin 10 nəhəng neft şirkəti arasında "Əsrin müqaviləsi" imzalandı. Bu, yeni müstəqillik əldə etmiş, Ermənistanla müharibə şəraitində olan Azərbaycan üçün böyük uğur idi. Bu müqavilənin imzalanması Heydər Əliyev şəxsiyyətinə, böyük siyasətçi və lider olmasına inamdan irəli gəlirdi. Bu tarixi hadisədən bir neçə il sonra neftimiz dünya bazarına çıxarıldı və Azərbaycan iqtisadiyyatının yüksəlişi yeni inkişaf mərhələsinə qədəm qoydu. Yeni müəssisələr yaradıldı, vətəndaşlarımızın sosial rifahı hər il yaxşılaşmağa başladı.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətinə və xalqına göstərdiyi misilsiz xidmətlər ölçüyəgəlməzdir. Əsrlər ötəcək, Azərbaycan dövləti əbədi yaşayacaq və xalqımız Ulu Öndər Heydər Əliyevi daim yad edəcək və xatirəsini uca tutacaq.

**Kamilə ƏLİYEVA,**
*Milli Məclisin deputatı*



# Müasir müstəqillik təfəkkürümüzün banisi

**Ulu Öndər Heydər Əliyevin əbədiyyətə qovuşmasından 20 il ötür. Əslində, 20 il tarixin baxışında böyük zaman kəsiyi olmasa da, insan ömrü çərçivəsində kifayət qədər uzun müddətdir. Bu illər ərzində nəsillər, cəmiyyətlər, ideologiyalar dəyişir, hətta 20 ilə bəzən dövlətlər sığır. Ötən 20 ildə Azərbaycan da çox dəyişib. Dəyişməyən isə Azərbaycan xalqının Heydər Əliyev siyasətinə sədaqəti və onun yoxluğu ilə barışmamasıdır.**

Ümummilli Lider Heydər Əliyev adı Azərbaycan üçün olduğu qədər ən sadə azərbaycanlı üçün də önəmlidir. Əslində, onu xalqın Öndərinə çevirən, 20 il ərzində unudulmağa qoymayan və daha neçə 20 illiklər ərzində xalqın qəlbində yaşadacaq amillərdən biri də məhz budur.

Heydər Əliyevin adı artıq ötən əsrin 60-cı illərinin ortalarından sadə azərbaycanlı üçün önəm kəsb etməyə başlayıb. Təsadüfi deyildi ki, o, SSRİ miqyasında və milli subyektlərdə ən nüfuzlu qurum olan təhlükəsizlik sistemində, daha dəqiq desək, Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində sədr vəzifəsinə yüksəlmiş ilk azərbaycanlı idi. Məhz Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan DTK yalnız SSRİ maraqlarını yox, həm də Azərbaycanın milli maraqlarının keşikçisi və müdafiəçisinə çevrildi. Yüzlərlə ziyalı məhv edilməkdən qurtuldu, milli təfəkkürlü minlərlə məfkurə daşıyıcısı yetişdi. Milli kimlik, din, dil, mədəniyyət sahəsində tarixi dönüş məhz Heydər Əliyevin rəhbərlik etdiyi DTK-nin himayəsində təşəkkül tapmağa başladı. Bu gün bəzən həmin tarixi-siyasi prosesləri ayrı-ayrı şəxslərin adı ilə bağlamaq cəhdləri var, amma unutmaq olmaz ki, uzun illərdən sonra, 1967-ci ildə Novruz bayramı, respublikaya yox, birbaşa Moskvaya tabe olan Azərbaycan DTK-nın sədri, general Heydər Əliyevin razılığı olmadan ölkə səviyyəsində təntənəli şəkildə qeyd edilə bilməzdi. Bu baxımdan Ulu Öndər hələ ölkəyə rəhbərlik etməyə başlamazdan artıq xalqın ümid yerinə çevrilmişdi.

1969-cu ilin 14 iyulunda Ümummilli Liderin Azərbaycan KP MK-nın birinci katibi kimi fəaliyyətə başlaması isə bütövlükdə Azərbaycan tarixində yeni eranın başlanğıcı oldu. Ulu Öndər Heydər Əliyevin Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gəlməsi ilə respublikamız geri qalmış ucqar subyektdən SSRİ-nin iqtisadi flaqmanına çevrildi, mədəniyyət, incəsənət, ədəbiyyat intibah dövrünə qədəm qoydu. Müstəqilliyin bərpası üçün bazis də məhz bu dövrdə formalaşmağa başladı. Heydər Əliyevin qurduğu sənaye, inkişaf etdirdiyi iqtisadiyyat, yaratdığı hərbi təyinatlı təhsil müəssisələri, formalaşdırdığı və qoruduğu milli elita elə sovet dövründə Azərbaycana müstəqil davranmaq imkanı verdi. Hətta çəkinmədən demək olar ki, Heydər Əliyevin sovet Azərbaycanı Azərbaycan Xalq Cümhuriyyətindən heç də az müstəqil deyildi, 1991-93-cü illər Azərbaycanından isə daha çox müstəqil idi.

Biz illər ərzində yanlış təbliğatın, yarıtmaz tarix dərsliklərinin ucbatından sovet Azərbaycanına ancaq təqiblər dönəmi kimi baxmışıq. Amma Heydər Əliyevin əsəri olan 1978-ci il Konstitusiyasının 68-ci maddəsində Azərbaycanın suverenliyi, 69-cu maddədə SSRİ-dən azad surətdə çıxmaq hüququ, 73-cü maddədə dövlət dili kimi Azərbaycan dili təsbit edilirdi. Heydər Əliyev "dəyişdirə bilməyəcəyi bir rejimdə xalq üçün nə etmək olar" sualına cavab verməyi bacaran ilk və son lider oldu.

Tarixdən bəllidir ki, sovet hakimiyyətinin ilk dövrlərində bolşeviklər kommunist ideologiyasına bağlı olmayan hər şeyin üzərindən xətt çəkirdilər. İnanclar, ənənələr, hətta milli musiqi belə keçmişin qalığı hesab olunurdu. Nə qədər qəribə olsa da, SSRİ süquta uğrayandan sonra bu düşüncə vandalizmi Azərbaycanda yenidən baş qaldırdı. Bolşeviklərin muzdurlar şurasından fərqli olmayan AXC-Müsavat cütlüyü sovetlərə bağlı nə varsa, hər şeyə nifrət aşılamağa, hətta Böyük Vətən müharibəsi iştirakçılarını belə xainlikdə suçlamağa başladılar. Bunun bir səbəbi var idi, Heydər Əliyevə olan kin və düşmənçilik. Bilirdilər ki, Azərbaycan xalqı Əliyev kimi bir dahini qoyub bunlara üz tutmayacaq. Ona görə də Heydər Əliyevi SSRİ və KQB ilə assosiasiya edərək gözdən salmaq istəyirdilər. Amma xalq bilirdi ki, Heydər Əliyev şərəfli general kimi DTK sədri olanda da, Azərbaycana rəhbərlik edəndə də, SSRİ Nazirlər Sovetinin Sədrinin birinci müavini olanda da həmişə milli olub.

Heydər Əliyev milli özünüdərkdir, müasir müstəqillik təfəkkürümüzün banisidir. Kimin hansı mif uydurmasından asılı olmayaraq, etiraf etməliyik ki, mövcudiyyəti dövründə SSRİ-yə öz dövlətimiz kimi yanaşmış, bu dövlətə sidq-ürəkdən inanmışıq. Bizim çox dəyərli ziyalılarımız belə əqidəli kommunist kimi sovet dövlətini özününkü hesab edib. Bu inamla yaşayan xalqın müstəqillik barədə düşünərək SSRİ kimi qüdrətli bir dövlətdən üz çevirməsi faktiki mümkünsüz idi. Amma Ulu Öndərin haqsızlıqlara məruz qalıb 1987-ci ildə siyasi hakimiyyətdən ədalətsiz formada uzaqlaşdırılması bu xalqın sovetlərə inamının itməsi ilə nəticələndi. Azərbaycanın müasir müstəqillik yolu da məhz bu qırılma nöqtəsindən başlanır.

Təsadüfi deyil ki, Heydər Əliyevin repressiyalara məruz qalmasından cəmi bir neçə ay sonra, 1988-ci ildə başlanan meydan hərəkatının ilk iştirakçılarının əllərindəki plakatlar məhz Heydər Əliyevin portretlərindən ibarət idi.

Ulu Öndərin istefasından iki həftə keçməmiş ovaxtkı "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin Ermənistanın tərkibinə verilməsi məsələsini qaldırdılar. Heydər Əliyev hakimiyyətdə təmsil olunsaydı, heç vaxt erməni millətçiləri bu çirkin əməllərə əl atmağa cürət etməzdilər. Çünki cənab İlham Əliyevin bu il 10 mayda Şuşadan bəyan etdiyi kimi, Heydər Əliyev amili Azərbaycanı bir çətir kimi qoruyurdu. Məlumdur ki, Ermənistan dövləti yaranandan, yəni 1918-ci ildən onların Azərbaycana ərazi iddiaları var və 1969-cu ilə qədər bu iddialarını hissə-hissə uğurla realizə ediblər. Hətta 60-cı illərin ortalarında sosial-məişət zəminini bəhanə edib qiyam da qaldırmışdılar və Qarabağın Ermənistana birləşdirilməsi hələ o zaman artıq labüd idi. Məhz Heydər Əliyevin simasında Azərbaycanda güclü və milli iradənin hakimiyyətə gəlməsi bu prosesə nöqtə qoydu. 1969-cu ildən 1987-ci ilə qədər Qarabağda bir nəfər də olsun millətçi-daşnak təfəkkürü baş qaldıra bilməmişdi. Amma Heydər Əliyevsiz 6 il Azərbaycan xalqının tarixində ən ağır faciələr dönəmi kimi tarixə düşdü, ölkə parçalanmaq təhlükəsi ilə üz-üzə qaldı, 30 ildən artıq davam edən məğlubiyyətlər seriyası, işğal və təcavüz dövrü başlandı.

Heydər Əliyev SSRİ-nin ən güclü vaxtında Konstitusiyada SSRİ-dən çıxmaq hüququmuzu təsbit etdiyi halda, 1991-ci ildə hətta SSRİ dağılandan sonra belə o dövrün hakimiyyəti SSRİ-dən çıxmağa qorxurdu. Nəticədə, öncə Bakıda qaldırılmalı olan üçrəngli bayrağı, yalnız Heydər Əliyev cəsarət edib Naxçıvanda qaldırdı. Ümumiyyətlə, tarix özü ən azı iki dəfə göstərib ki, Azərbaycan dövləti yalnız Heydər Əliyev yolunda yürüdükcə var olur, güclənir. 1993-cü ildə Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən bir il keçməmiş artıq ordu quruldu, əks-hücumla Cəbrayılın, Füzulinin kəndləri, Horadiz qəsəbəsi düşməndən azad olundu, Ermənistan o zaman bizim çox ehtiyacımız olan atəşkəsə məcbur edildi.

Sonrakı illərdə bizi inkişafa, tərəqqiyə aparan yol məhz Ulu Öndərin sayəsində başlandı. Lakin Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidməti, heç şübhəsiz ki, xalqın taleyini öz siyasətinin layiqli davamçısı cənab İlham Əliyevə etibar etməsi oldu.

Ulu Öndər Bakıya qayıtdıqdan sonra bu şəhərdə təhlükələrlə üz-üzə qalanda, o cümlədən fəaliyyətinin ağır Naxçıvan dövründə onun əsas silahdaşı məhz cənab İlham Əliyev olmuşdu. 1993-cü ildən etibarən isə Ümummilli Liderin neft strategiyası və Avropa hüquq məkanına inteqrasiya kursunun realizəsində ağırlıq məhz cənab İlham Əliyevin çiyinlərinə düşdü. Ona görə də 2003-cü ilə qədərki dövlət quruculuğu prosesində biz Ulu Öndərlə bərabər, onun əsas silahdaşı kimi məhz cənab İlham Əliyevin adını çəkməliyik.

Qarabağ məsələsi Ulu Öndərin nisgili idi, hətta 1 oktyabr 2003-cü ildə, özünün həyatını həsr etdiyi xalqına son müraciətində də dahi lider ifadə edirdi ki, xaos və anarxiya dövründə yaranmış bu problemi hələ də həll edə bilməmişik. Baxmayaraq ki, Heydər Əliyevə qədərki idarəçilik normal təfəkkürə sahib olsaydı, onun dediyi kimi, xalqı vahid sarsılmaz bir qüvvə kimi Azadlıq meydanına toplayan milli hisslərdən konstruktiv şəkildə istifadə olunsaydı, Qarabağ adlı problem də olmazdı. Amma o zaman Xalq Cəbhəsi təhlil və proqnozlar əsasında milli platforma yaratmaq əvəzinə, populist meydan əhvali-ruhiyyəsinə üstünlük verdi.

Baxmayaraq ki, Ulu Öndərin dediyi kimi, bu məsələyə Azərbaycan xalqı layiqincə cavab verməyə qadir idi və cənab İlham Əliyev də sübut etdi ki, Azərbaycan xalqı böyük qələbəyə həm qadirdir, həm də layiq! Sadəcə idarəçilik milli düşüncədə, doğru əldə olmalıdır. Ulu Öndərin siyasi davamçısı olaraq cənab İlham Əliyev məhz milli düşüncəni təmsil edir və xalqın tükənməz dəstəyi ilə o həm tariximizin, həm də regionun ən güclü ordusunu və ən nəhəng müdafiə sənayesini qurdu, vətənpərvər gənclik yetişdirdi. Heydər Əliyev siyasi kursuna sadiq qalaraq 200 ildir zəbt edilmiş təfəkkürləri, 30 ildir işğalda qalan Qarabağ və Şərqi Zəngəzuru azad etməklə, ərazi bütövlüyü və suverenliyimizi tam bərpa etməklə, cənab İlham Əliyev Müzəffər Ali Baş Komandan kimi Azərbaycan tarixinin heç bir dövründə heç bir liderə müyəssər olmayan bir zirvəyə ucaldı. Azərbaycan Respublikası isə tarixinin ən qüdrətli dövrünə qədəm qoyub. Azərbaycan xalqının Ümummilli Lideri, türk dünyasının Ulu Öndəri Heydər Əliyevin görmək istədiyi mənzərə də məhz bu idi və heç şübhəsiz ki, vəfatının 20-ci ildönümündə bu reallıqlardan dahi liderin ruhu da şaddır.

**Bəhruz MƏHƏRRƏMOV,**
*Milli Məclisin deputatı*

# Heydər Əliyev Azərbaycanda əbədi var olacaq!

**Tarix şəxsiyyəti yaratmır, şəxsiyyət tarix yaradır. Ulu Öndər Heydər Əliyev də Azərbaycanın böyük tarixini yaratmış və unudulmaz iz buraxmış şəxsiyyət və böyük Liderdir.**

Ümummili Lider Heydər Əliyev bütün həyatını xalqına, vətəninə həsr etmişdir. Bu tarixi şəxsiyyətin yeganə amalı Azərbaycanı müstəqil, suverenliyi təmin olunmuş və firavan görmək idi. Ulu Öndərin taleyinə də sanki xalqının və Vətəninin ağır günlərində rəhbərliyə gəlmək yazılmışdı. Sovetlər dönəmində Azərbaycanın çətin günündə rəhbər seçilən Heydər Əliyev respublikanı qısa zaman kəsiyində dirçəldə və ittifaq miqyasında aparıcı respublikaya çevirə bilmişdir. Ümummilli Lider hər bir işi ürəkdən görürdü və bilirdi ki, onun missiyası xalqın taleyi ilə bağlıdır.

Hələ sovetlər dönəmində Azərbaycanın gələcəkdə müstəqilliyinə qovuşacağını bilən dahi Lider xalqımızın milli-mənəvi dəyərlərini qoruya bilmişdir. Sovet ideologiyasının hökm sürdüyü cəmiyyətdə milli ideologiyaların inkişaf etdirilməsinə icazə verilməsə də, Heydər Əliyev bütün sədləri aşa bilir və xalqın milli maraqlarını hər şeydən üstün tuturdu. Məhz 1978-ci ildə Azərbaycan SSR-i Konstitusiyasına Azərbaycan dilini dövlət dili kimi qeyd etməsi heç də asan məsələ deyildi. Ümummilli Lider Heydər Əliyevin təkidi və qətiyyətli iradəsi sayəsində Azərbaycan dili dövlət dili kimi istifadə edilməyə başlandı. Həmin dövrlərdə milli kadrların yetişdirilməsi də Ulu Öndərin təşəbbüsü idi. Bunun nəticəsində Azərbaycanda hərbi məktəb açıldı, üstəlik, gənclər ittifaqın aparıcı universitetlərinə oxumağa göndərilirdi.

1982-ci ildə Azərbaycan Respublikasına səfərə gələn Sov.İKP MK-nın baş katibi Leonid İliç Brejnev Azərbaycanın qısa zaman kəsiyində keçdiyi inkişaf yolunu görərək heyran qalır və "Azərbaycan iri addımlarla irəliləyir" şüarını səsləndirmişdir. Azərbaycanı bu inkişafa qovuşduran Heydər Əliyev idi.

Heydər Əliyev Moskvaya, Sov.İKP MK-nın Siyasi Bürosuna üzv və SSRİ Nazirlər Sovetinin birinci müavini vəzifəsinə dəvət olunur. Leonid Brejnev bilirdi ki, Heydər Əliyevi SSRİ rəhbərliyinə gətirməklə böyük işlər görmək mümkün olacaqdı. Ona görə də ittifaq miqyasında ən çətin layihələrin icrasına nəzarət Heydər Əliyevə tapşırılmışdı.

Heydər Əliyev rəhbərlikdə olduğu illərdə Azərbaycanı bütün təhlükələrdən qoruyurdu. Başımıza gələn faciələr yalnız Ulu Öndərin hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra baş verdi. Belə ki, 1980-ci illərin sonlarında Qərbi Azərbaycandan 300 min azərbaycanlı güc yolu ilə öz ata yurdlarından deportasiya olundular. 1990-cı ildə erməni haqsızlıqlarına göz yumduqlarına görə sovet hökumətinə etirazını bildirməklə azadlıq mübarizəsinə qalxmış xalqımızı susdurmaq üçün təpədən-dırnağa qədər silahlanmış qoşunlar göndərilərək əliyalın insanları güllələbaran etdilər. Bu haqsızlığa dözə bilməyən Ulu Öndər Heydər Əliyev Moskvadakı nümayəndəliyimizə gələrək öz etirazını bildirdi və baş vermiş cinayətə hüquqi qiymətin verilməsini tələb etdi.

1990-cı illərin əvvəllərində keçmiş Dağlıq Qarabağda separatizm baş qaldırdı, ermənilərin təşkilatçılığı ilə Sumqayıt hadisələri törədildi. Beləliklə, ermənilər daha da azğınlaşmağa başladılar və Azərbaycandan ayrılmaqla bağlı sərsəm iddialarını ortaya qoydular. "Dənizdən-dənizə böyük Ermənistan" yaratmaq kimi absurd istəklərini həyata keçirmək üçün sovet hərb maşınından istifadə edərək torpaqlarımızı işğal etməyə, soyqırımlar törətməklə azərbaycanlıları öz doğma yurdlarından çıxartmağa məcbur etdilər. Həmin dövrdə ölkə daxilində hakimiyyət davası gərginləşir və ikinci dəfə qovuşduğumuz müstəqillik böyük təhlükə ilə üzləşirdi. Ölkəni düşdüyü bu dramatik vəziyyətdən ancaq böyük Lider Heydər Əliyev xilas edə bilərdi. Bunu yaxşı bilən ziyalılarımız xalqın adından Ümummilli Liderə müraciət məktubu göndərdilər. Ümummilli Lider Heydər Əliyev də ağır vəziyyəti görürdü. Ona görə də Ümummilli Lider Heydər Əliyev yenidən hakimiyyətə qayıtmaq qərarı verdi və nəticədə tarixi bir missiyanı yerinə yetirdi, ölkəni xilas etdi.

O dövrdə həyata keçirilən islahatların müəllifi də Ulu Öndər Heydər Əliyev idi. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası qəbul olundu. Bu Konstitusiya Azərbaycanın bütün vətəndaşlarına eyni hüquqlar təmin etməklə demokratik cəmiyyətin yaranmasının hüquqi bazasına çevrildi. Ulu Öndərin hakimiyyətdə olduğu illər sabitliyi və inkişafı ilə seçilir. Ümummilli Liderin başa çatdıra bilmədiyi ən böyük arzusunu, torpaqlarımızın erməni işğalından azad edilməsini isə Prezident İlham Əliyev reallaşdırdı.

İndiki və gələcək nəsillərin Ulu Öndər Heydər Əliyevin şərəfli adı və ölməz ruhu qarşısında ən böyük müqəddəs borcu onun şah əsəri olan Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq, inkişaf etdirmək, milli birlik və həmrəyliyi daha da möhkəmləndirmək və böyük amallar uğrunda çalışmaqdır. Xalqımız Ulu Öndərin siyasi varisi Prezident İlham Əliyevin ətrafında sıx birləşərək onun siyasi kursunu uğurla davam etdirməklə Azərbaycanı daha böyük zirvələrə ucaldır.

İndi Azərbaycan Ulu Öndərin görmək istədiyi güclü ölkədir. Bu gün cismən yanımızda olmayan dahi Lider Heydər Əliyev mənən hər zaman yanımızda olacaq. Ümummilli Liderin ideyaları Azərbaycanı daha böyük gələcəyə aparacaq. Nə qədər Azərbaycan var, Heydər Əliyev də olacaq!

**Azər BADAMOV,**
*Milli Məclisin deputatı*



# Millətin məhəbbətini qazanmış dahi lider

Hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə həmişə böyük ehtiramla yanaşır. Müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük xidmətlər göstərmiş Ümummilli Lider Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir.

Ulu Öndər Heydər Əliyev hakimiyyətinin hər iki dövründə bütün ömrünü dövlətinin, xalqının rifahına həsr edərək ölkəmizi böyük bəlalardan, faciələrdən hifz edib, iqtisadi inkişaf və tərəqqi yoluna çıxardı. Dahi şəxsiyyətin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətləri misilsizdir. Onun rəhbərliyi altında dövlətçiliyin əsasları qoyuldu və ciddi islahatlara start verildi. Azərbaycan beynəlxalq aləmdə öz möhkəm yerini tuta bildi. Ən ağır məqamlarda Azərbaycan xalqı əmin idi ki, Ulu Öndər xalqımızın, dövlətimizin maraqlarını qoruyacaq və ölkəmizin inkişafı ilə bağlı ən düzgün qərarları verəcəkdir.

Ümummilli Lider Heydər Əliyev hakimiyyətdə olduğu müddətdə Azərbaycan cəmiyyətinin vahidliyinin, bütövlüyünün təmin olunmasını da özünün strateji vəzifəsi sayıb. Cəmiyyətin vahidliyini təmin edərək, onun müxtəlif istiqamətlər - sosial bərabərsizlik, regional faktor, dini və milli mənsubiyyət amili baxımından parçalanmasına imkan verməyib. Siyasi liderin gücü və qüdrəti onun elan etdiyi məqsəd və vəzifələrin, ideoloji prinsiplərin cəlbediciliyi ilə deyil, ilk növbədə, qarşıya qoyduğu vəzifələri real həyatda tətbiq imkanları ilə ölçülür. Bu mənada əminliklə demək olar ki, Azərbaycan xalqının milli kimliyinin və özünəməxsusluğunun konkret dövlət modelində reallaşdırılması məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu siyasi kurs bütün istiqamətlərdə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi prinsipinə söykənir.

Ulu Öndər qısa müddətdə ölkədə baş alıb gedən hərc-mərclik və anarxiyanı aradan qaldırdı. O zaman atəşkəsin əldə olunması Heydər Əliyevin siyasi nüfuz və peşəkarlığının nəticəsi idi. Hərbi uğursuzluqlarla üzləşdiyini və daha irəliləyə bilmədiyini görən təcavüzkar Ermənistanın rəhbərliyi 1994-cü ilin mayında danışıqlar masası arxasında oturmağa, cəbhə bölgəsində atəşkəsi nəzərdə tutan 1994-cü il 8 may tarixli Bişkek protokolunu imzalamağa məcbur oldu. Protokol mayın 12-də qüvvəyə mindi və cəbhə xəttində aktiv hərbi əməliyyatlar həmin gündən dayandırıldı. Atəşkəsin əldə olunması Azərbaycanın iqtisadi inkişafının təmin edilməsi və ordu quruculuğu prosesinin uğurla aparılması baxımından mühüm bir mərhələ oldu.

Azərbaycanda qanunun aliliyi təmin olundu, hüquqi-demokratik prinsiplərə əsaslanan konstitusiyamız qəbul edildi, müasir idarəçilik sistemi yaradıldı, vətəndaş həmrəyliyi bərpa olundu, iqtisadi tərəqqini şərtləndirən qlobal layihələr reallaşdırıldı. Ümummilli Liderin müəllifi olduğu neft strategiyası Azərbaycanın qarşısında geniş imkanlar açdı, ölkəmizə inam artdı.

Ulu Öndər Heydər Əliyev demişdi: "Əsrin müqaviləsi" ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır".

Azərbaycan qısa zamanda böyük investisiyalar məkanına çevrildi, etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirdi. Çoxlarına əfsanə kimi görünən Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri reallığa çevrildi. Azərbaycan regionun aparıcı qüvvəsi, dünyanın enerji təhlükəsizliyinin təminatçısı kimi mövqeyini möhkəmləndirdi.

Məhz qazanılan bu inam, etimad son 20 ildə Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında daha mühüm layihələrin icrasını, eyni zamanda "Yeni əsrin müqaviləsi"nin imzalanmasını şərtləndirdi. 2014-cü ildə çoxtərəfli əməkdaşlığın əsası olan "Cənub qaz dəhlizi"nin təməli qoyuldu və 2018-ci ildə rəsmi açılışı oldu. Həmin ilin iyununda bu layihənin əsas tərkib hissəsi olan TANAP, 2020-ci il dekabr ayının 31-də isə TAP istifadəyə verildi. Bununla da "Cənub qaz dəhlizi"nin uğurlu icrası başa çatdı. Azərbaycan bu gün də gündəmə gətirilən hər bir layihənin uğurlu sonluqla başa çatmasında maraqlıdır.

Ulu Öndər özünün başladığı nəhəng işlərin uğurlu icrasını kimin təmin edə biləcəyini də müəyyənləşdirdi. Fiziki imkanlarının tükəndiyi bir vaxtda həmişə inandığı və etibar etdiyi xalqına müraciət ünvanladı: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Tarix dahi şəxsiyyətin uzaqgörənliyini bir daha təsdiqlədi. Vətən müharibəsində Yeni Azərbaycan Partiyasının lideri, ölkəmizin Prezidenti və Ali Baş Komandanı İlham Əliyevin möhtəşəm rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun Qarabağın 30 il ərzində mənfur qonşumuz Ermənistanın işğalında olan ərazilərinin azad edilməsi, respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi buna sübutdur.

44 günlük Vətən müharibəsi Ulu Öndər Heydər Əliyevin "Hər şey bizim gənclərə nəyi və necə öyrətməyimizdən asılıdır" tezisinin davamı olaraq Prezident İlham Əliyevin "Gənclər milli ruhda tərbiyə olunmalı, dövlət maraqlarını qorumalıdırlar" fikirlərini real həyatda təsdiqlədi. Bu gün işğaldan azad edilmiş torpaqlarımızda Azərbaycanın üçrəngli bayrağı dalğalanır. Müzəffər Ali Baş Komandan, Azərbaycan əsgəri və xalqı bir daha sübut etdi ki, şəhidlərimizin qanı nahaq yerə tökülmədi.

Ərazi bütövlüyümüzün bərpa olunması Prezident İlham Əliyevin siyasətinin şah əsəridir. Bugünkü Azərbaycan, məhz Ulu Öndər Heydər Əliyevin görmək istədiyi Azərbaycandır. Bu gün hər bir azərbaycanlı Ümummilli Liderin əziz xatirəsini ehtiram və minnətdarlıqla yad edir. Millətin məhəbbətini qazanmış dahi lider Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi kimi əbədi olaraq yaşayacaq.

**Kamran BAYRAMOV,**
*Milli Məclisin deputatı*

# Uğurlarımızın təməlində Heydər Əliyevin əbədiyaşar ideyaları dayanır

Tarixinin ən güclü dövləti, torpaqlarını müharibə yolu ilə işğaldan azad edən qalib ölkə, Qafqazın lideri, dünyada və regionda söz sahibi…

Bu gün Azərbaycanın uğurlarından bəhs edəndə, respublikamızın keçdiyi inkişaf yolları ilə bağlı müzakirələr aparanda ilk yadımıza düşən məhz bunlardır. Bütün bu mövzular barədə danışarkən müasir Azərbaycanın memarı və qurucusu, xalqımızın Ulu Öndəri Heydər Əliyevi böyük minnətdarlıqla xatırlayır, xatirəsini dərin ehtiram hissi ilə anırıq. Çünki bütün uğurlarımızın təməlində Heydər Əliyevin müasir Azərbaycanın banisi kimi yaratdığı möhkəm təməllər dayanır.

Lakin haqlı olaraq Heydər Əliyev barədə düşünərkən yalnız müstəqillik dövrümüzün nailiyyətləri ilə kifayətlənmirik. Çünki Heydər Əliyev siyasəti xalqımızın hələ sovet dövründən başlanmış böyük bir epoxasıdır. Bu mənada Heydər Əliyev siyasəti hələ Azərbaycanın sovet illərində qazandığı böyük uğurlarda, xalqımızın milli və iqtisadi intibahında, daha sonra milli azadlıq mücadiləmizin yeni mərhələyə yüksəlməsində, dövlət müstəqilliyimizin bərpasında öz təcəllisini tapır.

Ulu Öndərin sovet dövründə Azərbaycana rəhbərliyi zamanı seçildiyi vaxt iqtisadi göstəricilərinə görə sovet respublikaları arasında 14-cü yerdə olan Azərbaycan cəmi bir neçə ilə ittifaqın öndə gedən üzvlərindən birinə çevrilmişdi. Hələ o dövrdəki iqtisadi hesablamalara görə Azərbaycan Rusiya, Ukrayna və Belarusiya ilə yanaşı, ittifaqın özünü tam təmin edə bilən respublika səviyyəsinə yüksəlmişdi.

Xalqımızın dahi oğlunun o dövrdə ən böyük xidmətlərindən biri də bir dövlət olaraq Azərbaycanın, xalqımızın, tariximizin, milli-mənəvi dəyərlərimizin sovet ideologiyasının təsirlərindən qoruması idi. Bu, milli oyanışa yol açmış, ən əsası respublikamızın gələcək müstəqilliyinin mükəmməl əsaslarını formalaşdırmışdı. Heydər Əliyev o illərdə həm də Azərbaycanı saxta erməni iddialarından qorumuşdu. Təsadüfi deyil ki, Ulu Öndərin həm Azərbaycana birinci rəhbərliyi illərində, həm də Moskvada fəaliyyət göstərdiyi dövrdə Qarabağda erməni separatizminin, Ermənistan rəhbərlərinin Azərbaycana qarşı ərazi iddialarının qarşısı qətiyyətlə alınmış, onların bu istiqamətdə SSRİ rəhbərliyi ilə apardığı müzakirələr iflasa uğradılmışdı.

SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verdikdən sonra da Heydər Əliyev milli təəssübkeşliyini qətiyyətlə davam etdirmiş, yeni baş qaldırmaqda olan milli mücadilədə öz xalqının yanında olmuşdur. Bu mənada Azərbaycan rəhbərliyinin qorxaqlığının və manqurtluğunun nəticəsi olan 1990-cı ilin 20 Yanvar faciəsi zamanı Heydər Əliyevin böyük cəsarət nümayiş etdirərək Moskvada Azərbaycanın haqq səsini ucaltması bu böyük şəxsiyyətə ümumxalq məhəbbətini daha da artırmışdı. Bununla Heydər Əliyev bir daha vətəni sevməyin, milli vətənpərvərliyin ən mükəmməl nümunəsini ortaya qoymuşdu.

Ulu Öndərin siyasi fəaliyyətinin Naxçıvan dövrü isə milli yüksəliş tariximizin ən şərəfli mərhələsidir. Məhz Naxçıvanda 1990-cı ilin yayından başlayan fəaliyyəti ilə Heydər Əliyev respublikamızda milli azadlıq mücadiləsinə yeni ruh verdi, bu yolda mübarizə edən insanları daha da mübariz etdi. Hələ SSRİ-nin mövcud olduğu dönəmdə üçrəngli bayrağımızın ilk dəfə Naxçıvanda məhz Heydər Əliyevin qətiyyətli təşəbbüsləri ilə rəsmi bayraq elan olunması, Naxçıvanda bütün sovet adlarından imtina olunması, Naxçıvanda 20 Yanvar faciəsinə siyasi-hüququn verilməsi, SSRİ-nin saxlanılmasına xidmət edən referendumun Naxçıvanda boykot edilməsi kimi tarixi hadisələr Azərbaycanda milli azadlıq mücadiləsini daha da alovlandırmışdır. Heydər Əliyev bu mübarizənin sarsılmaz olmasını təmin etmişdir.

Eyni zamanda Heydər Əliyev həm sovet dövründə, həm də müstəqilliyimizin ilk illərində Naxçıvanı qorumuşdur. Respublikada hakimiyyətdə olan qüvvələrin səbatsızlığı nəticəsində torpaqlarımızın işğal olunduğu bir şəraitdə Heydər Əliyev Ermənistanın Naxçıvanla bağlı bütün işğalçı planlarının qarşısını sərkərdə qətiyyəti ilə almışdı.

Bütün bunların nəticəsi idi ki, müstəqilliyimizin ilk illərində respublikada yaranmış dərin siyasi-iqtisadi böhran zamanı xalq Heydər Əliyevə ümid ünvanı kimi baxırdı. Vətəni sevən, dövlətin gələcəyini düşünən hər bir insan inanırdı ki, yalnız Heydər Əliyevin sayəsində Azərbaycan təhlükələrdən xilas ola bilər. 1992-ci ilin noyabr ayında Heydər Əliyevin liderliyi ilə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis olunması da məhz bu zərurətdən irəli gəlmişdi. Tarixi proseslərin sonrakı gedişatı insanların Heydər Əliyevə güvənməkdə nə qədər haqlı olduğunu, Ulu Öndərin 1993-cü ildə Bakıya siyasi hakimiyyətə dəvət olunmasının nə qədər müdrik bir ümumxalq qərarı olduğunu isbata yetirdi.

1993-cü ildən Azərbaycanda başlanan Heydər Əliyev siyasəti dövlətimizi, müstəqilliyimizi qorudu, hakimiyyətin zorla devrilməsi ənənəsinə son qoydu, ölkədə ictimai-siyasi sabitliyi təmin etdi. Heydər Əliyev müasir dövlətçiliyimizin etibarlı təməllərini formalaşdırdı, hüquqi dövlət quruculuğunu həyata keçirdi, respublikamızı beynəlxalq birliyin tamhüquqlü üzvünə çevirdi. Ulu Öndərin reallaşdırdığı islahatlar Azərbaycanın yeni iqtisadi sistemə keçidini təmin etdi. Beləliklə, Heydər Əliyev öz əməlləri ilə müasir Azərbaycan dövlətinin banisinə, xalqımızın Ümummilli Liderinə çevrildi.

Ulu Öndərin vəfatından 20 il ötür. Bu 20 ildə Heydər Əliyevin siyasi kursunun ən layiqli davamçısı olan möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə keçdiyimiz inkişaf yolu, qazandığımız möhtəşəm nailiyyətlər göstərir ki, Ulu Öndərin siyasəti yaşayır, dövlətimizin yüksəlişinə, vətəndaşlarımızın rifahına xidmət edir. Bu illər ərzində qazandığımız hər bir uğurun mayasında Heydər Əliyevin əbədiyaşar ideyaları dayanır.

Ümummilli Lider 2003-cü ildə xalqımıza müraciətində böyük inamla və müdrikcəsinə bildirirdi ki, onun axıra çatdıra bilmədiyi taleyüklü məsələləri İlham Əliyev başa çatdıracaq. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu illər ərzində inkişafının elə bir səviyyəsinə çatdı ki, 2020-ci ildə güc yolu ilə torpaqlarını işğaldan azad etdi, 2023-cü ildə isə Qarabağdakı erməni separatizminə son qoydu.

Heydər Əliyev Azərbaycanı belə güclü, torpaqlarımızı azad görmək istəyirdi və indi Ulu Öndərimizin ruhu şaddır. Vəfatının 20-ci ildönümündə bir daha Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edirik. Ulu Öndərimizin ideyaları bundan sonra da dövlətimizin inkişaf yolunun əbədi mayakı olacaq.

**Cəbi QULİYEV,**
*Milli Məclisin deputatı*

# Ən böyük azərbaycanlı

Bütün həyatını Azərbaycanın inkişafına, dirçəlişinə, rifahının yüksəlməsinə həsr edən Ulu Öndər Heydər Əliyevin vəfatından artıq 20 il ötür. Ancaq bu 20 il bizə onu göstərdi ki, Ulu Öndər daim hər bir azərbaycanlının qəlbində yaşayır və yaşayacaq. Çünki geridə qoyduğumuz bu illərdə Azərbaycan onun siyasi kursuna sadiqlik nümayiş etdirməklə davamçısı Prezident İlham Əliyevin qətiyyəti, siyasi iradəsi ilə sürətli inkişaf yolu keçmişdir. Bu gün biz əminik ki, Ulu Öndərin də ruhu şaddır ki, onun yaratdığı Azərbaycan güclü bir dövlətə çevrilmişdir.

Sovet İttifaqı zamanı Azərbaycanın ən qızıl dövrü məhz 1969-1982-ci illər arasında olub. Həmin illər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətli inkişaf edir və digər ümumittifaq ölkələrini geridə qoyurdu. O illərdə həyata keçirilən islahatlar və görülən strateji tədbirlərin fonunda Azərbaycan sürətlə inkişaf edərək SSRİ miqyasında xüsusi çəkiyə malik olan respublikaya çevrilmişdi.

Ulu Öndər 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayanda Azərbaycan Respublikası Sovet İttifaqının müttəfiq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerlərdə idi. Ulu Öndərin dövründə isə sənaye, o cümlədən yüngül sənaye və kənd təsərrüfatı ən parlaq inkişaf dövrünü yaşamışdı. Əgər Azərbaycan SSRİ miqyasında yalnız xammal mənbəyi kimi çıxış edərək inkişaf tempinə görə ən geridə qalmış respublika kimi səciyyələndirilirdisə, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən işlərin fonunda ölkəmiz sürətli inkişaf tempinə malik oldu və bütün sahələrdə mütəmadi inkişaf göstəriciləri qeydə alındı. Ancaq bu inkişaf yalnız bir neçə sahəni əhatə etmirdi. Ümummilli Liderin dahiliyi də onda idi ki, hər bir məsələyə xüsusi önəm verir və ölkəni kompleks formada inkişaf etdirirdi. Milli-mənəvi dəyərlərin qorunması istiqamətində əhəmiyyətli tədbirlər görüldü. Musiqi, teatr, kino, təsviri incəsənət, digər sahələrdə xüsusi dəyişikliklər və inkişaf meyilləri qeydə alınırdı. Mədəniyyət evləri inşa edilir, abidələr ucaldılır, incəsənət xadimlərinə fəxri adlar, ordenlər verilir, təqaüdlər ayrılırdı. Bütün bunlar isə cəmiyyətin intellektual təbəqəsinin fəaliyyətinin səmərəlilik səviyyəsini daha da artırdı. Bütövlükdə, 1969-cu ildən başlayan böyük inkişaf və rifah yolu Azərbaycanın gələcək tərəqqisinin əsası oldu. Ölkəmizdə elə bir sahə yoxdur ki, həmin istiqamətdə Ulu Öndərin müsbət yönümlü bir addımı olmasın və həmin sahə inkişaf etməsin. Ona görə də dahi şəxsiyyətin həyatı və fəaliyyətini daim öyrənməklə biz gələcək nəsillərə də bunu çatdırmalıyıq ki, Azərbaycan xalqı necə bir oğul yetişdirib.

Tarix durduqca, müstəqil Azərbaycan kəlməsini işlətdikcə biz Heydər Əliyevə borclu olduğumuzu unutmamalıyıq. 1990-cı illərdə siyasi rəhbərlikdə olan şəxslər ölkəni talamış və bölmüşdülər. Heydər Əliyev xalqımızın imdadına gəlməsəydi yəqin ki, Azərbaycan dövlət kimi yox olar, hansısa ölkənin tabeliyində bir region olardı.

1990-93-cü illər həqiqətən tariximizə bir qara ləkədir. Xilaskarımız Ulu Öndərin yenidən hakimiyyətə dönüşü bizim məhv olmamızın qarşısını aldı. Hətta Heydər Əliyev hakimiyyətdə olmayanda belə öz haqq səsini ucaltmaqdan çəkinmirdi. 20 Yanvar hadisələrinə ilk hüquqi qiymətin verilməsi Ümummilli Lider Heydər Əliyevin siyasi iradəsinin nəticəsidir. 1990-cı il yanvarın 21-də sovet rejiminin qadağalarına rəğmən, həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələn Ulu Öndər Heydər Əliyev qanlı faciənin təşkilatçılarını ittiham etdi, ifşaedici və cəsarətli bir bəyanat verdi. Bu gün xalqımız haqlı olaraq Heydər Əliyevi Azərbaycan dövlət müstəqilliyinin qurucusu kimi qəbul edir. Çünki Ümummilli Liderin rəhbərliyi altında dövlətçiliyin əsasları qoyuldu və ciddi islahatlara start verildi. Azərbaycan xalqı əmin idi ki, Heydər Əliyev ən ağır məqamlarda müstəqilliyi, xalqımızın, dövlətimizin maraqlarını qoruyacaq və xalqın inkişafı ilə bağlı ən düzgün qərarlar verəcəkdir. Təkmil siyasi sistemin, siyasi mədəniyyətin əsasının qoyulması, davamlı siyasi-hüquqi islahatların həyata keçirilməsi, həmçinin milli həmrəylik və bütövlüyü təmin edən ideologiyanın yaradılması, eyni zamanda həmin dövrdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyəti müstəqil Azərbaycanın demokratik inkişaf yolunda əmin addımlarla irəliləməsini təmin edən çox mühüm vasitə oldu. 1993-2003-cü illərdə Azərbaycanın sürətli inkişafı bugünkü reallıqların bünövrəsidir. Həmin dövrdə görülmüş işlər sayəsində Azərbaycan inkişaf yoluna qədəm qoydu, beynəlxalq aləmdə daxili siyasətlə bağlı bütün məsələlərdə öz prinsipial mövqeyini nümayiş etdirdi, dünyada böyük hörmətə malik oldu.

**Vüqar İSGƏNDƏROV,**
*Milli Məclisin deputatı*

# Şəxsiyyət zirvəsi

**Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin vəfatından 20 il keçir. Azərbaycan dövlətinin xilaskarı və qurucusu olan Ulu Öndəri böyük hörmət və rəhmət hissi ilə anırıq.**

İyirminci əsrin görkəmli, dünya tarixinə adını yazdırmış şəxsiyyətlərindən biri idi Heydər Əliyev. Ümummilli Lider dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi. O, öz həyatını doğma xalqına həsr etmiş, bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət göstərmişdir. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparmışdı. Azərbaycan tarixinin önəmli bir mərhələsi Ulu Öndər Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi dövr ərzində daim tərəqqi üçün çalışmış, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır.

1990-cı illərin əvvəlində Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkəmizin üzərində qara buludlar əsməyə başladı. Bir tərəfdən Ermənistanın təcavüzü, digər tərəfdən həyata keçirilən yanlış siyasət nəticəsində ölkənin vətəndaş müharibəsinə sürüklənməsi Azərbaycanı uçuruma aparırdı. Ölkəmizin müstəqilliyi təhlükə altında idi.

Həmin dövrdə ölkəmizi bu ağır durumdan yalnız güclü dövlət idarəçilik təcrübəsinə malik, qətiyyətli və möhkəm iradəli şəxs çıxara bilərdi. Ona görə də gözlər Naxçıvana yönəlmişdi. Hamı Azərbaycanı bu vəziyyətdən yalnız Ulu Öndər Heydər Əliyevin çıxaracağına inanırdı. Heydər Əliyev xalqın çağırışını nəzərə alıb, hakimiyyət sükanına əyləşdi. Heç şübhəsiz ki, əgər həmin dövrdə Ulu Öndər hakimiyyətə gəlməsə idi, Azərbaycanın hansı durumda olacağını təsəvvür etməyin özü belə çox çətindir. Dahi liderin gəlişi ilə qısa müddətdən sonra Azərbaycan sabitlik və inkişaf mərhələsinə qədəm qoydu.

Ulu Öndərin müdrik siyasəti nəticəsində Azərbaycan, sözün əsl mənasında, müstəqil dövlətə çevrilmişdir. Xalqımız, haqlı olaraq, Heydər Əliyevi müstəqil dövlətin qurucusu kimi qəbul edir. Onun rəhbərliyi altında dövlətçiliyin əsasları yaradıldı və ciddi islahatlara start verildi. Azərbaycan beynəlxalq aləmdə öz möhkəm yerini tutdu. Ən ağır məqamlarda Azərbaycan xalqı əmin idi ki, Heydər Əliyev müstəqilliyimizi və dövlət maraqlarımızı qoruyacaq, xalqımızın inkişafı ilə bağlı ən düzgün qərarları verəcəkdir.

Dahi şəxsiyyət Heydər Əliyevin millətimiz və xalqımız qarşısında ən böyük xidmətlərindən biri də özündən sonra onun iqtisadi-siyasi kursunu davam etdirə biləcək layiqli siyasi varis yetişdirməsidir. O, 2003-cü ilin oktyabrında xalqa ünvanladığı tarixi müraciətində demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu gün qürur hissi ilə deyə bilərik ki, dahi Heydər Əliyevin dediyi sözlər, cənab İlham Əliyevə bəslədiyi ümidlər özünü doğruldur.

Sonrakı mərhələdə Prezident İlham Əliyev bu siyasəti uğurla və böyük uzaqgörənliklə davam etdirdi, Azərbaycanı qalib ölkəyə çevirdi. Bu siyasət nəticəsində bu gün Azərbaycan öz tarixinin ən şanlı, şərəfli və qürurlu günlərindən birini yaşayır. Biz xoşbəxtik ki, müstəqil və güclü dövlətə sahibik. Unutmamalıyıq ki, dünyada ciddi proseslər gedir. Ona görə əvəzsiz nemətlərin - müstəqilliyin, suverenliyin, istiqrarın və sabitliyin dəyərini bilməliyik.

Bu gün hamımız Ulu Öndər Heydər Əliyevin amallarına sadiq qalaraq Prezident İlham Əliyevin ətrafında daha sıx birləşməli, müstəqilliyimizi və qələbəmizi daha da möhkəmləndirməliyik. Ulu Öndərin ən böyük arzusu Azərbaycan xalqını müstəqil, qalib, torpaqlarımızı işğaldan azad edilmiş görmək idi. Buna da nail olunub. Azərbaycan xalqı Ulu Öndərin dövlətimizin müstəqilliyi və suverenliyi uğrunda fədakarlığını heç zaman unutmayacaq.

Xalqımızın taleyində və müstəqil Azərbaycan Respublikasının tarixində silinməz izlər qoymuş Ulu Öndərimizi dərin ehtiramla anırıq!

**Ceyhun MƏMMƏDOV,**
***Milli Məclisin deputatı***



# Heydər Əliyev ucalığı

**Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 20 il ötür.**

Onilliklər, qərinələr ötəcək, əsrlər keçəcək, xalqımız daim Heydər Əliyevi dərin ehtiramla xatırlayacaq, xatirəsini böyük sevgi ilə yad edəcək. Çünki xalq olaraq, dövlət olaraq həm dünən, həm də bu gün əldə etdiyimiz bütün nailiyyətlərə, o cümlədən bundan sonra qazanacağımız bütün uğurlara görə Heydər Əliyevə borcluyuq...

Öz əməlləri ilə vətənə xidmətin ölməz nümunələrini yaradan Ulu Öndər Heydər Əliyev uca bir zirvədir. Heydər Əliyev yolu Azərbaycan xalqının müasir dövlətçilik tarixinin epoxasıdır. Təsadüfi deyildir ki, Heydər Əliyev şəxsiyyətinin ucalığından bəhs edəndə Azərbaycanın dünəni, bu günü və gələcəyi görünür. Həm də qürur doğuran dünənimiz, inkişaf dolu bu günümüz və etibarlı gələcəyimiz…

Yüksək siyasi və milli-mənəvi keyfiyyətlərin daşıyıcısı olan Heydər Əliyev Azərbaycana rəhbərliyinin bütün dövrlərində respublikamızı yenidən qurub, dirçəldib, inkişaf etdirib, dünyada tanıtdırıb. Xalqımızın ən çətin anlarında, istər milli müstəqilliyimiz uğrunda mübarizə zamanı, istərsə də Azərbaycanın dövlət müstəqilliyini itirmək təhlükəsi yarananda Ulu Öndər Heydər Əliyev üzərinə düşən tarixi missiyaları qətiyyətlə yerinə yetirib, ona bəslənilən ümidləri layiqincə doğruldub. Ümummilli Liderimizin ən çətin və millətin taleyi baxımından məsuliyyətli dönəmlərdə qətiyyətli, eyni zamanda yaranmış şərait üçün ən optimal qərarlar qəbul etmək məharəti heç zaman xatirələrdən silinməyəcək. Bəli, Vətənimizin yeni və çağdaş tarixi salnaməsi məhz Heydər Əliyevin müəllifliyi ilə yazılıb. Odur ki, Heydər Əliyevin tərcümeyi-halı, həyatı həm də ölkəmizin müasir yüksəliş salnaməsidir.

Dövlətlərin tarixi və keçdiyi inkişaf yolları liderlərin öz xalqlarının yüksəlişini təmin etməklə yanaşı, siyasi varislik ənənələrini də yaratdıqlarını, özlərinin siyasi ideyalarının davamlılığını təmin etdiklərini göstərir. Həmin tarixi liderlərlə bir cərgədə dayanan Heydər Əliyev də banisi olduğu müasir və müstəqil Azərbaycanın dövlətinin əsaslarını yaratmaqla, mütərəqqi inkişaf konsepsiyasını müəyyən etməklə yanaşı, həm də möhtərəm İlham Əliyev kimi onun yolunu davam etdirə bilən siyasi varisini yetişdirmişdir.

Ötən 20 ildə Azərbaycanda çoxlu mütərəqqi dəyişikliklər baş verib. Respublikamız inkişaf edib, beynəlxalq birlikdəki mövqelərini daha da gücləndirib, regionda və dünyada söz sahibinə çevrilib. Azərbaycan həm də Avropanın enerji xəritəsinə ciddi dəyişikliklər edib. Və bütün bunların fonunda Heydər Əliyevin siyasi xəttinin ən doğru yol olduğunu hiss etmişik, Heydər Əliyev ideyalarının daşıdığı dövlətçilik dəyərlərini görmüşük. Bu yüksəliş nümunələrinin hər biri Ulu Öndər Heydər Əliyevin müdrik siyasətçi və uzaqgörən bir strateq kimi müəyyən etdiyi inkişaf konsepsiyasının alternativsiz olduğunu tam məzumunu ilə sübuta yetirir.

Ulu Öndər Heydər Əliyev 2003-cü ildə xalqımıza tarixi müraciətində taleyüklü məsələlərə işarə edərək, cənab İlham Əliyevin onları həll edəcəyinə inamını ifadə etmişdi. Heydər Əliyevin ən böyük arzusu torpaqlarımızın işğaldan azad edilməsi idi. Öz qətiyyətli və müdrik siyasəti ilə Azərbaycanı inkişaf yoluna çıxaran, onu tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyev 2020-ci ilin Vətən müharibəsində tarixi torpaqlarımızın işğaldan azad olunmasını təmin etdi, Qarabağda erməni separatizminin kökünü kəsdi. Bu tarixi missiyalarını yerinə yetirməklə Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin arzularını çin etdi, özünün də qeyd etdiyi kimi, ata vəsiyyətini yerinə yetirdi.

Anım Günündə bir daha Heydər Əliyevin əziz xatirəsi önündə baş əyirik. Ulu Öndər öz ideyaları ilə hər zaman yaşayacaq, yüksək ehtiramla anılacaq. Torpaqlarımızın işğaldan azad edilməsinin, Qarabağ və Şərqi Zəngəzurun bərpası fonunda qarşıda Azərbaycanı növbəti uğurlar gözləyir. Ulu Öndər Heydər Əliyevin bizlərə və gələcək nəsillərə ərməğan etdiyi zəngin irsi isə qiymətli bir xəzinə kimi bu yolda və bütövlükdə, aydın gələcəyimizə gedən yollarımızda əbədi məşəl kimi daim şölələnəcək.

**Nəsib MƏHƏMMƏLİYEV,**
***Milli Məclisin deputatı***

# İki əsrin dahi lideri

Heydər Əliyev Azərbaycan xalqının milli sərvətidir. Aforizmə çevrilmiş bu ifadə Heydər Əliyev şəxsiyyətinə verilmiş ən lakonik və düzgün qiyməti əks etdirir. O, xalqa və Vətənə sonsuz sevgisi, dövlətçiliyə hədsiz sədaqəti ilə indiki və gələcək nəsillərə örnək ola biləcək bir fəaliyyət nümunəsi, ölkəmizin davamlı inkişafının uzunömürlülüyünü təmin edən təkmil irs, siyasi məktəb miras qoymuşdur.

O, ölkə həyatının bütün sahələrində quruculuğun, davamlı inkişafın və islahatların banisi olmuşdur. İqtisadiyyatın yenidən qurulması, kənd təsərrüfatının dirçəlişi, peşəkar ordunun yaradılması, çevik və balanslaşdırılmış xarici siyasət kursunun həyata keçirilməsi, səhiyyə, elm, təhsil, mədəniyyət, incəsənət sahələrinin tərəqqisi, hüquqi və demokratik dövlət quruculuğu məhz onun adı ilə bağlıdır.

Fransa müqavimət hərəkatının lideri Şarl de Qoll faşistlərin viran qoyduğu və xarabazara çevirdiyi Paris şəhərinə 1944-cü ildə qədəm qoyarkən ürək ağrısı ilə bu sözləri söyləmişdi: "Fransada dövlətçilik yoxdur, deməli, heç nə yoxdur". O, fransızların itirilmiş dövlətçiliyini bərpa etdi, "asayişə hə, xaosa yox" dedi. Fransızlar dövlətçilik qarşısında bu misilsiz xidmətinə görə əbədi olaraq Şarl de Qolla minnətdardırlar.

Ümummilli Lider də 1993-cü ilin 9 iyununda Bakı şəhərinə qədəm qoyarkən "Azərbaycanda da dövlətçilik itirilmişdi, deməli, heç nə yox idi". Heydər Əliyev ilk növbədə Azərbaycanın itirilmiş dövlətçiliyini bərpa etdi, ölkəni permanent xaos vəziyyətindən çıxardı, vətəndaş müharibəsinin qarşısını aldı, ölkədə milli barışığa nail oldu, bütün sahələrdə dinamik inkişaf tendensiyalarının əsasını qoydu. Azərbaycanda siyasi sabitlik və inkişaf dövrü başlandı. Xalqımız dövlətçilik qarşısında müstəsna və misilsiz xidmətlərinə görə zəmanəmizin dühası Heydər Əliyevə əbədi olaraq minnətdardır.

Təsadüfi deyildir ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi coşqun yüksəliş illəri "Milli intibah dövrü" kimi xarakterizə olunur. Bu dövrün hər iki mərhələsi (1969-1982-ci və 1993-2003-cü illər) bir-birindən zaman və ictimai-siyasi formasiya baxımından fərqlənsə də, zəmanəmizin dühasının xalqa, Vətənə xidməti və hakimiyyətin hər iki mərhələsində qazandığı böyük uğurlar baxımından olduqca oxşardırlar. Təkcə bircə faktı qeyd edək ki, 1969-1982-ci illərdə respublika iqtisadiyyatına 32 milyard rubldan çox kapital qoyulmuşdu ki, bu göstərici 1920-ci ildən başlayaraq Azərbaycan iqtisadiyyatına yatırılan investisiyadan 2,3 dəfə çox idi. Azərbaycan həmin illərdə 65 ölkəyə 350 adda məhsul ixrac edən sənaye respublikası kimi özünü təsdiqləmişdi.

1990-cı il iyulun 20-də Moskvadan Bakıya, 2 gün sonra isə Naxçıvana qayıdan Heydər Əliyev sözün həqiqi mənasında bu qədim Azərbaycan torpağını erməni işğalından hifz edə bildi. Naxçıvan Azərbaycanın qurtuluşuna gedən tarixi proseslərin mərkəzinə çevrildi. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə Naxçıvan parlamentinin sessiyasında muxtar respublikanın adından "Sovet Sosialist" sözləri götürüldü. "Ali Sovet" sözü "Ali Məclis" sözü ilə əvəz olundu. Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) üçrəngli bayrağı dövlət bayrağı kimi təsdiqləndi. Dövlət gerbi haqqında qərar qəbul edildi ki, məsələ araşdırılsın və konkret təkliflər Ali Məclisin müzakirəsinə verilsin.

Nəticədə 1991-ci il fevralın 5-də Ulu Öndər Heydər Əliyevin tarixi təşəbbüsü reallaşdı. Belə ki, həmin gün Azərbaycan Respublikasının Ali Sovetinin sessiyası "Azərbaycan SSR" adının "Azərbaycan Respublikası" adlandırılması, AXC-nin bayrağının dövlət bayrağı kimi təsis edilməsi haqqında qərar verdi.

1991-ci il martın 17-də SSRİ-nin saxlanılmasına dair Azərbaycanda referendum keçirilən zaman Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda ümumxalq səsverməsi keçirilmədi. Bu addımı ilə zəmanəmizin dühası olan Heydər Əliyev növbəti tarixi uzaqgörənliyə imza atdı, böyük cəsarət nümunəsi sərgiləmiş oldu.

Eyni cəsarət, prinsipiallıq və vətənsevərliyi Ulu Öndər Heydər Əliyev 1990-cı il 20 Yanvar faciəsinə münasibətdə bir daha nümayiş etdirdi. Faciənin səhərisi günü Heydər Əliyev özünün və ailə üzvlərinin həyatını təhlükəyə qoyaraq Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəldi və 20 Yanvar faciəsini törədənlərə qarşı açıq ittihamlarla çıxış etdi. Qətliama görə birbaşa məsuliyyət daşıyan SSRİ və Azərbaycan rəhbərliyini ifşa etdi. Bu bəyanatdan daha da hiddətlənən SSRİ prezidenti Mixail Qorbaçov Heydər Əliyevin həbsinə qərar versə də, son nəticədə onu icra etməyə cəsarəti çatmadı. Beləliklə, 20 Yanvar faciəsində qanlı təcavüzə məruz qalmış Azərbaycan xalqının haqq səsini dünya ictimaiyyətinə çatdıran yeganə şəxsiyyət Heydər Əliyev oldu. Məhz xalqımıza qarşı bu amansız hərbi təcavüz cinayətinə cavab olaraq Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etdi.

Xüsusilə dövlətçilik tariximizdə müstəsna əhəmiyyətə malik olan ikinci mərhələnin ən başlıca nailiyyəti odur ki, ölkəmizin dövlət müstəqilliyi qorunub saxlanmış, daha da möhkəmləndirilmiş və inkişaf etdirilmişdir. Bütün bu uğurların əsasında Ulu Öndər Heydər Əliyevin xalqın təkidli xahişi və tələbi ilə hakimiyyətə tarixi qayıdışı və 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri funksiyasını öz üzərinə götürməsi ilə bağlı olduqca şərəfli və məsuliyyətli qərarı dayanır.

Bu dövr Ulu Öndərin təbirincə desək, "müstəqilliyin əldə edilməsindən daha çətin olan onun qorunması və möhkəmləndirilməsi" ilə xarakterizə olunurdu. Həmin dövrdə Rusiyanın siyasi-hərbi elitasında formalaşmış mövqeyə görə, ərazisindən hərbi bazaları çıxarılan və birmənalı olaraq Qərbə inteqrasiya xəttini seçən Azərbaycan regionda Kremlin uzağagedən planları üçün birbaşa təhlükə mənbəyi rolunu oynayır. Həmin mərhələdə hakimiyyətdə olan Müsavat-AXC cütlüyünün həyata keçirdiyi səbatsız daxili və onun davamı olan xarici siyasət kursu Rusiyanın Azərbaycana münasibətdə məlum sərt mövqeyinin formalaşmasında az rol oynamadı. Nəticədə məhz həmin illərdə torpaqlarımızın Ermənistan tərəfindən işğalı həyata keçirildi. Yeri gəlmişkən, burada bir həqiqəti də xüsusi olaraq qeyd edək ki, Azərbaycan xalqının ən ağır dərdi olan Dağlıq Qarabağ problemi ilə bağlı Heydər Əliyevin 1969-1982-ci illərdə həyata keçirdiyi siyasətin nəticəsində bu dövrdə erməni millətçiləri bir dəfə də olsun ölkəmizə qarşı ərazi iddialarını açıq şəkildə dilə gətirməyə cəsarət etmədilər və buna imkan verilmədi.

Müsavat-AXC cütlüyünün mövcud şəraitə adekvat olmayan məqamda "Cənubi Azərbaycan" problemini qaldırması nəticəsində İranla da münasibətlər son dərəcə kəskinləşmişdi. Bu siyasətin nəticəsində faktiki olaraq Azərbaycan həm şimaldan, həm də cənubdan ağır təzyiq altına düşmüşdü. ABŞ Konqresi isə Azərbaycanı dövlət səviyyəsində hər cür yardımdan məhrum edən 907-ci əlavəni qəbul etmişdi.

Bu şəraitdə dövlətçiliyimiz üçün ən təhlükəli proses separatizm və onun nəticəsində ərazi bütövlüyümüzün növbəti dəfə pozulması təhlükəsi ilə bağlı idi. Respublikamız real vətəndaş müharibəsi astanasında idi. Ölkədə hakimiyyətsizlik və xaos hökm sürürdü. İnflyasiya 1992-ci ildə 1174 faiz, 1993-cü ildə isə 1080 faizə çatmışdı. 1993-cü ildə ÜDM 31,4 milyon manat, dövlət büdcəsi 10,7 milyon manat təşkil edirdi. Bu məqamda Prezident İlham Əliyevin həmin dövrü tam xarakterizə edən fikirlərinə diqqəti cəlb etmək yerinə düşər: "1991-ci ilin oktyabr ayından 1992-ci ilin yay aylarına qədər olan dövr itirilmiş imkanlar, itkilər dövrü idi... 1992-ci ilin yay aylarından 1993-cü ilin iyun ayına qədərki dövr biabırçılıq, rüsvayçılıq, fəlakət dövrü idi".

Qeyd etdiyimiz kimi, yalnız Ümummilli Liderin 1993-cü ildə xalqın tələbi və xahişi ilə hakimiyyətə qayıdışından sonra hədəfinə çevrildiyimiz bu ağır problemlər öz həllini tapmağa başladı. Ümummilli Lider Azərbaycanda demokratik inkişaf proseslərinin də əsasını qoydu. Məhz onun təşəbbüsü və siyasi iradəsinin nəticəsi olaraq qəbul edilmiş 1995-ci il Konstitusiyası və ona edilmiş əlavə və düzəlişlər ölkəmizdə hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşması prosesində müstəsna rol oynadı.

Şəxsiyyət azadlığı və toxunulmazlığı, habelə onların hüquqi müdafiəsi təmin edildi, çoxpartiyalı sistem üçün əsaslar yaradıldı, siyasi plüralizm, vicdan və etiqad azadlığı, azlıqların hüquqları, qanun qarşısında bərabərlik təmin edildi. Azərbaycan Respublikasının qanunvericilik aktlarında əks olunan, onun ayrılmaz komponenti olan təqsirsizlik prezumpsiyası təmin edildi. Bu prosesdə-demokratik dövlət quruculuğu istiqamətində Ümummilli Liderin miras qoyduğu irsin öyrənilməsi, təbliği və tətbiqində unikal genetik irsə, zəngin təcrübəyə, böyük intellektə və geniş təşkilatçılıq qabiliyyətinə malik Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, mərhəmətli Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xidmətləri müstəsna əhəmiyyət kəsb edir.

1993-cü ildən etibarən Ümummilli Liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində 1995-ci ildən başlayaraq ölkəmizin sosial-iqtisadi inkişafı və dünya iqtisadi sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlərə imza atıldı. Ən böyük nailiyyət isə ondan ibarətdir ki, bu dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni bir modeli - Azərbaycan modeli yaradıldı.

Daxili siyasi sabitlik və iqtisadi inkişafa nail olan Heydər Əliyev təkcə düzgün daxili siyasət kursunu deyil, həm də onun davamı və tamamlanması olan uğurlu xarici siyasət strategiyasını da müəyyənləşdirdi. Balanslı və çoxvektorlu xarici siyasət kursu kimi xarakterizə olunan bu siyasətin prioritet istiqamətlərindən birini də "yeni neft diplomatiyası" təşkil edirdi. 1994-cü il sentyabrın 20-də dünyanın 8 ölkəsinin 12 şirkətinin iştirakı ilə "Əsrin müqaviləsi"nin imzalanması ölkəmizin yeni neft strategiyasının başlanğıcı oldu. 1996-cı il iyunun 6-da regionun enerji təhlükəsizliyi sahəsində olduqca mühüm rol oynayan və nəticədə Avropanın enerji təhlükəsizliyində vacib rol oynayan "Şahdəniz" qaz yatağının işlənməsinə dair müqavilənin imzalanması ilə bu proses dönməz xarakter aldı.

Azərbaycan xalqı artıq 20 ildir ki, qəlbində əbədi heykəlini qoyduğu Ulu Öndərin cismani yoxluğunu onun siyasi xətti ətrafında daha sıx və monolit birlik nümayiş etdirərək yad edir. Xalqımız Heydər Əliyevin fiziki itkisindən nə qədər çox kədərlənsə də, təskinliyini onda tapır ki, bu gün onun şah əsəri olan müstəqil Azərbaycan etibarlı əllərdədir, davamlı və dinamik inkişaf tempinə malikdir. Zəmanəmizin dühasından "Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" qiymətini alan Prezident İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır. O, Azərbaycanın çağdaş tarixinə yeni missiya ilə daxil olmuşdur. Cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan son 20 il ərzində özünün milli dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır. Bu mərhələ Azərbaycanın siyasi sabitliyində, iqtisadi gücündə, sosial rifahında, uğurlu xarici siyasətində, xüsusilə də tarix yazan güclü ordusunda öz təsdiqini tapır. Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızı Ermənistanın işğalçı silahlı qüvvələrindən azad etmək kimi müqəddəs vəzifəni şərəflə yerinə yetirmişdir.

Bu məqamda Rusiyanın tanınmış ictimai xadimi, Beynəlxalq Avrasiya Hərəkatının rəhbəri Aleksandr Duqinin fikirlərinə istinad etmək yerinə düşər: "Düşünürəm, hal-hazırda İlham Əliyev dünyada bir nömrəli siyasətçidir. Son illər ərzində heç bir siyasi liderə İlham Əliyev qədər öz xalqı və dövlətinin milli maraqlarını müdafiəsi işinin öhdəsindən belə parlaq səviyyədə gəlmək nəsib olmamışdır". Əlavə şərhə ehtiyac yoxdur.

Yaşasın Heydər Əliyev siyasi kursu! Yaşasın Xilaskar Ali Baş Komandanımız! Yaşasın Müzəffər Ordumuz! Yaşasın Qalib Xalqımız!

Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

**Elman NƏSİROV,**
***Milli Məclisin deputatı***

# Dahilik rəmzi

SSRİ adlanan nəhəng imperiya 15 müttəfiq respublikanı özündə birləşdirirdi. Məlum olan o idi ki, bu respublikalar mərkəzdən idarə olunur, ən xırda istək üçün Moskvaya müraciət olunmalı, "hə" və ya "yox" cavabı oradan gəlməli idi.

Azərbaycan İkinci Dünya müharibəsində müttəfiq respublikalar arasında nəyə qadir olduğunu əyani nümayiş etdirdi. Müharibənin taleyini həll edən neft və benzin birmənalı olaraq Bakının xidməti idi. Azərbaycan faşizmə qarşı müharibəyə 600 mindən çox əsgər və zabit göndərdi, onlardan 300 mindən çoxu döyüşlərdə həlak oldu. Amma təəssüflər olsun ki, faşist Almaniyasına qulluq edən ermənilərin ölkəsi daha çox nüfuz sahibi oldu, bizim cəbhəyə göndərdiyimiz və qəhrəmanlıq göstərib həlak olanlarımız öz layiqli qiymətini ala bilmədilər.

Azərbaycan sovet dönəmində 1920-30-cu illərin repressiyalarını, kollektivləşmə və sənayeləşdirmənin ağır illərini, İkinci Dünya müharibəsinin dəhşətlərini yaşadı və nəhayət, Stalinin amansız və Xruşşovun mülayim idarəçiliyini arxada qoydu. Yüz minlərlə azərbaycanlı öz tarixi torpaqları olan Qərbi Azərbaycandan çıxarıldı.

On beş respublika içərisində Azərbaycan sonunculardan sayılırdı və aqrar ölkə statusunda idi.

Nəhayət, 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda Heydər Əliyev birinci katib seçildi. Heydər Əliyev ixtisasca tarixçi idi. Hakimiyyətdə olduğu illərdə həm tarix yaratdı, həm də onun fəaliyyəti ilə bağlı tarix yazıldı və yazılacaq da.

- Fəaliyyətinin ilk dövründə xüsusi xidmət orqanında çalışarkən və sonralar ilk azərbaycanlı kimi bu orqana rəhbərlik edərkən yüzlərlə azərbaycanlını bu orqana işə cəlb etdi və kifayət qədər azərbaycanlını sovet cəza maşınından qurtara bildi.

- Heydər Əliyev bütün hakimiyyəti dövründə (Mərkəz təkid etsə də) heç bir qonşu ölkəyə, o cümlədən Ermənistana bir qarış torpaq vermədi.

- Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan Bakı Dövlət Universitetinin 50 illik yubileyində (1969-cu il) rəsmi nitqinə Azərbaycan dilində başladı. Bu, o dövrdə ittifaq mərkəzində qəbul olunmayan bir hadisə idi.

- Heydər Əliyev Bakıda Naxçıvanski adına hərbi məktəbin açılması üçün uzun müddət mübarizə apardı və 1971-ci ildə istəyinə nail oldu. Bu məktəb Azərbaycanda milli zabit heyətinin əsasını qoydu, sonralar Qarabağ müharibəsində müdavimlərinin qəhrəmanlığı dillər əzbəri oldu.

- Heydər Əliyev Azərbaycanda ali məktəblərin sayını artırdı, hər il minlərlə Azərbaycan gəncini SSRİ-nin ən nufuzlu ali məktəblərinə göndərməyin əsasını qoydu.

- Heydər Əliyev Bakı şəhəri üçün böyük problem olan içməli su məsələsini Kür çayından su kəməri çəkdirməklə həll etdi.

- Heydər Əliyev istəmirdi ki, hərbi xidmətə çağırılan azərbaycanlı gənclər ancaq tikinti batalyonlarında xidmət etsinlər. O, mərkəz qarşısında məsələ qoyurdu ki, azərbaycanlı gənclər də hərbi xidmət zamanı ən müasir silahlarla tanış olsun, müasir texnika ilə işləməyi öyrənsinlər.

- Heydər Əliyev ittifaq mərkəzinin ciddi etirazlarına baxmayaraq, 1978-ci ildə Azərbaycan Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunmasına nail oldu.

- Heydər Əliyev Azərbaycanı aqrar ölkədən sənaye-aqrar ölkəsinə çevirdi, zavod və fabriklərin sayını artırdı.

- Heydər Əliyev Dərin Özüllər Zavodunun tikintisi ilə bağlı düşüncələrini reallaşdıranda heç kimin ağlına gəlmirdi ki, SSRİ adlı nəhəng imperiya çökəndə Azərbaycan öz neftini hasil etmək və dünya bazarına çıxarmaq üçün bu zavoda ehtiyacı olacaq.

- Heydər Əliyev 70 ildən artıq mövcud olan sovet dövlətini idarə edən yeganə türk-müsəlman olub. Sovet dövlət adamı A.Qromıkonun sözləri ilə desək, əgər Heydər Əliyev slavyan mənşəli olsaydı, dövlətin birincisi də ola bilərdi.

- Heydər Əliyev ermənipərəst M.Qorbaçovun təzyiqlərinə etiraz olaraq bütün vəzifələrindən istefa verən kimi ermənilərin Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək hərəkatı başladı.

- Heydər Əliyev özünü və ailə üzvlərinin həyatını təhlükə altına qoyaraq Moskvada Qorbaçov başda olmaqla sovet rəhbərliyini Bakıya qoşun yeritdiyinə görə ittiham etdi və Azərbaycan xalqının yanında olduğunu bəyan etdi.

- Heydər Əliyev ağır blokada şəraitində yaşayan Naxçıvanın harayına çatdı, bütün əhalini düşmənə qarşı mübarizədə birləşdirdi və qalib gəldi.

- Heydər Əliyev ilk dəfə Naxçıvan Ali Məclisində üçrəngli Azərbaycan bayrağını rəsmi dövlət bayrağı kimi qəbul etdi.

- Heydər Əliyev bu gün öz sıralarında 800 min üzvü birləşdirən Yeni Azərbaycan Partiyasının əsasını qoydu. Bu partiya Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanı dünyanın ən inkişaf etmiş dövlətləri sırasına çıxardı.

- "Əsrin müqaviləsi"ni imzaladı, Ermənistanla atəşkəsə nail oldu, müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının təsbitinə nail oldu, ölüm hökmünü və mətbuat üzərində senzuranı ləğv etdi, azərbaycanlıların soyqırımı və deportasiyası haqqında tarixi fərmanlar verdi, ölkəmiz Avropa Parlamentinə üzv qəbul olundu, azərbaycançılığı hakim ideologiyaya çevirdi. Bir millət, iki dövlət konsepsiyasına vəsiqə verdi, Qarabağ həqiqətlərini dünyaya çatdırmaq üçün mümkün olanları etdi, Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına nail oldu.

- Heydər Əliyev yenidən hakimiyyətə gəlməklə vətəndaş müharibəsinin qarşısını aldı, qardaş qırğınına son qoydu, balanslaşdırılmış xarici siyasətə nail oldu, dövlət-din münasibətlərini tənzimlədi.

- 2003-cü ilin aprelində hazırda adını daşıdığı sarayda əsgərinə son çağırışını etdi: "Əsgər, Qarabağ düşmən işğalında qala bilməz!"



Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa etsə də, xalq bu müstəqilliyin şirinliyini dada bilmədi. Erməni təcavüzü, siyasi böhranlar, hakimiyyət uğrunda didişmələr, hərbi qiyam, qardaş qırğını, vətəndaş müharibəsi təhlükəsi, nələr, nələr…

Heydər Əliyev Azərbaycan xalqı tərəfindən köməyə çağırıldı: elan olunan müstəqilliyin ömrü qısa olmasın, erməni işğalına son qoyulsun, qardaş qırğını dayandırılsın, Azərbaycanın xoşbəxt gələcəyi təmin olunsun deyə...

2003-cü ilin payızında Azərbaycan xalqına müraciətində Qarabağı düşməndən azad etmək üçün xalqımızı qalib xalqlar sırasına çıxara biləcək Ali Baş Komandanı da təqdim etdi. Xalq Ümummilli Liderini eşitdi və onun vəsiyyətinə əməl etdi.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev bünövrəsi Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və xalqımız tərəfindən dəstək alan bütün məsələləri uğurla həyata keçirir. 44 günlük Vətən müharibəsində düşməni darmadağın edən, bir milyon qaçqın və köçkünün yurd həsrətinə son qoyan cənab İlham Əliyevdir. 30 il ərzində düşmən tərəfindən yerlə yeksan edilən torpaqlarımızın gecə-gündüz demədən bərpası, Azərbaycanın ən müasir orduya malik olması, ermənipərəst qüvvələrin məğlub edilməsi, xalqının dəmir yumruq kimi birləşməsi, heç şübhəsiz, Ali Baş Komandan İlham Əliyevin adı ilə bağlıdır.

2023-cü il sentyabrın 19-20-də Azərbaycan dövləti separatçı rejimə qarşı antiterror tədbirləri həyata keçirməklə suverenliyini tam bərpa etdi, üçrəngli bayrağımız bütün ərazilərimizdə dalğalanmağa başladı. 1923-cü ildə Azərbaycan ərazisində yaradılan separatçı qurum 100 il sonra - 2023-cü ildə tarixdən silindi.

Ümummilli Lider Heydər Əliyevin qurduğu Azərbaycan bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında qətiyyətli addımlarla irəliləyir.

**Anar İSGƏNDƏROV,**
*Milli Məclisin deputatı*

# Əbədi Qurtuluş simvolu

**Hər il dekabrın 12-də xalqımız şanlı tarix yaradan, zamanın çətin sınaqlarına mətin iradəsi ilə sinə gərən dahi Lider Heydər Əliyevi minnətdarlıq hissi ilə anır. Misilsiz xidmətləri ilə xalqın böyük etimad və məhəbbətini qazanmış Ulu Öndərin həyat və fəaliyyəti hər bir Azərbaycan vətəndaşının qürur mənbəyidir.**

Bu gün dünyada öz imzası ilə seçilən qüdrətli Azərbaycan məhz Heydər Əliyevin siyasi liderliyi ilə həqiqi müstəqilliyinə qovuşmuş müasir dövlətdir. Xalqın təkidi ilə 1993-cü ildə hakimiyyətə qayıtmış Ulu Öndər Heydər Əliyev Azərbaycanı hüquqi və siyasi-iqtisadi suveren dövlət prinsiplərinə əsaslanaraq uğurla irəliyə aparmağa müvəffəq oldu. Onun rəhbərliyi altında ölkənin sürətli sosial-iqtisadi yüksəlişi, təhlükəsizliyi, ictimai sabitliyinin təmin edilməsi ilə cəmiyyətin demokratik əsaslarla inkişafı üçün lazımi mühit formalaşdı.

Müasir Azərbaycan tarixində cəmiyyətin inklüziv inkişafı üçün bir çox yeni sahənin yaranması və tərəqqisi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Ümummilli Lider Heydər Əliyevin hələ 1969-1982-ci illər ərzində Azərbaycana rəhbərlik etdiyi dövrdə həyata keçirilən islahatlar və görülən strateji tədbirlərin fonunda ölkəmiz sürətlə inkişaf edərək SSRİ miqyasında xüsusi çəkiyə malik olan respublikaya çevrilmişdi. Xüsusi vurğulanmalıdır ki, milli-ideoloji siyasətin tərkib hissəsi kimi, 1978-ci ildə Ulu Öndər Heydər Əliyevin cəhdləri və təşəbbüsü sayəsində Azərbaycan SSR-in Konstitusiyasına "Azərbaycan dili Azərbaycan SSR-nin rəsmi dövlət dilidir" maddəsi daxil edildi.

1990-cı il Azərbaycan xalqının tarixində ağır, çətin bir dövr oldu. Erməni işğalı, qaçqın seli, iqtisadi tənəzzül, siyasi böhran, ən acınacaqlısı isə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi ilə üz-üzə qalan xalq ölüm-dirim mübarizəsinə qalxdı. Belə bir məsuliyyətli və çətin dönəmdə bir qrup Azərbaycan ziyalısı Heydər Əliyevə müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etdi. Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu Öndər Heydər Əliyev partiyanın sədri seçildi.

Xalqın israrlı tələbi ilə Naxçıvandan Bakıya gələn Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçilərək iyunun 24-dən Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Bundan sonrakı dövrdə isə Azərbaycanın inkişaf və tərəqqi dövrü başlandı. Həmin çətin dövrdə müasir Azərbaycanın dövlətçilik ənənələrinin əsası qoyuldu, xalq öz lideri ətrafında birləşdi, millətin ümid yeri Heydər Əliyev oldu.

Ulu Öndərin hakimiyyətə qayıdışı ilə ölkənin ictimai həyatında fərqli bir dövr başladı. 1994-cü ilin sentyabrın 20-də Azərbaycanın Dövlət Neft Şirkəti ilə 6 ölkənin 10 şirkəti arasında "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın dünya iqtisadiyyatında yer tutması üçün zəruri zəmini formalaşdırdı.

1993-2003-cü illərdə Azərbaycanın sürətli inkişafı bugünkü reallıqların bünövrəsidir. Qaçqın və məcburi köçkünlərin problemlərinin həlli ilə bağlı həyata keçirilən ilk tədbirlər və hazırlanan dövlət proqramları bilavasitə Ulu Öndər Heydər Əliyevin gərgin əməyinin nəticəsidir. Ümummilli Liderin dövlət siyasətində ordu quruculuğu, milli mətbuatın inkişafı, Azərbaycan dilinin qorunması kimi amillər başlıca istiqamətlər oldu.

Bütün bunların fövqündə Ulu Öndərin ən ali arzusu Azərbaycan torpaqlarını işğaldan azad etmək idi. Onun xalq qarşısında misilsiz xidmətləri çoxdur, lakin Azərbaycan üçün ən böyük xidməti özündən sonra xalqımıza bəxş etdiyi siyasi varisidir.

Heydər Əliyev prinsiplərinə sədaqəti ilə xalqımızı tarixi Zəfərə qovuşduran Prezident İlham Əliyev Ulu Öndərin arzularını gerçəkləşdirməklə yeni dövlətçilik ənənəsini də yaratdı. İndi xalqımız məğrur, qalib və məsuddur. Ulu Öndər Heydər Əliyevin işıqlı ideyaları isə hər bir azərbaycanlının gələcəyini hələ uzun onilliklər nura qərq edəcək.

Bu gün Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini ehtiram və minnətdarlıqla yad edir. Onun Azərbaycan uğrunda gördüyü işlər, ölkəmizin inkişafı, bütövlüyü üçün həsr etdiyi ömrü bir örnək, bir nümunədir. Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi kimi əbədi olaraq yaşayacaq!

**Sevil MİKAYILOVA,**
*Milli Məclisin deputatı*

# "O heykələ gedən yolda heç vaxt ot bitməyəcək"

20 il əvvəl Ulu Öndər Heydər Əliyev canı qədər sevdiyi Azərbaycan xalqına "əlvida" deyərək əbədiyyətə qovuşdu. Ömrü boyu qurub-yaradan, tikib-ucaldan, xalqının yolunda ürəyini məşələ çevirən bu böyük insanın ölümünü xalq ağrı ilə qarşıladı. Amma bu dünyadan köçən onun cismi idi, Ulu Öndərin ruhu aramızdadır.

Heydər Əliyev xalqın əbədi lideri olduğunu 2003-cü il dekabrın 15-də bir daha sübut etdi. Həmin gün bütün Azərbaycan, dünyada yaşayan soydaşlarımız göz yaşları içində Böyük Öndərini son mənzilə yola saldı. Bir çox hökumət və dövlət başçıları, tanınmış siyasətçilər və şəxsiyyətlər dünya siyasətinə öz möhürünü vurmuş nəhəng dövlət xadimi ilə vidalaşmaq üçün Azərbaycan paytaxtına gəldilər. Aparıcı kütləvi informasiya vasitələrinin yüzlərlə nümayəndəsi bu Azərbaycan oğlunun dəfn mərasimindən xəbərlər və reportajlar yaydılar.

Bu o deməkdir ki, Heydər Əliyev ölümü ilə də qalib oldu. O, haqq dünyasına qovuşarkən dünyanın nəzərini bir daha Azərbaycana çəkə bildi. Bu, əbədi Azərbaycan liderinin xalqımız, yeni seçilmiş Prezidenti - siyasi varisi İlham Əliyev qarşısında daha bir xidməti oldu. Ona görə də heç kim Heydər Əliyevin tarixdə qalacağına şübhə etməsin. Çünki o, həyatı heç bir təsadüflərdən asılı olmayan, ömrü mübarizə və qələbələrdən, xoşbəxt dəqiqələr və kədərli anlardan keçən, lakin bütün acılara, əzablara, məhrumiyyətlərə rəğmən, öz məramına çatan tarixi şəxsiyyətlərdəndir.

Ulu Öndər hər kəsin qəlbində sadəliyi, səmimiyyəti, alicənablığı, vətənpərvərliyi və bütün digər yüksək insani keyfiyyətləri ilə unudulmaz izlər buraxıb. Bu dahi insanın adı Azərbaycan xalqının rəmzinə, əməlləri isə hünər nümunəsinə çevrilib. Həyat və fəaliyyəti doğma xalqına və torpağa məhəbbət, sədaqət meyarı olub. Məhz Heydər Əliyevin polad iradəsi və qətiyyəti, xalqın tərəqqisi yolunda yorulmaq bilmədən çalışması, fədakar əməyi sayəsində müasir Azərbaycanın bünövrəsi qoyulub. Məhz Heydər Əliyev müasir müstəqil Azərbaycanın arxitekturasını vermiş, milli dövlətçiliyimizin ideya təməlini qoymuşdur. Bütün bunlara görə onun müstəqilliyimizin qorunub möhkəmləndirilməsində, demokratik hüquqi dövlət quruculuğunun inkişafında müstəsna rolu və misilsiz xidmətləri qədirbilən xalqımız tərəfindən daim uca tutulur, əziz xatirəsi dərin ehtiramla anılır.

Dahi şəxsiyyətin ölümündən 20 il keçir. Lakin ötən bu 20 ildə o heç bir zaman yaddaşlardan silinmədi, zaman-zaman anıldı, adı təkrarlandı. Ulu Öndərin xalqa bəxş etdiyi düşüncə azadlığını millətin zəkalı, savadlı şəxsiyyətləri, sadə insanları hələ bundan sonra da dövlətimizin mənəvi və mədəni sərvəti kimi qoruyub saxlayacaqlar.

Heydər Əliyev bu millətin əbədi sərvəti, əbədi xəzinəsi, əbədi qazancıdır. Bunu xalqa, dövlətə 30 ildən çox müddət ərzində xidməti sayəsində Azərbaycanı dünyada ucaltması ilə sübut etdi. Heydər Əliyev hətta dünyasını dəyişməsi ilə Azərbaycanı dünyaya tanıtdı. Həmin günlər xalqın öz liderinə olan sevgisinin nəticəsi idi ki, insan seli heç bir fikrə sığmayan möcüzə yaratmışdı.

Aleksandr Puşkin "Heykəl" şeirində yazır: "Mən özüm özümə heykəl ucaltmışam. O heykələ gedən yolda heç vaxt ot bitməyəcək". Bu fikri Heydər Əliyevə də şamil etmək olar. Ulu Öndərin dünyasını dəyişdiyi vaxtdan bu günə kimi Fəxri xiyabandakı məzarını ziyarət edənlərin ard-arası kəsilmir. Qarşıdakı illərdə də belə olacaq. Onun məzarına-qəbrüstü abidəsinə uzanan yolda heç vaxt ot bitməyəcək. Çünki hələ sağlığında canlı əfsanəyə çevrilmiş Heydər Əliyev ürəklərdə özünə əbədi abidə ucaldıb. Onun parlaq ideyaları gələcəyə gedən yollarımızı hələ uzun illər işıqlandıracaq.

Heydər Əliyevin uyuduğu Fəxri xiyaban 20 ildir bu xalqın qürur ünvanı, mənəvi ziyarətgahıdır. Hər il dekabrın 12-15-də bu yerə insan axınının ard-arası kəsilmir. Azərbaycan xalqı öz Ümummilli Liderinə, xilaskarına dərin ehtiramını ifadə etmək üçün axın edir. 2003-cü ilin dekabrında mərhum Xalq şairi Zəlimxan Yaqub yazırdı:

*Bu da Fəxri xiyaban - son mənzil, son düşərgə*
*Ziyarətin adı bir, zəvvarı cərgə-cərgə.*
*Gedir insan axını, güllə, çiçəklə birgə.*
*Tarixə şöhrət olan bir ər oğlu ər yatır,*
*Görən torpaq bilirmi qoynunda Heydər yatır?*

Dahilərin doğum günü bəlli olsa da, ölüm günləri məlum olmur. Dahilik təkcə nəsə ixtira edib, nəyisə kəşf etmək, yaxud da bəşəriyyət üçün gərəkli olanı yazıb-yaratmaq deyil ki?! Ən böyük dahi - milləti, xalqı üçün, qoynunda doğulub, uyuduğu torpağı üçün təmənnasız xidmət edəndir. Dahilik həm də gözlərini geniş açaraq yer üzündəki bütün olan-qalan gözəlliyi su kimi içmək, dünyaya heyrət, təəccüb və maraq dolu baxışlarla baxmaq, nəyisə dəyişmək gücünə malik olmaq, haradan gəldiyini, hara getdiyini bilmək, kim, nəçi olduğunu unutmaq, sevdiklərini təmənnasız olaraq qucaqlayıb bağrına basmaq, ürəyinə yerləşdirməyi bacarmaqdır. Dahilik bütöv bir xalqın xoşbəxtlik işığını yandırmaqdır, bir millətin yolunda şam kimi əriməkdir, dövlət qurmaq, dövlətçiliyi qorumaqdır. Şübhəsiz, Ulu Öndər bütün bu parametrlərin daşıyıcısı idi. Dahilik memarı olduğu dövləti və xalqın onu sevən, dövlətini möhkəmləndirməyi bacaran ikinci bir şəxsə əmanət etməkdir. Heydər Əliyev ömrü dahilik tərəzisində ağır gələn tərəfdir. Bunu özünün ən böyük əsəri olan müstəqil Azərbaycanı özünün siyasi varisi və davamçısı olan İlham Əliyevə əmanət etməsi təsdiq edir. 2003-cü il oktyabrın 1-də xalqa etdiyi müraciətin, daha doğrusu, vəsiyyətin doğrudan da dahi bir addım olduğuna Azəbaycan xalqı bu gün də şahidlik edir.

Ömrünün son günlərində imza atdığı müraciətdə Ulu Öndər siyasi varisi haqqında çox böyük əminliklə, inamla fikir söyləmişdi. Sanki 20 ildən sonrakı güclü Azərbaycanı əvvəlcədən görə bilmiş, İlham Əliyevin Azərbaycanı işğaldan tam azad edəcəyini, köçkün düşmüş Qarabağ sakinlərinin doğma yurda dönüşünü təmin edəcəyini və bütün bunlara görə Azərbaycan xalqının sevimlisinə çevriləcəyini fəhmlə kəsdirmişdi. Bəlkə də məhz həmin duyğular Ulu Öndərə bu sözləri diktə etmişdi: "Üzümü sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin 1-ci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ulu Öndərin can parçası və davamçısı Prezident İlham Əliyev xalqın və atasının ümidlərini doğrultdu, verdiyi sözə əməl etdi, əmanət götürdüyü Azərbaycanı 30 illik işğalın caynağından aldı. Yurd-yuva həsrətindən kor olmuş gözlərə nur verdi, evsizlik ağrısını sağaltdı, insanlara vurulmuş "köçkün" damğasını sildi. Əminik ki, üç il əvvəl Vətən müharibəsində qazanılmış Zəfərin sevincini Şəhidlər xiyabanında Azərbaycan xalqı ilə bölüşən Ali Baş Komandan "Xoşbəxtəm ki, ata vəsiyyətini yerinə yetirdim" deyəndə Ulu Öndərin ruhu sevinmişdir.

O insan xoşbəxtdir ki, dünyasını dəyişəndən sonra da yaşayır. Heydər Əliyev də Azərbaycan xalqının yaddaşına öz ideyaları, siyasi gücü və iradəsi, möhkəm qətiyyəti və mənəviyyat ucalığı ilə əbədi hopub. Çünki 20 ildir Ulu Öndərin ideyaları Azərbaycanı gələcəyə aparır. Bu gün içimizdə xoşbəxt bir işıq yanır və o, heç zaman sönməyəcək. Ona görə xoşbəxtik ki, Heydər Əliyevlə bir zəmanədə yaşamış, onunla bir əsrdə doğulmuş, bu qurucu dövlət başçısının dövlətçilik ənənələrinin şahidi olmuşuq.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Baş Prokurorluqda Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib

Dekabrın 11-də Baş Prokurorluqda xalqımızın Ümummilli Lideri, Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib.



İlk öncə Baş Prokurorluğun rəhbərliyi Ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyub, unudulmaz xatirəsini dərin ehtiramla yad edib.

Bundan sonra Ulu Öndər Heydər Əliyev və şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib və Dövlət himni səsləndirilib.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev bildirib ki, Heydər Əliyev irsini öyrənmək, onu təbliğ etmək, bu irsdən faydalanmaq, onu gələcək nəsillərə çatdırmaq bu gün dövlətimizin qarşısında duran vacib məsələlərdən biridir. Bu mənada, möhtərəm Prezident cənab İlham Əliyevin 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi barədə sərəncam imzalaması Ümummilli liderimizin əziz xatirəsini əbədiləşdirmək istiqamətində həyata keçirilən ən mühüm tədbirlərdən biridir.






Vurğulanıb ki, Ulu Öndərin respublikamıza ilk rəhbərlik etdiyi 1969-1982-ci illərdə onun təşəbbüsü və ciddi səyləri nəticəsində yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradılmış, 250-dən çox ittifaqmiqyaslı sənaye müəssisələri fəaliyyətə başlamışdır. Məhz həmin dövrdən Heydər Əliyev öz xalqının öndəri olduğunu özünün konkret siyasi-idarəçilik fəaliyyəti ilə sübuta yetirməklə Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm təməl qoymuşdur.

Qeyd edilib ki, Heydər Əliyevin 1993-cü ildə Azərbaycan xalqının tələbi ilə siyasi hakimiyyətə qayıdışı tariximizin hərc-mərclik, ağır tənəzzül illərinə, uğursuz müharibə, Azərbaycan torpaqlarının bölüşdürülməsi planlarının reallaşması, torpaqlarımızın düşmənə təslim edilməsi dövrünə təsadüf etmişdir. Məhz bu dövrdə Heydər Əliyev Azərbaycan dövlətçiliyini xilas etmiş, Azərbaycanı parçalanıb yox olmaq təhlükəsindən qurtarmışdır. Onun qətiyyəti xalqa ruh yüksəkliyi gətirmiş, inamını özünə qaytarmışdır.

Xüsusilə vurğulanmışdır ki, məhz tarixi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra hüquq sistemində mütərəqqi islahatların reallaşdırılmasına başlanılmış, qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir.

Tədbirdə çıxış edən Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi Mahir Abbasov Ulu Öndərin siyasi hakimiyyətə gəldiyi ilk illərdən başlayaraq Qarabağda sosial infrastruktur qurulmağa başlandığını, bölgənin mənəvi-siyasi həyatının dəyişməsi istiqamətində həyata keçirilmiş islahatlar nəticəsində Azərbaycanın digər əraziləri ilə yanaşı, Qarabağda da sənaye, kənd təsərrüfatı, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrin inkşaf etdiyini bildirmişdir.

Sonda Baş prokuror Kamran Əliyev prokurorluğun kollektivinin daim Heydər Əliyev ideyalarına sadiq qalmaqla Ulu Öndərin siyasi irsinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən göstərilən yüksək etimadı doğrultmaq üçün bütün səylərini dövlət müstəqilliyinin və milli maraqların, ölkəmizdə ictimai-siyasi sabitliyin cinayətkar qəsdlərdən qorunmasına səfərbər edəcəklərini bildirmişdir.

Tədbirin sonunda Ümummilli Liderin xatirəsinə həsr olunmuş "Liderin ürəyi" sənədli filmi izlənilmişdir.

# Böyük xilaskar

Dünyada tarix haqqında yazanlar çox olsa da, tarix yaradanların sayı azdır. Çünki tarix yaratmaq tarix yazmaqdan qat-qat çətin və məsuliyyətlidir.

Ulu Öndər Heydər Əliyev də tarix yaradan dahi şəxsiyyətlərdəndir. Ümummilli Lideri dünyanın bir çox görkəmli ictimai siyasi xadimləri, müdrik insanları ilə müqayisə edənlər çox vaxt onun Azərbaycana rəhbərlik etdiyi dövrləri nəzərə çatdırırlar. Bu da təbiidir. Çünki insanlar bu dövrlər barədə daha çox məlumata malikdirlər.

Heydər Əliyevin mənalı həyatının hər günü, hər anı unudulmaz tarixdir, zaman-zaman xatırlanacaq əlamətdar hadisələrlə zəngindir. Böyük rəhbər hələ ötən əsrin 70-ci illərindən Azərbaycanda sağlam milliyyətçilik ideyalarının yayılmasında, xalqda milli mənlik və milli qürur hissinin yaranmasında misilsiz xidmətlər göstərmişdir. Heç nədən və heç kimdən çəkinmədən Azərbaycanı istər iqtisadi, istər siyasi, istərsə də mədəni intellektual cəhətdən dirçəltmək, qədim xalqını öz torpaqların, tarixi irsinin və taleyinin həqiqi sahibinə çevirmək üçün ardıcıl mübarizə aparmışdır.

Heydər Əliyev doğma xalqının qəhrəmanlıq və intellektual potensialı ilə daim qürur duyurdu və vurğulayırdı ki, bizim xalqın böyüklüyü insanların vətənə, torpağa bağlılığı və onu qorumaq hissidir. Bu dahi şəxsiyyət Azərbaycanın nə qədər istedadlı, vətənsevər, cəsur və fədakar, eyni zamanda sülhpərvər, bəşəri dəyərlərlə yaşayan xalq olduğunu bütün dünyaya göstərməyə nail olurdu.

1993-cü il iyunun 15-də Ulu Öndər hakimiyyətə gəldikdən dərhal sonra ölkədə ictimai-siyasi sabitliyin təmin olunması istiqamətində qəti addımlar atıldı. Heydər Əliyev Azərbaycanın inkişafı, beynəlxalq aləmdə möhkəmləndirilməsi istiqamətində fəaliyyətə başladı. 1994-cü ildə dünyanın aparıcı transmilli şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanması inkişaf yolunda böyük təkan oldu.

Ümummilli Lider tariximizə həm də ölkəmizdə hüquqi dövlət quruculuğunun banisi kimi daxil oldu. Hər bir dövlətin simasını onun qanunlar toplusu, konstitusiyası müəyyənləşdirir. 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ümumxalq referendumu ilə qəbul edildi. Balanslaşdırılmış xarici siyasət kursu ilə ölkəmizə qarşı təhdidlər ortadan götürüldü. Azərbaycanın müstəqilliyi möhkəmləndirildi.

12 dekabr tarixi müasir dövlətçiliyimizin banisi, Ümummilli Liderimiz Heydər Əliyevin həyatla cismani vidalaşdığı gündür. Onun fiziki yoxluğundan neçə illər ötməsinə baxmayaraq, Azərbaycan xalqı öz xilaskarını heç zaman unutmur, daim onu ehtiramla yad edir. Ulu Öndərin əbədiləşən ömür yolunu düşünəndə belə qənaətə gəlirik ki, bütün fəaliyyətini xalqına həsr edən, milləti, dövləti üçün misilsiz işlər görən rəhbərlər heç zaman unudula bilməz. Heydər Əliyevin ömrü Azərbaycanın iyirminci əsr tarixinə müdriklik, vətənpərvərlik, azərbaycançılıq kimi bəşəri dəyərləri bəxş etməklə bərabər, həm də yeni tariximizdə xalq-rəhbər birliyinin yenilməzliyini həqiqətə çevirdi. Xalqına, dininə, dilinə, tarixinə, adət-ənənəsinə sadiq olanların daim yaşayacağını sübut etdi, bəşəriyyət, azad dünya, xoşbəxt gələcək üçün qurub yaradanların daim xatırlanacağını göstərdi.

Ulu Öndərin "Mən mənalı həyatımın düz altmış ilini xalqımın bu günü və sabahı ilə yaşamışam. Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub" sözləri sanki bir ömrün hesabatıdır. Heydər Əliyev öz əməli fəaliyyəti ilə nəinki Azərbaycan, ümumən bəşəriyyət üçün dəyərli bir tarix yaratdı. Bu, bəşəri ideyaların ölməzliyi, azadlığın, insanlığın, ağıl və təfəkkürün, xalq məhəbbətinin yenilməzliyi tarixidir. Ulu Öndər irqindən, dilindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir kəsə hörmətlə yanaşır, insani keyfiyyətləri - səmimiliyi, düzgünlüyü, xeyirxahlığı, alicənablığı, dostluğu, qətiyyətliliyi, kamilliyi yüksək qiymətləndirir, sənət adamlarına həssaslıqla yanaşır, xalqla bir yerdə olmaqdan, insanların rəğbətini qazanmaqdan qürur duyurdu.

Heydər Əliyev dünyada sülhün və əmin-amanlığın tərəfdarı idi. Ölkəmizdə baş verən hadisələr, 20 Yanvar, Xocalı faciəsi, Dağlıq Qarabağ problemi, torpaqlarımızın işğalı, bir milyondan artıq qaçqın və məcburi köçkünün taleyi Ulu Öndərin ömrünə ağrı-acılı günlər, illər bəxş etsə də, dincliyini, rahatlığını əlindən alsa da o, müharibənin, qan axıdılmasının tərəfdarı deyildi. Bu dahi şəxsiyyət nəinki Azərbaycan torpağında, dünyanın heç bir guşəsində müharibənin, münaqişənin alovlanmasını, insanların bəlalara, fəlakətlərə düçar olmasını istəmirdi. O, torpaqlarımızın azğın düşməndən azad olunacağına əmin idi və bu yolda öz səylərini bir an da olsun əsirgəmirdi.

Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanı daha xoşbəxt, insanları daha firavan görmək istəyirdi. Dəfələrlə xatırladırdı: "İnsan üçün hər şeydən əvvəl onun vətənidir, torpağıdır. Bir çox əsrlər bu vətənin azadlığının, müstəqilliyinin arzusunda olmuşuq. İndi buna nail olmuşuq və bunu əziz tutmalıyıq".

Bu sözlər Azərbaycanın dövlətçilik tarixinə yeni və unudulmaz bir səhifə yazan ölməz rəhbərin - Heydər Əliyevin nəsillərə ən müqəddəs tövsiyəsi kimi səslənir. Tarix zamanın sınaqlarında, dolaylarında yaranır. Zaman dəyişsə də, tarix əbədidir. Bu dünyada yeni bir tarix yaradan dahi insan Heydər Əliyev də əbədidir, ölməzdir. Nə qədər bəşəriyyət var, Azərbaycan, azərbaycançılıq var, müdrik insanları qiymətləndirənlər var, Heydər Əliyev yaşayır və yaşayacaqdır.

***Mirhaşim CALALOV,***
***tibb üzrə fəlsəfə doktoru,***
***Vətən müharibəsi iştirakçısı***

# Xalqımızın milli sərvəti

Hər bir xalqın milli azadlıq və müstəqillik əldə etməsinin ən mühüm amillərindən biri güclü liderə malik olmasıdır. Azərbaycanın dövlətçilik tarixinə adını əbədi həkk etmiş Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər intibah, tərəqqi, milli oyanış, müstəqil dövlət quruculuğu dövrüdür.



Ulu öndərin dövlət və siyasi rəhbərliyinin təntənəsi bu gün dünyada öz dəst-xətti, mövqeyi, imzası ilə tanınan müstəqil Azərbaycan dövlətinin qurulması, möhkəmləndirilməsi, beynəlxalq aləmdə özünə layiq yer tutması və ərazi bütövlüyünün təmin olunmasıdır. Heydər Əliyevin iki siyasi quruluşda Azərbaycana rəhbərlik etməsi tarixdə nadir hadisələrdəndir. Bu dahi şəxsiyyət hər iki dövrdə ölkənin nüfuzunu yüksəklərə qaldırmış, iqtisadiyyatını gücləndirmiş, mənafeyini, milli-mənəvi dəyərlərini qorumuş və inkişaf etdirmişdir. Hakimiyyətinin birinci dövründə Azərbaycanın sosial-iqtisadi və mədəni sahələrində həyata keçirdiyi uzaqgörən siyasət nəticəsində qazanılan nailiyyətlər ölkəmizin dövlət müstəqilliyi dövrü üçün mühüm sosial-iqtisadi baza, təməl rolunu oynamışdır. İstər sovetlər birliyi, istərsə də müstəqil Azərbaycan Respublikası dövründə vətəninə, xalqına sədaqətlə xidmət etmək Heydər Əliyevin həyatının əsas qayəsi olmuşdur.

Ulu Öndərin iqtisadi və sosial sahələrdə apardığı böyük dəyişikliklər, tətbiq olunan islahatlar Azərbaycan xalqının maddi rifah halının keyfiyyətcə yeni mərhələyə çatmasına böyük təkan vermişdir. Heydər Əliyev 1970-1985-ci illərdə Azərbaycanda yaradılmış maddi-texniki bazanı, güclü iqtisadiyyatı müstəqil Azərbaycan Respublikasının gələcək quruculuq işləri üçün təməl, bünövrə hesab edir və yüksək qiymətləndirirdi: "Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha da dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır".

Ulu Öndər Azərbaycan Respublikasının Konstitusiyasının yaradılmasında dünyanın demokratik dövlətlərinin təcrübəsindən istifadə edilməsinə də xüsusi əhəmiyyət verirdi. Heydər Əliyev göstərirdi ki, biz demokratik, hüquqi, dünyəvi dövlət qurmaq üçün inkişaf etmiş Qərb ölkələrinin dövlət quruculuğu, demokratik prinsiplərinin bərqərar olması sahəsində əldə etdiyi nailiyyətlərdən istifadə edirik və edəcəyik.

Heydər Əliyev neft müqaviləsinin imzalanmasının Azərbaycan üçün böyük beynəlxalq əhəmiyyətini də bütün çıxışlarında xüsusi vurğulayırdı. Uzaqgörən siyasətçi bununla Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq olduğunu, eləcə də Azərbaycanın suveren hüquqlarının bərqərar olduğunu, xalqımızın öz təbii sərvətlərinə sahib olduğunu dünyaya göstərirdi. "Əsrin müqaviləsi" müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatında və ictimai-siyasi həyatında hökm sürən sabitliyi dünyaya bir daha nümayiş etdirdi. Müqavilə imzalanandan sonra Heydər Əliyev böyük iftixarla bildirirdi: "Mən bu müqavilənin hazırlanmasında, imzalanmasında iştirak etdiyimə görə özümü çox xoşbəxt hesab edirəm. Üzərimə götürdüyüm məsuliyyəti dərk edirəm və ümidvaram ki, gələcək nəsillər bu gün burada baş verən tarixi hadisəni layiqincə qiymətləndirəcəklər".

Dahi rəhbərin güclü intellekti, potensialı, proseslərə çevik və konseptual yanaşması, vətəninə, xalqına sonsuz məhəbbəti, qayğısı sayəsində xalqımız və ölkəmiz XX yüzilliyin ikinci yarısından bu günümüzə qədər uğurlu inkişaf dövrünü yaşamaqdadır. Ulu Öndərin bilavasitə iştirakı ilə hazırlanan kompleks inkişaf proqramları Azərbaycanda bütün sahələr üzrə müsbət dəyişikliklərin uzunmüddətli inkişaf perspektivlərini təmin etmişdir.

Ulu Öndər Heydər Əliyev tərəfindən yaradılmış fundamental əsaslara söykənən sosial-iqtisadi inkişaf strategiyası bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda Azərbaycanın beynəlxalq aləmdə qalib dövlət, etibarlı tərəfdaş, təhlükəsiz dünya məkanı, böyük layihələrin təşəbbüskarı və iştirakçısı, güclü iqtisadi potensiala, həmrəy cəmiyyətə, artmaqda olan beynəlxalq nüfuza sahib bir dövlət olaraq özünü təsdiq etməsi məhz Ulu Öndərin əsasını qoyduğu inkişaf strategiyasının möhtəşəm təcəssümüdür. Bu gün Azərbaycan sürətlə yeniləşən dünyanın aparıcı dövlətləri sırasında özünün layiqli yerini tutur.

Dövlətin inkişafını, tərəqqisini, elm, təhsil və tədqiqatda görən Ulu Öndər Heydər Əliyev 2002-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetindəki çıxışı ilə alimlər qarşısında mühüm vəzifələr qoymuşdur: "Dünya təcrübəsini siz, bizim mütəxəssislər, alimlər, bu sahənin müvafiq işçiləri toplamalısınız. Nəzəriyyəni - yeni nəzəriyyə icad etməyə ehtiyac yoxdur - ümumiləşdirmək, bizim iqtisadiyyatımıza uyğunlaşdırmaq sizin vəzifənizdir... İqtisadçılar gərək apardığımız islahatların hər birinin həm həyata keçirilmə prosesini, həm də nəticələrini təhlil etsinlər". Bu dahi insanın tövsiyələrini əsas tutaraq, Azərbaycan Dövlət İqtisad Universitetində ölkənin iqtisadi inkişafına və dayanıqlılığına töhfə vermək məqsədilə müxtəlif istiqamətlər üzrə 30-dan çox tədqiqat mərkəzi yaradılmışdır. Bu elmi-tədqiqat mərkəzlərində ölkəmizin sosial-iqtisadi inkişafının mövcud durumunun qiymətləndirilməsi, eləcə də perspektiv inkişaf istiqamətlərinə dair ciddi, nəticəyönümlü araşdırmalar aparılır. UNEC hər il dünyanın müxtəlif ölkələrinin alimlərini, tədqiqatçılarını bir platformada toplayaraq, qlobal çağırışlara və aktual mövzulara həsr olunan, ciddi müzakirələrin aparıldığı beynəlxalq konfranslara evsahibliyi edir. Bu konfransların materialları beynəlxalq bazalarda indekslənən jurnallarda dərc olunaraq, beynəlxalq elmi ictimaiyyətə çatdırılır.

Heydər Əliyevin fəaliyyəti nəticəsində respublikada həyatın elə bir sahəsi olmamışdır ki, orada inkişaf, tərəqqi müşahidə olunmasın. Ölkənin hərtərəfli, davamlı və dayanıqlı inkişafını təmin etmək və bu istiqamətdə uzunmmüddətli yol xəritəsi qurmaq fitri istedadın da fövqündədir. Fenomenal siyasi və dövlət xadimi kimi tarixə adını yazmış Heydər Əliyevin dövlətçilik fəaliyyətinin elmi əsaslarla öyrənilməsi, Azərbaycan xalqının milli sərvəti, tükənməz xəzinəsi olan siyasi irsinin araşdırılması son dərəcə mühüm siyasi və tarixi əhəmiyyətə malikdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Heydər Əliyev İli"nin elan olunması ilə ölkədə bütün sahələr üzrə qarşıya mühüm vəzifələr qoyuldu və Ulu Öndərin irsinin öyrənilməsi istiqamətində genişmiqyaslı araşdırmaların aparlıması üçün böyük imkanlar yarandı. Elm və təhsil müəssisələrində, o cümlədən UNEC-də Heydər Əliyev irsinin daha geniş təbliğinə və araşdırılmasına başlanıldı. UNEC-də yaradılmış Heydər Əliyev İqtisadi İrsinin Öyrənilməsi Mərkəzində müvafiq strukturlar tərəfindən 100-ə yaxın mövzu üzrə "Heydər Əliyev 100" müzakirələrinin, lektoriyaların keçirilməsinə başlanıldı. Ulu Öndərin zəngin fəaliyyəti, inkişaf konsepsiyası gənc nəslin nümayəndələrinin də iştirak etdiyi müzakirələrdə müxtəlif istiqamətlər üzrə tədqiq olundu. Heydər Əliyevin iqtisad irsinin öyrənilməsi prosesinə xaricdə yaşayan tədqiqatçı alimlər də cəlb olundu.

UNEC-də "Heydər Əliyev İli" çərçivəsində təsdiqlənmiş tədbirlər planında Ulu Öndərin irsinin araşdırılması əsas hədəflərdən biri kimi müəyyən olunmuşdur. Bu məqsədlə UNEC-in ənənəvi olaraq hər il keçirdiyi V İqtisadiyyat və İdarəetmə Sahəsində Tədqiqatçıların Beynəlxalq Elmi Konfransı çərçivəsində UNEC alimləri xarici tədqiqatçılarla birgə "Bir əsrin iqtisadi portreti" adlı kitabı ərsəyə gətirdilər. Kitabda Heydər Əliyevin apardığı iqtisadi siyasət, enerji strategiyası, iqtisadi inkişaf, sosial müdafiə sistemi, qeyri-neft sektoru, dövlət müstəqilliyinin dönməzliyi, eləcə də Azərbaycan-Türkiyə münasibətlərinin qurulması yerli və xarici tədqiqatçılar tərəfindən geniş araşdırılaraq, beynəlxalq konfrans çərçivəsində, eləcə də beynəlxalq kitab sərgisində geniş oxucu auditoriyasına təqdim olundu. Bu tədqiqatlar gələcək nəsillər üçün Heydər Əliyev irsinin yenidən araşdırılmasında mühüm mənbə olacaqdır.

Heydər Əliyev müstəqilliyin qorunub saxlanılması və möhkəmləndirilməsində, Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll edilməsində beynəlxalq təşkilatların rolundan istifadə etməyə xüsusi əhəmiyyət verirdi və Azərbaycan qısa müddətdə demək olar ki, bütün beynəlxalq təşkilatlara üzv oldu. 1991-ci ilin fevralında Azərbaycan SSR Ali Sovetinin sessiyasındakı çıxışında Heydər Əliyev erməni millətçilərinin Dağlıq Qarabağı Azərbaycandan qoparmaq cəhdini geniş miqyasda, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məsələsi kimi qoyulmasını irəli sürürdü: "...Təklif edirəm ki, bir Dağlıq Qarabağ məsələsi yox, 1920-ci ildən indiyədək Azərbaycan ərazisindən Ermənistana verilmiş torpaqların hamısının haqq-hesabı aparılsın. Hansı dövrdə, hansı sərhəd sahəsində, hansı torpaqlar verilib? ...Biz Ermənistana qarşı artıq müdafiə mövqeyində yox, hücum mövqeyində duraq. İndi biz mübarizəyə keçməliyik və mən də bu mübarizəyə hazıram".

Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. İşğal olunmuş torpaqlarımızın geri qaytarılması məsələsində uzaqgörən Heydər Əliyev həmişə nikbin idi və bunu xalqın gələcək proqramı kimi qarşıya qoyurdu: "Mən belə hesab edirəm ki, əldən gedən torpaqlar nə vaxtsa qaytarılmalıdır. Azərbaycanın tarixi torpaqları qaytarılmalıdır. Xalqımız da bilməlidir ki, bizim tarixi torpaqlarımız hansılar olubdur, hansılar nə vaxtsa əlimizdən gedibdir, nəyə görə əlimizdən gedibdir və şübhəsiz ki, bunlar qaytarılmalıdır. Biz də qaytara bilməsək, gələcək nəsillər qaytaracaqdır".

Heydər Əliyevin Qarabağ məsələsindəki mövqeyi, həyata keçirdiyi prinsipial və uzaqgörən addımlar, torpaqlarımızın geri qaytarılacağı barədə etdiyi çağırışları dünya dövlətləri üçün də zəngin təcrübə məktəbidir. Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılmasında və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ulu Öndərin şah əsəri olan müstəqil Azərbaycan dövlətinin vətənpərvər gəncləri Ümummilli Liderin tövsiyələrinə sadiqlik nümayiş etdirərək, öz ərazi bütövlüyünü tamamilə bərpa etməyə qadir olduğunu 44 günlük Vətən müharibəsindəki şanlı Zəfərlə, eyni zamanda 24 saatdan az vaxtda apardığı antiterror əməliyyatı ilə sübuta yetirdi.

Milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Onun dövlət quruculuğu ilə bağlı konseptual müddəaları, fəlsəfi fikirləri, liberal maarifçilik ideyaları, bəşəri dəyərlər xəzinəmizə böyük töhfədir.

Heydər Əliyev irsi çox zəngindir və bugünkü milli dövlətimizin iqtisadi və ideoloji əsasını təşkil edir. Ulu Öndərin həyatının bütün səhifələri xalqımız üçün qürur mənbəyidir. Bu dahi şəxsiyyət xalqı üçün dərin düşünülmüş, uzunmüddətli gələcəyə hədəflənmiş böyük bir inkişaf konsepsiyası miras qoyub getdi. Biz bu mirası dəyərləndirməliyik, nəsildən-nəslə ötürməliyik. Ulu Öndər hər zaman öz xalqını dövlətinə, milli dəyərlərinə sahib çıxmağa səsləyirdi: "Keçdiyimiz yola nəzər salsaq, görərik ki, biz nadir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq, böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin məsuliyyət hissi ilə yanaşmalıdır."

Ömrünü xalqına həsr etmiş Ulu Öndərin həyatının qayəsi Azərbaycanı daim irəli aparmaq olmuşdur. Milli sərvətimiz sayılan Heydər Əliyev irsi nəsillərdən-nəsillərə ötürülərək öyrəniləcək, tədqiq ediləcək, yeni hədəflərə və zəfərlərə vəsilə olacaqdır.

***Ədalət MURADOV,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru,***
***professor***



# Ulu Öndərin adına layiq

**Bəşəri və müqəddəs missiya daşıyan Heydər Əliyev Fondu xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ideyaları əsasında formalaşıb. Xeyirxahlığı, dar gündə insanlara, kimsəsizlərə, təbii fəlakətdən zərərçəkənlərə əl tutması ilə dünyada özünə böyük hörmət və nüfuz qazanan bu fonda Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva rəhbərlik edir.**

**Mübaliğəsiz demək olar ki, Heydər Əliyevin milli dövlətçilik ideyalarının həyata keçirilməsi, ölkəmizin gələcəyi ilə bağlı arzularının reallığa çevrilməsi missiyası Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən yüksək səviyyədə gerçəkləşir.**

Mənəvi sahədə isə bu irs Heydər Əliyev Fondu tərəfindən yaşadılır və inkişaf etdirilir. Qardaş Türkiyə Cümhuriyyətində baş verən əsrin fəlakətinə çevrilmiş zəlzələdə Heydər Əliyev Fondunun zərərçəkənlərə hər cür humanitar yardımlar etməsi, əvvəllər isə Pakistanda zəlzələdən zərərçəkən qızlar məktəbinin yenidən inşası, Hollandiyada, Rusiyada, Gürcüstanda, Rumıniyada, Misirdə və digər ölkələrdə təhsil ocaqlarının müasirləşdirilməsinə kömək, Afrika ölkələrinin qeyri-maddi mədəni irsinin qorunmasına yardımlar etməsi, daha sonra Parisdə Versal sarayının parkında yerləşən abidələrin bərpası, habelə Strasburqda Müqəddəs Məryəm kafedral kilsəsinin yenidən qurulması günümüzün reallıqlarıdır.

Fondun təşkilatçılığı ilə Qəbələdə, son illər Şuşada ənənəvi beynəlxalq musiqi festivallarının təşkili, dünyanın fərqli ölkələrində icra edilən beynəlxalq layihə və proqramlarla, konfrans və toplantılarla bəşəriyyətə Azərbaycan incəsənətinin möhtəşəmliyi təlqin edilir.

Prezident İlham Əliyev gündəmə gətirdiyi "insan kapitalı" ideyası ilə gələcəyin dəyərli insanlarını yetişdirməyə çalışır. Bu, zəmanəmizin ən qiymətli sərvətidir. Belə bir xəzinənin mərkəzində ilk növbədə təhsil dayanır. Ona görə də əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan təhsilə qayğı siyasəti, gənclərin savadlı və sağlam böyüməsi fondun prioritet istiqamətlərindəndir.

Böyük Azərbaycan mesenatı Hacı Zeynalabdin Tağıyevin paytaxtın görməli yerində heykəlinin açılışında iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev çıxışı zamanı demişdir: "Xeyriyyəçilik sahəsində Cənubi Qafqazda ən böyük təsisat Heydər Əliyev Fondudur. Heydər Əliyev Fondu 20 ilə yaxındır ki, yaradılmışdır və bütün bu illər ərzində fondun əsas məqsədi, vəzifəsi insanlara kömək göstərmək, Azərbaycan mədəniyyətini dünyada təbliğ etmək, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, elm sahələrinə töhfə verməkdir".

Ümummilli Lider Heydər Əliyevin ideyalarının həyata keçirilməsini özünün əsas fəaliyyət proqramı kimi qəbul edən fondun dəstəyi ilə ölkəmizdə ötən illər müxtəlif sahələrdə, o cümlədən valideyn himayəsindən məhrum uşaqlara kömək, uşaq evlərinin, internat məktəblərinin abadlaşdırılması və maddi bazalarının yaxşılaşdırılması da daxil edilməklə təhsil, səhiyyə, mədəniyyət sahələrində irimiqyaslı proqramlar həyata keçirilib.

Humanizm, mərhəmət, vətənpərvərlik və xeyirxahlıq missiyası ilə böyük nüfuz qazanmış Heydər Əliyev Fondunun layihələri sırasında ölkəmizdə təhsil sisteminin inkişafı əsas yerlərdən birini tutur. Fondun rəhbərliyi altında neçə illər bundan öncə ölkəmizdə "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı"nın hazırlanıb həyata keçirilməsi öz uğurlu bəhrəsini vermişdir. Xatırladaq ki, respublikamızdakı uşaq evləri və internat məktəblərindəki mövcud problemlərin həll olunmasına yönəldilən bu layihə fondun təhsil sahəsindəki fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. İlkin mərhələdə aparılmış monitorinqdən sonra uşaq müəssisələrində təhsil və sosial sahədə problemlərin həllinə yönələn 4 mühüm istiqamət: texniki dəstək, təhsil, səhiyyə və ictimai fəallıq prioritet kimi müəyyənləşdirilmişdir.

Heydər Əliyev Fondunun layihələri sırasında əsas istiqamətlərdən biri də gənc nəslin maariflənməsi və təhsildə yüksək nəticələr əldə etməsidir. Məhz bu məqsədlə fond bütün imkanlarından istifadə etməklə məktəb tikintisinə daha çox diqqət ayırır. Neçə illərdir Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı tədris prosesinin günün tələbləri səviyyəsində qurulmasına imkan verən yeni məktəb binalarının inşasına istiqamətlənib. Layihə çərçivəsində paytaxtda və regionlarda müasir standartlara cavab verən məktəb binaları tikilib, neçə-neçə məktəb cari və ya əsaslı təmir olunaraq müasir avadanlıq, istilik sistemi, zəngin kitabxana, əyani vəsait və kompüter avadanlığı ilə təchiz olunub. Bu layihə son illər işğaldan azad edilmiş ərazilərimizdə də həyata keçirilir.

Səhiyyəyə gəldikdə, fondun bu sahədə əks-səda doğuran layihələrindən biri "Diabetli uşaqlara ən yüksək qayğı"dır. Layihə çərçivəsində ölkəmizdə diabet xəstəliyinə düçar olmuş 14 yaşınadək uşaqlar müntəzəm olaraq lazımi miqdarda insulin preparatları və şpris-qələmlərlə təmin edilirlər. "Talassemiyasız həyat naminə" layihəsi də bu xəstəliyin geniş yayıldığı ölkələrdən hesab olunan Azərbaycanda yüksək qiymətləndirilir.

Heydər Əliyev Fondu 2020-ci ilin sentyabrında başlanan və tarixi zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində fəallıq göstərərək qələbəyə öz töhfəsini verdi. Həm daxili, həm beynəlxalq arenada həqiqətləri çatdırmaq, ölkəmizə, xalqımıza haqq işində dəstək olmaq üçün mümkün olan hər şeyi etdi. Fondun əməkdaşları hazırda erməni işğalından azad edilmiş bölgələrdə mədəni irsin qorunması, tarixi abidələrin bərpası işlərinə səfərbər olunublar.

Azərbaycanın görkəmli alimlərinin, yazıçı və bəstəkarlarının yubileylərinin keçirilməsi, o cümlədən "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunması, UNESCO-nun "Dünya irs siyahısı"na İçərişəhərin, Şirvanşahlar Saray Kompleksinin, Qobustan Qoruq Muzeyinin, Atəşgahın və digər tarixi abidələrin, habelə mədəni irs nümunələrinin daxil edilməsi və s. bu kimi tədbirlər fondun Azərbaycan milli mədəniyyətinin dünya miqyasında təbliği sahəsində xidmətlərinin kiçik bir siyahısıdır. Ümumiyyətlə, fond xalqın varlığını özündə yaşadan mənəvi-intellektual irsə həssaslıqla yanaşaraq onun dünya arenasında təbliğində fəal iştirak edir. Məsələn, dost Pakistan bu ölkədə təhsil, səhiyyə və humanitar sahələrdə Heydər Əliyev Fondunun gerçəkləşdirdiyi layihələri yüksək qiymətləndirir. Qeyd edək ki, Pakistanda bir neçə məktəb tikintisi, talassemiya mərkəzinin yaradılması, su təchizatı sisteminin quraşdırılması, xeyriyyə tədbirlərinin keçirilməsi Heydər Əliyev Fondunun adıyla bağlıdır.

Heydər Əliyev Fondunun dəstəyi və xalqımızın istəyi ilə paytaxt Bakıdan tutmuş ölkəmizin ən ucqar qəsəbə və rayonlarında, habelə dünyanın bir çox ölkələrində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi böyük təntənə və qürur hissi ilə qeyd edilir. Bu ucalıqdan həm də görünən odur ki, müasir Azərbaycan dövlətinin memarı olan Heydər Əliyev milli-mənəvi dəyərlər sistemini qoruyan, inkişaf etdirən və onu milli özünüdərkin həlledici amilinə çevirən fenomenal şəxsiyyətdir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Milli maraqlara əsaslanan xarici siyasət strategiyasının müəllifi

**1993-cü ilin ikinci yarısında Ümummilli Lider Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli maraqlarının və mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Heydər Əliyev özünün zəngin dövlətçilik təcrübəsinə əsaslanaraq bir sıra mühüm və təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsini qarşıya məqsəd kimi qoymuşdu. Həmin vəzifələrdən biri və ən əsası Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxartmaq, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq və xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq informasiya blokadasını yarmaqdan ibarət idi. Ona görə də yeni siyasi kursu həyata keçirmək üçün hər şeydən əvvəl müharibə dayandırılmalı və dinc şərait təmin edilməli idi.**

Ümummilli Lider Heydər Əliyev bildirmişdir ki, Azərbaycanın müstəqilliyini möhkəmləndirmək üçün əsas vəzifələrdən biri ölkəmizin mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasət olmasıdır. Digər mühüm vəzifələrdən biri də bəzi dövlətlər ilə münasibətlərdə əsassız yaradılmış gərginliyi aradan qaldırmaq, balanslı və milli maraqlara əsaslanan xarici siyasət xəttini təmin etmək, region dövlətlərlə münasibətlərə daha çox diqqət yetirməklə qarşılıqlı əməkdaşlıq və mehriban qonşuluq əlaqələrinin qorunmasına nail olmaq idi. Qarşıda duran ən mühüm vəzifələrdən biri də münaqişənin ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi şərti ilə ədalətli şəkildə həll olunması üçün böyük dövlətlərin, eləcə də beynəlxalq təşkilatların səylərini gücləndirməyə nail olmaqdan ibarət idi.

Demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikasının müstəqillik əldə etdikdən sonra üzləşdiyi sosial-iqtisadi və siyasi problemlərin müvəffəqiyyətlə həlli ölkəmizin beynəlxalq aləmdəki mövqeyi və ayrı-ayrı ölkələrlə milli dövlət maraqlarına cavab verən qarşılıqlı faydalı əlaqələri və dünya birliyinə inteqrasiyası prosesinin intensivliyi ilə sıx bağlı idi. Bu mənada, Azərbaycanın beynəlxalq münasibətlər sistemində layiqli yer tutması üçün dünya siyasətinin formalaşmasında aparıcı rol oynayan dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərin tənzimlənməsi və inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edirdi.

Ümummilli Lider çox bacarıqlı, son dərəcə təcrübəli dövlət başçısı və yetkin siyasi xadim kimi bu çətin və mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə və böyük ustalıqla gəlmək bacarığı nümayiş etdirdi. Ölkəmizin sistemli şəkildə dünya birliyinə inteqrasiya olunmasında ikitərəfli və çoxtərəfli siyasi münasibətlərin genişlənməsi istiqamətində atılan addımlar mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin dərinləşməsi və beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə güclü təkan verdi. "Əsrin müqaviləsi" və sonrakı illərdə imzalanmış çoxsaylı neft müqavilələri Azərbaycanın dünya birliyinə inteqrasiyasını sürətləndirdi.

Azərbaycanın enerji siyasətinin əsasını təşkil edən Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz əsas ixrac boru kəmərlərinin tikintisinə başlandı. Sonrakı illərdə onların işə salınması nəticəsində Azərbaycan nəinki özünün enerji təhlükəsizliyini təmin etdi, eyni zamanda Avropanın enerji təminatında mühüm rol oynamağa başladı. Həmçinin enerji diplomatiyası Azərbaycan dövlətinin beynəlxalq mövqelərini möhkəmləndirdi.

1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi böyük İpək yolunun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı və onun nəticələri Azərbaycanın qazandığı ən mühüm nailiyyətlərindən biridir.

İlk növbədə Avropa ilə Asiyanın qovşağında çox mühüm və geosiyasi bir ərazidə yerləşən və müstəqilliyini bərpa etmiş Azərbaycanın qonşu dövlətlərlə - Türkiyə, Rusiya, İran, Gürcüstan, Qazaxıstan və Türkmənistan ilə münasibətlərinin inkişaf etdirilməsi ölkəmizin xarici siyasətinin əsas prioritet istiqamətlərindən biri oldu. Həmin ölkələrlə münasibətlərdə başlıca məqsəd mehriban qonşuluq və qarşılıqlı əməkdaşlığa əsaslanan ikitərəfli və çoxtərəfli əlaqələr qurmaq idi.

Bununla yanaşı, Azərbaycan dövlətinin xarici siyasətinin əsas istiqamətlərindən biri də Avropa ölkələri ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi idi. Bu baxımdan, xarici siyasətin başlıca məqsədi Azərbaycanı müstəqil dövlət kimi tanıtmaq, beynəlxalq mövqelərini möhkəmləndirmək idi. Bu dövrdə, yalnız ikitərəfli deyil, çoxtərəfli əsasda da fəal xarici siyasət yürüdülərək Azərbaycanın beynəlxalq təhlükəsizlik və əməkdaşlıq sistemində özünəməxsus yer tutması üçün bir sıra mühüm addımlar atıldı.

Azərbaycan Respublikasının xarici siyasət strategiyasının mühüm istiqamətlərindən biri beynəlxalq təşkilatlara hərtərəfli əməkdaşlıq etməkdir. Bunun başlıca səbəbi ondan ibarətdir ki, Azərbaycan Respublikası beynəlxalq təşkilatlarla əməkdaşlığı bütövlükdə ümumi təhlükəsizliyə, iqtisadi inkişafa və demokratiyaya dəstək verəcək vasitə kimi görür.

Azərbaycanın beynəlxalq təşkilatlara üzv olması ilə yanaşı, onların işlərində fəal surətdə iştirak etməsi və səmərəli əməkdaşlıq ölkəmizin problemlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm əhəmiyyət kəsb edir. Məhz buna görə də dünya birliyinə bərabərhüquqlu üzv kimi daxil olmağa çalışan və müstəqilliyinin ilk addımlarını atan, eləcə də Ermənistanın hərbi təcavüzü nəticəsində ərazi bütövlüyü pozulmuş Azərbaycan Respublikasının xarici siyasətində dünya birliyinə inteqrasiya, ikitərəfli və çoxtərəfli münasibətlər, o cümlədən beynəlxalq və regional təşkilatlarla əlaqələrin yaradılması və inkişaf etdirilməsi Ümummilli Lider Heydər Əliyevin fəaliyyətinin başlıca istiqamətlərindən birini təşkil etmişdir.

Ümummilli Lider Heydər Əliyev xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə çox böyük diqqət yetirirdi. Bu baxımdan 1994-cü il mayın 4-də Heydər Əliyevin "Sülh naminə tərəfdaşlıq" proqramının çərçivə sənədini imzalaması Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi istiqamətində atılan mühüm addımlardan biri oldu.

Bununla yanaşı, Ulu Öndərin BMT Baş Məclisinin sessiyalarında və digər yüksək səviyyədə keçirilən müxtəlif iclaslarda və çoxsaylı görüşlərdə bu əlaqələr inkişaf etdirildi. Azərbaycan dövlətinin başçısı kimi ilk dəfə Ümummilli Lider 1994-cü il sentyabrın 29-da BMT Baş Assambleyasının 49-cu sessiyasında çıxış edərək, bu universal beynəlxalq təşkilatın tribunasından ölkəmizin bir çox məsələləri ilə bağlı, xüsusilə Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırdı. 1995-ci il oktyabrın 22-də BMT-nin 50 illik yubileyi ilə bağlı keçirilən Baş Məclisinin xüsusi təntənəli iclasında çıxış edən Heydər Əliyev bu qurumun yüksək kürsüsündən dünya dövlətlərinə müraciət edərək, mövcud qlobal problemlərə dair Azərbaycan dövlətinin prinsipial mövqeyini açıqlamış, xüsusilə Ermənistanın təcavüzünün aradan qaldırılması ilə bağlı təcili tədbirlərin görülməsinə və beynəlxalq səylərin artırılmasına çağırmışdır.

2000-ci ilin sentyabrında BMT-nin minilliyin sammitində çıxış edən Ulu Öndər Heydər Əliyev dünyada sülhün və təhlükəsizliyin qorunmasında əsas missiyanı öz üzərinə götürmüş bu beynəlxalq təşkilatın kürsüsündən Azərbaycanın mövqeyini bir daha dünyaya bəyan etmiş, bəşəriyyətin üzləşdiyi problemlərin həllində BMT-nin fəaliyyətini daha da gücləndirmək məqsədilə təşkilatda islahatların aparılmasının zəruriliyini vurğulamışdır.

1996-cı il aprelin 22-də Lüksemburqda Avropa İttifaqı və Azərbaycan Respublikası arasında ticarət, sərmayə, iqtisadiyyat, qanunvericilik, mədəniyyət, immiqrasiya və qeyri-qanuni ticarətin qarşısının alınması sahəsində əməkdaşlığı nəzərdə tutan "Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" imzalanmışdır. Bu müqavilənin imzalanması Azərbaycanın xarici siyasətinin ən uğurlu səhifələrindən biri kimi qiymətləndirilir. Dövlətimiz və xalqımız üçün mühüm tarixi əhəmiyyət kəsb edən bu müqavilə Azərbaycanın Avropa strukturları və institutları ilə əlaqələrinin genişlənməsi, xüsusilə inteqrasiya istiqamətində hüquqi baza rolunu oynayır. Hazırda Azərbaycan Respublikası ümumavropa sisteminə inteqrasiya olunmaqla yanaşı, qitənin təhlükəsizlik arxitekturasına öz töhfəsini verərək Avropa ölkələrinin enerji təchizatının təmin olunmasında çox mühüm rol oynamaqdadır.

Ümumiyyətlə, Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illərdə respublikamız üçün həlledici illər olmuşdur. Məhz həmin illərdə dövlətçiliyimizin möhkəm təməli qoyulmuşdur. O illərdə Azərbaycanın xarici siyasətlə bağlı strateji xətti müəyyən edilmiş, ölkəmiz dünya birliyinə qovuşmuşdur. Azərbaycanın beynəlxalq təşkilatlara üzv olmaqla yanaşı, onların işlərində müntəzəm, eləcə də fəal surətdə iştirak etməsi səmərəli əməkdaşlığımız, ölkəmizin problemlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm əhəmiyyət kəsb etmişdir.

1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edilmiş, siyasi sistem möhkəmləndirilmiş və ölkəmizin uğurlu inkişafı üçün möhkəm zəmin yaradılmışdır. Bu illər ərzində görülmüş işlər ölkəmizin uğurlu inkişafını şərtləndirmişdir. Həmin dövrdə başlanmış layihələr bu gün çox uğurla davam etdirilir.

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla inkişaf etdirən Prezident İlham Əliyevin yüksək diplomatik istedadı sayəsində son 20 il ərzində ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri keyfiyyətcə yeni müstəvidə daha da inkişaf etdirilir. Nəticədə Azərbaycan yalnız beynəlxalq regionda gedən proseslərdə deyil, eyni zamanda beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanmışdır.

Prezident İlham Əliyevin 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısı kimi mühüm beynəlxalq platformada qətiyyətlə söylədiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" devizi bir ildən sonra, xüsusilə 44 gün ərzində reallığa çevrildi.

İkinci Qarabağ müharibəsinin 44 günü ərzində dövlətimiz, beynəlxalq hüquq prinsiplərini, xüsusilə BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub öz ərazilərini azad etmək hüququndan istifadə edərək uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarımızı şərtləndirdi. Azərbaycan dövləti oktyabrın 4-də Cəbrayıl şəhərinin, 17-də Füzuli şəhərinin, 20-də Zəngilan şəhərinin, 25-də Qubadlı şəhərinin işğalçılardan azad olunması ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnamələrini özü icra etdi.

Azərbaycanın hərbi-diplomatik qələbəsi ilə nəticələnən 44 günlük İkinci Qarabağ müharibəsinin nəticəsində noyabrın 20-də Ağdamın, həmin ayın 25-də isə Kəlbəcərin işğaldan azad edilməsi noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsini, eləcə də münaqişənin hərbi-siyasi həllini müəyyənləşdirdi. Bununla yanaşı, Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi nəticəsində BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan, eləcə də işğalçı qüvvələrin Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarından çıxmasını nəzərdə tutan 822 və 853 saylı qətnamələr də məhz Azərbaycanın şərtləri ilə icra edildi.

2020-ci il noyabrın 8-i isə tariximizə ən şanlı gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın baş tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə ciddi təsir göstərdi.

Üçtərəfli Bəyanatın müvafiq maddəsinə əsasən, Ermənistan silahlı qüvvələrinin 2020-ci il dekabrın 1-dən Laçın rayonundan çıxması Azərbaycanın hərbi-diplomatik uğurlarının nəticəsi kimi qiymətləndirildi.

Bu baxımdan qeyd etmək lazımdır ki, Azərbaycanın milli maraqlarını uca tutan, Prezident İlham Əliyevin prinsipial mövqeyi hərb, diplomatiya meydanında olduğu kimi, informasiya savaşında da uğurlarımızı şərtləndirirdi və İkinci Qarabağ müharibəsində tarixi Qələbənin əsası qoyuldu.

2023-cü il sentyabrın 19-20-də Azərbaycan apardığı lokal antiterror tədbirləri nəticəsində həm ərazi bütövlüyünü, həm də suverenliyini bərpa edərək Cənubi Qafqaz regionunda sülhün bərqərar olması üçün əsaslı zəmin yaratdı. 2023-cü il oktyabrın 15-i daha bir şərəfli gün kimi tarixə düşdü. Ali Baş Komandan, Prezident İlham Əliyev Ağdərədə, Xocalıda, Əsgəranda, Xocavənddə və Xankəndidə Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı.

Hazırda Azərbaycanın qlobal miqyasda qazandığı uğurlar və tarixi nailiyyətlər ölkə daxilində milli birliyin təmin olunmasına, dünya azərbaycanlıları arasında həmrəyliyin güclənməsinə təkan vermiş, xüsusilə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızı daha da ruhlandıraraq ölkəmizin milli maraqları ətrafında sıx birləşməsinə zəmin yaratmışdır.

Bütün bunlar onu deməyə əsas verir ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi kursu Prezident İlham Əliyevin çox uğurla davam və inkişaf etdirməsi, eləcə də dinamik, çoxşaxəli və milli maraqlara əsaslanaraq həyata keçirilən xarici siyasət nəticəsində Azərbaycanın çox böyük uğurlara imza atması ölkəmizin dünya birliyində mövqelərinin yüksəlməsini təmin etmişdir.

**Elçin ƏHMƏDOV,**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Qarabağ İrsini Araşdırma Mərkəzinin rəhbəri, professor, siyasi elmlər doktoru*

# Heydər Əliyev dünya azərbaycanlılarını birləşdirən ideologiyanın banisidir

Vətənpərvərlik ilk növbədə insanın öz ölkəsinə olan sevgisidir. Azərbaycançılıq ruhu bu hissdən başlanır. Xalqın milli-mənəvi irsini, tarixini, mədəniyyətini, dilini, bir sözlə, özünəməxsusluğunu göstərən dəyərləri qorumağa yönələn fəaliyyət burada üstünlük təşkil edir.



Ulu Öndər Heydər Əliyevin təlqin etdiyi düşüncə, yaratdığı nümunə hər birimiz üçün mükəmməl vətənpərvərlik məktəbi, vətənə sədaqət dərsidir. "Hər bir insanın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" deyən Ümummilli Lider öz mənəvi irsi ilə insanın vətəninə sevgisinin həm də onun mənəviyyat göstəricisi olduğunu təlqin edir. Bildirir ki, vətənpərvərlik insanın daxilindəki duyğulardır. "Əgər bunlar yoxdursa, o insanın mənəviyyatından danışmağa dəyməz. Milli mənlik hər bir adamın özünün milli mənsubiyyətini ətraflı dərk etməsinə imkan yaradır. Milli mənliyi olan şəxs həyatın heç bir hadisəsinə laqeyd qalmır". Vətən, torpaq məhəbbəti, millətin və xalqın qayğıları onun şəxsi istək və arzularını üstələyir. Onu xalq üçün müəyyən fəaliyyət göstərməyə sövq edir.

Ulu Öndər deyirdi: "Xalqımız böyük xalqdır. Böyük tarixə, böyük mədəniyyətə malikdir. Bu mədəniyyətimizi, onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu hər kəsə nə qədər dərindən anlada bilsək, bir o qədər də xalqımızda vətənpərvərlik, vətəndaşlıq hissini, azərbaycançılığı yüksəldərik".

Ümummilli Liderin hələ sovetlər zamanında respublikaya rəhbərliyinin bütün fəlsəfəsi xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanışı məramına hesablanmışdır. İdarəçilikdə bütün addımlar, o cümlədən iqtisadi inkişafın sürətli strategiyasının həyata keçirilməsi milli şüurun yüksəlməsinə təkan verməli, milli dirçəlişin etibarlı təməlinə çevrilməli idi. Bu məqsədə yetişmək üçün Heydər Əliyev azərbaycançılıq məfkurəsinin rejimin ideoloji repressiya maşını ilə boğulmasına nəinki imkan verməmiş, eyni zamanda milli məfkurə və düşüncə sahibi olan ziyalıları qorumuşdur. Bir sözlə, Ulu Öndər Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra siyasi reallıqdan məqsədli şəkildə çıxarılmış milli varlıq anlayışını ötən əsrin 70-ci illərində Azərbaycana rəhbərliyi dövründə qığılcıma çevirdi. O dövrün verdiyi imkanlar çərçivəsində həyata keçirdiyi ardıcıl tədbirlərlə milli şüurun oyanışına nail oldu. Həmin illər böyük rəhbər xalqımızın mənəvi dəyərlərinin qorunması, milli ruhun yüksəlişi, kadrların milliləşdirilməsi, azərbaycançılıq məfkurəsinin aktuallaşdırılması istiqamətində tarixi işlər gördü.

Ölkəmizin sosial-iqtisadi və mədəni yüksəlişi istiqamətində aparılan islahatlar, milli şüurun oyanışı məqsədi daşıyan açıq-gizli tədbirlər birbaşa və ya dolayı şəkildə azərbaycançılıq məfkurəsinin inkişafına, cəmiyyətdə öz dayaqlarının möhkəmləndirilməsinə xidmət edirdi. Ötən əsrin 80-ci illərinin sonlarından etibarən milli məfkurə işığında istiqlal mübarizəsinə qalxan, dövlət müstəqilliyini bərpa edən, qısa müddətdə böyük inkişaf nailiyyətlərinə imza atan Azərbaycan Respublikasının əsaslandığı möhkəm bünövrə Ümummilli Lider Heydər Əliyevin həmin illərdə və ondan sonrakı mərhələdə gördüyü işlər, formalaşdırdığı sarsılmaz təməldir. Ulu Öndərin formalaşdırdığı azərbaycançılıq ideologiyası bu təməlin əsas sütunlarından biridir.

1993-cü ildə, müstəqillik yollarında hələ ilk kövrək addımlarını atan Azərbaycanın çətin günlərində xalqın təkidli tələbi ilə ölkənin gələcəyinə görə məsuliyyəti üzərinə götürəndən sonra Heydər Əliyev azərbaycançılıq ideologiyasını dövlətimizin əsas qayəsinə çevirdi. Ən böyük azərbaycanlı kimi hər kəsə nümunə yaratdı, milli mənsubiyyətindən, dilindən, dinindən, siyasi baxışından, yaşadığı məkandan asılı olmayaraq özünü Azərbaycana qəlbən bağlı sayan bütün dünya azərbaycanlılarını azərbaycançılıq ideologiyası işığında bir araya gətirdi. Azərbaycançılıq məfkurəsini milli həmrəyliyin inkişafında aparıcı amilə çevirməklə cəmiyyətin möhkəmlənməsi istiqamətində mühüm səy göstərdi.

Böyük rəhbər azərbaycançılığın tarixən inkişaf etmiş komponentlərini dövlət idarəçiliyinin elmi-nəzəri əsaslarına daxil etdi, onları bir-birinə bağlı harmonik sistem və konsepsiyada birləşdirdi. Heydər Əliyev müstəqillik illərində azərbaycançılıq ideyasına yeni məzmun qazandırdı və onun praktiki olaraq həyata keçirilməsinə şərait yaratdı. Bununla da Ulu Öndərin xalqımız və dövlətimiz qarşısında ən mühüm xidməti azərbaycançılıq düşüncəsini bütün dünya azərbaycanlılarını birləşdirən ideologiyaya, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevirməsi oldu.

## Real müstəqilliyin təminatı

Ümummilli Lider azərbaycançılıq ideologiyasına real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitə kimi yanaşır, milli mənsubiyyətin, mənəvi dəyərlərin mühafizəsində, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezində, inteqrasiyasında bu ideologiyanın roluna xüsusi önəm verirdi. Heydər Əliyevin baxışlarına görə, azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının birlikdə mənimsədiyi ənənə və dəyərlərin, Azərbaycan hüdudlarından kənarda yaşayan soydaşlarımızın hüquqlarının qorunması və tarixi vətənə olan münasibətlərini ehtiva edən, azərbaycanlı düşüncəsini müəyyənləşdirən böyük bir konsepsiyadır. Azərbaycançılıq milli mənsubiyyətindən asılı olmayaraq, özünü azərbaycanlı sayan hər bir insanın birlik mənbəyidir. Bu ideologiya dünyanın müxtəlif səmtlərində yaşayan on milyonlarla azərbaycanlını bir araya gətirən işıqdır.

Bununla yanaşı, azərbaycançılıq ideologiyası təkcə fərdləri birləşdirmir. Eyni zamanda inancların, mədəniyyətlərin, beynəlxalq-humanitar dəyərlərin vəhdətini yaradır. Şərq və Qərb mədəniyyətlərinin dialoquna, türkçülük və avropaçılıq meyillərinin sintezinə, tarixi ənənələrin müasir inkişaf prosesləri ilə qovuşmasına kömək göstərir. Bu səbəbdən də azərbaycançılıq ideologiyası müxtəlif regionlarda, sosial-siyasi sistemlərdə və mədəniyyət mühitlərində yaşayan bütün dünya azərbaycanlıları üçün dəyərlidir.

## "Düşünün ki, biz Azərbaycan üçün nə etmişik"

Ulu Öndər Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq müxtəlif amillərə əsaslanır. Bu amillərin ən mühümlərindən biri məhz milli ənənələrdir. Milli ənənələr milli düşüncə sisteminin genetik mənbəyi olaraq azərbaycançılığın inkişafına təsir göstərir. Ənənə, tarixi təcrübənin nəticələrini toplayaraq, xalqın bilik və mədəni iradəsi kimi təsəvvür edilir. O, keçmişlə gələcək arasında rabitə yaradır, etnik mədəniyyəti qoruyur. Bu ənənələr xalqın tarixi təcrübəsini özündə mühafizə edərək onun mütərəqqi həyat təcrübəsini əbədiləşdirir. Bu baxımdan, azərbaycançılıq ideologiyası, xalqın tarixi ənənələrini gələcək nəsillərə ötürən mənəvi körpüdür. Azərbaycançılığın gücü, fərdi maraqları dövlət siyasəti ilə birləşdirilərək milli-mədəni eyniyyəti qorumaq imkanlarını təmin etməklə ölçülür.

Azərbaycançılıq ideologiyası insanlarda öz xalqına, Vətəninə, dövlətinə sevgi göstərməyi öyrədir. Milli simvollara, adət-ənənələrə, xalqın minillərdir yol gələn, zaman-zaman cilalanıb misilsiz mənəvi sərvətə çevrilən dəyərlərinə hörmət və sevgi aşılayır, ana dilimizə məhəbbət təlqin edir. Eyni dərəcədə də ümumbəşəri dəyərləri önə çəkir, fərqli mədəniyyətlərə hörmətlə yanaşmağı anladır.

Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq ideologiyası hər bir soydaşımız üçün gələcək qarşısında məsuliyyətdir. Dövlət nə qədər güclü olarsa, vətəndaşı da bir o qədər güclü olar. Ona görə də özünü inkişaf etdirmək istəyən, yeni imkanlara can atan hər bir fərd bütün bu istəkləri Vətənində reallaşdırmağı bacarmalıdır. O zaman məqsədlərə çatmaq daha asan olacaq, ölkənin ümumi inkişafından bu inkişafda payı olan hər kəs bol-bol faydalana biləcək. Ümummilli Lider deyirdi: "Siz düşünməyin ki, Azərbaycan bizim üçün nə edib, düşünün ki, biz Azərbaycan üçün nə etmişik. Onda Azərbaycan da irəli gedər, Azərbaycan diasporu da inkişaf edər... Harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin, mədəniyyətinin daşıyıcısısan".

## Milli birliyimizin Zəfəri

Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin qüdrətlənməsi üçün həyata keçirdiyi strateji missiya təkcə milli birliyin təmin olunması, demokratik, hüquqi dövlət quruculuğu, sosial-iqtisadi inkişaf yönündə ardıcıl tədbirlərlə, mövcud resurslardan səmərəli istifadə mexanizmlərinin formalaşdırılması ilə məhdudlaşmamış, bütün dünyada Azərbaycan diasporunun gücünün artırılması sahəsində də mühüm nəticələr əldə edilmişdir.

Xarici ölkələrdə yaşayan soydaşlarımızla mövcud əlaqələri gücləndirmək, onları ideoloji-siyasi məsələlərdə dəstəkləmək və ümummilli məqsəd üçün səfərbər etmək Azərbaycanın xarici siyasətində ən önəmli prioritet istiqamətlərdən biri halına gəlmişdir. Dövlət siyasəti, xaricdə yaşayan soydaşlarımızın milli identikliyini qorumaq, inkişaf etdirmək, Azərbaycanla əlaqələrini genişləndirmək və onların hüquqlarını reallaşdırmaq məqsədini güdür. Azərbaycan dövləti dünya azərbaycanlılarının potensial imkanlarını bir araya gətirmək və milli birliyi təmin etmək üçün sıx əlaqələr yaratmaq istiqamətində ardıcıl və sistematik işlər aparır. Bu məqsədlə müvafiq təsisatlar formalaşdırılıb, dünyanın müxtəlif bölgələrində yaşayan soydaşlarımızın Azərbaycanla əlaqələrinin daha da gücləndirilməsi, birliyin və həmrəyliyin təmin olunması, Azərbaycan icmaları, cəmiyyətlərinin fəaliyyətinin inkişaf etdirilməsi və əlaqələndirilməsi üçün işlək bir mexanizm qurulub.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazandığımız zəfər, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, dövlət bayrağımızın Şuşada, Xankəndidə dalğalanması milli birliyimizin nə qədər önəmli amil olduğunu bir daha sübuta yetirdi. Biz bu şanlı qələbəni milli birliyimizin gücü ilə qazandıq və bütün dünyaya qəbul etdirdik. Azərbaycanda yaşayan bütün xalqların təmsilçiləri vahid bir vətənin ərazi bütövlüyü uğrunda vuruşdular. Dünyanın hansı səmtində yaşamasından asılı olmayaraq qəlbi Azərbaycanla döyünən hər kəs Vətənin bu şanlı qələbəsinə öz töhfəsini verdi.

Bu gün tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan Heydər Əliyevin arzularındakı Azərbaycandır. Azərbaycançılıq ideologiyasının daha da möhkəmlənməsi, öz əhatə dairəsini genişləndirməsi, milli məfkurə kimi hər bir soydaşımızın baxışlarında özünə yer tutması indi də dövlət siyasətinin əsas istiqamətlərindəndir.

Dövlətimiz diaspor fəaliyyətinə xüsusi diqqət ayırır. Milli diaspor təşkilatlarımız getdikcə güclənir, onların vahid və mütəşəkkil qüvvə kimi möhkəmləndirilməsinin ideoloji-siyasi əsasları formalaşır. Azərbaycan Prezidentinin həyata keçirdiyi daxili və xarici siyasətin uğurları sayəsində ölkəmizin beynəlxalq nüfuzu gücləndikcə, başqa ölkələrlə əlaqələri inkişaf etdikcə xaricdəki diaspor təşkilatlarımızın imkanları da genişlənir. Onlar mövcud olduqları ölkələrin ictimai-siyasi həyatına daha təsirli şəkildə nüfuz edə bilirlər.

Diaspor təşkilatlarımız müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların bir araya gəlməsini təmin edir və Azərbaycan dövlətinin nailiyyətlərinin, mədəniyyətimizin zənginliklərinin tanıdılmasına töhfə verirlər. Prezident İlham Əliyevin azərbaycançılıq ideologiyasının daha böyük uğur qazanması üçün həyata keçirdiyi ardıcıl fəaliyyət, bu sahəyə verdiyi önəm və göstərdiyi diqqət dövlətimizin yerinə yetirdiyi strategiyanın mühüm tərkib hissəsi kimi Azərbaycan diasporunun daha da güclənəcəyindən, Vətənə və soydaşlarımıza böyük nailiyyətlər gətirəcəyindən xəbər verir.

## Mədəniyyətlər arasında dialoq və multikulturalizm örnəyi

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti də azərbaycançılıq ideologiyasının uğurlarına mühüm töhfələr verir və hər bir soydaşımız üçün parlaq nümunələr yaradır. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən layihələr bütün dünyada xalq olaraq mədəni sərvətlərimizin zənginliyini nümayiş etdirir, Azərbaycanın dostlarının sırasını daha da genişləndirir, mədəniyyət diplomatiyasının gücü ilə ölkəmizin beynəlxalq nüfuzuna xidmət edir.

Həyata keçirilən qlobal təşəbbüslər sayəsində Azərbaycan bu gün bütün dünyada mədəniyyətlərin dialoqu, multikulturalizm məkanı kimi tanınır. Xalqımız min illərdən bəri mövcud olan tolerantlıq ənənələrinin inkişafı, mədəniyyətlər arasında hörmət ruhu ilə bütün dünyaya örnək yaradır.

Bütün bunlar Ümummilli Lider Heydər Əliyevin banisi olduğu azərbaycançılıq ideologiyasının təntənəsidir. Azərbaycan xalqı azərbaycançılıq işığında bundan sonra da gələcək strateji hədəflərə doğru irəliləyərək daha böyük nailiyyətlərə imza atacaq.

*İradə ƏLİYEVA, "Azərbaycan"*



# Azərbaycan qazının ixrac coğrafiyası genişlənir

## Bu, yeni interkonnektorlar vasitəsilə gerçəkləşir

Yeni çağırışlar qarşısında Avropada Azərbaycan qazına tələbatın artması və bu ehtiyacın ödənilməsi kompleks tədbirlərin görülməsini gündəmə gətirib. Bunlardan biri də müvafiq ixrac infrastukturunun yaradılmasıdır.

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, bu istiqamətdə irəliyə doğru addımların atılması üçün TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP (Trans-Adriatik Qaz Boru Kəməri) genişləndirilməlidir. Bizim digər Avropa boru kəmərlərinə də çıxışımız olmalıdır. Avropada interkonnektorların sayı mütləq artırılmalıdır. Bütün bu məsələlər həllini bir-birilə əlaqələndirilərək tapmalıdır.

İşlər də məhz belə irəliləyir. Azərbaycan qazına tələbat artdıqca nəql yolları da şaxələnir, marşrutlar çoxaldıqca ixracın coğrafiyası da genişlənir. Budur, Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun da açılışı oldu.

Serbiya-Bolqarıstan Qaz İnterkonnektoru istismara verilməklə "Cənub qaz dəhlizi"nə inteqrasiya olunur. Serbiya və Bolqarıstan arasında bu yeni xəttin tikintisinə bu il fevralın 1-də başlandı və tamamlanması da nəzərdə tutulduğu vaxt baş verdi. İnterkonnektoru Azərbaycan Prezidenti İlham Əliyev, Serbiya Prezidenti Aleksandar Vuçiç, Bolqarıstan Prezidenti Rumen Radev və Avropa İttifaqının daimi nümayəndəliyinin rəhbəri Emmanuel Jofre işə saldılar. Bu faktın özü də bir daha sübut edir ki, möhtəşəm "Cənub qaz dəhlizi" layihəsinin təşəbbüskarı və aparıcı qüvvəsi məhz Azərbaycandır.

Yeni interkonnektorun Serbiyanın Niş şəhərində keçirilən açılış mərasimindəki çıxışında Prezident İlham Əliyev dedi: "Azərbaycan 2027-ci ilə qədər Avropaya göndərilən qazın həcmini iki dəfə artırmalıdır. Artıq rəqəmlər onu göstərir ki, biz inamla bu hədəfə doğru gedirik. 2021-ci ildə bizim Avropa məkanına qaz ixracımız 8 milyard kubmetrdən bir qədər çox olmuşdursa, bu il bu, təxminən 12 milyard kubmetrə çatacaq. Bu da Azərbaycanın ümumi qaz ixracının 50 faizini təşkil edir. Bizim çox genişmiqyaslı başqa planlarımız var. Azərbaycanın bütövlükdə enerji strategiyası uğurla icra edilir. Bizim tərəfimizdən irəli sürülmüş və icra edilmiş layihələr Avropanın və Asiyanın - Avrasiyanın enerji xəritəsini böyük dərəcədə yenidən tərtib etmişdir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa neft kəmərləri bu gün Azərbaycan neftini Aralıq dənizinin və Qara dənizin bazarlarına çatdırır". Cənub qaz dəhlizi" - uzunluğu 3500 kilometr olan nəhəng infrastruktur layihəsi Avropanın enerji təhlükəsizliyinə çox böyük töhfə verir. Təsadüfi deyil ki, Avropa Komissiyası, onun yüksəkvəzifəli şəxsləri Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa qaz təchizatçısı kimi dəyərləndirirlər".

Dövlətimizin başçısı çıxışında xatırlatdı ki, Azərbaycanın Bolqarıstana qaz təchizatı iki il bundan əvvəl başlamışdır. 2021-ci ildə 270 milyon kubmetr, keçən il 500 milyon kubmetrdən bir qədər çox qaz təchiz edilmişdir. Bu il isə bu rəqəm 1 milyard kubmetrə yaxın olacaq.

Xatırladaq ki, 2022-ci il oktyabrın 1-də Azərbaycan təbii qazını Bolqarıstana nəql edən Yunanıstan-Bolqarıstan İnterkonnektoru (IGB) istifadəyə verildi. IGB-nin reallaşması TAP-ın inkişafında mühüm bir mərhələnin başlanğıcı, "Cənub qaz dəhlizi"nin yeni qollarla şaxələnməsinin göstəricisi kimi dəyərləndirilir. Bu interkonnektorun açılışı Bolqarıstanın, ümumən Cənub-Şərqi Avropanın şaxələndirilmiş enerji təchizatında, istehlakçıların sərfəli və təmiz enerjiyə çıxışında strateji əhəmiyyətli hadisədir. Başqa sözlə, IGB qarşıdakı illərdə "Cənub qaz dəhlizi"nin genişləndirilməsi istiqamətində yeni layihələrin müjdəçisidir.

Serbiya-Bolqarıstan Qaz İnterkonnektoru ixrac infrastrukturunun zənginləşməsi üçün atılan növbəti uğurlu addımdır. Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç Niş şəhərində Azərbaycanın media nümayəndələrinə müsahibəsində söyləyib ki, bu onlar üçün çox vacib bir layihədir. O, həmçinin qeyd edib: "Bu, həm də Serbiyanın Niş, Dimitrovqrad, Bela Palanka və Pirot kimi mühüm şəhərlərinin enerji təhlükəsizliyini möhkəmləndirəcək. Bizim gələcəkdə 6 və ya 7 LNG terminalından qaz almaq imkanımız da olacaq ki, bu da Serbiyanın ümumi enerji təhlükəsizliyində mühüm rol oynayacaq".

Bolqarıstan Prezidenti Rumen Radev də baş verən hadisəni yüksək dəyərləndirib: "Bu gün Serbiyada interkonnektorun açılış mərasimini edirik. Yalnız Serbiya deyil, həmçinin regionun digər ölkələri də Azərbaycandan gələn qaza, həmçinin yeddi terminala, Aralıq dənizindəki Elengi terminalına və təbii ki, Solidarity Ring təşəbbüsünə, Bolqarıstandakı Çidan adlı saxlama yerinə çıxış əldə edib. Biz hazırda Bolqarıstandakı infrastrukturu genişləndiririk və bunun sayəsində Qərbi Avropa qaz ehtiyatlarına da çıxış əldə edəcəyik. Biz bu gün sübut edirik ki, yalnız birgə səylər nəticəsində, ortaq istəyə əsasən iqtisadi inkişaf əldə edə, daha yaxşı, daha təhlükəsiz gələcəyə nail ola bilərik. Digər önəmli məsələ isə odur ki, biz infrastrukturun inkişafı nəticəsində daha böyük nailiyyətlər əldə edəcəyik".

Avropa İttifaqının Serbiyadakı daimi nümayəndəliyinin rəhbəri Emmanuel Jofre bildirib ki, Aİ bu layihəyə 50 milyon avroluq qrant, Avropa İnvestisiya Bankı isə 25 milyon avro məbləğində imtiyazlı kredit ayırıb: "Bundan əlavə, biz Bolqarıstan ərazisində interkonnektorun tikintisinə 20 milyon avro ayırmışıq. Bu mühüm mərhələ Serbiya vətəndaşlarının həyat şəraitini yaxşılaşdırmaq məqsədilə Avropa İttifaqının enerji sektorunda bu ölkəyə verdiyi ümumi dəstəyin bir hissəsidir. Biz Bolqarıstanı Serbiya ilə, Serbiyanı Avropa İttifaqı ilə birləşdiririk. Bu baxımdan bu infrastruktur Serbiya və Avropa İttifaqı üçün strateji əhəmiyyət kəsb edir".

Beləliklə, interkonnektorların sayı artır. Azərbaycan qazının Balkan ölkələrinə nəql olunması üçün İon-Adriatik qaz kəmərinin də tikintisi nəzərdə tutulub. Bu, TAP-ın davamı olacaq, Albaniyadan keçərək Azərbaycan qazını Xorvatiya, Monteneqro, Bosniya və Herseqovinaya çatdıracaq. Kəmərin tikintisinin 2025-ci ildə başa çatacağı gözlənilir.

Azərbaycan qazının ixrac perspektivlərindən danışarkən bir məsələni də xatırlatmaq yerinə düşər ki, bu il aprelin 25-də Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu" imzalanıb. Anlaşma memorandumu Azərbaycandan Avropaya əlavə qazın tədarükü üçün bu 4 ötürücü sistem operatoru ilə SOCAR arasında əməkdaşlığın istiqamətlərini müəyyən edir. Əlavə qaz tədarükü "Həmrəylik halqası" adlandırılan Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistemləri vasitəsilə həyata keçiriləcək. Azərbaycanın Albaniyada maliyyələşdirdiyi qazlaşdırma layihəsi tamamlandıqdan sonra bu ölkə də bizdən mavi yanacaq alacaq.

Prezidentimizin bu günlərdə Serbiyada dediyi kimi: "Gələcək planlarımız, təbii ki, qaz təchizatının coğrafiyasını daha da genişləndirməkdir və gələcəkdə Avropa məkanında yeni yaradılacaq interkonnektorlar vasitəsilə yeni ölkələrin bazarlarına çıxmaqdır".

*Flora SADIQLI, "Azərbaycan"*

# Gürcüstan Parlamentinin sədri Azərbaycana rəsmi səfərə gəlib



Gürcüstan Parlamentinin sədri Şalva Papuaşvili dekabrın 10-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Hava Limanında ali qonağı Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, Milli Məclisin Gürcüstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Arzu Nağıyev, hər iki ölkənin səfirləri Faiq Quliyev, Zurab Pataradze və digər rəsmi şəxslər qarşılayıblar.

*"Azərbaycan"*

# COP-29 2024-cü ildə Azərbaycanda keçiriləcək



BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP-29 gələn il Azərbaycanda keçiriləcək.

AZƏRTAC-ın Dubaya ezam olunmuş xüsusi müxbiri xəbər verir ki, bununla bağlı qərar COP-28-in dekabrın 11-də keçirilən plenar iclasında verilib.

Tədbirdə çıxış edən Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev COP-28-in yüksək səviyyədə təşkilinə görə Konvensiya Katibliyinə və Birləşmiş Ərəb Əmirliklərinə təşəkkürünü bildirib. Nazir qeyd edib: "Qarşılaşdığımız problemlər kollektiv fəaliyyət, razılaşdırılmış ümumi məqsəd və istəklərə sədaqət tələb edir. Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə birgə səylərin əhəmiyyətini anlayır. Azərbaycan Prezidenti İlham Əliyevin nümayiş etdirdiyi güclü siyasi iradə və Şərqi Avropa Qrupunun üzvü olan dövlətlərin Azərbaycanın COP-29-a evsahibliyi etmək üçün ölkəmizin namizədliyini dəstəkləməsi bugünkü uğurumuzda həlledici rol oynayıb".

Azərbaycanı COP-29-un ev sahibi ölkəsi kimi dəstəkləmək qərarına görə Şərqi Avropa Qrupu dövlətlərinə dərin minnətdarlığını ifadə edən M.Babayev zəngin mədəni irsi və dinamik enerjisi ilə ölkəmizin dünya ictimaiyyətinin dövrümüzün aktual problemlərinin həlli istiqamətində bir araya gəlməsi üçün mühüm mərhələ olacağını qeyd edib.

"Biz iqlim dəyişikliyinə qarşı əlaqələndirilmiş cavab tədbirlərinin vacibliyini dərk edir, birgə təşəbbüslər vasitəsilə təsirimizi gücləndirməyi və davamlı gələcəyə doğru irəliləyişi sürətləndirməyi hədəfləyirik", - deyən nazir COP-28-in bütün iştirakçılarına və təşkilatçılara bir daha təşəkkür edib.

Sonra son illər Azərbaycanın mədəniyyətini, tarixini, təbiətini və qazandığı uğurları əks etdirən videoçarx nümayiş olundu.

Daha sonra COP-28-in prezidenti, Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir COP-un növbəti konfransının Azərbaycanda keçiriləcəyini elan etdi.

Qeyd edək ki, COP-a evsahibliyi bir qayda olaraq BMT-nin beş regional qrupu arasında rotasiya edir. Hər regional qrup üzvlərindən bu konfransı təşkil edəcək bir ölkəni irəli sürmək üçün konsensusla qərar qəbul etməlidir.

2024-cü il COP-29-a evsahibliyi etmək növbəsi Şərqi Avropa regional qrupuna düşmüşdü. Sözügedən qrupa daxil olan ölkəmiz konfransın Azərbaycanda keçirilməsi ilə bağlı namizədliyini irəli sürmüşdü. Azərbaycanla yanaşı, Ermənistan və Bolqarıstan da namizədliklərini vermişdilər. Dekabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan baş nazirinin Aparatı arasında aparılmış birbaşa danışıqların nəticəsi olaraq verilmiş birgə bəyanatda Ermənistan Azərbaycanın xeyrinə öz namizədliyini geri çəkib. Bundan sonra Bolqarıstan da öz namizədliyini geri götürüb.

Beləliklə, dekabrın 9-da Şərqi Avropa regional qrupu Azərbaycanı 2024-cü ildə COP-a evsahibliyi edəcək ölkə kimi müəyyənləşdirib.

Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP-29-a 2024-cü ildə evsahibliyi etməsi Prezident İlham Əliyevin növbəti təntənəli qələbəsidir. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Eyni zamanda son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavabdır.

Qeyd edək ki, Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarının 40 faiz azaldılmasından ibarətdir.

Azərbaycan Respublikasının Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "Yaşıl enerji" zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəflərin Konfransı - COP Konvensiyasının ali qərar qəbul edən orqanıdır. Katibliyi Bonnda yerləşir. Hər il dünyanın hər yerindən hökumət nümayəndələri COP-da toplaşaraq iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində birgə səylər göstərmək üçün çağırışlar edir. COP-un ilk toplantısı 1995-ci ildə Berlin şəhərində keçirilib.

# Brüsseldə Azərbaycan-Aİ əməkdaşlığının müxtəlif aspektləri müzakirə edilib

Avropa İttifaqının (Aİ) Şərq Tərəfdaşlığı Xarici İşlər Nazirləri Şurasının İclasında iştirak etmək məqsədilə Brüssel şəhərində işgüzar səfərdə olan Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov dekabrın 11-də Avropa İttifaqı Şurası Prezidentinin xarici siyasət üzrə baş müşaviri Simon Mordue ilə görüşüb.



XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Azərbaycan-Aİ əməkdaşlığının müxtəlif aspektləri, enerji təhlükəsizliyi, kommunikasiyalar və nəqliyyat sahəsində Aİ ilə əldə olunmuş razılıqlar üzrə əməkdaşlığın perspektivləri, habelə Azərbaycan-Ermənistan normallaşma prosesi və cari regional vəziyyət müzakirə edilib.

Aİ və Azərbaycan arasında ötən il imzalanmış enerji sahəsində strateji tərəfdaşlığa dair anlaşma memorandumuna uyğun olaraq Azərbaycanın Avropaya enerji ixracını artırdığı və Aİ üzv ölkələrinin enerji təhlükəsizliyində önəmli rol oynadığı vurğulanıb.

Ceyhun Bayramov, cari ilin sentyabr ayında bölgədə aparılan antiterror tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinin ərazilərimizdə mövcudluğuna son qoyulmasından sonra sülh prosesində real irəliləyişlər əldə edilməsi üçün geniş potensialın mövcud olduğunu diqqətə çatdırıb. Bu xüsusda, nazir son dövrlər Azərbaycan və Ermənistan arasında sülh və sabitliyin, eləcə də, etimadın qurulmasına xidmət edən addımlar barədə qarşı tərəfə məlumat verib.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan genişmiqyaslı bərpa və yenidənqurma fəaliyyəti barədə məlumat verən nazir Ceyhun Bayramov, mina təhlükəsinin bu fəaliyyətə, eləcə də, vətəndaşlarımızın təhlükəsizliyinə təhdid yaratmaqda davam etdiyini vurğulayıb. 2020-ci ilin noyabr ayından bəri 340 vətəndaşımızın mina partlayışının qurbanına çevrildiyi qeyd olunub. Simon Mordue Aİ-nin vacib strateji tərəfdaşı olaraq Azərbaycan ilə enerji, nəqliyyat və bir sıra digər sahələrdə əməkdaşlığı dərinləşdirməkdə maraqlı olduğunu vurğulayıb və Aİ-nin regionda davamlı sülhün bərqərar olması üçün Ermənistan-Azərbaycan normallaşma prosesini bundan sonra da dəstəkləməyə davam edəcəyini bildirib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Bildirilib ki, qarşılıqlı əməkdaşlığı, həmçinin Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılmasını müzakirə ediblər.

# Azərbaycan ilə Slovakiya arasında əlaqələrin hazırkı səviyyəsindən məmnunluq ifadə edilib

Dekabrın 11-də xarici işlər naziri Ceyhun Bayramov Şərq Tərəfdaşlığı ölkələrinin xarici işlər nazirlərinin görüşündə iştirak məqsədilə Belçika Krallığına işgüzar səfəri çərçivəsində Slovakiya Respublikasının xarici işlər və Avropa məsələləri üzrə naziri Yuray Blanar ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı nazir Ceyhun Bayramov Slovakiya nazirinə yeni təyinatla əlaqədar öz təbriklərini çatdırıb və fəaliyyətində uğurlar arzulayıb.

Diplomatik münasibətlərin 30 illiyini qeyd etdiyimiz Azərbaycan ilə Slovakiya arasında dostluq və əməkdaşlıq ruhunda inkişaf edən əlaqələrin hazırkı səviyyəsindən məmnunluq ifadə edilib. İki ölkə arasında diplomatik təmsilçilik ilə özünü büruzə verən mövcud siyasi dialoq, qarşılıqlı səfərlər və təmasların münasibətlərimizin inkişafına mühüm töhfə verdiyi bildirilib.

Azərbaycan və Slovakiya arasında iqtisadiyyat-ticarət, enerji təhlükəsizliyi, mədəniyyət, turizm, təhsil, nəqliyyat və digər sahələr üzrə əməkdaşlıq gündəliyində duran məsələlər, o cümlədən regional və beynəlxalq təhlükəsizlik elementləri müzakirə olunub.

Slovakiya şirkətlərinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında birgə investisiya, bərpa və quruculuq layihələrində iştirak niyyəti yüksək qiymətləndirilib. İşğaldan azad edilmiş ərazilərin mina və partlayıcı maddələrlə kütləvi şəkildə çirklənməsinin bərpa və yenidənqurma işləri, habelə məcburi köçkünlərin öz evlərinə təhlükəsiz qayıtmasının təminatı üçün əsas maneə olduğu diqqətə çatdırılaraq, mina problemi ilə mübarizədə Azərbaycan-Slovakiya əməkdaşlığı məmnunluqla qeyd olunub.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, habelə Ermənistan ilə normallaşma və sülh gündəliyinin irəlilədilməsi istiqamətində Azərbaycanın göstərdiyi səylər barədə qarşı tərəfə ətraflı məlumat verilib.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Ceyhun Bayramov ukraynalı həmkarı ilə görüşüb

Dekabrın 11-də xarici işlər naziri Ceyhun Bayramov Brüsseldə keçirilən Avropa İttifaqı Şərq Tərəfdaşlığı ölkələri xarici işlər nazirlərinin görüşü çərçivəsində Ukrayna xarici işlər naziri Dmitro Kuleba ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər iki ölkə arasında mövcud olan dost və tərəfdaşlıq münasibətlərinin əhəmiyyətini vurğulayıblar.

Tərəflər Azərbaycan ilə Ukrayna arasında müxtəlif sahələrdə, o cümlədən nəqliyyat, enerji və humanitar sahələrdə əməkdaşlıq perspektivləri üzrə fikir mübadiləsi aparıblar. Çoxtərəfli platformalarda əməkdaşlığın davam etdirilməsi, o cümlədən GUAM çərçivəsində bir sıra istiqamətlər üzrə fəaliyyət qeyd olunub.



Görüş zamanı nazir Ceyhun Bayramov qarşı tərəfə regionda baş verən son hadisələr və Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesi barədə məlumat verib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

## Muxtar BABAYEV: "COP-29-un Azərbaycanda keçirilməsi çox məsuliyyətli və çox maraqlı bir proses olacaq"

"COP-28-in gündəliyinə böyük maraq var idi. Buna görə də ölkəmizin üzərinə çox böyük məsuliyyət düşür. Belə böyük tədbirin keçirilməsi çox məsuliyyətli və çox maraqlı bir proses olacaq".

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Dubayda keçirilən COP-28 çərçivəsində jurnalistlərə açıqlamasında bildirib.

COP-29 çərçivəsində bütün dünyada gedən proseslərə, o cümlədən iqlim, həm digər "yaşıl ideya"lar, "yaşıl proqram"la bağlı məsələlərə Azərbaycan platformasında baxılacağını qeyd edən nazir COP-29-a hazırlıq işlərinin artıq başladığını vurğulayaraq deyib: "Prezidentin tapşırığı ilə biz ilin əvvəlində komandanı yaratdıq. Burada müxtəlif təşkilatların üzvləri işləyir. O komanda ciddi bir proqram hazırlayıb". O qeyd edib ki, Azərbaycan çox mürəkkəb və rəqabətli bir prosesdə uğur qazana bilib.

M.Babayev əlavə edib ki, COP-29 gələn ilin noyabr ayında keçiriləcək.

# Azərbaycan və Oman XİN-ləri arasında siyasi məsləhətləşmələrin 5-ci raundu keçirilib

Xarici işlər nazirinin müavini Yalçın Rəfiyev Azərbaycan Respublikası və Oman Sultanlığı Xarici İşlər Nazirlikləri arasında siyasi məsləhətləşmələrin 5-ci raundunda iştirak etmək məqsədilə dekabrın 10-da Oman Sultanlığında səfərdə olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, siyasi məsləhətləşmələrdə Oman Sultanlığının nümayəndə heyətinə xarici işlər nazirinin siyasi məsələlər üzrə müavini şeyx Xəlifə bin Əli Əl-Harisi rəhbərlik edib.

Məsləhətləşmələr zamanı siyasi, iqtisadi-ticarət, enerji, humanitar, parlamentlərarası əlaqələr sahələrində ikitərəfli əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri, beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

Tərəflər Azərbaycan ilə Oman arasında qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulayıb, ticarət dövriyyəsinin həcminin artırılmasına dair fikir mübadiləsi aparıb və parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini bildiriblər.

Görüş zamanı Azərbaycanla Oman arasında əməkdaşlığın müxtəlif aspektlərini əhatə edən və həllini gözləyən məsələlərlə bağlı işlərin sürətləndirilməsi istiqamətində fəaliyyətin davam etdirilməsi, iki dost ölkə arasında müqavilə-hüquq bazasının genişləndirilməsi barədə razılıq əldə olunub.

Tərəflər iqtisadi sahədə əməkdaşlığın inkişafı üçün geniş potensialın olduğunu vurğulayıblar.

Oman xarici işlər nazirinin müavini ölkəsinin Körfəz Əməkdaşlıq Şurası çərçivəsində də Azərbaycanla faydalı əməkdaşlıq edəcəyinə inamını ifadə edib.

Görüşdə Azərbaycan ilə Oman arasında beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin bundan sonra da davam etdirilməsi razılaşdırılıb.

Azərbaycan xarici işlər nazirinin müavini omanlı həmkarını Cənubi Qafqaz regionunda postmünaqişə dövründə gedən proseslər, o cümlədən Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesinin gedişatı barədə məlumatlandırıb.

Y.Rəfiyev Azərbaycanın qlobal xarakterli mötəbər tədbirləri yüksək səviyyədə təşkil etmək bacarığını dəfələrlə göstərdiyini və ölkəmizdə yaxın gələcəkdə keçiriləcək qlobal əhəmiyyətli beynəlxalq tədbirlərdə Oman tərəfinin də yüksək səviyyədə iştirak edəcəyinə əminliyini ifadə edib.

Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra beynəlxalq və regional məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 443 **QƏRAR** Bakı şəhəri, 8 dekabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 sentyabr tarixli 213 nömrəli Qərarı ilə təsdiq edilmiş "Çağırışçıların və hərbi vəzifəlilərin hərbi qeydiyyatının aparılması Qaydası"nda dəyişiklik edilməsi haqqında

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 13 iyun tarixli 914-VIQD nömrəli Qanununun tətbiqi və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 iyul tarixli 2257 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 sentyabr tarixli 213 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 939; 2015, № 5, maddə 655; 2016, № 9, maddə 1585; 2017, № 4, maddə 620; 2018, № 1, maddə 138; 2019, № 3, maddə 514; 2020, № 11, maddə 1402; 2022, № 7, maddə 819, № 8, maddələr 974, 1025) ilə təsdiq edilmiş "Çağırışçıların və hərbi vəzifəlilərin hərbi qeydiyyatının aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.2-ci bənddən "yaşayış yeri və ya olduğu yer üzrə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (bundan sonra - SHXÇDX) yerli baş idarə, idarə, şöbə və bölmələrində" sözləri çıxarılsın.

2. 1.4-cü bənddə "SHXÇDX-nin" sözləri "yaşayış yeri və ya olduğu yer üzrə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (bundan sonra - SHXÇDX)" sözləri ilə əvəz edilsin.

3. 1.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.7. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və ya Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin ehtiyatına keçirilmiş hərbi vəzifəlilərin hərbi qeydiyyatı həmin orqanlar tərəfindən mərkəzləşdirilmiş qaydada aparılır.".

4. Aşağıdakı məzmunda 1.8-ci və 1.9-cu bəndlər əlavə edilsin:

"1.8. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətində müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxılmış, həmçinin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətində və ya Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətində həqiqi hərbi xidmətdən buraxılıb həmin orqanın ehtiyatına keçirilməmiş və ya hərbi qeydiyyatından çıxarılmış hərbi vəzifəlilər yaşayış yeri və ya olduğu yer üzrə SHXÇDX-nin yerli baş idarə, idarə, şöbə və bölmələrində hərbi qeydiyyata alınırlar.

1.9. Bu Qaydanın 1.8-ci bəndində nəzərdə tutulmuş hərbi vəzifəlilərin hərbi qeydiyyata alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və ya Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti tərəfindən 3 gün müddətində onların yaşayış yeri və ya olduğu yer üzrə SHXÇDX-nin yerli baş idarə, idarə, şöbə və bölmələrinə göndərilir və bu barədə həmin hərbi vəzifəlilərə məlumat verilir.".

5. 2.1-ci bəndə "Vətəndaşlar" sözündən sonra "(bu Qaydanın 1.7-ci bəndində nəzərdə tutulmuş hərbi vəzifəlilər istisna olmaqla)" sözləri əlavə edilsin.

6. 2.2-ci bəndə "vəzifəlilər" sözündən sonra "(bu Qaydanın 1.7-ci bəndində nəzərdə tutulmuş hərbi vəzifəlilər istisna olmaqla)" sözləri əlavə edilsin.

7. 2.3-cü bəndə "bölmələrinə" sözündən sonra ", bu Qaydanın 1.7-ci bəndində nəzərdə tutulmuş hərbi vəzifəlilər isə hərbi qeydiyyatda olduqları Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə və ya Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinə" sözləri əlavə edilsin.

8. 2.4-cü bəndə "vəzifəlilər" sözündən sonra "(bu Qaydanın 1.7-ci bəndində nəzərdə tutulmuş hərbi vəzifəlilər istisna olmaqla)" sözləri əlavə edilsin.

9. 3.1-ci bəndə "qeydləri" sözündən sonra ", bu Qaydanın 1.7-ci bəndində nəzərdə tutulmuş hərbi vəzifəliləri isə onların hərbi qeydiyyat sənədlərində hərbi qeydiyyatda olmaları barədə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və ya Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin qeydi" sözləri əlavə edilsin.

10. 4.1-ci bəndə "bölmələrinə" sözündən sonra ", bu Qaydanın 1.7-ci bəndində nəzərdə tutulmuş hərbi vəzifəlilər isə hərbi qeydiyyatda olduqları Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə və ya Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinə" sözləri əlavə edilsin.

11. 4.2-ci bəndə "bölmələrinə" sözündən sonra ", bu Qaydanın 1.7-ci bəndində nəzərdə tutulmuş hərbi vəzifəlilər isə hərbi qeydiyyatda olduqları Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə və ya Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinə" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 444 **QƏRAR** Bakı şəhəri, 8 dekabr 2023-cü il

## "Azərbaycan İlahiyyat İnstitutu" publik hüquqi şəxsin yanında "Bakı İlahiyyat Kolleci" publik hüquqi şəxsin yaradılması haqqında

"Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanının 2.5.2-ci yarımbəndinə uyğun olaraq, dini fəaliyyətin təşkili sahəsində ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən "Azərbaycan İlahiyyat İnstitutu" publik hüquqi şəxsin yanında "Bakı İlahiyyat Kolleci" (bundan sonra - Kollec) publik hüquqi şəxs yaradılsın.

2. Bu Qərarın 1-ci hissəsi ilə yaradılan publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə publik hüquqi şəxsin yenidən təşkili və ləğv edilməsi;

2.2. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə bu Qərarın 2.1-ci bəndində qeyd edilənlər istisna olunmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsi ilə publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

3. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi:

3.1. Kollecin dövlət qeydiyyatına alınması üçün "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

3.2. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

4. Kollecin fəaliyyətinin təmin edilməsi üçün tələb olunan xərclərin maliyyələşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi zəruri tədbirlər görsün.

5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi dövlət qeydiyyatına alındığı gündən Kollecin inzibati bina ilə təmin edilməsi məsələsinin həlli barədə təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 446 **QƏRAR** Bakı şəhəri, 8 dekabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 65 nömrəli Qərarı ilə təsdiq edilmiş "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Nizamnamə"də və 2019-cu il 26 aprel tarixli 189 nömrəli Qərarı ilə təsdiq edilmiş "Xüsusi peşə təhsili müəssisələrinin Nümunəvi Nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 900-VIKQD nömrəli Konstitusiya Qanunun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il

13 may tarixli 65 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 5, maddə 250; 2005, № 10, maddə 988; 2006, № 3, maddə 307; 2007, № 2, maddə 185; 2009, № 10, maddə 857; 2010, № 3, maddə 264; 2011, № 11, maddə 1067; 2012, № 7, maddə 774; 2020, № 2, maddə 210; 2021, № 9, maddə 1073; 2022, № 12, maddə 1552) ilə təsdiq edilmiş "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Nizamnamə"nin 6.5-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

1.1. ", onların" sözü ", saxlanılan və ya əvvəllər saxlanılmış şəxslərin" sözləri ilə əvəz edilsin;

1.2. "protokollaşdırmaq," sözündən sonra "texniki vasitələrdən istifadə etməklə foto, audio və video qeydiyyatını aparmaq," sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 26 aprel tarixli 189 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 780; 2020, № 2, maddə 209, № 8, maddə 1099; 2022, № 12, maddə 1552) ilə təsdiq edilmiş "Xüsusi peşə təhsili müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 6.7-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

2.1. ", onların" sözü ", saxlanılan və ya əvvəllər saxlanılmış şəxslərin" sözləri ilə əvəz edilsin;

2.2. "protokollaşdırmaq," sözündən sonra "texniki vasitələrdən istifadə etməklə foto, audio və video qeydiyyatını aparmaq," sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 442 **QƏRAR** Bakı şəhəri, 7 dekabr 2023-cü il

## "Azərbaycan Respublikasının gömrük ərazisinə qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların idxalı qaydası, həmin məhsul, material və məmulatlar gömrük ərazisinə gətirilməzdən əvvəl göndərilən elektron bildirişin forması və təqdim edilmə müddətləri, qida və yem məhsullarının tranzit daşıması Qaydası"nın, "Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunması üçün təhlükəsizliyini təsdiq edən müvafiq sənədlə müşayiət edilməli olan qida və yem məhsullarının Siyahısı"nın təsdiq edilməsi və "Yeyinti məhsullarına verilən qida təhlükəsizliyi sertifikatının forması və verilmə Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 16 iyul tarixli 302 nömrəli Qərarının ləğv edilməsi barədə

"Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.1.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının gömrük ərazisinə qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların idxalı qaydası, həmin məhsul, material və məmulatlar gömrük ərazisinə gətirilməzdən əvvəl göndərilən elektron bildirişin forması və təqdim edilmə müddətləri, qida və yem məhsullarının tranzit daşıması Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunması üçün təhlükəsizliyini təsdiq edən müvafiq sənədlə müşayiət edilməli olan qida və yem məhsullarının Siyahısı" təsdiq edilsin (əlavə olunur).

3. "Yeyinti məhsullarına verilən qida təhlükəsizliyi sertifikatının forması və verilmə Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 16 iyul tarixli 302 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7, maddə 1636; 2019, № 12, maddə 1201) ləğv edilsin.

4. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Qərarın əlavəsi ilə nk.gov.az və www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 445 **QƏRAR** Bakı şəhəri, 8 dekabr 2023-cü il

## "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində fəaliyyət göstərən sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması şərtləri, subsidiyaların ödənilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

"Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 680-VIQD nömrəli Qanununun tətbiqi və "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 7 aprel tarixli 568 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 dekabr tarixli 1941 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində fəaliyyət göstərən sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması şərtləri, subsidiyaların ödənilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

3. Bu Qərar 2023-cü il yanvarın 1-dən 2033-cü il yanvarın 1-dək qüvvədədir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində fəaliyyət göstərən sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması şərtləri, subsidiyaların ödənilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi Qaydası"na***
**1 nömrəli əlavə**

### İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığortaedənlər tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması ilə bağlı
### ELEKTRON ƏRİZƏ

**1. Sığortaedən barədə məlumatlar**

1.1. Uçotda olduğu vergi orqanının adı ____________
1.2. Sığortaedənin tam adı ____________
1.3. VÖEN ____________
1.4. Fəaliyyət növlərinin adı və kodu ____________
1.5. Subsidiyanın verilməsinin aid olduğu dövr ________ (rüb) ________ (il)
1.6. Vəsaitin köçürülməsi nəzərdə tutulan aktiv bank hesabı ____________

**2. Ödənilmiş məcburi dövlət sosial sığorta (MDSS) haqlarının subsidiyalaşdırılmasının həyata keçirilməsi barədə məlumatlar**

2.1. İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığortaolunanların cəmi sayı [ ]

2.2. İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığortaolunanlar barədə məlumat

| Sıra №-si | Soyadı, adı, atasının adı | FİN kodu | Hesablanmış MDSS haqqının məbləği (sığortaedənin vəsaiti üzrə hesablanmış) | MDSS haqqı üzrə ödənilməli subsidiya məbləği |
|---|---|---|---|---|
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |
| 4. | | | | |
| 5. | | | | |
| Cəmi | | | | |

Ərizənin doldurulma tarixi ______ (gün) ______ (ay) ________ (il)

***"_____" _________ 20____ il tarixli "______" nömrəli Rəyə əlavə***

### İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığortaedən üzrə sığortaolunanların
### SİYAHISI

| Subsidiya məbləğinin aid olduğu dövr | Sığortaedən haqqında məlumat | | | Benifisiar (alan) bankın | | | | | Sığortaolunanlar barədə məlumat | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | adı | VÖEN-i | bank hesabının nömrəsi | adı | kodu | VÖEN-i | müxbir hesabı | SWIFT BIK | soyadı, adı və atasının adı | FİN kodu | məcburi dövlət sosial sığorta haqqı üzrə ödənilməli subsidiyanın məbləği |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 8 dekabr tarixli 445 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

# Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində fəaliyyət göstərən sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması şərtləri, subsidiyaların ödənilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi QAYDASI

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 14-1.2-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması şərtləri, subsidiyaların ödənilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi qaydasını tənzimləyir.

1.2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (bundan sonra - Dövlət Vergi Xidməti) işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən və həmin ərazilərdə vergi uçotuna alınan hüquqi və fiziki şəxslər barədə hər rüb üzrə məlumatları Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyinə (bundan sonra - Agentlik) rüb başa çatdıqdan sonra növbəti ayın 5-dək təqdim edir.

1.3. Agentlik hər ilin dövlət büdcəsində işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitin bölgüsü üzrə layihələrin maliyyələşdirilməsinə dair aylıq məlumatları növbəti ayın 5-dək Dövlət Vergi Xidmətinə təqdim edir.

1.4. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyində (bundan sonra - Daxili İşlər Nazirliyi) işğaldan azad edilmiş ərazilərə buraxılış qeydiyyatına dair sığortaedənlər və sığortaolunanlar barədə məlumatlar həmin Nazirlik tərəfindən Dövlət Vergi Xidmətinə hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 5-dək təqdim edilir.

1.5. Bu Qaydanın məqsədləri üçün sığortaedənlər (sığorta-olunanlar) (bundan sonra - sığortaedənlər) dedikdə, qeyri-dövlət (maliyyə və avtonəqliyyat vasitələri ilə yükdaşıma sahələrində fəaliyyət göstərən, eləcə də dövlət büdcəsinin vəsaiti hesabına malları (işləri və xidmətləri) təqdim edən podratçılar (işğaldan azad edilmiş ərazi daxilində istehsal fəaliyyətini həyata keçirən rezident podratçılar istisna olmaqla) istisna olmaqla) sektoru üzrə neft-qaz sahələrində fəaliyyəti olmayan, bilavasitə həmin ərazilərdə fəaliyyətini həyata keçirən və işğaldan azad edilmiş ərazilərdə vergi uçotuna alınan hüquqi şəxslər və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslər nəzərdə tutulur.

1.6. Bu Qaydada istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə müəyyən olunmuş mənaları ifadə edir.

## 2. Subsidiyalaşdırma şərtləri

2.1. Qanunun 14-1.1-ci maddəsinə uyğun olaraq, sığortaedənlər tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarına görə dövlət büdcəsinin vəsaiti hesabına subsidiya verilir.

2.2. Aşağıdakı hallarda sığortaedənlər tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqları dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılmır:

2.2.1. sığortaedənin məcburi dövlət sosial sığorta haqları üzrə borcu olduqda və (və ya) sığortaedən Qanunun 10-cu maddəsinin ikinci hissəsinin üçüncü abzasında nəzərdə tutulan hesabatı təqdim etmədikdə və ya hesabat dövründə fəaliyyət göstərmədiyi halda həmin hesabat əvəzinə fəaliyyətin olmaması barədə arayış təqdim etdikdə;

2.2.2. sığortaedənin müraciətinin aid edildiyi dövr üzrə sığortaolunanla bağlanılmış əmək müqaviləsində (kontraktında) sığortaolunanın işğaldan azad edilmiş ərazilərdə işə cəlb olunmasına dair, həmçinin Daxili İşlər Nazirliyində işğaldan azad edilmiş ərazilərə buraxılış qeydiyyatına dair məlumatları olmayan şəxslərin xeyrinə məcburi dövlət sosial sığorta haqları ödənildikdə;

2.2.3. sığortaedən subsidiyanın ödənilməli olduğu vaxtda Azərbaycan Respublikası Vergi Məcəlləsinin 13.2.82-ci maddəsinə uyğun olaraq riskli vergi ödəyicisi hesab edildikdə;

2.2.4. sığortaedənin müraciətinin aid edildiyi dövr üzrə Qanunun 10-cu maddəsinin ikinci hissəsinin üçüncü abzasına əsasən təqdim etdiyi hesabatda vergi orqanı tərəfindən kameral vergi yoxlaması nəticəsində uyğunsuzluq aşkar edildikdə.

## 3. Subsidiyanın ödənilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi

3.1. Ödəniləcək subsidiyanın məbləği Qanunun 14-1.1-ci maddəsinə uyğun olaraq müəyyən edilir.

3.2. Ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının subsidiyalaşdırılması Qanunun 14-1.3-cü maddəsi ilə müəyyən edilmiş müddətdə və bu Qaydanın 3.3 - 3.10-cu bəndlərinə uyğun həyata keçirilir.

3.3. Subsidiyanın alınması üçün sığortaedən tərəfindən Qanunun 10-cu maddəsinin ikinci hissəsinin üçüncü abzasında nəzərdə tutulan hesabatın təqdim edilmə dövrü bitdiyi tarixdən sonra, habelə "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz" və "Fərqlənmə nişanı" alaraq məcburi dövlət sosial sığorta haqlarını ödəyən sığortaedən tərəfindən rüb başa çatdıqdan sonra 5 (beş) gün müddətində bu Qaydanın 1 nömrəli əlavəsinə uyğun olaraq elektron ərizə Dövlət Vergi Xidmətinin rəsmi internet səhifəsində yaradılmış elektron kabinet vasitəsilə qeydiyyatda olduqları vergi orqanına təqdim olunur.

3.4. Subsidiyanın alınması üçün sığortaedənin ərizəsi daxil olduqdan 10 (on) gün müddətində vergi orqanı tərəfindən həmin ərizənin bu Qaydanın 1.5-ci bəndinin və 2-ci hissəsinin tələblərinə uyğunluğu yoxlanılır. Məlumatlar vergi orqanı tərəfindən yoxlanılarkən subsidiya almaq hüququ olmayan sığortaedənə bu Qaydanın 2 nömrəli, həmçinin uyğunsuzluq aşkar edildiyi təqdirdə bununla əlaqədar sığortaedənə bu Qaydanın 3 nömrəli əlavəsinə uyğun bildiriş həmin uyğunsuzluq aşkar edildiyi andan 5 (beş) gündən gec olmayaraq elektron kabinet vasitəsilə göndərilir. Vergi orqanı tərəfindən subsidiya almaq hüququ olan sığortaedənə subsidiyanın verilməsi ilə bağlı bu Qaydanın 4 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada üç nüsxədə rəy tərtib edilir. Rəyin iki nüsxəsi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə (bundan sonra - Nazirlik) təqdim edilir, bir nüsxəsi isə vergi orqanında qalır.

3.5. Nazirlik 10 (on) gün müddətində vergi orqanı tərəfindən bu Qaydanın 3.4-cü bəndinə uyğun olaraq göndərilmiş rəyə əlavə edilmiş "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığortadən üzrə sığortaolunanların siyahısı"nda qeyd olunmuş şəxslərin sığortaolunan kimi sığortaçıda uçotda olmasını yoxlayır və uyğunsuzluq aşkar edilmədikdə, bu Qaydanın 5 nömrəli əlavəsinə uyğun olaraq iki nüsxədə rəy tərtib edir. Rəyin bir nüsxəsi vergi orqanından daxil olmuş rəy əlavə edilməklə Agentliyə təqdim edilir, bir nüsxəsi isə Nazirlikdə qalır.

3.6. Bu Qaydanın 3.5-ci bəndinə əsasən uyğunsuzluq aşkar edildikdə isə həmin müddətdən gec olmayaraq, vergi orqanının rəyi həmin uyğunsuzluq qeyd edilməklə bu Qaydanın 6 nömrəli əlavəsinə uyğun tərtib edilmiş rəylə birlikdə vergi orqanına geri qaytarılır. Vergi orqanı tərəfindən bu barədə sığortaedənə 5 (beş) gündən gec olmayaraq, bu Qaydanın 3 nömrəli əlavəsinə uyğun elektron kabinet vasitəsilə bildiriş göndərilir.

3.7. Agentlik bu Qaydanın 3.5-ci bəndinə uyğun olaraq, Nazirlik tərəfindən göndərilmiş rəylər əsasında 5 (beş) gün müddətində subsidiya məbləğinin sığortaedənin müraciətində göstərdiyi bank hesabına köçürülməsini həyata keçirir.

3.8. Agentlik hər rüb üzrə bu Qaydanın 3.7-ci bəndindəki müddət bitdikdən sonra 10 (on) gündən gec olmayaraq, ödənilmiş məcburi dövlət sosial sığorta haqları üzrə dövlət büdcəsinin vəsaiti hesabına bank hesablarına subsidiya məbləği köçürülmüş sığortaedənlər barədə məlumatları Dövlət Vergi Xidmətinə və Nazirliyə təqdim edir. Subsidiya məbləğinin bank hesablarına köçürülməsi zamanı sığortaedənlərə dair  rekvizitlərdə olan uyğunsuzluqla bağlı bu Qaydanın 7 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada üç nüsxədə rəy tərtib edilir. Agentliyin rəyinin bir nüsxəsi vergi orqanına, bir nüsxəsi isə Nazirliyə həmin orqanların rəyləri ilə birlikdə geri qaytarılır və vergi orqanı tərəfindən rəy daxil olduğu tarixdən etibarən 5 (beş) gündən gec olmayaraq, bu barədə sığortaedənə bu Qaydanın 3 nömrəli əlavəsinə uyğun elektron kabinet vasitəsilə bildiriş göndərilir. Rəyin bir nüsxəsi isə Agentlikdə qalır.

3.9. Ərizəçinin vergi orqanı tərəfindən göndərilən bu Qaydanın 3 nömrəli əlavəsinə uyğun bildirişi aldığı vaxtdan subsidiyanın verilməsi ilə bağlı müddətin axımı dayandırılır və dayandırılmış müddət subsidiyanın verilməsi müddətinə daxil edilmir. Ərizəçi aşkar olunmuş uyğunsuzluğu aradan qaldırdıqdan sonra subsidiyanın verilməsi üçün yenidən ərizə ilə vergi orqanına müraciət edə bilər və ərizəçinin müraciətindən sonra müddətin axımı bərpa olunur.

3.10. Sığortaedən tərəfindən Qanunun 10-cu maddəsinin ikinci hissəsinin üçüncü abzasında nəzərdə tutulan hesabatın təqdim edilmə dövrü bitdiyi tarixdən sonra, habelə "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz" və "Fərqlənmə nişanı" alaraq məcburi dövlət sosial sığorta haqlarını ödəyən sığortaedən tərəfindən rüb başa çatdıqdan sonra 5 (beş) gün müddətində elektron ərizə ilə müraciət edilmədikdə, növbəti rüblərdə bu Qaydanın 3.3-cü bəndində qeyd edilmiş müddətdə müraciət edilə bilər.

3.11. Subsidiyanın verilməsindən imtina barədə vergi orqanının qərarı bu Qaydada nəzərdə tutulmuş subsidiyanın verilməsi şərtlərinə istinad edilməklə əsaslandırılmalıdır. Ərizəçi subsidiyanın verilməsindən imtina barədə qərardan inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

## 4. Yekun müddəa

Sığortaedənin müraciətinə əsasən subsidiya verildikdən sonra həmin dövr üzrə təqdim edilmiş dəqiqləşdirilmiş hesabat məlumatlarında subsidiya verilmiş sığortaolunanlar üzrə hesablanmış məcburi dövlət sosial sığorta haqları azaldıldığı təqdirdə, vergi orqanı tərəfindən azaldılmış məcburi dövlət sosial sığorta haqlarının məbləği sığortaedənin vəsaitləri hesabına dövlət büdcəsinə bərpa edilir, artırıldığı təqdirdə isə subsidiyanın verilməsi üçün sığortaedən tərəfindən növbəti rüblərdə bu Qaydanın 3.3-cü bəndində qeyd edilmiş müddətdə təkrar müraciət edilə bilər.

---

*"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində fəaliyyət göstərən sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması şərtləri, subsidiyaların ödənilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi Qaydası"na*

**2 nömrəli əlavə**

### İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılmasından imtina barədə BİLDİRİŞ

Vergi ödəyicisinin adı__________________

VÖEN-i ______________________

"Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 14-1.2-ci maddəsinə uyğun olaraq, tərəfinizdən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması ilə bağlı sizin müraciətinizə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində fəaliyyət göstərən sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması şərtləri, subsidiyaların ödənilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi Qaydası"na uyğun olaraq baxılmışdır.

Müraciətiniz yoxlanılarkən qeyd olunan Qaydanın _________ bəndinə (və ya yarımbəndinə) əsasən sizin subsidiya almaq hüququnuzun olmadığı müəyyən edilmişdir.

__________________________________ __________ ____________________

(vergi orqanının rəhbəri və ya onu əvəz edən səlahiyyətli şəxs) (imzası) (soyadı, adı və atasının adı)

---

*"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində fəaliyyət göstərən sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması şərtləri, subsidiyaların ödənilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi Qaydası"na*

**3 nömrəli əlavə**

### İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması ilə bağlı müraciətdə müəyyən edilmiş uyğunsuzluqlar barədə BİLDİRİŞ

Vergi ödəyicisinin adı__________________

VÖEN-i ______________________

"Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 14-1.2-ci maddəsinə uyğun olaraq, tərəfinizdən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması ilə bağlı sizin müraciətinizə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində fəaliyyət göstərən sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması şərtləri, subsidiyaların ödənilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi Qaydası"na uyğun olaraq baxılmışdır.

Müraciətiniz qeyd olunan Qaydaya əsasən yoxlanılmış və uyğunsuzluqlar (əlavə olunur) müəyyən edilmişdir. Həmin uyğunsuzluqlar aradan qaldırıldıqdan sonra təkrar elektron ərizə ilə müraciət edə bilərsiniz.

Qoşma: ___ vərəq.

__________________________________ __________ ____________________

(vergi orqanının rəhbəri və ya onu əvəz edən səlahiyyətli şəxs) (imzası) (soyadı, adı və atasının adı)

---

*"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində fəaliyyət göstərən sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması şərtləri, subsidiyaların ödənilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi Qaydası"na*

**4 nömrəli əlavə**

### İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığortaedənlər (sığortaolunanlar) üzrə tərtib olunan siyahı əsasında ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması barədə vergi orqanı tərəfindən verilən RƏY

Bu rəyə əlavə olunmuş "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığortaedən üzrə sığortaolunanların siyahısı"na əsasən sığortaedənin (adı və VÖEN-i) ödənilmiş məcburi dövlət  sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması hüququ yaranmışdır.

__________________________________ __________ ____________________

(vergi orqanının rəhbəri və ya onu əvəz edən səlahiyyətli şəxs) (imzası) (soyadı, adı və atasının adı)

Qeyd. İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığortaedən üzrə sığortaolunanların siyahısı əlavə edilmişdir.

M.Y.

"_____" _________ 20____ il

№______

---

*"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində fəaliyyət göstərən sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması şərtləri, subsidiyaların ödənilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi Qaydası"na*

**6 nömrəli əlavə**

### İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığortaedən üzrə sığortaolunanların sığortaçıda sığortaolunan kimi uçotda olması ilə bağlı aşkar edilmiş uyğunsuzluq barədə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilən RƏY

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin "_____" _________ 20 ____ il tarixli _______ nömrəli rəyinə əsasən təqdim edilmiş sığortaedən (adı və VÖEN-i) üzrə "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığortaedən üzrə sığortaolunanların siyahısı"nda qeyd olunan sığortaolunanların sığortaçıda uçotda olmasına baxılmışdır.

Aşağıdakı uyğunsuzluqlar aşkar edilmişdir:

1.
2.
3.

______________________ __________ ____________________

(səlahiyyətli şəxsin vəzifəsi) (imzası) (soyadı, adı və atasının adı)

M.Y.

"_____" _________ 20____ il

№_____

---

*"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində fəaliyyət göstərən sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması şərtləri, subsidiyaların ödənilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi Qaydası"na*

**5 nömrəli əlavə**

### İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığortaedən üzrə sığortaolunanların sığortaçıda sığortaolunan kimi uçotda olması barədə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi  Nazirliyi tərəfindən verilən RƏY

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin "_____" __________ 20____ il tarixli __________ nömrəli rəyinə əsasən təqdim edilmiş sığortaedən (adı və VÖEN-i) üzrə "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığortaedən üzrə sığortaolunanların siyahısı"nda qeyd olunan sığortaolunanların sığortaçıda sığortaolunan kimi uçotda olmasına baxılmışdır.

Sığortaolunanların sığortaçıda uçotu üzrə uyğunsuzluq aşkar edilməmişdir.

______________________ __________ ____________________

(səlahiyyətli şəxsin vəzifəsi) (imzası) (soyadı, adı və atasının adı)

M.Y.

"_____" _________ 20____ il

№ _____

---

*"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində fəaliyyət göstərən sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması şərtləri, subsidiyaların ödənilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi Qaydası"na*

**7 nömrəli əlavə**

### İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığortaedənlərin rekvizitlərində olan uyğunsuzluğa görə ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılmaması barədə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi tərəfindən verilən RƏY

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin "_____" _________ 20____ il tarixli _______ nömrəli rəyində və həmin rəylə təqdim edilmiş sığortaedən (adı və VÖEN-i) üzrə "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığortaedən üzrə sığortaolunanların siyahısı"nda qeyd olunan rekvizitlərdə aşağıdakı uyğunsuzluq aşkar edilmişdir:

1.
2.
3.

______________________ __________ ____________________

(səlahiyyətli şəxsin vəzifəsi) (imzası) (soyadı, adı və atasının adı)

M.Y.
"_____" _________ 20____ il

№_____

# DİN problemi dərhal həll etdi

## Hərəkətə maneə aradan qaldırıldı

**Qəzetimizin 8 dekabr nömrəsində "Küçə ticarəti bizi narahat edir" sərlövhəli oxucu məktubu dərc edilmiş və küçə ticarəti ilə bağlı problemə toxunulmuşdur.**




Oxucumuz bildirirdi ki, Yasamal rayonu A.Şərifzadə küçəsində səkilər küçə alverçiləri tərəfindən zəbt olunub. İnsanların intensiv gediş-gəlişi üçün nəzərdə tutulan səkilərdə piştaxtaların düzülməsi hərəkətə maneə yaradır. Burada gigiyenik qaydalara əməl etmədən kənd təsərrüfatı və ərzaq məhsullarının satılması, eyni zamanda ərazidə antisanitar vəziyyətin yaranması da vətəndaşları ciddi narahat edir.

Oxucu məktubu qəzetimizdə dərc edilən gün Daxili İşlər Nazirliyi tərəfindən operativ tədbirlər görülüb. Nazirliyin Mətbuat Xidmətindən qəzetimizə verilən məlumata görə, sözügedən ərazidə hərəkətə maneə və antisanitar vəziyyət dərhal aradan qaldırılıb. "Paytaxtın Yasamal rayonu A.Şərifzadə küçəsində küçə ticarəsi ilə bağlı müşahidə olunan neqativ hal aradan qaldırılıb. Küçə ticarəti ilə məşğul olan şəxslər barəsində müvafiq qaydada inzibati tənbeh tədbiri tətbiq olunub. Həmin ərazi tam təmizlənmiş, antisanitar vəziyyət aradan qaldırılmışdır", - deyə məlumatda bildirilib.

Ərazidən çəkilən foto görüntülər də məlumatı bir daha təsdiqləyir.

*"Azərbaycan"*

Azercell

abunəçilərinin nəzərinə!

22.12.2023-cü il tarixindən etibarən fakturasız (SimSim) xətt sisteminə aid nömrələr üçün nəzərdə tutulan "Gözəl nömrələr" kampaniyasına və fakturalı xətt sisteminə aid nömrələr üçün nəzərdə tutulan "Sərbəst tarifli gözəl nömrələr" kampaniyasına yeni qoşulmalar dayandırılacaq. Qeyd olunan tarixədək kampaniyalara qoşulmuş abunəçilərə kampaniyalar çərçivəsində təqdim edilən paketlərdən minimum istifadə müddəti ərzində və ya qoşulma imkanı həddində kampaniyaların mövcud şərtləri və qaydaları tətbiq ediləcək.

***Qeyd:*** Abunəçilər göstərilən dəyişikliklər, xidmətdən istifadə şərtləri, sifarişi və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən **(http://www.azercell.com),** həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.

OXUCULARIN NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə*

*2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

ASCO-nun struktur idarələrinə tələb olunan məişət avadanlıqlarının təmiri xidmətlərinin (mal-material və işçilik daxil) satın alınması məqsədilə

*müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 21 dekabr 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

***Tender komissiyası***

# Kitab strateji məhsuldur

AZƏRBAYCAN KİTAB, MAARİF VƏ POLİQRAFÇILAR İCTİMAİ BİRLİYİ

Respublikamızda kitab çapının, nəşr mədəniyyətinin yüksəlməsinə, poliqrafik, məzmun baxımından oxucuların zövqünü oxşayacaq çap məhsullarının hazırlanmasına, yayımına və nəşriyyat-poliqrafiya sahəsində çalışan yaradıcı insanlara dəstək olmaq məqsədi ilə "Təhsil Nəşriyyat-Poliqrafiya", "Çinar Yayımları" nəşriyyatı və "Everest" nəşriyyatının birgə təsis etdikləri "Azərbaycan Kitab, Maarif və Poliqrafçılar" İctimai Birliyi artıq fəaliyyətə başlayır.

"Təhsil Nəşriyyat-Poliqrafiya" MMC-nin baş direktoru Tural Axundovun sədrlik etdiyi "Azərbaycan Kitab, Maarif və Poliqrafçılar" İctimai Birliyi əsası hələ 30 il əvvəl qoyulmuş vacib missiyanı davam etdirəcək.

Yüksək standartlara cavab verən, sərhədlərimizi aşıb milli mədəniyyətimizi dünyada təbliğ edən çap məhsullarının çoxalmasına xidmət göstərmək, bədii-estetik zövqün formalaşmasından başqa, mütaliəyə marağın artırılmasına yönəlmiş müxtəlif layihələr həyata keçirməklə bu sahədəki boşluğun müəyyən qədər aradan qaldırılmasına nail olmaq birliyin fəaliyyətinin prioritet istiqamətlərindəndir.

İctimai birlik, həmçinin nəşriyyat və poliqrafiya sahəsindəki çatışmazlıqları, problemləri aradan qaldırmaq üçün respublikamızda mövcud olan çoxsaylı nəşriyyatlar arasında əlaqə yaratmağı və onların fəaliyyətini koordinasiya etməyi də nəzərdə tutur.

# ALLAH RƏHMƏT ELƏSİN!

Ramil Usubov və ailəsi
**YAŞAR ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov ailəsi ilə birlikdə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevaya, Rüfət Əliyevə və Milli Məclisin Regional məsələlər üzrə iş komitəsinin sədri Siyavuş Novruzova əzizləri
**YAŞAR ƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevaya və Milli Məclisin Regional məsələlər üzrə iş komitəsinin sədri Siyavuş Novruzova əzizləri
**YAŞAR ƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Yeni Azərbaycan Partiyası Xaçmaz rayon təşkilatının sədri Məhəmməd Balaqadaşov "Bank Aktivlərinin İdarə edilməsi Agentliyi" MMC-nin icraçı direktoru Süleyman Bəkirova anası
**MÜŞKÜNAZ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitənin üzvləri Milli Məclisin sabiq sədr müavini
**YAŞAR ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayev və xidmətin kollektivi görkəmli ictimai-siyasi xadim, professor
**YAŞAR ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hünzlə başsağlığı verirlər.

---

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektorluğu və kollektivi iş yoldaşları Təranə Həsənəli qızı Vəliyevaya anası
**AYNA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İba Həsənov, Mütalib Şirinov, Vahid Alışov, Aydın və Qəşəm Məmmədovlar, Rasim, Fikrət, Rafiq və Həşim Hüseynovlar, Akif Hacıyev və Emin Mustafayev keçmiş iş yoldaşları Şamo Mustafayevə qardaşı
**NİZAMİ MUSTAFA OĞLU MUSTAFAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş idarəsinin Mütəxəssis təhlilləri şöbəsinin rəis müavini Tural Vəlibəyova atası
**MEHMAN MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva və Aparatın kollektivi iş yoldaşları Aytən Tarverdiyevaya atası
**ŞƏMSƏDDİN MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi "Bank Aktivlərinin İdarə edilməsi Agentliyi" Məhdud Məsuliyyətli Cəmiyyətinin icraçı direktoru Süleyman Bəkirova anası
**MÜŞKÜNAZ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Xalq artisti Teymur Mustafayevin ailəsi Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevaya atası
**YAŞAR ƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Əliyevlər ailəsinə əzizləri
**YAŞAR ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevaya atası
**YAŞAR ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini Çingiz Əsgərova əzizi
**ŞƏMSƏDDİN TARVERDİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi cəmiyyətin baş mühəndisi Xəyal Ağamirova atası
**ƏLİ AĞAMİROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin I Mamalıq və Ginekologiya kafedrasının əməkdaşları kafedranın assistenti Ceyran Paşayevaya qaynanası
**KƏMALƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli və universitetin kollektivi Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevaya atası
**YAŞAR ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli və universitetin kollektivi Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-tibb baş idarəsinin rəisi Rüfət Əliyevə atası
**YAŞAR ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin Tədris Stomatoloji Klinikasının rəhbərliyi və kollektivi ATU Uşaq stomatologiya kafedrasının müdiri, professor Rəna Əliyevaya həyat yoldaşı
**YAŞAR MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsinin kollektivi Uşaq stomatologiyası kafedrasının müdiri, professor Rəna Əliyevaya həyat yoldaşı
**YAŞAR ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5270
Sifariş 3267

Qiyməti 40 qəpik